**R.M.Quliyev**

# YERQURULUŞU

✵

# YERQURULUŞUNUN ELMİ ƏSASLARI

I cild

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ali təhsil müəssisələrində "AT 050000 – Yerquruluşu və torpaq kadastrı" istiqaməti üzrə bakalavr pilləsində təhsil alan tələbələr üçün dərslik kimi təsdiq edilmişdir

Bakı – "MBM" – 2007

*Elmi redaktor*: Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri,
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü,
akademik ***Q.Ş.Məmmədov***

*Rəy verənlər*: Azərbaycan MEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor
***M.P.Babayev***

AKTA-nın professoru, kənd təsərrüfatı elmləri doktoru
***A.H.Babayev***

**Quliyev R.M**. Yerquruluşu. Yerquruluşunun elmi əsasları. I cild. –Bakı, "MBM", 2007. – 224 səh. (ali təhsil müəssisələrinin tələbələri üçün dərslik və dərs vəsaitləri)

Dərslikdə torpaq haqqında müasir təlim açıqlanır, torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinin elmi - metodiki əsasları verilir, Azərbaycanda torpaq münasibətlərinin formalaşması tarixinə ekskurs edilir, bu münasibətlərin inkişaf perspektivləri müəyyənləşdirilir. Burada yerquruluşu elminin nəzəri aspektləri tədqiq olunur, müasir yerquruluşunun növü, formaları şərh edilir, Azərbaycanda yerquruluşu sistemi, onun məqsəd və vəzifələri açıqlanır, yerquruluşu sisteminin xarici modelləri öyrənilir.

Üçüncü fəsil i.e.n., dos. E.R.İbrahimovla birgə yazılmışdır.

Dərslik "AT050000-Yerquruluşu və torpaq kadastrı" istiqaməti üzrə bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

## MÜNDƏRİCAT

**GİRİŞ .......................................................................5**

**FƏSİL I. TORPAQ HAQQINDA MÜASİR TƏLİM ...................8**

1.1. Torpaq təbii varlıqdır ..........................................................8

1.2. Torpaq istehsal vasitəsidir....................................................13

1.3. Torpaq-bazar iqtisadi münasibətləri şəraitində əmtəədir .......19

**FƏSİL II. TORPAQ EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN VƏ ONLARIN MÜHAFİZƏSİNİN ELMİ–METODİKİ ƏSASLARI .............................................22**

2.1. Azərbaycanın torpaq fondunun təyinat funksiyasına görə kateqoriyalara bölgüsü və xarakteristikası .............................22

2.2. Azərbaycanın torpaq fondunun mülkiyyət formalarına görə bölgüsü və xarakteristikası.....................................................26

2.3. Azərbaycanın torpaq fondunun zonalaşdırılmasının məzmunu və mahiyyəti ..............................................................................30

2.4. Azərbaycanın torpaq ehtiyatları və bazar torpaq münasibətləri şəraitində onlardan səmərəli istifadənin elmi-metodiki əsasları ...................................................................................................46

**FƏSİL III. AZƏRBAYCANDA TORPAQ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI TARİXİ VƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI ......................................67**

3.1. Ictimai-siyasi quruluş və torpaq münasibətləri ......................67

3.2. Azərbaycanda quldarlıq və erkən feodalizm dövründə torpaq münasibətləri ..........................................................................71

3.3. VII-XII əsrlərdə Azərbaycanda torpaq münasibətləri............73

3.4. XIII-XIV əsrlərdə Azərbaycanda torpaq münasibətləri.........78

3.5. XV əsrdə Azərbaycanda torpaq münasibətləri.......................80

3.6. XVI-XVII əsrlərdə Azərbaycanda torpaq münasibətləri .......81

3.7. XVIII əsrdə Azərbaycanda torpaq münasibətləri...................85

3.8. XIX əsrdə və XX əsrin (1900-1917-ci illərdə) əvvəllərində Azərbaycanda torpaq münasibətləri.....................................89

3.9. Azərbaycan Demokratik Respublikasında (1918-1920-ci illərdə) torpaq münasibətləri ................................................96

3.10. Azərbaycanda vergi və mükəlləfiyyətlər tarixinə ekskurs.100

3.11. İslamda torpaq münasibətləri və onları tənzimləyən şəriət hökmləri ....................................................................115
3.12. Azərbaycanda sosialist torpaq münasibətləri və yeni torpaq münasibətlərinin yaranma zəruriliyini şərtləndirən amillər .121
3.13. Müasir müstəqil Azərbaycanda bazar torpaq münasibətlərinin formalaşması və inkişaf qanunauyğunluqları.......................142

**FƏSİL IV. YERQURULUŞUNUN ELMİ ƏSASLARI ..........154**
4.1. Azərbaycanda müasir yerquruluşu elminin və təhsilinin formalaşması tarixi...........................................................154
4.2. Müasir yerquruluşu elmi, onun konsepsiyası və digər elmlərlə əlaqəsi.....................................................................163
4.3. Yerquruluşu istehsalat prosesinin iştirakçıları ....................170
4.4. Yerquruluşunda dayanıqlı ekoloji landşaft quruculuğunun və planlaşdırılmasının elmi-metodiki əsasları..........................173

**FƏSİL V. AZƏRBAYCANDA YERQURULUŞU SİSTEMİ ..190**
5.1. Azərbaycanda torpaqlardan istifadəyə və onların mühafizəsinə nəzarət edən dövlət orqanları ............................................190
5.2. Daşınmaz əmlaka (torpağa) hüququn dövlət qeydiyyatı......205
5.3. Xarici ölkələrdə yerquruluşu sistemi .................................216

*Dərslik akademik Məmmədtağı İbrahim oğlu Cəfərovun əziz xatirəsinə ithaf olunur.*

# GİRİŞ

Çoxillik müstəqillik tarixinə malik olan ölkələrin təcrübəsi göstərir ki, siyasi suverenliyin daimiliyinin, dönməzliyinin labüd şərtlərindən biri iqtisadi müstəqilliyə nail olmaqdır.

İqtisadi müstəqillik şəraitində xalq tarixi boyu yaratdığı və təbiətin ona bəxş etdiyi sərvətlərin sahibi olur, ona sərəncam verir və öz mənafeyinə uyğun istifadə edir. İqtisadi müstəqillik şəraitində cəmiyyət özünü iqtisadi cəhətdən yaşatmaq gücünə malik olur, iqtisadiyyatın ictimai formasını müəyyən edir və formalaşdırır.

Bu baxımdan, Azərbaycan Respublikası hökuməti qarşısında duran ən mühüm vəzifələrdən biri xalqın müstəqil yaşamasını təmin edə bilən müstəqil iqtisadiyyatın yaradılmasından ibarətdir.

Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmləndirilməsində, sosial-iqtisadi problemlərin həllində, dinamik inkişafın təmin edilməsində aqrar sahə həlledici rol oynayır.

Azərbaycan ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində güclü potensial imkanlara və müqayisəli üstünlüyə malikdir. Respublikanın əlverişli torpaq-iqlim şəraiti, nisbətən ucuz işçi qüvvəsi və mühüm nəqliyyat yollarının qovşağında yerləşməsi bu sahənin geniş inkişaf etdirilməsinə imkan verir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra, keçid dövrü üçün xarakterik olan aqrar bölmədə baş vermiş tənəzzül, kənd təsərrüfatı məhsulları istehsalının illik həcminin aşağı düşməsi aqrar sferada bazar münasibətlərinin formalaşması və inkişafına istiqamətlənmiş köklü iqtisadi islahatların həyata keçirilməsini zərurətə çevirmişdi.

Müstəqilliyin ilk illərindən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, ərzaq və yeyinti məhsulları emal edən sənaye müəssisələrinin özəlləşdirilməsi və s. bu kimi tədbirlər aqrar bölmənin sosial və sahə strukturuna ciddi təsir göstərmiş, kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş

vermiş, yeni sahələr yaranmış, məzmunca fərqli münasibətlər formalaşmışdır.

Ölkəmizin iqtisadi siyasətində aqrar sahənin prioritetliyi xüsusi əhəmiyyət kəsb edir. Aqrar sahədə aparılan islahatlar nəticəsində respublikada bazar iqtisadiyyatına uyğun təsərrüfatçılıq sistemi formalaşdırılmış, kənd təsərrüfatında böhranın qarşısı alınmış və ayrı-ayrı sahələr üzrə məhsul istehsalının artımına nail olunmuşdur.

Aqrar sahənin inkişaf strategiyası yaxın gələcəkdə Azərbaycanın dünya bazarına kənd təsərrüfatı məhsullarının ixracatçısı kimi çıxmasına imkan yaradacaqdır.

Əldə edilmiş nailiyyətlərə baxmayaraq, aqrar bölmədə məhsul istehsalının həcmi və məhsuldarlığın səviyyəsi inkişaf etmiş ölkələrin müvafiq göstəricilərindən hələ də geri qalmaqdadır.

Bütün bunların başlıca səbəbi isə ölkənin təbii ehtiyatlarından, ilk növbədə torpaq ehtiyatlarından istifadədəki və onların mühafizəsindəki problemlərlə izah olunur.

Respublikamızda yararlı torpaq sahəsinin məhdudluğu, ölkəmizdə gedən müharibə nəticəsində bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı üçün nəzərdə tutulmuş torpaqların bir qisminin erməni işğalçıları tərəfindən qəsbi və yararsız hala salınması, antropogen amillərin təsiri ilə aqrar bölümün fəaliyyəti üçün ayrılmış torpaq sahələrinin korlanması, onların əkin dövriyyəsindən çıxarılması, iqtisadiyyatın qeyri-kənd təsərrüfatı sektorunun dinamik inkişafı və bununla əlaqədar böyükhəcmli yararlı torpaq sahələrinin qeyri-kənd təsərrüfatı ehtiyacları üçün ayrılması və s. kimi hallar torpaqlardan tam, dolğun, səmərəli istifadə edilməsi və onların mühafizəsi sahəsində elmi cəhətdən əsaslandırılmış təxirəsalınmaz kompleks tədbirlər sisteminin həyata keçirilməsini tələb edir. Müasir dövrdə bu problemlərin həllinə isə yalnız və yalnız yerquruluşu sistemində hazırlanan və həyata keçirilən kompleks tədbirlərlə nail olmaq olar.

Ölkəmizdə yeniləşmiş ictimai-siyasi quruluşa uyğun formalaşmış yeni bazar torpaq münasibətləri, çoxukladlı iqtisadiyyatın subyektləri olan kəndli (fermer), ailə təsərrüfatlarının, kənd təsərrüfatı təyinatlı birliklərin, assosiasiyaların, kənd təsərrüfatı təyinatlı kooperativlərin, dövlət müəssisə və təşkilatların torpaqdanistifadələr sisteminin təşkili və yenidən təşkili torpaq ehtiyatlarından istifadəyə və onların mühafizəsinə dair yeni nəzəriyyələr, metodiki əsaslar, praktiki vərdişlər tələb edir.

“Yerquruluşunun elmi əsasları” fənninin tədrisində də əsas məqsəd gələcək yerquruluşçularına yuxarıda göstərilən nəzəri və metodiki bilikləri aşılamaqdan ibarətdir. Məhz buna görə də, dərslikdə torpaq haqqında müasir təlim öyrənilir, Azərbaycanda torpaq münasibətlərinin formalaşması tədqiq edilir, onların inkişaf perspektivləri müəyyənləşdirilir. Burada yerquruluşu elminin müasir vəziyyəti təhlil edilir, onun konsepsiyası, məqsəd və vəzifələri göstərilir, respublikamızdakı yerquruluşu sisteminin, torpağa (daşınmaz əmlaka) hüququn dövlət reyestri xidmətinin strukturu açıqlanır, yerquruluşu sisteminin xarici modeli tədqiq olunur.

“Yerquruluşu və torpaq kadastrı” istiqaməti üzrə bakalavr pilləsində təhsil alan tələbələrimiz “Torpaq bazarı və torpaq ehtiyatlarının idarə edilməsi”, “Təsərrüfatlararası yerquruluşu layihələşdirməsi”, “Təsərrüfatdaxili yerquruluşu layihələşdirməsi” və s. kimi ümumpeşə hazırlığı və ixtisas fənlərinin elmi əsaslarını məhz bu fənn – “Yerquruluşunun elmi əsasları” fənni vasitəsi ilə öyrənirlər.

# FƏSİL I.
# TORPAQ HAQQINDA MÜASİR TƏLİM

## 1.1. Torpaq təbii varlıqdır

Torpaq və cəmiyyət ayrılmaz varlıqlardırlar. Torpaqsız insan, cəmiyyət yoxdur. Bəşər övladının dünyaya gəlişinin və yaşamasının ilkin şərti də məhz torpaq olmuşdur. Yer planeti ta qədimdən insanlara məskunlaşmaları üçün məkan olmuş, yaşamaları üçün maddi və enerji mənbəyi rolunu oynamışdır. İnsan və heyvanat aləmi torpağın istehlak xüsusiyyətlərini bilavasitə mənimsəyən canlı orqanizmlərdirlər. Bəşəriyyətin ilkin dövrlərində insanlar tərəfindən bu xüsusiyyətlərin mənimsənilməsi ov, balıqtutma, təbii enerji mənbələrindən istifadə vasitəsi ilə həyata keçirilirdi. Bildiyimiz kimi torpağın istehlak xüsusiyyətləri onun yeraltı (qaz, neft, qızıl, civə və. s.) və yerüstü (dəniz, meşə və s.) sərvətləri ilə xarakterizə olunur.

Təbii ki, təbiət (ilahi varlıq!) torpağın bu istehlak xüsusiyyətlərini yerin altında və üstündə bərabər paylamamışdır. Ona görə də, zaman keçdikcə torpaq və onunla bağlı olan sərvətlər insanların və insan cəmiyyətlərinin maraq obyektlərinə çevrilirdilər. Bu maraqlar həyat üçün daha əlverişli, münasib yerlərin axtarışından, habelə bu yerlərin digərləri tərəfindən qəsbindən qorumaqdan ibarət olub.

Bəşəriyyətdə əhalinin sayının durmadan artımı, istehlak üçün əlverişli yerlərin zaman keçdikcə məhdudluğu ilk dövrlərdə insanları özlərinin yaşamaları naminə fəth etdikləri ərazilərin sərhədlərini çox sürətlə, bəzi hallarda hətta güc tətbiq etməklə-müharibələrlə genişləndirməyə vadar edirdi. Sonralar, zaman keçdikcə xammal şəklində olan təbii ehtiyatlar emal edilərək istehlak predmetlərinə çevrilirdilər ki, bütün bunlar da torpağın istehlak xüsusiyyətlərini genişləndirmiş olurdu. Bunlar isə müxtəlif istehsal sahələrinin zaman-zaman genişləndirilməsi ilə müşayiət olunurdu. İstehsal prosesləri torpağın istehlak xüsusiyyətlərinin daha da genişləndirilməsi üçün təbii kompleksə təsir edən mexanizmlərə çevrilirdi.

İbtidai icma quruluşunda tayfa və qəbilələr torpaqlardan onları ayrı-ayrı fərdlər arasında bölmədən istifadə edirdilər. Sonralar torpaqların bölgüsü ilə torpaq-mülkiyyət münasibətlərinin formalaşması başlandı. Torpaq ilk öncə mülkiyyət obyekti və əmtəə, sonra isə sinfi mübarizələrin

obyektinə çevrildi. Artıq ibtidai icma quruluşu mərhələsində cəmiyyətlər iki hissəyə bölünürdü: torpaq mülkiyyətçiləri və torpağı olmayan insanlar. Mülkiyyətçilərdə öz torpaq sahələrinə mülkiyyət hüququnu qorumaq hissi sonradan ayrı-ayrı dövlətlərin yaranmasına səbəb oldu. Belə ki, dövlətlərin ilkin dövrlərdə əsas vəzifəsi öz sərhədləri daxilində torpaq mülkiyyətçilərinin maraqlarını qorumaqdan ibarət olub. Zaman keçdikcə torpaq və onunla bağlı (ilk dövrlərdə əlbəttə ki, yerüstü təbii ehtiyatlar) sərvətlər ən dəyərli mülkiyyət obyektlərinə çevrilirdilər. Təbii ehtiyatlar üzərində, o cümlədən torpaq üzərində hakimlik hərisliyi bəşər tarixində bütün müharibələrin yaranma səbəbləri olmuşdur.

Torpaq cəmiyyətlərdə zaman keçdikcə var-dövlət, kübarlıq atributuna çevrilirdi. Əksər zadəgan titulları insanlara məhz torpağa sahibliyə görə verilirdi.

Torpaq əsrlər boyu müxtəlif cəmiyyətlərdə qiymətli daşınmaz əmlak kimi müxtəlif banklar tərəfindən kreditlərin verilməsi üçün girov qoyulmuşdur və bu əqdlər bu gün də müasir iqtisadiyyatımızda tətbiq olunur.

Tarixə nəzər salsaq görərik ki, bütün ictimai-siyasi quruluşların kökündən dəyişdirilməsi (bir ictimai-siyasi formasiyadan digərinə keçid dövrü) zamanı torpaq münasibətlərinin müəyyənləşdirilməsi həmişə həllini tələb edən mərkəzi məsələ olmuşdur. Belə ki, şərqdə ilk demokratik ölkə olan Azərbaycan Xalq Cümhuriyyətinin ilkin qərarlarından biri məhz torpaq haqqında olmuşdur. Bolşeviklərin Azərbaycan Demokratik Respublikasını işğal etdikdən sonra ilk dekreti də torpaq haqqında oldu. XX əsrin 90-cı illərinin əvvəlində çoxlu qanlar və canlar hesabına müstəqilliyini yenidən özünə qaytarmış müasir Azərbaycan dövlətinin də mərkəzi məsələsi torpaq məsələsi olmuşdur. İlk Konstitusiyamız respublikamızda torpaq üzərində dövlət inhisarına son qoymuş, torpaq üzərində 3 mülkiyyət (dövlət, bələdiyyə, xüsusi) formasını müəyyənləşdirmişdir.

Ona görə də, torpaqlar Azərbaycan Respublikasında insan həyatının və fəaliyyətinin əsası kimi mühafizə olunmalı və istifadə edilməlidir. Bu, yerquruluşu üzrə mütəxəssislərin bir saylı vəzifəsi və müqəddəs borcudur.

Torpaq istisnasız olaraq hər bir kəsə lazımdır. İnsan torpaq üzərində dünyaya gəlib, onun üzərində yaşayır və təsərrüfat fəaliyyətini həyata keçirir. Torpaq vətəndaş cəmiyyətinin fəaliyyət göstərməsi üçün məkan bazisidir, istehsal vasitələrinin yerləşdiyi ərazidir, o, kənd və meşə təsərrüfatlarında əsas istehsal vasitəsidir.

Günəş sisteminə daxil olan digər planetlərdən fərqli olaraq Yerdə

həyat vardır, burada bütün canlıların alisi – İNSAN yaşayır.

Digər canlı orqanizmlərdən fərqli olaraq insan özünün maddi və mənəvi tələbatlarını ödəmək üçün təbii ehtiyatlardan (torpaq, yerin təki, su, meşə, bitki və heyvanat aləmi, atmosfer və s.) daha aktiv istifadə edir. Bununla da o, təbiətə, orada baş verən təbii proseslərə müdaxilə etməklə, ona müsbət və ya mənfi təsir göstərir.

Torpağın insan həyatındakı və vətəndaş cəmiyyətindəki müstəsna rolu ilə əlaqədar olaraq, o, bütün insanların torpaq ehtiyatlarından istifadəsi, torpaqla bağlı sərəncam verməsi zamanı düzgün rəftarını tələb edir.

Maraqlıdır ki, neçə minilliklərdən bəri, dünya əhalisinin sayı indikindən yüz, min dəfələrlə az olanda, müasir sənaye sahələrinin və texnikanın olmadığı dövrlərdə belə təbiətə, ətraf mühitə, torpağa qayğı göstərilməsini insanlar zəruri hesab etmişlər. Məsələn, ta qədim zamanlardan bəşər övladına "İnsanlar, siz təbiətdən istifadə edərkən ona qarşı amansız olmayın" kimi çağırışlar gündəmdə olub. Hələ XIX əsrdə Y.B.Lamark bu müraciətlərə məhəl qoymayanlara və təbiətə amansız münasibətin nəticələrini dərk etməyənlərə belə xəbərdarlıq edirdi: "Sanki insanın əsas məqsədi əvvəlcə təbiəti, sonra onunla birgə özünü məhv etməkdən ibarətdir".

Beləliklə, hələ çox qədimdən təbiətin, onun ayrılmaz tərkib hissəsi olan torpağın qorunması, təbiətdə ekoloji tarazlığın təmin edilməsi zərurətinin dərk edilməsinə baxmayaraq, bu gün planetimiz ekoloji təhlükə qarşısındadır.

Əlbəttə, bu gün planetimizdə yaranan ekoloji təzadlar birdən-birə əmələ gəlməmişdir.

Ehtimal olunur ki, bəşər adamı on min ildir ki, əkinçiliklə, heyvandarlıqla məşğuldur. Fərz etmək olar ki, insan məhz oturaq həyat tərzinə alışandan sonra təbiətə, onun sərvətlərinə, ilk öncə torpağa antropogen təsir göstərmişdir. Dünya alimlərinin tədqiqatları göstərir ki, son yüz ildə insanların biosferə müdaxiləsi əvvəlki yüzilliklərdəki birgə təsirlərdən geniş olmuşdur. Belə ki, təbiətə xas olan "təbii sərvətlərdən qənaətlə istifadə" prinsipinə müasir insanlar tərəfindən riayət edilmədiyindən son bir milyard ildə yaranan təbii sərvətlər son 100-120 ildə insanlar tərəfindən insafsızcasına istismar olunmuşdur. Bütün bunların acı nəticəsi olaraq bəşəriyyət ekoloji böhranla üzləşmişdir.

Akademik H.Ə.Əliyev Azərbaycanda torpağı mühafizə sahəsində tədqiqatların təşkilatçısı və ekologiya elminin banisidir. H.Ə.Əliyev

yazırdı: “İnsan… təbiəti, ətraf mühiti korlamaqla tamam məhv ola bilər. Su, hava, torpaq çirklənərsə, bütün canlılar aləmi, təbiətin yaşıllığı və gözəlliyindən tutmuş heyvanat və insan aləminə qədər hamısı məhv olmaq təhlükəsi qarşısında qalar. Bu baxımdan laqeydlik üzündən bizim zəngin və bərəkətli torpağımızın min, on min, yüz min hektarlarla sahəsinin şorlaşıb, meşəsizləşib sıradan çıxması təkcə alimləri deyil, hamını düşündürməli, narahat etməlidir. Belə olduqda biz özümüzün xilas olmağımız naminə, gələcəyimiz naminə, gələcək nəslimizin inkişafı naminə… torpağımızı hər cür çirkabdan, natəmizlikdən qorumalıyıq.”

Kənd təsərrüfatı elmləri namizədi A.D.Babayevanın torpağı bir canlı kimi insan orqanizmi ilə obrazlı müqayisəsi də maraq doğurur. O yazır. “…İnsanlar irqindən, milliyyətindən asılı olaraq müxtəlif olduqları kimi torpaq da coğrafi yayılma qanunauyğunluqlarından asılı olaraq müxtəlif cür olur… Torpağa rəng verən, başqa sözlə torpaqda “piqment” rolunu oynayan onun tərkibində olan müxtəlif birləşmələrdir… qan və limfa dövranlarını humus və suda həll olmuş üzvi və kimyəvi maddələrin dövranı kimi qəbul etmək olar. …Torpaqda “ağciyərlər” funksiyasını torpağın məsaməliyi yerinə yetirir. Torpağın məsaməliliyi azaldıqda “tənəffüs sistemi” - hava rejimi pozulur. Torpaq da insan kimi xarici təsirlərdən “xəstələnir”-gücdən düşür, məhsulvermə qabiliyyətini itirir və ya əksinə “güclü”, “sağlam”-münbit olur… Torpağın suqaldırma, susızdırma qabiliyyəti pozulduqda “limfa” sistemi, “qan damarları” kirəcləşir. Yeraltı qrunt sularının artıq miqdarından asılı olaraq torpağın “böyrəkləri”-ifrazat sistemi sıradan çıxır və nəticədə torpaqda duzlaşma, şoranlaşma prosesləri gedir…”

Gənc alimin bu bənzətməsi maraqlıdır, düzgündür və torpağın doğrudan da canlı orqanizm olduğuna dəyərli yanaşmalardandır.

Torpaq təbii kompleksin tərkib hissəsi kimi, yer məskunlaşdığımız planetin səthi kimi həyatımızda müstəsna, əvəzsiz əhəmiyyət kəsb etməklə insanların yaşaması üçün təbii mühit rolunu oynayır. Təbiət kompleksi bütün zamanlarda cəmiyyətlərə məkan, enerji, maddi nemətlər mənbəyi olmuşdur. Yer təbii kompleks olub, planetimizin superqlobal ekosisteminin bir hissəsidir. Yerin özü ekosistem kimi müxtəlif landşaftlar və ya onların tərkib hissələri kimi təzahür edir. Landşaftlar bir sıra elementlər məcmusu ilə xarakterizə olunurlar: iqlim, litoqrafiya, relyef, su, torpaq, bitki, heyvanat aləmi.

Yer-planetdə biosferin tərkib hissəsi kimi bir sıra qanunlarla idarə

olunur. İnsan və təbii kompleks arasındakı qarşılıqlı əlaqələri müəyyənləşdirən əsas qanunlara minimum, tolerantlıq, faktorların birgə təsiri, təbii zonallıq və s. kimi qanunları aid etmək olar.

**Minimum qanununa** görə, təbii kompleksin məhsuldarlığı vacibi şəraitlərin orta göstəricilərinə görə deyil, minimum göstəriciləri ilə təyin olunur. Adətən torpaqlardan istifadəyə dair layihələrin hazırlanması zamanı torpaq xüsusiyyətlərinin orta göstəricilərindən istifadə olunur. Bu, landşaftlar haqqında təsəvvürləri tarazlaşdırır, onları sadələşdirir ki, onlar da son nəticədə səhv layihə həllərinin qəbuluna səbəb olurlar.

**Faktorların birgə təsiri qanunu** landşaftın xüsusiyyətlərinin təsirinin kompleks şəkildə nəzərə alınmasının zəruriliyini göstərir. Birgə (ümumiləşmiş) təsir hər bir faktorun ayrıca təsirindən böyükdür. Bu müddəa torpaqlardan istifadənin təşkilinə bilavasitə aid olmalıdır. Belə ki, torpaq cəmiyyətdə çoxsahəli əhəmiyyətə malikdir. Təbii faktorlar kompleksinin təsirinin gücləndirilməsi cəmiyyət üçün həm müsbət, həm də mənfi xarakterizə oluna bilər. Relyefin və bitki örtüyünün birgə təsiri su eroziyasının inkişaf səviyyəsini müəyyənləşdirə bilər. Vacibi şərtlərdən biri də ondan ibarətdir ki, bu zaman gücünə görə eyni olan faktorların kompleks təsirini və ya digər faktorların zəif təsiri fonunda vahid dominant faktorun təsirini fərqləndirmək lazımdır. Birinci qarşılıqlı təsir yalnız kompleksdə öyrənilir, torpağın ayrı-ayrılıqda xüsusiyyətlərinin təsirinin tədqiqi məqsədəuyğun deyildir. Məsələn, su və külək eroziyalarının mövcud olduğu zonalarda problemin həllinə kompleks (birgə) yanaşma olmalıdır. Belə ərazilərdə torpaqdan istifadənin təşkilində bir növ eroziyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi əlavə xərclərə səbəb olmaqla, bir çox hallarda mənfi nəticələrlə yekunlaşır. Digər tərəfdən, bir növ eroziyanın dominantlığı şəraitində eroziyanın sistemli öyrənilməsi tələb olunmur və torpaqdan istifadənin təşkilində yalnız mövcud olan eroziya növünün neytrallaşdırılması üçün tədbirlər layihələndirilir.

**Tolerantlıq (dözümlülük) qanununa görə** müəyyən sərhədlər var ki, bu sərhədlərdən kənarda verilmiş ekosistem mövcud ola bilməz. Ayrı-ayrı ekosistemlərin tolerantlıq (dözümlülük) sərhədlərinin müəyyənləşdirilməsi və torpaqdan istifadənin təkmilləşdirilməsinə dair müəyyənləşdirilmiş tədbirlərin qiymətləndirilməsində onların nəzərə alınması mənfi nəticələrə səbəb ola biləcək hallərin rədd edilməsinə imkan verər, landşaftların lazım olan istiqamətdə dəyişilməsini təmin edəcək təsirlərin

xarakterini göstərməyə şərait yaratmış olar. Tolerantlıq zonası çərçivəsində yer ekosistemi xüsusiyyətlərinin möhkəmliyi ilə fərqlənir. Ekosistemin sərhədindən kənarda isə bu xüsusiyyətlər plastik (ahəngdar) xarakter alır. Məsələn, dəniz səviyyəsindən müəyyən yüksəkliklərə qədər meşəliklərin mənimsənilməsi meşə zonasının xüsusiyyətlərinin saxlanmasına imkan verir, bu hüdudlardan kənarda çılpaq sahələr birbaşa artır və səhra zonası üçün xarakterik olan mənfi proseslər meydana çıxır, məsələn, torpaqların külək eroziyası baş verir.

Təbii ehtiyatlardan, o cümlədən torpaqlardan təbii varlıq kimi istifadə zamanı insanın təbiətə müdaxiləsi insan cəmiyyətinin yaşaması üçün ilkin və zəruri şərtdir. Amma təbiət də öz növbəsində insanlara öz tələblərini irəli sürür: təbiətdənistifadədə təbii ehtiyatlar mühafizə edilməli, təbii mühitin komponentləri arasındakı harmoniya pozulmamalı, cəmiyyətin tələbatı təbiətin imkanları ilə uzlaşdırılmalıdır.

## 1.2. Torpaq istehsal vasitəsidir

Məlum olduğu kimi, ictimai-siyasi formasiyanın növündən asılı olmayaraq əmək prosesi üç məqamdan ibarətdir: a) insanın məqsədyönlü fəaliyyətindən və ya əməyin özündən; b) əmək predmetindən (əməyin yönəldiyi obyektdən); c) əmək predmetinə təsir etmək üçün lazım olan əmək alətindən. Deməli, əmək prosesinin baş tutması üçün bunların mövcudluğu zəruridir: insanın özü, əmək predmeti və əmək aləti. İstehsal prosesində əmək aləti ilə əmək predmetinin vəhdəti istehsal vasitəsini əmələ gətirir. Beləliklə, torpaq əmək prosesinin həyata keçirilməsi üçün vacibi şərtlərdəndir.

İstehsal prosesində torpaq qarşılıqlı əlaqədə olan üç formada çıxış edir. 1) Fəza (məkan) bazisi kimi (şəhər və yaşayış məntəqələrinin, zavod və fabriklərin tikilməsi, yol və körpülərin salınması üçün). 2) Əmək predmeti kimi (torpağın üst qatını kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi üçün yararlı hala salmaqdan ötrü insan əməyi buraya yönəlir). 3) Əmək aləti kimi (torpağın və ətraf mühitin komponentlərinin təsiri ilə insan öz fəaliyyətinin nəticəsi olan məhsulu alır). Deməli, torpaq əmək prosesinin baş verməsi üçün əsas amil olub, iqtisadiyyatın bütün sahələrində istehsal vasitəsidir. Kənd təsərrüfatında torpaq təkcə məkan bazisi kimi deyil, həm də istehsalın əsas amili kimi istifadə edildiyindən,

o, burada başlıca, əsas istehsal vasitəsidir.

Torpaq istənilən istehsalın mövcudluğu üçün vacib olan maddi şəraitdir. Ona görə də, torpaq istehsal vasitəsi kimi təkcə kənd təsərrüfatında deyil, eyni zamanda iqtisadiyyatın bütün sahələrində-sənayedə, nəqliyyatda, insanın maddi fəaliyyətinin digər sahələrində də istehsal vasitəsi kimi çıxış edir.

Təbii ki, istehsal vasitəsi kimi torpağın kənd təsərrüfatında rolu digər qeyri-kənd təsərrüfatı sahələrindəki rolundan fərqlidir. Emal sənayesində torpaq passiv rol oynayır. Burada o, yalnız əmək prosesinin baş tutması üçün zəruri olan obyektlərin yerləşməsində məkan bazisi rolunu oynayır. Həmin obyektlərin yerləşdiyi ərazinin torpaq-texnoloji xüsusiyyətləri istehsalatın ixtisaslaşmasına, keyfiyyətinə, səmərəliliyinə təsir göstərmir.

Mədən sənayesində isə torpaq artıq təkcə məkan bazisi rolunu oynamır. Burada torpağın istehsalatdakı rolunda aktivlik artır. O, həm də özünəməxsus “faydalı mədən”, “faydalı qazıntıların anbarı” rolunu oynayır. Torpaq mədən sənayesində həmişə əmək predmeti kimi çıxış edir. Belə ki, yeraltı sərvətlərin əldə edilməsi üçün torpağa daima insan əməyi təsir göstərir. (axtarış-qazma işləri və s.). Bu zaman torpağın xüsusiyyətlərindən (faydalı yataqların tərkibi, onların növləri, yataqların dərinliyi və s.) asılı olaraq fəaliyyətin istiqaməti, onun həyata keçirilməsi üçün zəruri olan maliyyə xərclərinin həcmi və səmərəliliyi müəyyənləşdirilir. Amma torpağın ən ali xüsusiyyəti olan torpaq münbitliyi burada da istehsalatın inkişafına heç bir təsir göstərmir.

Meşə təsərrüfatında torpaq üç funksiyada çıxış edir: ümumi istehsal vasitəsi kimi (meşələrin salınması, qurğuların yerləşdirilməsi üçün məkan rolunu oynayır); əmək predmeti kimi (oduncaq tədarükündə və meşəsalmada) və qismən əmək aləti kimi (torpaq örtüyünün köməkliyi ilə meşə ağaclarının yetişdirilməsi təmin edilir). Bütün bu üç funksiyanı özündə birləşdirən torpaqlar meşə təsərrüfatında da istehsal vasitəsi kimi fəaliyyət göstərir.

Torpaq kənd təsərrüfatında büsbütün başqa əhəmiyyət kəsb edir. Torpaq burada başlıca istehsal vasitəsidir, istehsalatın aktiv və əvəzedilməz faktorudur. Kənd təsərrüfatında istehsalat prosesi bütövlükdə bilavasitə torpaqla, onun münbitliyi ilə, torpaqda gedən təbii-bioloji proseslərlə sıx surətdə bağlıdır. Kənd təsərrüfatında torpaq məkan bazisi funksiyasından əlavə, həm əmək predmeti (insan torpağı şumlayır, səpir, sulayır, torpağa bilavasitə təsir göstərməklə digər texnoloji əməliyyatları

yerinə yetirir) və istehsalın aləti (torpağa səpilmiş toxumlara torpaq öz təsirilə lazımi məhsulu yetişdirir) kimi çıxış edir. Məhz bu xüsusiyyətlərinə görə torpaq kənd təsərrüfatında müstəsna rola malikdir.

Torpağın ən ali xüsusiyyəti münbitlik xüsusiyyətinə malik olmasıdır. Torpaq bitkilərin böyüməsi və inkişafı üçün zəruri olan su, qida və digər tələbatının ödəndiyi mənbədir. Torpağın münbitlik xüsusiyyəti onu digər istehsal vasitələrindən əsaslı şəkildə fərqləndirir. Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı bilavasitə torpağın münbitliyindən asılıdır və bu münbitlik insanın təsərrüfatçılıq fəaliyyətində böyük təsirlərə məruz qalır. Bu təsirin səviyyəsi ilk növbədə elmi-texniki tərəqqinin inkişaf səviyyəsi ilə ölçülür. Torpağa təsir elmi əsaslarla, təbiətin qanunlarına riayət etməklə baş verəndə torpağın münbitliyi artır, əks təqdirdə, o, zaman keçdikcə münbitliyini azaldır və ən nəhayət, istehsal prosesində əsas istehsal vasitəsi kimi fəaliyyətini dayandırır.

Torpağı başqa istehsal vasitələrindən fərqləndirən xüsusiyyətlərə nəzər salaq.

Bütün digər istehsal vasitələri insan əməyinin məhsuludur, torpaq isə (su da bu xüsusiyyətə malikdir!) özünün təbii vəziyyətində təbiətin bəxşidir, onun əmələ gəlməsinə insan əməyi sərf edilməmişdir.

Torpaq əvəzedilməzdir, başqa sözlə, onu hər hansı bir digər istehsal vasitəsi ilə əvəz etmək olmaz.

Torpaq məkanca məhduddur, onun sahəsini genişləndirmək olmaz. Digər istehsal vasitələrinin isə (maşının, cihazların və s.) istehsal həcmini artırmaqla sayını artırmaq olar. Əlbəttə, ayrı-ayrı yerlərdə istifadəsiz torpaqları kənd təsərrüfatı istehsalatı dövriyyəsinə cəlb etməklə yararlı torpaq sahələrinin həcmini artırmaq olar. Amma bütövlükdə Yer planetində torpaq təbiətdə resurs kimi məkanca məhduddur.

Torpaq eyni istehsal prosesində həm əmək predmeti, həm də əmək aləti kimi çıxış edə bilər. Digər istehsal vasitələri isə ayrı-ayrı funksiyaları yalnız ayrı-ayrı istehsal proseslərində yerinə yetirə bilər. Məsələn, bir istehsal prosesində əmək aləti, digərində isə əmək predmeti kimi çıxış edə bilər.

Torpaq özünün yerləşmə vəziyyətinin daimiliyi ilə xarakterizə olunur. Onu traktorlar, kombaynlar kimi bir yerdən başqa yerə köçürmək olmaz.

Torpaq sahələri keyfiyyətinə görə eynicinsli deyildirlər. Onlar bir-birindən münbitliyinə, relyefinə və digər əlamətlərinə görə fərqlənirlər.

Bu müxtəlifliklər isə son nəticədə məhsuldarlığa, ümumi məhsul çıxımına, istehsalatın səmərəliliyinə təsir edir. Keyfiyyətcə yaxşı torpaqlarda əlavə gəlir əldə edilir, bu da öz növbəsində diferensial rentanın yaranmasına səbəb olur.

Bütün digər istehsal vasitələri onlardan istifadə prosesində fiziki cəhətdən aşınırlar (qənaətlə, tələblər çərçivəsində istifadə etdikdə də!), mənəvi baxımdan köhnəlirlər. Onlardan fərqli olaraq torpaqdan düzgün istifadə etdikdə o nəinki köhnəlmir, əksinə onun münbitliyi artır.

Beləliklə, torpaq daimi olub, heç bir istehsal vasitəsi ilə əvəz edilmir. Torpaq ehtiyatları ən dəyərli təbii ehtiyatlardandır.

Torpağın əsas istehsal vasitəsi kimi fəaliyyətini tənzimləyən bəzi qanunlar ilə tanış olaq.

İstehsal sferasına cəlb edilmiş və onun əsas faktoruna çevrilmiş torpaq cəmiyyətdə formalaşmış əsas iqtisadi qanunlara uyğun istifadə edilməlidir.

**İstehsal münasibətlərinin istehsal qüvvələrinin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu qanunu** tələb edir ki, torpağın əsas istehsal vasitəsi kimi təşkili torpaq münasibətləri sisteminə uyğunlaşdırılmalıdır. Bu qanun torpağın istehsal vasitəsi kimi keyfiyyətini və xüsusiyyətlərini dəyişdirən hərəkətverici qüvvələri müəyyənləşdirir.

Torpağın istehsal vasitəsi kimi fəaliyyətini müəyyənləşdirən qanunlar sırasına **əlavə dəyər (mənfəət) istehsalı qanunu aiddir.**

Bu qanun tələb edir ki, bazar iqtisadiyyatı şəraitində torpaqlardan istifadənin əsas məqsədi maksimum gəlir əldə etməkdən ibarət olduğundan, ondan istifadənin təşkilində hər zaman torpaqların münbitliyinin artırılmasına, məsariflərin azaldılmasına çalışmaq lazımdır.

**İstehsalın silsiləli inkişafı qanunu** istehsalın canlanma, yüksəliş, düşmə və depressiya fazalarından obyektiv keçidini əks etdirir.

Canlanma fazasında torpaq ilk öncə istehlak predmetləri və ya xammal istehsal edən kənd təsərrüfatı, meşə təsərrüfatı, tikinti, bir sıra mədən sahələrinə-istehsal sferasına cəlb olunur. Sonradan torpaq emal sahələrinə cəlb edilir. Torpaqdan istifadənin miqyası artır, torpaq istehsalatda ehtiyat vəziyyətindən istehsal vasitəsinə çevrilir. İctimai istehsalda torpağın daha çox iştirakı yüksəliş fazasında qeyd olunur. İstehsalın enişinə ilk öncə istehlak predmetləri və xammal istehsal edən (kənd və meşə təsərrüfatları, emal müəssisələrinin bəziləri) sahələr münasibət bildirirlər. Belə ki, həddindən artıq məhsul istehsalının

qarşısının alınması üçün istehsalın həcminə məhdudiyyət (kvota) qoyulur. Torpaq, əsasən də azməhsuldar sahələr, istehsalatdan ehtiyat vəziyyətinə keçir. Bu proses tədricən istehsalın digər sahələrini də əhatə edir. İstehsalın depressiyası mərhələsində istehsal aşağı səviyyədə müəyyənləşdirilir, istehsal sferasında torpağın azmiqdarlı iştirakı müşahidə olunur. Bu qanunauyğunluqlar konkret zamanın tapşırıqlarını formalaşdırır, perspektiv üçün proqnozlar verir.

**İstehsal vasitələrinin istehsalının istehlak predmetlərinin istehsalına nisbətən üstün artması qanunu** tələb edir ki, vəsaitlərin əksəriyyəti ilk növbədə torpaqların istehsal xüsusiyyətlərinin inkişafına, sonra isə istehlak və rekreasiya xüsusiyyətlərinin inkişafına yönəldilməlidir.

**Əmək məhsuldarlığının durmadan artımı qanunu** torpaqların iqtisadi münbitliyinin, istehsalatın texnoloji xərclərinin durmadan artırılmasını tələb edir. Bu qanuna riayət etməyən istehsalçı iqtisadi yarışmada geridə qalmaq, iflasa uğramaq kimi problemlərlə rastlaşa bilər. Qanun torpağa əmək predmeti kimi təsirlərdə yeni texnologiyaların tətbiq edilməsini diktə edir, habelə daima torpağın əmək aləti kimi onun xüsusiyyətlərinin yaxşılaşdırılmasını tələb edir.

**Yığım qanunu** torpaq ehtiyatlarının daima azsaylı istehsalçılarda təmərküzləşməsi meylini tələb edir ki, bu da istehsalın rəqabətqabiliyyətli, böyük səmərəli olması üçün zəmin yaratmış olur.

Bir sıra qanunlar torpaqdan istifadənin səmərəliliyini nizamlayır.

**Əməyə qənaət qanunu** göstərir ki, torpaqlardan istifadə prosesində bütün müsbət dəyişikliklər canlı və maddiləşmiş əməyə qənaətə səbəb olur.

**Dəyər qanunu** göstərir ki, əmtəələrin dəyişdirilməsi (satışı) dəyərlər əsasında həyata keçirilir ki, bunlar da öz növbəsində canlı və maddiləşmiş əməyin sərfi ilə ölçülür. Ona görə də, qeyd etmək lazımdır ki, torpağın istehsal vasitəsi kimi fəaliyyəti ilə bağlı xərclər kənd təsərrüfatı istehsalı sferasında əsas xərclərdəndir. Onların azaldılması əmtəə dəyərinin azaldılmasını, əməyə qənaətə, əlavə dəyərin (mənfəətin) həcminin artırılmasına yönəldilmiş tədbirdir.

**Mənfəət normasının azalması meyli qanunu** göstərir ki, hər bir sonrakı kapital qoyuluşu bərabər şərtlər daxilində az gəlir (mənfəət) artımı gətirir. Buradan belə nəticəyə gəlinir ki, ilbəil vəsait qoyuluşundan torpağın mənfəət qaytarması qabiliyyəti azalır. Torpaqların iqtisadi

münbitliyinin sonrakı artımı daha böyük ictimai məsariflərlə təmin edilir.

Özünün fəaliyyət prosesində torpaq daima digər istehsal vasitələri ilə əlaqədə olur və bu qarşılıqlı təsirdən torpağın özünəməxsus xüsusiyyətləri dəyişikliklərə məruz qalır. Torpaqla əlaqə dərəcəsinə görə bütün istehsal vasitələrini 3 qrupa bölmək olar.

**Birinci qrupa** torpaqla bilavasitə bağlı olan istehsal vasitələrini aid etmək olar. Bu qrupa aid olan istehsal vasitələrinin fəaliyyəti bilavasitə ətrafdakı torpaqlardan istifadə ilə əlaqədardır. Onlara yollar, meşə zolaqları, kanallar, digər qurğular aiddirlər. Belə ki, yaxşı örtüklü, əlverişli yerləşmiş yol şəbəkəsi bitkiçilik məhsullarının maya dəyərini aşağı salmağa imkan verir. Əksinə, yüksəkməhsuldarlı sahələr yolların fəaliyyətini intensivləşdirir. Bu istehsal vasitələri torpaqla birlikdə istehsal proseslərinin əsasını təşkil etməklə, daşınmaz (hərəkətsiz) istehsal vasitələrinə aiddirlər.

**İkinci qrupa** aid olan istehsal vasitələri torpağa münasibətdə əmək aləti rolunu oynayırlar. Bunlara maşınlar, mexanizmlər, müxtəlif texnoloji alətlər, cisimlər aiddirlər.

Onlar torpağa təsir göstərməklə torpağı ümumi istehsal vasitəsi və ya əmək aləti kimi istifadələr üçün yararlı vəziyyətə gətirir. Tətbiq olunan alətlərin keyfiyyəti torpağın xüsusiyyətlərini, bu xüsusiyyətlərin təsir dərəcəsini və səmərəliliyini müəyyənləşdirir. Ona görə də, torpağa təsir üçün bu əmək alətlərinin və onların işçi orqanlarının ixtisaslaşması aparılır. Digər tərəfdən torpaqların keyfiyyəti öz növbəsində maşın və aqreqatların məhsuldarlığına təsir göstərən əsas faktorlardandır. Torpaqdan istifadənin səmərəliliyi ilə texniki vasitələrdən istifadənin səmərəliliyi arasında yaranmış ziddiyyət bütövlükdə bütün istehsalda səmərəliliyi təmin etmək nəticəsində aradan qalxır.

**Üçüncü qrupa** nəqliyyat vasitələri kimi istehsal vasitələri daxildirlər. Bu qrupdan olan istehsal vasitələri torpaqdan məkan-əməliyyat bazisi kimi istifadə edirlər. Onların fəaliyyətləri digər əmək obyektlərinə yönəldiyindən, torpaqların keyfiyyət göstəriciləri onların məhsuldarlığına təsir göstərmir.

İlk iki qrupdan olan istehsal vasitələrini birləşdirən cəhətlər ondan ibarətdir ki, onların fəaliyyətlərinin səmərəliliyi bilavasitə torpağın keyfiyyətindən asılıdır. Bu, belə qənaətə gəlməyə imkan verir ki, torpağın fəaliyyətinin səmərəlilik dərəcəsini təkcə onun istifadə sferasında deyil, eyni zamanda digər istehsal vasitələrinin istifadə sferasında da axtarmaq

lazımdır. Ona görə də, torpaqlardan istifadənin təşkilində məqsəd təkcə istehsalatın başlıca tələblərinin təmin edilməsi deyil, həm də digər istehsal vasitələrindən səmərəli istifadə üçün müvafiq əlverişli şəraitlərin yaradılmasından ibarət olmalıdır.

## 1.3. Torpaq-bazar iqtisadi münasibətləri şəraitində əmtəədir

Bazar iqtisadiyyatı şəraitində təkcə istehlak predmetləri deyil, həmçinin istehsal vasitələri də, torpaq üzərində xüsusi mülkiyyətçilik şəraitində torpaq da əmtəə kimi çıxış edir. Torpaq əmtəə kimi ümumi və özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur. Digər əmtəələr kimi, torpaq da istehlak və mübadilə dəyərlərinə malikdir. Torpağın öz xassələri ilə cəmiyyətin müəyyən tələblərinin ödənilməsi qabiliyyətinə malik olması onda istehlak dəyərini formalaşdırır. Torpaq bir sıra istehlak xüsusiyyətlərinə malikdir: obyektlərin və fəaliyyət növlərinin yerləşdirilməsi üçün vacib olan məkan (yer) xüsusiyyəti; bitkiçilik məhsullarının yetişdirilməsi üçün vacib olan torpağın münbitlik xüsusiyyəti. Bu xüsusiyyətlərin istehlak dəyərinin qiymətləndirilməsi torpaq kadastrı işləri prosesində aparılır. Ərazinin məkan şəraitləri (xüsusiyyətləri) sahənin xarici və daxili iqtisadi mərkəzlərdən uzaqlığına nisbətən yerləşmə vəziyyətinə, onun konfiqurasiyasına, konturluğuna, yamacların mailliyinə və ekspozisiyalarına, dəniz səviyyəsindən hündürlüyünə və s. görə qiymətləndirilir. Torpaqların münbitliyi isə bonitirovka prosesində qiymətləndirilir və burada torpaqların təbii münbitliyini müəyyənləşdirən (torpağın mexaniki tərkibi, humus, udulmuş əsasların miqdarı, turşuluq, şum qatının dərinliyi və s. kimi) torpağın xüsusiyyətləri qiymətləndirilir. Bitkiçilik – məhsuldarlığına görə, su sərvətləri – su ehtiyatlarının həcminə, biokimyəvi tərkibinə, yatım dərinliklərinə görə qiymətləndirilir. Torpaqların istehlak dəyərinə təsir edən xüsusiyyətlərdən biri də faydalı qazıntıların mövcudluğu , ehtiyatı, gücü və dərinliyidir.

Mübadilə dəyəri özündə torpağın istehsal vasitəsi və istehlak vasitəsi kimi fəaliyyətinin təmin edilməsi üçün zəruri olan elementlərin məcmusunu birləşdirir. İstehsal prosesinə artıq əvvəllər cəlb edilmiş torpaq sahəsinə mühəndis və sosial infrastrukturların, qurğuların, meliorasiya obyektlərinin çəkilişi ilə əraziyə kapital qoyuluşuna nail olunmuşdursa, bu zaman dəyərin qiymətləndirilməsi pul formasında həyata keçirilir.

Torpaq, bazarda əmtəə kimi təklif və tələbə malikdir. Təklif istehsalın inkişaf səviyyəsindən, bu inkişafın böyük və ya kiçik tsikilli olmasından asılıdır. İstehsalın canlanması, əsasən də yüksəlişi zamanı torpağa tələbat artır, istehsalın azalması və depressiyası zamanı isə torpağa tələbat azalır. Təklifin həcmi istehsal tsikilləri ilə bağlıdır və bu təklifin həcmi əsasən torpaqların mənimsənilmə dərəcəsindən asılıdır. Belə ki, torpaqların mənimsənilmə dərəcəsinin yüksək olduğu rayonlarda təklifin həcmi adətən böyük olmur, bu da torpaq üzərində böyük dəyərin formalaşmasına səbəb olur. Torpaqları az mənimsənilən ərazi vahidlərində torpağa tələb az, təklif isə böyük olduğundan torpağın dəyər səviyyəsi aşağı düşür. Amma nəzərə almaq lazımdır ki, az mənimsənilən rayonlarda belə, torpaqların unikal xüsusiyyətlərə malik olması və ya yüksək istehlak dəyəri şəraitində torpağa tələb böyük ola bilər. Ona görə də, torpağa qiymət torpaq bazarında əsasən iki faktoru nəzərə almaqla formalaşır: bazarda tələb və təklifin səviyyəsi ilə və torpağın mənimsənilən xüsusiyyətlərinə görə.

Torpaq əmtəə kimi digər əmtəələrdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Bu fərqlərə nəzər salaq.

Torpaq daşınmaz əmtəədir, yəni alıcının arzusu ilə onun yerini dəyişmək mümkün deyildir. O, olduğu yerdə satılır və istifadə olunur.

Torpaq-çoxfunksiyalı, çoxtəyinatlı əmtəədir və sahibkarlıq fəaliyyətinin bütün növləri tərəfindən ona tələb vardır.

Torpaq istehsal prosesində insan əməyinin fəaliyyəti nəticəsində deyil, ilahi varlıq tərəfindən yaradıldığından, o, ilkin başlanğıcdan istehlak dəyərinə malik deyildir. Torpağın ilkin təbii istehlak dəyəri landşaftların tarixi inkişaf prosesi nəticəsində formalaşır.

Torpaqların ilkin təbii istehlak dəyəri tədricən torpaqlardan istifadə prosesində istehsalatın istehlak dəyəri ilə əvəz olunurlar ki, bu dəyərin də həcmi istehsal qüvvələrinin inkişaf səviyyəsi ilə müəyyənləşdirilir. Qeyd etmək lazımdır ki, bu istehlak dəyərinin formalaşması xüsusiyyətlərinə digər əmtəələrin istehlak dəyərlərinin formalaşması bərabər tutulmamalıdır. Belə ki, torpaqların istehlak dəyərinin yaranmasına, formalaşmasına və dəyişməsinə təbii faktorların təsiri daimidir, bu amillər təsirlərini heç vaxt dayandırmırlar. Bu da torpaqlarda faktiki (real) istehlak dəyərinin formalaşmasının özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirir.

Torpaq istehlak vasitəsi kimi əvəzedilməz olduğundan, mənəvi

cəhətdən köhnəlməyə, aşınmaya məruz qalmadığından o, daimi istehlak dəyərinə malikdir.

Müxtəlif torpaq sahələri müxtəlif istehlak xüsusiyyətlərinə malikdirlər. Ona görə də, torpaq sahələrinin bir-birindən fərqli təbii-coğrafi, sosial-iqtisadi şəraitləri hər bir sahədə müxtəlif istehlak dəyərlərinin formalaşmasına səbəb olur.

Bu fəsildə torpağın özünəməxsus xüsusiyyətlərini cəmləşdirərək yekunda onun fərqli cəhətlərini aşağıdakı kimi göstərmək olar:

**təyinati** – çoxfunksiyalı: ekoloji, sosial, siyasi, iqtisadi (istehsal vasitəsi, əmək aləti, istənilən biznes fəaliyyəti üçün məkan bazisi);

**mənşəyi, əmələ gəlməsi** – istehsal edilməyən, insanların arzu və istəyindən asılı olmayıb mövcud olan təbii varlıq;

**qarşiliqlı əvəzedilməsi** – digər heç bir sərvətlə əvəz edilə bilməz;

**istehsalatda dövriyyə müddəti** – müddətsiz (daimi) istifadə;

**istifadə prosesində aşınması** – düzgün istifadə edildikdə aşınmır, özünün istehlak xüsusiyyətlərini itirmir, hətta artırır;

**istehlak dəyərinin formalaşması** – minilliklər ərzində təbii qüvvələrin təsiri ilə, habelə əmək və kapital qoyuluşu ilə həyata keçirilir;

**istifadə prosesində istehlak formasının vəziyyəti** – bütün istifadə müddətində və istifadə edilmədikdə torpağın natural forması saxlanılır;

**sayı (sahəsi)** – daimidir;

**keyfiyyəti** – münbitliyinə, relyef xüsusiyyətlərinə, yerləşmə vəziyyətinə görə müəyyənləşdirilir;

**hərəkət dərəcəsi** – mütləq daşınmazdır. Dəyərinə təsir edən ən böyük faktorlardan biri yerləşmə vəziyyətidir;

**zamana görə dəyərin dəyişməsi** – zaman keçdikcə defisit, inflyasiya və digər faktorlara görə torpağın potensial dəyəri azalmır, əksinə, artır;

**bazarda dövriyyə qabiliyyətliyi** – bəzi torpaq sahələrinin dövriyyəsi ya məhdudlaşdırılıb, ya da dövriyyədən çıxarılıb.

# FƏSİL II.
# TORPAQ EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN VƏ ONLARIN MÜHAFİZƏSİNİN ELMİ–METODİKİ ƏSASLARI

## 2.1. Azərbaycanın torpaq fondunun təyinat funksiyasına görə kateqoriyalara bölgüsü və xarakteristikası

**Azərbaycan torpaqları təyinatına görə 7 kateqoriyaya ayrılır:**

– kənd təsərrüfatı təyinatlı torpaqlar;

– yaşayış məntəqələrinin (şəhər, şəhər tipli qəsəbələrin, kənd yaşayış məntəqələrinin) torpaqları;

– sənaye, nəqliyyat, rabitə, müdafiə və qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar;

– təbiəti mühafizə, sağlamlaşdırma, rekreasiya və tarix-mədəniyyət təyinatlı torpaqlar;

– meşə fondu torpaqları;

– su fondu torpaqları;

– ehtiyat fondu torpaqları.

**Birinci kateqoriyaya kənd təsərrüfatının ehtiyacları üçün verilmiş və ya bu məqsədlər üçün nəzərdə tutulmuş torpaqlar aiddir.**

**Kənd təsərrüfatı təyinatlı torpaqlar aşağıdakılara verilir:**

– Azərbaycan Respublikasının vətəndaşlarına-şəxsi yardımçı təsərrüfat, fərdi və kollektiv bağçılıq, bostançılıq, tərəvəzçilik və heyvandarlıq ilə məşğul olmaq üçün;

– Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, dövlət kənd təsərrüfatı müəssisələrinə, kəndli (fermer) təsərrüfatlarına, birgə kooperativ və digər kənd təsərrüfatı müəssisələrinə və təşkilatlarına – əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalı üçün;

– elmi-tədqiqat və tədris kənd təsərrüfatı müəssisələrinə, kənd texniki-peşə və ümumtəhsil məktəblərinə-tədqiqat, tədris məqsədləri, qabaqcıl təcrübənin təbliği və kənd təsərrüfatı ilə məşğul olmaq üçün;

– qeyri-kənd təsərrüfatı müəssisələrinə, idarələrinə və təşkilatlarına – ictimai birliklərə və dini təşkilatlara yardımçı kənd təsərrüfatı ilə məşğul olmaq üçün.

**İkinci kateqoriyaya-yaşayış məntəqələrinin torpaqları, şəhərlərin, şəhər tipli qəsəbələrin və kənd yaşayış məntəqələrinin**

**sərhədləri daxilində olan torpaqlar aiddir.**

Torpaq məcəlləsində göstərilir ki, şəhər torpaqlarının tərkibinə şəhər tikintisi torpaqları, ümumi istifadədə olan torpaqlar, şəhər hüdudları daxilində kənd təsərrüfatı üçün istifadə edilən torpaqlar, şəhər meşələrinin torpaqları daxildir.

Yaşayış evləri, sənaye, kommunal, mədəni-məişət, ticarət, inzibati, digər binalar, qurğular tikilmiş və bunların tikintisi üçün verilmiş sahələr şəhər tikintisi torpaqlarını təşkil edir.

Meydançalar, küçələr, keçidlər, yollar, sahil boyu əhalinin mədəni-məişət ehtiyaclarının ödənilməsi üçün istifadə edilən və bu cür istifadə üçün nəzərdə tutulan torpaqlar (parklar, meşə-parklar, bulvarlar, bağçalar, sututarlar, stadionlar və s.) və kommunal təyinatlı torpaqlar şəhərlərin ümumi istifadədə olan torpaqlarının tərkibinə daxildir.

Kənd təsərrüfatı sahələrinin yerləşdiyi torpaqlar, habelə geniş yayılmış faydalı qazıntıların çıxarılması üçün istifadə edilən torpaqlar şəhər hüdudları daxilində kənd təsərrüfatı üçün istifadə edilən torpaqların tərkibinə aid edilir.

Torpaq məcəlləsinin müvafiq maddəsində göstərilir ki, şəhər meşə torpaqlarından əhalinin istirahətinin təşkili, mədəni tələbatının ödənilməsi, ərazinin külək və su eroziyasından qorunması üçün istifadə edilir.

**Üçüncü kateqoriyaya-sənaye, nəqliyyat, rabitə, hərb və başqa təyinatlı torpaqlar daxildir.**

Qeyri-kənd təsərrüfatı müəssisələrinə, idarələrinə və təşkilatlarına tapşırılmış vəzifələri həyata keçirmək üçün müvafiq rayon (şəhər) icra hakimiyyəti və ya bələdiyyə orqanları tərəfindən onların istifadəsinə və icarəsinə verilmiş torpaqlar aidiyyatı üzrə sənaye, nəqliyyat, rabitə və başqa tə'yinatlı torpaqlar sayılır.

**Dördüncü kateqoriyaya – təbiəti mühafizə, sağlamlaşdırma, istirahət (rekreasiya), tarix-mədəniyyət təyinatlı və şəhərətrafı yaşıllıq zonalarının torpaqları aid edilir.**

Təbiəti mühafizə təyinatlı torpaqlara qoruqların (ov yasaqlıqları istisna edilməklə), kürü tökülməsi üçün mühafizə zolaqlarının və qadağan edilmiş zolaqların, mühafizə vəzifələrini yerinə yetirən meşələrin yerləşdiyi torpaqlar, mühafizə edilən təbii ərazilər sisteminə daxil edilən torpaqlar, eləcə də təbiət abidələrinin tutduğu torpaqlar daxildir.

Təbiəti mühafizə təyinatlı torpaqlarda onlar üçün müəyyən edilmiş rejimə əməl etməklə məhdud təsərrüfat fəaliyyətinə yol verilir.

Sağlamlaşdırma təyinatlı torpaqlara profilaktikanın və müalicənin təşkili üçün əlverişli təbii müalicə amillərinə malik olan (mineral su mənbələri, müalicə palçıqlarının yataqları və s.) torpaq sahələri aiddir.

Kütləvi istirahət, turizm üçün nəzərdə tutulan və istifadə edilən torpaqlar istirahət (rekreasiya) təyinatlı torpaqlar sayılır.

Bu torpaqlara ərazisində istirahət evlərinin, pansionatların, sanatoriyaların, kempinqlərin, turist sağlamlaşdırma bazalarının, uşaq turist stansiyalarının, parkların, meşə parkların, tədris turist cığırlarının, nişanlanmış yolların, uşaq və idman düşərgələrinin yerləşdiyi torpaq sahələri aiddir.

Tarix-mədəniyyət təyinatlı torpaqlara tarix-mədəniyyət qoruqlarının, xatirə parklarının, qəbirstanların, məzarların, arxeoloji abidələrin və nadir geoloji törəmələrin torpaqları aiddir.

Tarix-mədəniyyət təyinatlı torpaqlarda onların təyinatına zidd olan hər hansı fəaliyyət qadağan edilir.

Şəhər hüdudlarından kənarda yerləşən, şəhər ərazisinin genişləndirilməsi üçün ehtiyat sayılan, abadlaşdırma və şəhər təsərrüfatının normal işləməsi ilə əlaqədar zəruri qurğuların yerləşdirilməsi və tikilməsi üçün nəzərdə tutulan torpaqlar, habelə qoruyucu və sanitar-gigiyena məqsədləri güdən və əhalinin istirahət yeri olan meşələrlə, meşə-parklarla və digər yaşıllıqlarla örtülü torpaqlar müvafiq surətdə rayon (şəhər) icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən şəhər şəhərətrafı zonasına və yaşıllıq zonasına ayrılır.

Mühafizə və sanitar zonaları qoruq torpaqlarının, yaşayış məntəqələrinin, sağlamlaşdırma zonalarının, çayların, bulaqların, su hövzələrinin, hidrotexniki və suötürmə qurğularının, içməli və texniki su təchizatı mənbələrinin ətrafında yaradılır.

**Beşinci kateqoriyaya – meşə fondu torpaqlarına – meşə ilə örtülü olan, habelə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan torpaqlar daxildir.**

Meşəsi olmayan və meşəsi az olan rayonlarda meşə salmaq, dərə və yarğanların böyüməsinin qarşısını almaq, qoruyucu meşə zolaqları salmaq, şəhərlərin və sənaye mərkəzlərinin ətrafında yaşıllıq zonaları yaratmaq məqsədilə dövlət meşə torpaq fondunun tərkibinə müəyyən olunmuş qaydada başqa təyinatlı torpaqlar, ilk növbədə, kənd təsərrüfatına azyararlı və ya yararsız yerlərdən torpaqlar verilə bilər.

Dövlət meşə fondunun torpaqları əsasən meşə təsərrüfatının

aparılması və genişlənməsi (meşələrin bərpası, meşələrin salınması və i.a.) məqsədləri üçün istifadə edilir.

Respublikamızın meşə fondunun sahəsi həm iqtisadiyyatımızın bütün sahələrinin tələbləri baxımından, həm də landşaftda tarazlığın təmini nöqteyi-nəzərdən çox azdır. Hazırda meşə kompleksinin qarşısında duran əsas məsələ Azərbaycan meşələrinə keçmiş şöhrətini qaytarmaqdan ibarətdir. Mövcud meşələrin qorunub saxlanması və sahəsinin artırılması üçün bundan sonra da lazımi və əsaslı tədbirlər görülməlidir. Qiymətli ağac cinsləri əkməklə, yeni meşəliklər salmaqla dövlət meşə fondunun sahəsinin artırılması günün vacib məsələlərindəndir.

**Altıncı kateqoriyaya – sututarların (çaylar, göllər, su anbarları, kanallar), hidrotexniki və digər su təsərrüfatı qurğuları altında olan sahələr, habelə sututarların sahilləri boyunca zolaqlar üçün mühafizə zonaları və sair üçün ayrılan torpaqlar aiddir.**

Su fondu torpaqları əhalinin içməli suya tələbatını, məişət, sağlamlaşdırma və digər ehtiyaclarını təmin edən qurğuların tikintisi və istismarı üçün, eləcə də su təsərrüfatı, kənd təsərrüfatı, sənaye, balıqçılıq təsərrüfatı, energetika, nəqliyyat və digər dövlət və ictimai ehtiyacların təmin edilməsi üçün verilir.

**Yeddinci kateqoriyaya-mülkiyyətə, daimi və uzunmüddətli istifadəyə verilməmiş torpaqlar aiddir. Bu torpaqların tərkibinə qanunla müəyyən edilmiş qaydada üzərində mülkiyyət və istifadə hüquqlarına xitam verilən torpaqlar da daxil edilir.**

Ehtiyat fondu torpaqları rayon (şəhər) bələdiyyələrinin sərəncamındadır.

Ehtiyat fondunun torpaqları Torpaq məcəlləsi ilə müəyyən edilmiş qaydada vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilir.

Azərbaycanın torpaq fondunun kateqoriyalar üzrə təhlili mövcud sahələrdən yalnız səmərəli istifadə edilməsinin, hal-hazırda kənd təsərrüfatında istifadəsiz olan torpaqların bilavasitə istehsalat prosesinə cəlb edilməsinə gündəlik vəzifə kimi baxılmasının zəruriliyini göstərir.

## 2.2. Azərbaycanın torpaq fondunun mülkiyyət formalarına görə bölgüsü və xarakteristikası

Torpaq ehtiyatları təsbit edilmiş mülkiyyət formalarına görə **dövlət mülkiyyətində** saxlanılan torpaqlara (dövlət torpaqları), **bələdiyyə mülkiyyətinə** verilən torpaqlara, (bələdiyyə torpaqları) və **xüsusi mülkiyyətə** verilən torpaqlara ayrılır.

**"Torpaq islahatı haqqında" Qanunun 6-cı maddəsinə görə dövlət torpaqlarının tərkibinə aşağıdakılar aiddir:**

– dövlət hakimiyyət orqanlarının (qanunvericilik, icra, məhkəmə hakimiyyəti orqanlarının) yerləşdiyi torpaqlar;

– dövlət obyektlərinin, dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi yerlər;

– yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

– meşə fondu torpaqları;

– su fondu torpaqları və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunun altında yerləşən torpaqlar;

– təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qorunan ərazilərin torpaqları;

– dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;

– dövlət müəssisələrinin, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya üzərində dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar.

Dövlət torpaqları dövlətin müstəsna mülkü olduğu üçün onların istifadəsi və mühafizəsi sahəsində dövlət nəzarətini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirir.

Bu torpaqlar torpaq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada mülkiyyətə (bələdiyyə və xüsusi), istifadəyə, icarəyə verilə bilər.

Bələdiyyə torpaqlarının tərkibi qanunun 7-ci maddəsində açıqlanır. Bələdiyyə mülkiyyətinə verilən torpaqların sahəsi müvafiq inzibati

ərazinin ümumi sahəsindən dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar çıxılmaqla tapılır.

**Bələdiyyə mülkiyyətinə aşağıdakı torpaqlar daxildir:**

– ümumi istifadədə olan torpaqlar;

– fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar;

– ehtiyat fondu torpaqları.

Ümumi istifadədə olan torpaqlara, bir qayda olaraq, şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin küçələri, meydanları, yolları, bağları, meşə-parkları, sututarları, stadionları və idman meydançalarının tutduğu torpaqlar, habelə əhalinin mal-qarası üçün örüş sahələri, yaşayış məntəqələrini birləşdirən yolların, təsərrüfatdaxili yolların, tarlaqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin, hidro-texniki qurğuların və ümumi istifadədə olan digər obyektlərin yerləşdiyi torpaqlar aiddir.

Fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlara onların daimi və ya uzunmüddətli istifadəsində olan bələdiyyə torpaqları daxildir.

**Bələdiyyə ehtiyat fondu torpaqları aşağıdakılardır:**

– yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan yerlər;

– sovxozların, kolxozların və digər kənd təsərrüfatı müəssisələrinin islahatı zamanı bələdiyyə mülkiyyətinə verilən torpaqlar;

– fiziki və hüquqi şəxslərin qısamüddətli istifaəsinə verilmiş torpaqlar;

– fiziki şəxslərin daimi və ya uzunmüddətli istifadə hüququna xitam verilən torpaqlar;

– başqalarının daimi istifadəsinə və mülkiyyətinə verilməmiş digər torpaqlar.

Bələdiyyənin ehtiyat fonduna sovxoz və kolxozların kənd təsərrüfatına yararlı torpaqlarının 5 faizdən çox olmayan hissəsi, kənd təsərrüfatına azyararlı, yararsız torpaqları bütövlükdə ayrılmışdır. Bu fonda ayrılan kənd təsərrüfatına yararlı torpaqların ölçüsü və yeri, yerli islahat komissiyaları ilə birlikdə rayon aqrar islahat komissiyaları tərəfindən sovxozun və ya kolxozun torpaq ehtiyatlarından, torpaq payı almaq hüququ olanların sayından və rayon üzrə adambaşına düşən orta torpaq payından asılı olaraq müəyyən edilir.

Bələdiyyənin ehtiyat fondunun torpaqları həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni həyata keçirən bələdiyyə tərəfindən ümumi istifadəyə, fiziki və hüquqi şəxslərin istifadəsinə, icarəsinə və ölkə

vətəndaşlarının və hüquqi şəxslərin mülkiyyətinə verilə bilər.

"Torpaq islahatı haqqında" Qanunun 19-cu maddəsi bələdiyyənin ehtiyat fondunun kənd təsərrüfatına azyararlı və ya yararsız torpaqlarını öz vəsaitləri hesabına yararlı hala salmaqla kənd təsərrüfatı məhsulları istehsal etmək istəyən Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə torpaq sahələrinin verilməsində (satılmasında) güzəştlərin tətbiq edilməsini nəzərdə tutur.

Qanunla vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların altında olan torpaqlar, habelə sovxoz və kolxozların özəlləşdirilən torpaqları xüsusi mülkiyyətə verilir.

Kənd təsərrüfatı təyinatlı torpaqlardan tam, dolğun və səmərəli istifadəni təmin etmək məqsədilə respublikamızın torpaq qanunvericiliyi torpaq mülkiyyətçilərinin, istifadəçilərinin (icarədarların) hüquq və vəzifələrini müəyyənləşdirir.

Torpaq mülkiyyətçisinə torpaqda müstəqil təsərrüfatçılıq etmək hüququ verilir. Torpaq mülkiyyətçisi, habelə torpaq sahəsində olan və geniş yayılmış faydalı qazıntılardan, torflardan, meşəliklərdən, su obyektlərindən təsərrüfatın ehtiyacları üçün müəyyən olunmuş qaydada istifadə etmək hüququna malikdir. Torpaq mülkiyyətçilərinə istehsal edilmiş kənd təsərrüfatı məhsulu və onun satışından götürülən gəlir üzərində, həmçinin kənd təsərrüfatı bitkilərinin səpinləri və əkinləri üzərində mülkiyyət hüququ verilir. Yeni torpaq mülkiyyətçisinə imkan verilir ki, torpağın geri alındığı və ya torpaq sahəsindən könüllü imtina edildiyi halda torpağın münbitliyinin artırılmasına çəkilən xərclərin tam əvəzini alsın. Mülkiyyətçi həmçinin müəyyən edilmiş qaydada yerquruluşu layihələrinə və təbiəti mühafizə tələblərinə uyğun olaraq meliorasiya işləri aparmaq hüququna malikdir. O, öz mülkünün hamısını və ya hər hansı bir hissəsini qanunçuluq çərçivəsində istifadəyə (icarəyə) verə bilər. Mülkiyyətçi habelə qanunvericiliklə müəyyən olunmuş qaydada torpağını satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, vərəsəlik və irsən vermək hüququna malikdir.

Torpaq istifadəçilərinin (icarədarların) hüquqları mülkiyyətçilərə nisbətən bir qədər məhduddur. Bunlar ilk növbədə torpaqdan təyinatı üzrə istifadə hüququna malikdirlər. Qadağan edilmiş bitkilər istisna olmaqla istifadəçilər (icarədarlar) istehsal etdikləri kənd təsərrüfatı məhsulları

üzərində mülkiyyət hüququna malikdirlər. Onlar həmçinin müqavilə şərtlərini pozmamaqla icarə etdikləri sahələrdə istehsal təyinatlı müvəqqəti yardımçı tikililər və qurğular ucalda bilərlər.

Hüquqi dövlətdə fərdlərin, kollektivlərin hüquqları onların vəzifələri ilə tamamlanmalıdır. **Qanunvericilik torpaq mülkiyyətçilərinin, istifadəçilərinin (icarədarların) vəzifələrini aşağıdakı kimi müəyyənləşdirir:**

– torpaqdan təyinatına və verilməsi şərtlərinə müvafiq surətdə istifadə etmək;

– torpaqdan səmərəli istifadə etmək, təbiətqoruyucu istehsal texnologiyalarını tətbiq etmək, təsərrüfat fəaliyyətində ərazinin ekoloji vəziyyətinin pisləşməsinə yol verməmək;

– kompleks mühafizə tədbirlərini həyata keçirmək;

– torpaq vergisini və ya torpaq üçün icarə haqqını vaxtında ödəmək;

– başqa torpaq mülkiyyətçilərinin, istifadəçilərin və icarəçilərin hüquqlarını pozmamaq;

– torpaq sahəsində olan mərz və geodeziya nişanlarını qoruyub saxlamaq;

– torpağın istifadəsi vəziyyətinə dair qanunvericiliklə müəyyən edilmiş məlumatları müvafiq orqanlara vaxtında vermək.

Mülkiyyətçilərin, istifadəçilərin və icarədarların hüquqları qanunla qorunur. Dövlətin, bələdiyyə idarələrinin və digər təşkilatların istehsal prosesinə zərər vuran, onların hüquqlarına xələl gətirən müdaxilələrinə icazə verilmir. Amma müstəsna hallarda vətəndaşların, dövlət müəssisələrinin və digər idarə və təşkilatların torpaqları dövlət ehtiyacları, ictimai məqsədlər üçün geri alına bilər.

Vətəndaşlara verilmiş torpaq sahəsi dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün yalnız o şərtlə geri alına bilər ki, onların arzusu ilə torpağı geri alan orqanlar eyni ölçüdə və keyfiyyətdə torpaq sahəsi ayırsınlar, habelə torpaq sahəsinin ayrıldığı müəssisələr, idarələr və təşkilatlar torpaqla birlikdə geri alınan yaşayış, istehsal və başqa tikililərin əvəzinə yeni yerdə təzələrini tiksin və qanunçuluğa uyğun olaraq bütün qalan zərəri tam həcmdə ödəsinlər.

Dövlət kənd təsərrüfatı müəssisələrinin, elmi-tədqiqat idarələrinin və tədris müəssisələri təsərrüfatlarının və digər kənd təsərrüfatı və ictimai müəssisələrin torpaqları da dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün qanunçuluqla müəyyən edilmiş şərtlər daxilində geri alına bilər.

## 2.3. Azərbaycanın torpaq fondunun zonalaşdırılmasının məzmunu və mahiyyəti

Təbiətdən səmərəli istifadə edilməsi, tarixi-mədəni irsin və ətraf mühitin mühafizəsi, əhalinin məskunlaşması, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 may 2000-ci il tarixli qərarı ilə "Torpaqların zonalaşdırılmasının ümumi əsasları və prinsipləri" təsdiq edilmişdir. Hökumətin bu sənədində bütün növ torpaq zonalarından istifadənin norma və qaydalarını tənzimləyən ümumi əsaslar və müddəalar öz əksini tapmışdır. Aşağıda sözügedən sənədə istinadən ölkə torpaqlarının zonalaşdırılmasının ümumi əsasları və prinsipləri verilmişdir.

Respublika torpaqlarının zonalaşdırılması iki səviyyədə aparılmışdır:

I səviyyə-Azərbaycan Respublikasının bütün ərazisinin zonalaşdırılması;

II səviyyə-şəhər və digər yaşayış məntəqələri ərazilərinin zonalaşdırılması.

**I səviyyədə aparılmış zonalaşdırmaya görə Azərbaycan Respublikasının bütün ərazisi aşağıdakı zonalara ayrılmışdır:**

**– Respublikanın regional qruplar sistemləri daxilində mövcud şəhər, digər yaşayış məntəqələri və onların perspektiv inkişafı üçün nəzərdə tutulan ehtiyat torpaq zonaları;**

**– Regional qruplar sistemləri daxilindən kənar yeni salınacaq şəhər və digər yaşayış məntəqələri üçün nəzərdə tutulan ehtiyat torpaq zonaları;**

**– Arxeoloji, memarlıq abidələri və onların qalıqları müəyyən olunmuş zonalar;**

**– Kənd təsərrüfatına yararlı torpaqlar, yaylaq və qışlaq zonaları;**

**– Yer səthində və yerin təkində yerləşən (perspektiv geoloji axtarış sahələri də daxil olmaqla) mineral ehtiyatlar zonaları;**

**– Yaşayış məntəqələrindən kənar hərbi şəhərciklər və poliqonlar zonası;**

**– Perspektiv nəqliyyat koridorları və qovşaqları daxil olmaqla ölkələrarası, ölkədaxili, şəhərlərarası tranzit dəmir yolları, avtomobil yolları və qovşaqları, hava nəqliyyatının yerüstü qovşaqları və onların mühafizə zonaları;**

**– Ölkələrarası, ölkədaxili, şəhərlərarası neft, qaz, elektrik, rabitə**

**kəmər və xətlərinin mühafizə zolaqları ilə birlikdə zonaları;**

– **Meşə fondu zonaları;**

– **Xəzər dənizinin (gölünün) qalxması və enməsi ilə əlaqədar subasma zonaları;**

– **Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (zonası);**

– **Çay, açıq su hövzələri, kanallar və kollektorlar zonası;**

– **Dağ çaylarının daşqınından mühafizə zonaları;**

– **Təbii və texnogen xarakterli fövqəladə halların təsiri ilə su anbarlarının susaxlama qabiliyyətinin itirilməsi nəticəsində subasma izometriya xətləri arasında su altında qala biləcək zonalar;**

– **Turizm və rekreasiya zonaları;**

– **Təbii qoruq zonaları;**

– **Dağ zonaları;**

– **Radioaktiv və kimyəvi tullantıların basdırılma zonaları;**

– **Xüsusi neft-qazçıxarma-antropogen zonalar.**

Bu zonaların ümumi əsasları və prinsipləri ayrı-ayrılıqda aşağıdakı kimi açıqlanır.

**Respublikanın regional qruplar sistemləri daxilində mövcud şəhər, digər yaşayış məntəqələri və onların perspektiv inkişafı üçün nəzərdə tutulan ehtiyat torpaq zonaları**

Tarixi məskunlaşma və əhalinin daxili təbii miqrasiyaya cəlb olunması əsasında Azərbaycan Respublikasının mövcud yaşayış məntəqələrinin və onların perspektiv inkişaf sahələrinin Bakı-Sumqayıt, Quba-Xaçmaz, Şamaxı-İsmayıllı, Mingəçevir-Yevlax, Şəki-Zaqatala, Əli Bayramlı-Salyan, Lənkəran-Astara, Ağdam-Xankəndi-Laçın, Gəncə-Qazax, Göyçay-Ağdaş, Naxçıvan-Ordubad təbii məskunlaşma regionlarında birləşməsi zəruridir.

Respublika daxilində ayrılmış 11 regional qrup bütün yaşayış məntəqələrini əhatə edib, hər biri ayrı-ayrılıqda özünün cazibə zonasında yerləşən 4-5 inzibati rayonun yaşayış məntəqələrini birləşdirərək, daxili nəqliyyat strukturu ilə mərkəz şəhərində yerləşdirilmiş bütün regionun əhalisinin sayına hesablanmış sənaye, mədəni-məişət, təhsil, səhiyyə və digər obyektlərin fəaliyyətini təmin edir.

Burada məqsəd Bakı-Sumqayıt regionunda hipertrofik inkişafın və işçi qüvvələrinin Abşeron istiqamətində miqrasiyasının qarşısını almaqdan, respublika ərazisində torpaqlardan maksimum səmərəli istifadə

olunmasını və qorunmasını təmin etməkdən, əhalinin yaşayış səviyyəsinin, iqtisadiyyatın, sənaye və kənd təsərrüfatı komplekslərinin inkişaf tempinin qısa müddətdə yüksəldilməsindən, xidmət obyektlərini və mədəni-maarif müəssisələrini əhaliyə maksimum yaxınlaşdırmaqdan, respublika paytaxtından uzaqda formalaşmış yaşayış məntəqələrinin, xüsusilə sərhədyanı zonaların, habelə Naxçıvan Respublikasının qısa müddətdə inkişafını təmin etməkdən ibarətdir.

Sözügedən sənəddə göstərilir ki, şəhər, qəsəbə, kənd yaşayış məntəqələrinin, müvəqqəti geoloji ekspedisiyaların, turizm bazalarının, çoban yataqlarının (yaylaqda və qışlaqda), arıçılıq düşərgələrinin, nəqliyyat dayanacaqlarının və onların gələcək inkişaf sahələrinin formalaşması, habelə bir-birinə yaxın yerləşmiş və gələcəkdə formalaşan aqlomeriasiyaların qarşısını ala biləcək yaşayış məntəqələrinin qarşılıqlı inkişaf istiqamətləri respublika və regionlar miqyasında hazırlanan müvafiq planlaşdırma layihələri ilə müəyyənləşdirilir.

**Regional qruplar sistemləri daxilindən kənar yeni salınacaq şəhər və digər kənar yaşayış məntəqələri üçün nəzərdə tutulan ehtiyat torpaq zonaları.**

Buraya Azərbaycan Respublikasının perspektiv iqtisadi inkişafını təmin etmək məqsədi ilə sənaye, kənd təsərrüfatı və digər obyektlərin və həmin obyektləri işçi qüvvəsi ilə təmin edəcək yaşayış məntəqələrinin salınması üçün nəzərdə tutulan torpaq sahələri aiddir.

**Arxeoloji, memarlıq abidələri və onların qalıqları müəyyən olunmuş zonalar.**

Sözügedən sənəddə tələb olunur ki, dövlət tərəfindən müvafiq qaydada müəyyənləşdirilmiş tarixi-mədəni, memarlıq abidələrinin yerləşdiyi ərazilərdə, onların qoruq zonalarında xüsusi arxitektura-arxeoloji axtarış qrupunun fəaliyyəti istisna olmaqla, insan fəaliyyətinin qalan bütün növləri məhdudlaşdırmalı, aşkar olunmuş arxeoloji, memarlıq abidələri və onların qalıqlarından aralı məsafədə həmin qoruq zonalarının sərhədləri müvafiq qaydada müəyyənləşdirilməlidir.

**Kənd təsərrüfatına yararlı torpaqlar, yaylaq və qışlaq zonaları.**

Buraya hal-hazırda əkin üçün istifadə olunan və gələcəkdə əkiləcək yararlı torpaq əraziləri, yaylaq və qışlaq zonaları, kənd təsərrüfatında (heyvandarlıqda) istifadə olunan ərazilər və tikililər aiddirlər.

Kənd təsərrüfatına tam yararsız zonaları bataqlıqlar, şoran torpaqlar, sürüşməyə məruz qalmış və s. ərazilər təşkil edir.

**Yer səthində və yerin təkində yerləşən (perspektiv geoloji axtarış sahələri də daxil olmaqla) mineral ehtiyatlar zonaları.**

Bu zonaların ərazisindəki sərvətlərin istehsal üsulundan asılı olaraq burada yaşayış obyektləri, laboratoriya və texnika üçün açıq və örtülü sığınacaqlar, anbar binaları və s. qurğular müvafiq təhlükəsizlik normalarına əməl olunmaqla yerləşdirilməlidir. Partlayış metodundan istifadə olunduqda, filiz və ya başqa maddələrin çıxarılması nəticəsində sürüşmə, dağ ətəyinin uçurulması, çökmə proseslərinin baş verə biləcəyi gözlənilirsə, bunların zonasında yerləşən yaşayış məntəqələrinə və su anbarlarına edilə biləcək təsir nəzərə alınmalı, möhkəmləndirmə işlərinin görülməsi və ya yaşayış məntəqələrinin köçürülməsi nəzərdə tutulmalıdır.

**Yaşayış məntəqələrindən kənar hərbi şəhərciklər və poliqonlar zonası.**

Bu zonaya kənardan gələnlər üçün qadağan məsafələri müəyyən olunmaqla, burada keçid buraxılış məntəqələri yaradılmalıdır. Poliqon zonalarında məşq, mərmi və atıcı silahların uçuş dairələri müəyyənləşdirilərkən sərhəd məsafələrinin təhlükəsizliyi nəzərə alınmalıdır. Bu zonaların ərazisində yaşayış məntəqəsinin salınması, heyvandarlıq və əkinçilik məqsədləri üçün istifadə edilməsi zamanı təhlükəsizliyi təmin edən qaydalara riayət olunmalıdır.

**Perspektiv nəqliyyat koridorları və qovşaqları da daxil olmaqla ölkələrarası, ölkədaxili, şəhərlərarası tranzit dəmir yolları, avtomobil yolları və qovşaqları, hava nəqliyyatının yerüstü qovşaqları və onların mühafizə zonaları.**

Perspektiv nəqliyyat koridorları və qovşaqları da daxil olmaqla ölkələrarası, ölkədaxili, şəhərlərarası, tranzit dəmir yolları, avtomobil yolları və qovşaqları, hava nəqliyyatının yerüstü terminalları, dəhlizləri və onların mühafizə qovşaqları zonaları şəhər və digər yaşayış məntəqələrindən müvafiq normalarla müəyyən olunmuş məsafədə yerləşdirilməli, onların ərazisini kəsib keçməməlidir.

Bu zonada təyyarə meydançalarının uçuş və eniş zolaqları, istiqamətli hava dəhlizlərinin yaşayış məntəqələrindən müvafiq normativlərə əsasən aralı yerləşdirilməsi təmin olunmalıdır.

**Ölkələrarası, ölkədaxili, şəhərlərarası neft, qaz, elektrik, rabitə kəmər və xətlərinin mühafizə zolaqları ilə birlikdə zonaları.**

Bu zonaların sərhədləri ölkələrarasi, ölkədaxili, şəhərlərarası neft, qaz kəmərləri və elektrik xətlərinin mühafizə zolaqları zonaları bu xətlər

və kəmərlər boyu hər iki tərəfə müvafiq texniki normativlər nəzərə alınmaqla müəyyənləşdirilməlidir.

**Meşə fondu zonaları.**

Azərbaycanda yerləşən bütün tip dağ, dağətəyi, dəniz sahili meşələr və Kür çayı vadisi boyunca Tuqay meşələrinin torpaqları respublika meşə fondu zonasını təşkil edir. Rekreasiyaya yararlı olan bu zonalar ətrafda yerləşən yaşayış məntəqələrinin əhalisi üçün istirahət zonası kimi də istifadə edilə bilər.

**Xəzər dənizinin (gölünün) qalxması və enməsi ilə əlaqədar subasma zonaları.**

Xəzərin su səviyyəsinin dəyişməsi səbəblərinin elmi əsası dəqiq müəyyən olunmadığından onun dəyişməsi həddi də dəqiq müəyyən edilməmişdir. Bu səbəbdən səviyyənin hüdudunun son 100 il ərzində maksimum həddini müəyyən edərək, həmin subasma horizontu zonasına böyük kapital qoyuluş tələb edən yaşayış, ictimai, sənaye obyektlərinin tikilməsi qadağan edilməlidir. Əgər belə qurğuların tikilməsi vacibdirsə, yaxud dənizlə əlaqədardırsa, onların tikintisində müəyyən olunmuş subasma izometriya xəttinin maksimum subasma hündürlüyü nəzərə alınmalıdır.

**Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (zonası).**

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (zonası) aşağıdakı unikal funksiyaların yerinə yetirilməsinə zəmin yaradır:

– eyni zamanda bir neçə xarici ölkələrlə sərhəd zonasını təşkil edərək, onlarla su nəqliyyat əlaqələrinə;

– Volqa çayı vasitəsi ilə ümumdünya su dəhlizləri, okeanlar ilə gəmiçilik nəqliyyatı əlaqələrinə;

– respublika paytaxtının, Abşeron regionunun və eləcə də bütün Xəzərsahili zonaların Mingəçevir gölünədək, Kür çayı vasitəsi ilə dənizlə su nəqliyyatı əlaqələrinin yaradılması ilə bərabər, Kürboyü Tuqay meşə zonalarının rekreasiya zonaları kimi istifadə olunmasına;

– balıqçılıq təsərrüfatı və sənayesinin inkişaf etdirilməsinə;

– dəniz dibindən neft və qaz yataqlarının istismarına.

**Çay, açıq su hövzələri, kanallar və kollektorlar zonası.**

Bu zonalara çaylar, kanallar, kollektorlar, təbii və süni göllər, habelə digər daimi axını olan və qurumayan yerüstü suaxarları və sututarları

daxildir. Bu zonadan suvarma məqsədləri və rekreasiya üçün istifadə olunması və mühafizə zonasından istifadə rejimi müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

**Dağ çaylarının daşqınından mühafizə zonaları.**

Burada dağ çaylarının daşqınından mühafizə zonalarında yerləşən yaşayış məntəqələrinin inkişaf etdirilməsi, binaların və qurğuların, sənaye obyektlərinin və digər əsaslı tikintilərin yerləşdirilməsi qadağan edilmə-lidir. Əsaslandırılmış hallarda bu ərazilər də birillik kənd təsərrüfatı bitkilərinin əkini üçün istifadə oluna bilər.

**Təbii və texnogen xarakterli fövqəladə halların təsiri ilə su anbarlarının susaxlama qabiliyyətinin itirilməsi nəticəsində subasma izometriya xətləri arasında su altında qala biləcək zonalar.**

Su anbarlarının fəlakət nəticəsində susaxlama qabiliyyətinin itirilməsi hallarında nəzərdə tutulan subasma izometriya horizont xətləri arasında su altında qalabilmə ehtimalı olan zonaların az kapital qoyuluşu qeyri-yaşayış məqsədləri üçün istifadə olunması (heyvandarlıq, əkinçilik və s.) mümkündür. Bu zonalarda böyük kapital qoyuluşlu ilə tikinti və mühəndis avadanlıqları qurularkən baş verə biləcək fəlakətin nəticələri nəzərə alınmalıdır.

**Turizm və rekreasiya zonaları.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin sözügedən qərarında göstərilir ki, Abşeron yarımadasından şimala və cənuba, Xəzər dənizi sahillərində, Araz çayı sahillərində, Naxçıvan Muxtar Respublikası ərazi-sində, Araz su qovşağı sahillərində, Qubadlı, Şuşa, Laçın, Zəngilan, Cəbrayıl, Şəki-Zaqatala, Şamaxı-Pirqulu, İsmayıllı, Masallı-Yardımlı, Lənkəran-Lerik zonalarında, Şahdağ və Murovdağ zirvələri və dağətəyi sahələrdə, habelə qanunvericiliyə uyğun olaraq ayrılmış digər sahələri əhatə edən turizm və rekreasiya zonalarının ərazilərində idman, turizm, alpinizm, qısa və uzunmüddətli, aktiv və passiv istirahət ocaqları, müva-fiqmiqyaslı mehmanxana, kempinqlər, istirahət məqsədləri üçün çadır şəhərcikləri yaradıla və fəaliyyət göstərə bilər.

Bu zonalarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada turizm infrastrukturu yaradıla və inkişaf etdirilə bilər.

Müalicə müəssisələri, sanatoriya və istirahət evlərinin bu zonalarda yerləşdirilməsi, onlarda kurort fəaliyyətinin yaradılmasına gətirib çıxarır.

**Təbii qoruq zonaları.**

Dövlət tərəfindən təsdiq olunmuş təbii qoruq zonalarının (Zaqatala, İlisu, İsmayıllı, Pirqulu, Qızılağac, Hirkan, Göygöl, Türyançay, Ağgöl, Altıağac, Bəsitçay, Qaragöl, Qarayazı və Şirvan) təyinatı, ümumi əsasları və prinsipləri flora və faunanın qorunmasını təmin edir. Bu zonada flora və faunanın qorunub saxlanılması məqsədi ilə kiçikhəcmli müvafiq tikililər və qurğular inşa edilə bilər.

**Dağ zonaları.**

Bu zonalara aid edilən ərazilər Baş Qafqaz sıra dağlarından, Şahdağ, Qaradağ, Murovdağ, Bozdağ silsilələrindən, Samur silsiləsinin bir hissəsindən, Dərələyəz və Zəngəzur silsilələrinin bir hissəsindən ibarətdir. Bu zonanın ərazilərindən heyvandarlıq və arıçılıq təsərrüfatları üçün, habelə turizm və alpinizm idman-rekreasiya məqsədləri üçün istifadə etməklə dağ kəndlərinin yaşayış məntəqəsi kimi fəaliyyəti bərpa oluna bilər.

**Radioaktiv və kimyəvi tullantıların basdırılma zonaları.**

Bu zonalar xüsusi sanitar normalarına müvafiq şəhər və digər yaşayış məntəqələrindən aralı yerləşdirilməlidir.

Belə zonalar ətrafında aidiyyəti normativlərə əsasən bütün parametr boyu mühafizə məsafəsində hər bir insan və təsərrüfat fəaliyyəti qadağan olunmalıdar. Bu zonada atmosfer çöküntülərindən törənmiş su axımının istifadə olunan su hövzələrinə yönəldilməsi yolverilməzdir. Eləcə də, bu zonada mövcud içməli su mənbələrindən istifadə etməklə sanitar-ekoloji mühafizə zonaları müəyyən olunmalı, dağ-mədən və digər işlərin aparılması müvafiq təşkilatlarla razılaşdırılmalıdır.

**Xüsusi neft-qazçıxarma antropogen zonaları.**

Bu zonalar Azərbaycan Respublikasında mövcud olan aşağıdakı 4 növ neft-qazçıxarma zonalarını xarakterizə edir:

– hal-hazırda istismarda olan zonalar;

– qismən istifadədə olan və rekultivasiya tələb edən boşalmış zonalar;

– istismarı sona yetmiş zonalar;

– dəniz təkindən neft-qazçıxarma zonaları.

Rekultivasiyası tələb olunan zonalarda bu torpaqların istifadəsi (yaşayış, yaşıllıq, nəqliyyat dəhlizi, kənd təsərrüfatı və s. məqsədlər üçün) üzrə bərpa və tikinti-quraşdırma işlərinin eyni vaxtda aparılması prinsiplərinə üstünlük verilir.

**II səviyyədə aparılmış zonalaşdırmaya görə şəhər və digər yaşayış məntəqələri əraziləri aşağıdakı zonalardan ibarətdir:**

**– yaşayış zonaları;**

**– ümumşəhər ictimai mərkəz zonası;**

**– sənaye zonaları;**

**– mühəndis, şəhərdaxili və şəhərdənkənar nəqliyyat infra-strukturu zonası;**

**– ümumşəhər istirahət zonası;**

**– akademiya şəhərciyi, elmi-tədqiqat mərkəzləri, konstruktor büroları və eksperimental bazalar zonası;**

**– tələbə şəhərcikləri, ali və orta təhsil ocaqları zonası;**

**– kommunal-anbar zonaları;**

**– ixtisaslaşdırılmış taxıl, tərəvəz və qida anbarları zonası;**

**– botanika bağı və dendroloji park zonaları;**

**– xüsusi təyinatlı zonalar;**

**– sanitar qoruq zonaları;**

**– şəhərətrafı zonalar;**

**– ümumşəhər idman meydançaları, olimpiya şəhərciyi və digər idman obyektlərinin yerləşdiyi zonalar;**

**– dini təmsil edən obyektlərin yerləşdiyi zonalar.**

Bu zonaların ümumi əsasları və prinsipləri ayrı-ayrılıqda aşağıdakı kimi şərh edilir:

**Yaşayış zonaları.**

Bu zonalarda yerləşdirilməsi vacib olan obyektlər bunlardır: bütün növ yaşayış binaları, ictimai bina və mədəni-məişət obyektləri, bağlar, bulvar və bağçalar, digər yaşıllıqlar və zonaya məxsus küçə və meydanlar, metro stansiyaları.

Zonada bu obyektlərin yerləşdirilməsi qanunauyğundur: ümumşəhər əhəmiyyətli inzibati və təsərrüfat obyektləri, təhsil ocaqları, elmi-tədqiqat institutları, minik avtomobilləri üçün qaraj və dayanacaqlar, ətraf mühitə zərərsiz olan V qrup sənaye obyektləri.

Bu zonada yerləşdirilməsi qadağan olunan obyektlər bunlardır: I-IV qrup sənaye obyektləri, dəmir yolu qanadları, irihəcmli qarajlar və ekoloji çirkləndirməyə qadir obyektlər.

Yaşayış zonalarının ərazi planlaşdırılması aparılarkən torpaq sahələrinin təbii və sanitariya xüsusiyyətləri nəzərə alınmalıdır. Bu baxımdan ərazi tikintiyə yararlı, tikintiyə azyararlı və yararsız torpaq

sahələrinə bölünür. Bu sahələrin qısa xarakteristikasına nəzər salaq.

a) Tikintiyə yararlı torpaq sahələri

Yer təkinin geoloji quruluşu, seysmoloji vəziyyəti tədqiqatlar və uzunmüddətli proqnozlaşdırmalar əsasında müəyyənləşdirməklə 100 ildə bir dəfə (1% təminatla) 4-5 bal gücündə baş verən yeraltı təkanlar nəticəsində yer qabığının çatlaması baş verən, vulkan və karstlar gözlənilməyən, bataqlıq olmayan, torpaq sürüşməsi, dağ uçurumu və qar sürüşmələrinə tamamilə məruz qalmayan, su hövzələrinin təsirindən uzaq olan, dərinliyi 3 metrədək, kənarları maili, genişlənmə prosesinə məruz qalmayan yarğan və dərəli, 100 ildə bir dəfə subasmaya məruz qalan, mailliyi 0,5%-dən 10%-ə qədər və torpağa buraxıla bilən gərginliyi ən azı 1,5 kq/kv.sm. olan, habelə təzyiqsiz qrunt suları torpaq səthindən 3 metr dərinlikdə yerləşən, qrunt sularından qorunmaq üçün izolyasiyası tələb olunmayan sahələr yaşayış zonalarının tikintiləri üçün yararlı hesab olunur.

b) tikintiyə azyararlı torpaq sahələri.

100 ildə bir dəfə (1% təminatla) 5-7 bal və 25 ildə bir dəfə (4% təminatla) 4-5 bal gücündə baş verən yeraltı təkanlar nəticəsində yer qabığının çatlaması baş verən, karst və vulkanlar proqnozlaşdırılmayan, bataqlıq sahələrinin qurudulması üçün xüsusi tədbirlər görülməsinə böyük vəsait tələb olunan, dağ uçurumundan, torpaq və qar sürüşməsindən qorunmaq üçün təbii və süni mühafizə qurğularının yaradılması iqtisadi cəhətdən əlverişli olmayan, su hövzələrinə yaxın bir sıra yerlərdə sahillərin yuyulması və aşılanması baş verən, kiçik sahələrdə dərinliyi 10 metrə qədər olan yarğan və ya dərələr əmələgəlməsi prosesi az miqdarda olan, yamaclarının bərkidilməsi tələb olunan, sönmüş vulkan və karstların az miqdarda olduğu, palçıq püskürməsinin təkrarı gözlənilən, 25 ildən 100 ilədək olan müddətə subasmaya məruz qalan, mailliyi 0,5%-dən az və 10-20%-ə qədər (dağ rayonlarında 30%-ə qədər) və torpağa buraxıla bilən gərginliyi 1,0-1,5 kq/kv. sm. olan, qrunt sularının səviyyəsi torpaq səthindən 1-3 m. dərinlikdə yerləşən, qrunt suları səviyyəsinin aşağı salınması vacib olan və mürəkkəb hidroizolyasiya tələb edən sahələr tikinti üçün azyararlı sahələr hesab olunur.

Bu sahələrdə əlavə xərclər tələb edən müvafiq tədbirlər nəzərə alınmaqla tikinti işləri aparıla bilər.

c) Tikintiyə tam yararsız torpaq sahələri.

100 ildə bir dəfə (1 % təminatla) 7 bal gücündən çox və 25 ildə bir

dəfə 4-5 bal gücündə baş verən yeraltı təkanların gözlənilməsi, yer qabığının çatlaması, karst və vulkanların fəaliyyət hallarının birinin gözlənilməsinin proqnozlaşdırması mümkün olan, çox miqdarda aktiv karstları, yeraltı boşluqları olan, hədsiz miqdarda bataqlaşmaya məruz qalan və qurudulmasına böyük vəsait tələb olunan, aktiv torpaq sürüşməsi, dağ uçurumu və qar sürüşmələrinin təsir zonalarında yerləşən, dərinliyi 10 metrdən çox, yamacları kəskin mailli, sıldırım, intensiv yarğan və dərəəmələgəlmə prosesinə və sürüşməyə məruz qalan, çoxlu miqdarda yamaclarının bərkidilməyə ehtiyacı olan, 25 ildə bir dəfə subasmaya məruz qalan, su hövzələrindən aşağı səviyyədə yerləşən, mailliyi 20%-dən çox olan, axan və mikroməsaməli olan, qrunt suları torpaq səthindən 1 metrə qədər dərinlikdə yerləşən torpaq sahələri tikintiyə tam yararsız hesab olunur.

**Ümumşəhər ictimai mərkəz zonası.**

Burada inzibati-təsərrüfat obyektləri, mehmanxanalar, parklar, bulvar, bağ və bağçalar, irihəcmli avtomobil dayanacaqları, həmin zonanı təmin edən küçə və meydançalar yerləşdirilir. Bu zonalarda həmçinin ayn-ayrı yaşayış binalarının yerli mədəni-məişət müəssisələrinin (yaşayış zonası varsa), minik maşınları üçün qarajların, iri idman meydança və qurğularının yerləşdirilməsinə icazə verilir.

**Sənaye zonaları.**

Sənaye zonaları şəhər və digər yaşayış məntəqələrinin içində olmaqla yaşayış zonalarından kənarda yerləşdirilir. Sənaye və yaşayış zonaları arasında yerləşən sanitar-mühafizə zonasının eni sənayenin ekoloji təmizliyindən, onun atmosferi çirkləndirmə dərəcəsindən, küləyin istiqaməti və gücündən asılı olaraq müəyyənləşdirilir.

Bu zonada sənaye obyektləri və yalnız sənayenin fəaliyyətini təmin edən qeyri-yaşayış obyektləri, o cümlədən dəmir yolu qanadları, avtomobil yolları və meydançaları, digər nəqliyyat obyektləri, sənaye zonasına aid olan mədəni-məişət obyektləri, işçilərin dincəlməsi üçün yaşıllıq zonaları, habelə sanitar yaşıllıq-mühafizə zonaları yerləşdirilə bilər. Burada sənaye prosesinə birbaşa aidiyyəti olmayan anbarların, kommunal və nəqliyyat qurğularının yerləşdirilməsinə müstəsna hallarda icazə verilə bilər.

Sənaye zonasının ərazisi sənaye obyektlərinin həcm-fəza həlli ilə yanaşı, torpaq sahələrinin təbii və sanitariya cəhətləri nəzərə alınmaqla planlaşdırılır.

Bu baxımdan ərazi yararlı, azyararlı, tam yararsız torpaq sahələrinə bölünür.

a) Tikintiyə yararlı torpaq sahələri-nisbətən düzənlik və mailliyi 0,3%-dən 5%-dək olan, qruntu birtərkibli geoloji quruluşlu, torpağa buraxıla bilən gərginliyi 1,5 kq./kv.sm-dən az olmayan, bina və qurğuların özüllərinin gücləndirilməsinə ehtiyac olmayan, təzyiqsiz horizont su qatları yer səthindən 7 metr dərinlikdə olan, təzyiqli horizont su qatları 15 metrdən artıq dərində olan, torpaq sahələrinin az vəsait tələb edən sadə metodla qurudulması mümkün olan, bataqlığın, yarğanların, sürüşmələrin, karstların, subasma və aşılanmanın tam olmamağı təminatlı olan torpaqlar sənaye obyektlərinin tikintisi üçün yararlı hesab olunur.

b) Tikintiyə azyararlı torpaq sahələri-təpə və çökəkliyi olan, mailliyi 8%-dən artıq, 0,3%-dən aşağı olan, qruntunun birtərkibli geoloji quruluşu pozulan, torpağa buraxıla bilən gərginliyi 1,0-1,5 kq/kv. sm. olan, təzyiqsiz horizont su qatları 7 metrdən 3 metrədək dərinlikdə olan, təzyiqli horizont su qatları 15 metrdən 10 metrədək olan, torpaq suları səviyyəsinin aşağı salınmasına və özüllərin hidroizolyasiyasına ehtiyac olan, cüzi bataqlıq əmələgəlmə prosesinə məruz qalan, dərinliyi 3 metrədək və divarları bərkimiş yarğanları olan, sürüşməyə məruz qalan və sadə mühəndis qurğuları ilə binaların qarşısının alınması mümkün olan, köhnə karstları kiçik sahəni əhatə edən və az vəsait tələb edən sadə mühəndis qurğuları ilə bunun qarşısının alınması mümkün olan torpaqlar sənaye obyektlərinin tikintisi üçün azyararlı hesab olunur.

Bu sahələrdə əlavə xərclər tələb edən müvafiq tədbirlər nəzərə alınmaqla tikinti işləri aparıla bilər.

c) Tikintiyə tam yararsız torpaq sahələri-çoxlu təpəliyi olan, ümumi mailliyi 5%-dən artıq və ya tamamilə mailliyi olmayan, qruntu çoxtərkibli geoloji quruluşa malik olan, torpağa buraxıla bilən gərginliyi 1,0 kq/kv.sm.-dən az olan, təzyiqsiz horizont su qatları 10 metrdən az olan, qrunt sularından bataqlıq əmələ gələn, aktiv sürüşməyə məruz qalan, dərinliyi 3 metrə qədər olan divarları bərkimiş və doldurulması mümkün olmayan yarğanlar olan, subasması və aşılanması təsadüf olan zolağın eni 10 metrdən artıq olan və çoxlu miqdarda aktiv karstlar olan torpaq sahələri tikintiyə tam yararsız hesab olunur.

**Mühəndis, şəhərdaxili və şəhərdənkənar nəqliyyat infrastrukturu zonası.**

Burada yaşayış zonası daxilində əsasən, şəhərdənkənar istiqamətdə

hərəkət edən nəqliyyat vasitələri və nəqliyyatla əlaqədar obyektlər yerləşdirilir. Bu obyektlərin şəhər daxilində yerləşdirilmə prinsipləri şəhərin daxili nəqliyyat əlaqələrinin təmin olunmasına xidmət edir. Yaşayış zonası daxilində yerləşən dəmiryolu paylaşdırıcı stansiyaları, sərnişin stansiyaları, yük və konteyner meydançaları və avtomobil nəqliyyatının yük meydançası və anbarları bu zonadan kənara köçürülməlidir. Bu zonaya, eləcə də metro xəttinin yerüstü stansiya və xətləri, onların qarşısındakı meydançalar, şəhərdaxili magistral və başqa kateqoriyalı avtomobil, tramvay, monorels, funikulyor yolları, meydançalar və yolların kəsişmə düyünləri, mühəndis qurğuları, yeraltı keçid və yolları, şəhərətrafı avtomobil stansiyaları, radio-televiziya ötürücü stansiyaları, tramvay, trolleybus, avtobus, yerüstü metro vaqonları, habelə taksi və yük maşınları parkları, elektrik transformator stansiyaları, məişət istilik qazanxanaları, taksi və minik maşınları qarajları, həmçinin təminat qurğuları daxildir.

**Ümumşəhər istirahət zonası.**

Buraya parklar, bulvarlar, bağlar, bağçalar, yaşıllıq zolaqları (nəqliyyat yolları boyu bircərgəli yaşıllıq zolaqları istisna edilməklə) daxildir. Kiçik memarlıq formaları, su, dondurma, qəzet köşkləri, skamyalar, kölgə örtükləri, yelləncəklər, uşaq avtomobil meydançaları da bu zonaya aiddir.

**Akademiya şəhərciyi, elmi-tədqiqat mərkəzləri, konstruktor büroları və eksperimental bazalar zonası.**

Bu zonada yerləşdirilən obyektlər yalnız elmi-tədqiqat axtarışlarının aparılması, elmi kadrların hazırlanması və təkmilləşdirilməsi proseslərinin həyata keçirilməsi məqsədini güdür. Akademiya şəhərcikləri şəhərdən kənar xüsusi təminatlı zonalarda, yaxud buna münasib iri şəhərlərin peykşəhərlərində yerləşdirilə bilər. Şəhər daxilində akademiya şəhərciyi, daxili sıx əlaqəli elmi-tədqiqat, kitabxana, nəşriyyat, mühəndis-texniki və məişət infrastrukturu, yaşıllıq və daxili yollar avtonom və vahid plan strukturuna istinadən yerləşdirilir. Böyükhəcmli neft-qaz, yanğına həssas, partlayıcı, zəhərləyici, atmosfer çirkləndirici, böyük qurğulara tələbatı olan, yüksək gərginlikli elektrik enerjisi tələb edən, yüksək desibelik səsə malik olan obyektlər bu zonada yerləşdirilə bilməz. Belə obyektlər yaşayış zonalarından kənarda müvafiq norma və qaydaların tələblərinə uyğun yerləşdirilməlidir. Bu obyektlərin bir çoxu aparılan elmi-tədqiqat işlərinə müvafiq sənaye zonalarında, yaxud onların yaxınlığında yerləşdirilməlidir.

**Tələbə şəhərcikləri, ali və orta təhsil ocaqları zonası.**

Buraya universitetlər, liseylər, sənət-peşə məktəbləri, institutlar

daxildir. Tələbə şəhərcikləri şəhərdənkənar xüsusi təyinatlı zonalarda, yaxud iri şəhərlərin peyk-şəhərlərində yerləşdirilə bilər. Belə halda bu zonanın yüksək daşıyıcı gücünə malik olan sərnişin nəqliyyatı ilə təminatı vacibdir. Şəhərlərin yataqxanası öz kompleksində yerləşdirilməlidir. Bu zona bütün növ elmi-tədqiqat, kitabxana, texniki və mədəni-məişət strukturu, idman kompleksi, yaşıllıq və istirahət zonası, habelə piyada yolları və s. ilə təmin olunmalıdır.

İri şəhər daxilində yerləşdirilmiş təhsil obyektləri müvafiq norma və qaydalara uyğun yerləşdirilməli və özünün giriş meydançası, həyətyanı və infrastruktur sahəsi ilə təmin olunmalıdır.

Ayrı-ayrı peşə məktəbləri müvafiq buraxılış-hazırlıq sənət profillərinə uyğun sənaye obyektlərinin yaxınlığında yerləşdirilə bilər.

**Kommunal-anbar zonaları.**

Özünün tələb olunan torpaq sahəsinin miqdarı baxımından bu zonalar iri və nəhəng şəhərlərin yaşayış və sənaye zonalarından sonra üçüncü yeri tutur və xüsusi mühəndis avadanlığı, dəmir yolu qanadı tələb edir. Bununla əlaqədar bu zonanın altındakı torpaq sahələrinin seçilməsinə xüsusi tələbat mövcuddur. Bu zonanın torpaq sahələrinin qiymətləndirilməsinin (seçilməsinin) əsasları və prinsipləri aşağıdakı kimi açıqlanır:

a) kommunal-anbar binalarının tikintisi üçün yararlı torpaq sahələri-relyefi nisbətən düz, mailliyi 0,3-5% olan, adi tipli bina və qurğu özüllərinin qoyulmasına yararlı olan, 1,5 kq/kv.sm-dən artıq torpağa buraxılan gərginliyi qəbul edə bilən, hidrogeoloji şərait baxımından təzyiqsiz horizontal su qatının 7 metr dərinliyində və təzyiqli horizontal su qatının 15 metr dərinliyində zirzəmi qurulmasını təmin edən, 50 ildə 1 dəfədən az olmamaq şərti ilə su horizontunun 0,5 metrdən artıq olmayan hissəsini subasmaya məruz qoyan, sahillərin yuyulması və karstın olmamağı təminatı olan torpaqlar kommunal-anbar binalarının tikintisi üçün yararlı hesab olunur.

b) kommunal-anbar binalarının tikintisi üçün azyararlı torpaq sahələri-azca təpəliyi olan, mailliyi 5%-dən artıq və 35%-dən aşağı olan, gücləndirilməsinə özülün tələbatı olan, torpağa buraxıla bilən gərginliyə tələbat 1,0-1,5 kq/kv. sm-ə qədər olub özülün gücləndirilməsi tələb olunan, təzyiqsiz horizont su qatları 15 metrdən 10 metrədək olan, 20 ildə 1 dəfədən çox olmayaraq su horizontunun 0,5 metrdən artıq olmayan hissəsi subasmaya məruz qalan, atmosfer çöküntüləri nəticəsində cüzi bataqlıq əmələ gələn dərinliyi 3 metrədək, divarı bərkimiş və doldurula bilən

yarğanlar olan, subasma və aşılanması təsadüf olunan zolağın eni 10 metrdən artıq olan torpaq sahəsi kommunal-anbar binalarının tikintisi üçün azyararlı hesab olunur.

Bu sahələrdə əlavə xərclər tələb edən müvafiq tədbirlər nəzərə alınmaqla tikinti işləri aparıla bilər.

c) kommunal-anbar binalarının tikintisi üçün tam yararsız torpaq sahələri-çoxlu miqdarda təpəliyi olan, ümumi mailliyi 5%-dən artıq və tamamilə mailliyi olmayan, torpağa buraxıla bilən gərginlik 1,0 kq/kv. sm-dən az olan, təzyiqsiz horizont su qatlarının səviyyəsi 3 metrdən az olan, təzyiqli horizont su qatlarının səviyyəsi 10 metrdən az olan 20 ildə 1 dəfədən artıq subasmaya məruz qalan, qrunt sularından bataqlıq əmələ gələn, intensiv yarğanlar əmələ gələn, divarları kəskin stabilləşmiş maili və dərinliyi 10 metrdən artıq yarğanı olan, subasması və aşınması təsadüf olunan sahil zolağının eni 10 metrdən artıq olan torpaq sahəsi kommunal-anbar binalarının tikintisi üçün tam yararsız hesab olunur.

**İxtisaslaşdırılmış taxıl, tərəvəz və qida anbarları zonaları.**

Bu zonalar kommunal-anbar zonaları kimi iriölçülü torpaq sahələri, xüsusi mühəndis avadanlığı, irihəcmli yük maşınlarının hərəkəti üçün şose və dəmiryolu qanadı tələb edir. Bununla əlaqədar bu zonaların altındakı torpaq sahələrinin seçilməsi və qiymətləndirilməsinin əsasları və prinsipləri kommunal-anbar zonalarının tələblərinə uyğun olaraq həyata keçirilir. Sanitar-gigiyena müddəalarına əsasən bu zonaya dair obyektlər sənaye və kommunal zonalarında yerləşdirilə bilməz.

Bu zonalar yaşayış zonaları daxilində yerləşdirilə bilər. Lakin şəhərsalma baxımından iriölçülü qeyri-yaşayış müəssisələrinin yaşayış zonasında yerləşdirilməsi həm şəhərsalma, həm də şəhəri planlaşdırma strukturunun miqyasına uyğunluq baxımından əlverişsizdir. Bu zonalar yaşayış zonalarına bitişik və şəhərdən kənar yerləşdirilə bilər.

**Botanika bağı və dendroloji park zonaları.**

Bu zonaların yerləşdirilməsinin əsasları və prinsipləri elmi, elmi-tədqiqat, təhsil, mədəni-maarif, əhalinin xüsusi təyinatlı istirahət funksiyalarını əhatə edə bilər. Bu zonanın sahəsində botanika, dendrologiya, torpaqşünaslıq, ekologiya, zoologiya elmi-tədqiqat institutlarının laboratoriya binaları və istixanaları yerləşdirilə bilər.

Dendroloji və zooloji parkların, nəbatat bağlarının torpaqları təsərrüfat fəaliyyəti üçün istifadəyə verilə bilər.

Botanika bağları, dendroloji park zonaları və ümumşəhər istirahət

zonası altına torpaq sahələrinin seçilməsi aşağıdakı prinsiplər əsasında qiymətləndirilir:

a) Botanika bağı, dendroloji park zonaları və ümumşəhər istirahət zonası üçün yararlı torpaq sahələri relyefi 10 %-ə qədər maili olan, qruntunun üst qatı qaratorpaq, qırmızı torpaq və nisbətən sarıtorpaq olan, mexaniki tərkibi yüngül və orta olan, su qatlarının yer səthindən dərinliyi 2 m-dən 1 m-ə qədər olan, daşan sulardan qorunan, bataqlığı və tam axımsızlığı olmayan, dərinliyi 5m.-dən az olmayan və nisbətən maili divarı bərkimiş dərələri olan, sürüşməyə məruz qalmayan, sahilləri yuyulmayan və aşınmayan, karst prosesi olmayan torpaqlar bağ və parkların salınması, habelə ümumşəhər istirahəti üçün yararlı hesab olunur.

b) Botanika bağı, dendroloji park zonaları və ümumşəhər istirahət zonası üçün azyararlı torpaq sahələri-relyefi 10-30% olan, qruntun üst qatı az miqdarda duzlu sayılıb turş olan, mexaniki tərkibinə görə qum, orta və ağır gil olan, su qatları yerin səthindən 0,5-1,5 metr və 2 metrdən 3 metrə qədər olan, sahənin subasması müddəti 15 gündən artıq olmayan, atmosfer çöküntüləri nəticəsində əmələ gələn bataqlığın qurudulması asan olan, dərinliyi 5 metrədək və divarlarında kəskin maillik olan dərələr, sürüşməyə meylli və ayrı-ayrı bərkidilmə ehtiyaclı yamacları olan, bəzi yerlərdə yuyulub-aşınmaya məruz qalan və az miqdarda sönmüş karstları olan torpaqlar bağ və parkların salınması, habelə ümumşəhər istirahət zonası üçün azyararlı hesab olunur.

c) Botanika bağı, dendroloji park zonaları və ümumşəhər istirahət zonası üçün tam yararsız torpaq sahələri-relyefin mailliyi 10-30%-dən artıq olan, torpaq qatı duzlu, mexaniki tərkibi isə tamamilə bərk süxurlar olan, su qatı yerin səthinin 0,5 metr üst hissəsində və 3 metrdən dərində olan, sahillərinin daşması 15 gündən artıq olan, çətin qurudulan bataqlıq sahələrinə malik olan, çox miqdarda sürüşən yamacları olan, yatağını çox tez-tez dəyişən və çayətrafı divarlarını yuyan çaylar olan, dərinliyi 10 metrdən artıq sönmüş vulkan karstlarına malik və yeraltı boşluqları mövcud olan torpaq sahələri bağ və parkların salınması, habelə ümumşəhər istirahət zonası üçün tam yararsız hesab olunur.

**Xüsusi təyinatlı zonalar.**

Bu zonaların ümumi əsasları və prinsipləri baxımından bu zonalarda hərbi şəhərciklər, xüsusi təyinatlı qoşun bölmələri yerləşdirilə bilər. Bu zonada yaşayış binaları, mülki-müdafiə qurğuları, təsərrüfat və texniki-təchizat qurğularının yerləşdirilməsi mümkündür. Xüsusi təyinatlı

qurğuların yerləşdirilməsi və hərbi təlim aparılmasında müvafiq norma və qaydalara riayət edilməlidir.

**Sanitar-qoruq zonaları**

Bu zonalar I-IV qrup sənaye zonaları ilə yaşayış zonalarının arasında yerləşdirilir.

Zonanın aralıq məsafəsi sənaye obyektlərinin qruplarından və sənayenin atmosfer tullantılarının miqdarından, tərkibindən, şəhərin coğrafi mövqeyindən, küləyin illik əsmə istiqaməti rejimindən asılı olaraq müəyyən olunur. Ekoloji filtrlərin gücündən asılı olaraq, hətta ən zərərli birinci qrup sənaye obyektlərinin sanitar-qoruq zonalarını xeyli azaltmaqla sənaye zonasını yaşayış zonasına qismən yaxınlaşdırmaq mümkündür.

Sanitar-qoruq zonalarında kommunal-anbar binaları, dəmir yolunun yükboşaltma meydançaları, dəmiryol sortlaşdırma stansiyaları, yük daşıyan avtomobil və yükdaşıma məntəqələri, inşaat materialları anbarları, habelə qoruq zonasının yaşıllıqları yerləşdirilə bilər.

**Şəhərətrafı zonalar.**

Bu ərazilər şəhərin yaşayış, sənaye-kommunal zonalarından başlayaraq şəhər sərhədlərinə bitişik torpaqları əhatə edir. Əsas etibarı ilə şəhərin gələcək inkişafı üçün yeni torpaq zonalarının ayrılmasına xidmət edərək ehtiyat-inkişaf zonası kimi saxlanılır.

Bu zonada şəhərin Baş planının gələcək inkişafına uyğun olmayan bütün növ əsaslı kapital qoyuluşu tələb edən tikintilər qadağandır. Bu zonanın torpaqlarından şəhər əhalisinin bitkiçilik və heyvandarlıq məhsullarına olan tələbatını ödəmək üçün istifadə etmək məqsədəuyğundur .

**Ümumşəhər idman meydançaları, olimpiya şəhərciyi və digər idman obyektlərinin yerləşdiyi zonalar.**

Buraya respublika stadionları, motodrom, velotrek, örtülü idman sarayı, olimpiya şəhərciyi, avarçəkmə və yelkən limanı, ralli trası daxildir.

Bu zonaların əsasları və prinsipləri şəhərin yaşıllıq və rekreasiya zonalarına, yüksək daşıyıcı qüvvəyə malik olan nəqliyyat vasitələrinə yaxın yerləşdirilməsindən, qısa müddətdə tamaşaçıların evakuasiyasının təmin olunması üçün tələb olunan miqdarda giriş qapılarının və boşaldıcı bamper meydanları ilə təmin olunmasından ibarətdir. Ralli avtotrekləri bir qayda olaraq şəhərdən kənar zonalarda salınır. Olimpiya şəhərciyinin də şəhərdən kənarda salınması məqsədəuyğundur.

**Dini təmsil edən obyektlərin yerləşdiyi zonalar.**

Buraya məscidlər, kilsələr, sinaqoqlar, dini məbədlər, pirlər, məd-

rəsələr daxildir. Bu zonalarda tələb olunan əsas prinsiplər yeni tikiləcək obyektlər üçün torpaq sahəsi ayrılarkən müəyyən olunacaq məhdudiyyət istisna olmaqla şəhərsalma baxımından heç bir normativ qadağa qoyulmamağıdır. Burada obyektlərin yerləşdirilməsi və əsas binalardan başqa dini bayram və mərasimlərin keçirilməsini təmin etmək üçün zona magistral yollarla əlaqəli olan müvafiq iriölçülü həyət sahəsi tələb edir. Dini komplekslərdə yalnız mərasimlərin fəaliyyətini təmin edən qurğu və obyektlər yerləşdirilir.

## 2.4. Azərbaycanın torpaq ehtiyatları və bazar torpaq münasibətləri şəraitində onlardan səmərəli istifadənin elmi-metodiki əsasları

Təbii ehtiyatlar məfhumu iqtisadi termin olub, xüsusi ədəbiyyatlarda o, belə açıqlanır: təbii ehtiyatlar insanların maddi və mənəvi tələbatını ödəmək məqsədilə cəmiyyət tərəfindən istifadə edilən və ya istifadə edilməsi mümkün olan təbiətin bir hissəsini özündə birləşdirir. Bütövlükdə, ölkəmizin təbii ehtiyatlarına onun inzibati sərhədləri daxilində olan mineral, torpaq, su ehtiyatları, bitki və heyvanat aləmi, atmosfer havası və günəş enerjisi aiddir. Respublikamızın qiymətləndirilmiş təbii ehtiyatları onun təbii-ehtiyat potensialını təşkil edir və bu potensial dövlətin milli sərvətinin mühüm tərkib hissəsidir.

Ölkəmizin təbii ehtiyatları tükənməz (Xəzər dənizinin suyu, külək və su enerjisi və s.) və tükənən (meşə, fauna və floranın ayrı-ayrı elementləri, yararlı torpaq sahələri və s.) mənbələrə bölünür.

Tükənən təbii ehtiyatlar bərpa olunan və bərpa edilməyən ehtiyatlara bölünür. Bərpa edilməyən tükənən sərvətlərə-təbii yeraltı sərvətlər (neft, qaz, digər faydalı qazıntılar: qızıl, gümüş, mis, civə və s.), bərpa edilən tükənən sərvətlərə-meşə və bitki örtüyü, torpaq münbitliyi, atmosfer havası, heyvanat aləmi aiddir. Əlbəttə, tükənən ehtiyatların bərpa edilməsi uzun müddət və böyük həcmdə sərmayə qoyuluşu tələb edir. Ona görə də, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə problemi bütün bəşəriyyət qarşısında duran ümdə vəzifələrdəndir.

Torpaq ehtiyatları təbii sərvətlərin tərkib hissələrindən biri olub, cəmiyyətin ən qiymətli xəzinəsidir. Bu ehtiyatlar iqtisadiyyatımızın müxtəlif sahələrində ya istifadə edilir, ya da istifadə üçün nəzərdə tutulub.

Ölkəmizin torpaq ehtiyatları təbii-tarixi xüsusiyyətlərinə və istifadə xarakterinə görə, onların üzərində təsbit edilmiş mülkiyyət formalarına, həmçinin təyinatına müvafiq olaraq ayrı-ayrı torpaq növlərinə, qruplara, kateqoriyalara bölünür.

Təbii-tarixi xüsusiyyətlərinə və istifadə xarakterinə görə fərqlənən torpaq ehtiyatlarına torpaq növləri (yerləri) deyilir. Bu təsnifata görə torpaq ehtiyatları 2 yerə bölünür: kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı torpaqları.

Kənd təsərrüfatı məhsullarının alınması üçün sistematik istifadə olunan torpaqlara kənd təsərrüfatı yerləri deyilir. Kənd təsərrüfatı yerlərinin tərkibinə əkin, dincə qoyulmuş torpaqlar, çoxillik əkmələr, biçənək və örüşlər aiddir.

Əkin-sistematik becərilən və kənd təsərrüfatı bitkilərinin səpini altında istifadə edilən kənd təsərrüfatı yerləridir. Səpin altında istifadə edilən cərgələrarası bağ sahələri, habelə kökündən yaxşılaşdırma məqsədləri üçün şumlanmış və səpilmiş (2 ildən artıq olmayaraq) biçənək və örüş sahələri əkinə aid deyildir.

Dincə qoyulmuş torpaqlara-əvvəlcə əkin altında olmuş, amma payızdan başlayaraq bir ildən artıq kənd təsərrüfatı bitkilərinin səpini üçün istifadə edilməyən və herik üçün hazırlanmamış sahələr aiddir.

Biçənək-sistematik olaraq ot biçini altında istifadə edilən kənd təsərrüfatı torpaqlarıdır.

Örüş-əsas istifadəsi heyvanların otarılması olan kənd təsərrüfatı torpaqlarıdır.

Çoxillik əkmələrə bağ, üzümlük, çay plantasiyaları, giləmeyvəliklər altında olan torpaq sahələri aiddir.

Qeyri-kənd təsərrüfatı torpaqlarına dərələr, qobular, yarğanlar, qumluqlar, bataqlıqlar, kolluqlar, habelə su, yol, tikinti, küçə, meydan altında olan torpaqlar, kənd təsərrüfatı məhsullarının istehsalı üçün yararsız olan digər sahələr aiddir.

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən ölkəmizin torpaq ehtiyatlarından istifadənin və onların mühafizəsinin müasir vəziyyətini araşdıraq.

Respublikanın kənd təsərrüfatına yararlı torpaqlarının ümumi sahəsi

4 mln. 516 min 900 ha.-dır ki, bu da ölkəmizin ümumi ərazisinin 52,27%-ni təşkil edir. Kənd təsərrüfatına yararlı torpaqların ümumi sahədə belə böyük nisbi yükü ilk baxışdan torpaq sahələrinin aktiv kənd təsərrüfatına cəlb edilməsi kimi də dəyərləndirilə bilər. Lakin hərtərəfli təhlil heç də Azərbaycan Respublikasında torpaq ehtiyatlarımızın bolluğuna dəlalət etmir. Belə ki, ölkəmizin kənd təsərrüfatına yararlı torpaqlarının yarıdan çoxu (2 mln. 566 min 900 ha.-sı və ya 56,82%-i) azməhsuldarlı örüşlərdən ibarətdir. Ən dəyərli kənd təsərrüfatı torpaqları olan əkinin ümumi sahəsi isə cəmi 1 mln. 621 min 900 ha təşkil edir ki, bu da kənd təsərrüfatına yararlı torpaqların 35,9 %-ni təşkil edir. Yer səthinin relyefinin dağ xarakterli olması səbəbindən respublikamız torpaqları azmənimsənilən ölkələrdəndir. Belə ki, Azərbaycanda hər bir nəfərə orta hesabla 0,22 ha əkin sahəsi, 0,58 ha kənd təsərrüfatına yararlı torpaq sahəsi düşür. Müqayisə üçün qeyd edək ki, Qazaxıstan Respublikasında bu göstəricilər müvafiq olaraq 1,65 ha və 14,0 ha təşkil edir. Azərbaycanın torpaq balansındakı gərginliyi göstərən göstəricilərdən biri də ölkənin hər kvadrat kilometrinə düşən əhalinin sayıdır. Bü göstərici Rusiya Federasiyasında cəmi 9 adam təşkil edirsə də, Azərbaycanda 1 kvadrat kilometrə düşən adamların sayı 94 nəfər təşkil edir.

Çox təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizdə bir nəfərə düşən kənd təsərrüfatı torpaqlarının və əkinin sahəsi ilbəil azalır. Hər bir nəfərə düşən kənd təsərrüfatı torpaqlarının və əkinin sahələrinin azalmasının obyektiv səbəblərindən biri də qeyri-kənd təsərrüfatı məqsədləri (restoranların, şadlıq saraylarının, yanacaqdoldurma məntəqələrinin, malikanələrin və s. tikintisi) üçün yararlı sahələrin (əkinin, örüşün) ayrılmasıdır.

Qeyri-dövlət və ictimai məqsədlər üçün torpaqayırmaları prosesi ciddi dövlət nəzarətinə götürülməli, kənd təsərrüfatı təyinatlı torpaqdanistifadələrin prioritetliyi prinsipinə ciddi ruayət edilməli, imkan daxilində torpaqayırmalarının həcmi miqdarında və ya daha çox yeni kənd təsərrüfatı torpaqlarının mənimsənilməsinə nail olunmalı, azmünbitli torpaq sahələri müxtəlif kompleks tədbirlər hesabına yaxşılaşdırılmalıdır.

Azərbaycan Respublikasının torpaq ehtiyatları bu gün yüksək olmayan təbii münbitliyi, qeyri-qənaətbəxş mədəni-texniki vəziyyəti, qeyri-səmərəli təbii-texnoloji xüsusiyyətləri ilə xarakterizə olunurlar.

Uzun müddət ərzində torpaqlarda gedən eroziya prosesi, qiymətli kənd təsərrüfatı torpaqlarının qeyri-kənd təsərrüfatı məqsədləri üçün ayrılması nəticəsində, bir çox hallarda kənd təsərrüfatı dövriyyəsinə yeni

torpaq sahələrinin qatılmasına baxmayaraq kənd təsərrüfatı torpaqlarının və əkinin bir nəfərə düşən sahəsi bu gün də azalmaqda davam edir.

Torpaq islahatı şəraitində kənd təsərrüfatı məqsədləri üçün yeni torpaqlardan istifadə edilməsi, çoxdan becərilən torpaqların keyfiyyətcə yaxşılaşdırılması, habelə əkinçilik mədəniyyətini yüksəltmək yolu ilə torpaq fondlarından səmərəli istifadə olunması respublikanın aqrar-ərzaq kompleksi qarşısında duran başlıca vəzifələrdəndir.

Azərbaycan mürəkkəb relyef və təbii-iqlim şəraitinə malik, qədim suvarma əkinçiliyi diyarıdır. Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı əsasən suvarılan torpaqlarda cəmləşmişdir. Respublikanın ümumi torpaq fondu 8641,5 min hektar olsa da, coğrafi şərait bunun hamısından istifadə etməyə imkan vermir. Belə ki, ölkənin ümumi torpaq fondunun təqribən 55 faizindən kənd təsərrüfatında istifadə edilir.

Ölkənin kənd təsərrüfatına yararlı torpaqları isti iqlimi və az yağıntıları ilə səciyyələnən düzənlik- arid zonada yerləşdiyindən və yayın isti, qış aylarının azyağmurlu keçməsi torpaqda kifayət qədər nəmlik ehtiyatının yaranmasına imkan vermir. Burada əkinçiliyin yalnız süni su-varmalar fonunda aparılması və bu məqsədlə müvafiq meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi tələb olunur. Hazırda respublikamızda 1432,7 min hektar sahə suvarılır. Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95 faizi bu torpaqlarda istehsal olunur. Pambıq, tütün, tərəvəz və s. kimi gəlirli bitkilər tamamilə suvarılan torpaqlarda becərilir.

Suvarılan torpaqlar yüksək texniki və mühəndisi səviyyədə inşa edilmiş meliorasiya və irriqasiya fondları ilə təchiz olunmuşdur. Bu torpaqların 609 min hektarında kompleks meliorasiya işləri aparılmış, 288 min hektar sahə açıq, 309 min hektar sahə örtülü, 13 min hektar sahə şaquli drenaj şəbəkələri ilə təchiz edilmişdir. Suvarılan sahələrdə 51,7 min kilometr suvarma kanalları, 29,6 min kilometr kollektor-drenaj şəbəkələri çəkilmiş, onların üzərində 118 min hidrotexniki qurğu, 821 nasos stansiyası inşa edilmişdir.

Çaylarda axının qeyri-mütənasibliyinin qarşısını almaq və su ehtiyatlarından ölkə iqtisadiyyatında səmərəli istifadə etmək məqsədilə çaylar üzərində 135 su anbarı, 16 hidroqovşaq inşa edilmiş, yeraltı sulardan suvarma və məişət ehtiyaclarını ödəmək üçün 7119 subartezian quyusu qazılmışdır. Əkin sahələrini və yaşayış məntəqələrini çayların daşqın və sel sularından qorumaq məqsədilə 113 kilometr daş-beton və

beton, 1644 kilometr torpaq bəndlər tikilmişdir.

1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində digər sahələrə olduğu kimi bu sahəyə də laqeyd münasibət göstərilməsi nəticəsində meliorasiya və su təsərrüfatı sahəsində aparılan tikinti işləri, demək olar ki, tamamilə dayandırılmışdı. Sistem və qurğuların saxlanması, istismarı və təmir-bərpasına ayrılan vəsaitin həcmi azaldıldığından onların istismarı xeyli çətinləşmişdi və bir sıra problemlərin yaranmasına səbəb olmuşdu.

Təhlil göstərir ki, son illərdə ölkənin meliorasiya kompleksinin inkişafı böyük çatışmazlıqlarla müşahidə olunur. Təmir-istismar tədbirlərinin, habelə suvarma sistemlərinin konstruksiyası üçün maliyyə vəsaitlərinin çatışmazlığı, ixtisaslaşmış meliorasiya texnikasının qiymətinin bahalaşması və s. səbəblərdən hidrotexniki qurğuların, suvarma şəbəkələrinin texniki vəziyyəti pisləşmişdir. Məsələn, 01.07. 2001-ci il tarixinə olan məlumata görə, respublikada 2979 km təsərrüfatlararası suvarma kanalı, 12131 km təsərrüfatdaxili suvarma kanalı nasaz vəziyyətdə, 274 km təsərrüfatlararası suvarma kanalı, 4098 km təsərrüfatdaxili suvarma kanalı yararsız vəziyyətdə olmuşdur. Məhz bu səbəbdən də, Azərbaycanda suvarılan torpaqların su ilə təminatı son illərdə, o cümlədən 2001-ci ildə qənaətbəxş olmamışdır. Məsələn, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə respublikanın 858 min ha suvarılan torpaq sahəsinin 59,3%-i fasilələrlə suvarılmışdır. 223,1 min ha sahədə (15,4 %-i) su təminatının vəziyyəti pis olmuşdur.

Təhlil göstərir ki, yalnız su və kənd təsərrüfatı orqanlarının birgə səyi ilə mövcud meliorativ fondun iş qabiliyyətini qorumaq və təmin etmək, suvarma sistemini qaydaya salmaq olar.

Ölkənin su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32,2 milyard kubmetr təşkil edir və quraqlıq illərdə bu həcm 22,6 milyard kubmetrə qədər azalır. Su ehtiyatlarının yalnız 10 milyard kubmetri, yaxud 30 faizi respublikanın öz ərazisində, qalan 70 faizi isə qonşu ölkələrin ərazilərində formalaşır. Yeraltı su ehtiyatları 5,2 milyard kubmetr təşkil edir ki, bunun da təxminən üçdə biri hazırda istifadə olunur.

Respublikada ildə orta hesabla 10-12 milyon kubmetr sudan istifadə olunur ki, bunun da 65-67 faizi kənd təsərrüfatının, 20-25 faizi sənayenin və qalan hissəsi məişət və içməli suya olan tələbatın ödənilməsinə sərf olunur.

Ölkəmizdə əsas suvarma mənbəyi yerüstü sular hesab olunur. Suvarılan sahələrin 91 faizi (1306,7 min hektar) yerüstü su mənbələrindən

suvarılır. Yalnız 126 min hektar sahənin suvarılmasında və içməli- məişət məqsədləri üçün yeraltı sulardan istifadə olunur.

Azərbaycanda 8350 çay vardır. Ölkənin əsas su arteriyası Kür çayıdır. Yay aylarında, suvarmaya tələbatın artdığı dövrlərdə, çayların axımı onların su ehtiyatlarının 10 faizinə qədər azalır, bir çox hallarda bəziləri tam quruyur. Bu da vegetasiya mövsümündə kənd təsərrüfatı əkinlərinin su təminatını çətinləşdirir. Respublikada orta illik su çatışmazlığı adi illərdə 3,7 milyard kubmetrə, azyağıntılı illərdə isə 4,75 milyard kubmetrə çatır. Su anbarlarında 21,5 milyard kubmetr su ehtiyatları toplamaq imkanı olsa da onun təxminən 11.7 milyard kubmetrindən (54 faizindən) istifadə olunur. Qalan 9,8 milyard kubmetri anbarların ölü həcminə aiddir.

İrihəcmli su anbarları (Mingəçevir, Şəmkir, Araz, Yenikənd, Varvara, Sərsəng su anbarları) kompleks məqsədlər üçün (hidroenergetika və suvarma) istifadə olunur. Ceyranbatan su anbarı isə suvarma ilə yanaşı, Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrinin içməli və texniki su təchizatı məqsədləri üçün istifadə edilir.

Son illər dünyada baş verən qlobal iqlim dəyişiklikləri ölkəmizə də təsirsiz ötüşməmişdir. 1999-2001-ci illərdə ölkəmiz kəskin quraqlıqla üzləşmiş, 2003-2004-cü illərdə isə güclü və aramsız yağan yağışlara, sel və daşqınlara məruz qalmışdır. Hər iki hadisə zamanı respublikanın su təsərrüfatına ciddi ziyan dəymişdir.

Azərbaycan dünyanın təbii fəlakətlərə ən çox məruz qalan regionlarından biridir. Burada 154 selgətirən çay vardır. Bunlardan 61-i ən təhlükəlidir. Sellər, daşqınlar, sürüşmələr, subasmaları hər il respublika iqtisadiyyatına xeyli zərər vurur. Hər il milyon yarımdan çox əhalinin məskunlaşdığı 30 inzibati rayonun 200-ə yaxın yaşayış məntəqəsi, 250 min hektar əkin sahəsi, 500 kilometr uzunluğunda dəmir və 1500 kilometr uzunluğunda avtomobil yolları, 180 kilometr uzunluğunda elektrik xətləri, 265 kilometr uzunluğunda qaz boruları, yüzlərlə kilometr suvarma kanalları, hidrotexniki qurğular dağ və dağətəyi çayların sel və daşqın sularının zərərli təsirinə məruz qalır. Sel və daşqın sularının qəzasız buraxılmasını təmin etmək üçün hər il ölkənin dağ çaylarında 7-8 milyon kubmetr həcmində tənzimləmə və məcratəmizləmə işləri görülür, 50-60 min kubmetr həcmində daş-beton, beton, şax-daş bəndlər quraşdırılır, Kür və Araz çaylarında mövcud bəndlərin hündürləşdirilməsi və bərkidilməsi işləri aparılır.

Meliorasiya və su təsərrüfatı sahəsinin respublika iqtisadiyyatının, xüsusilə kənd təsərrüfatının inkişafında, ölkənin ərzaq probleminin həll olunmasında və regionların sosial-iqtisadi inkişafında xüsusi əhəmiyyətini və aparıcı rolunu nəzərə alaraq onun gələcək inkişafının təmin edilməsi və bu sahəyə investisiya qoyuluşunun gücləndirilməsi məqsədilə ‘‘Meliorasiya və su təsərrüfatının inkişafı üzrə Milli Proqram (2007-2015-ci illər)’’ hazırlanmışdır.

Proqramda meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi və yenidən qurulmasının iki mərhələdə aparılması nəzərdə tutulmuşdur. Birinci mərhələdə tikintisinə əvvəllər başlanılmış, lakin yarımçıq qalmış vacib obyektlərin tikintisinin tamamlanması, habelə layihələri hazırlanmış, ancaq tikintisinə başlanılmamış obyektlərin tikintisinə başlanılması, ikinci mərhələdə isə suvarılan sahələrin həcminin daha da genişləndirilməsi məqsədilə yeni layihələrin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur.

Proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2007-2015-ci illərdə ümumi tutumu 772 milyon kubmetr olan 16 su anbarı, 825 kilometr uzunluğunda suvarma kanalları tikiləcək, 43,4 min hektar yeni suvarılan torpaqlar istifadəyə veriləcək, 21,5 min hektara yaxın suvarılan torpaqlarda kompleks yenidənqurma işləri aparılacaqdır. 385 min hektardan artıq suvarılan sahənin su təminatı və 256 min hektar sahənin meliorativ vəziyyəti yaxşılaşdırılacaq, 362 min hektar sahədə suvarma və kollektor- drenaj şəbəkələri yenidən qurulacaq, 118 min poqonmetr qoruyucu bənd, o cümlədən 68 min poqonmetr beton bənd tikiləcək, yaşayış məntəqələri və minlərlə hektar kənd təsərrüfatı əkinləri sel və daşqın sularından mühafizə ediləcəkdir.

Respublikamızın ekoloji problemləri içərisində düzən torpaqların şorlaşma və şorakətləşməsinin xüsusi yeri vardır. Şorlaşmış torpaqlar Azərbaycanda çox geniş yayılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əməkdaşlarının məlumatlarına görə sahəsi 2,2 mln. hektar olan Kür-Araz ovalığı torpaqlarının təxminən 60%-i orta və şiddətli dərəcədə şorlaşmış torpaqlardan ibarətdir. Bundan əlavə şorlaşmış torpaqlar Azərbaycanın Siyəzən-Sumqayıt, Ceyrançöl massivlərində, Naxçıvan MR-də və başqa ərazilərində də yayılmışdır. Ümumiyyətlə, respublikamızın ərazisində orta və şiddətli dərəcədə şorlaşmış torpaqların ümumi sahəsi 1,3 mln. hektardan çoxdur. Bu o deməkdir ki, respublika ərazisinin 15%-i bu ekoloji problemə

düçar olmuşdur. Q.Z.Əzizovun tədqiqatları nəticəsində müəyyən olunmuşdur ki, respublikamızda kənd təsərrüfatına yararlı hesab edilən 1444,9 min hektar suvarılan torpaqların da 565481 hektarı və ya 47,6%-i müxtəlif dərəcədə şorlaşmış (bundan 152898 ha və ya 27%-i zəif şorlaşmış, 146235 ha və ya 25,9%-i orta şorlaşmış, 223838 ha və ya 39,6%-i şiddətli şorlaşmış, 42510 ha və ya 7,5%-i şoranlar), 508,3 min hektarı (29,0%-i) isə müxtəlif dərəcədə şorakətləşməyə (bundan 385037 ha və ya 75,8%-i zəif şorakətləşmiş, 102110 ha və ya 20,1 %-i orta şorakətləşmiş, 21123 ha və ya 4,1% şiddətli şorakətləşmiş) məruz qalmışdır.

Şorlaşma və şorakətləşmə torpaqda gedən təbii proseslər olsa da, vaxtında lazımi tədbirlər görülməyəndə, o, arealını genişləndirərək, həm kənd təsərrüfatı məhsullarının istehsalına, həm də təbii biosenozlara, o cümlədən düzən ərazilər üçün səciyyəvi olan qış otlaq formasiyalarına və düzən meşələrinə mənfi təsir göstərir. Odur ki, belə torpaqlar həm meliorativ, həm də ekoloji cəhətdən əlverişsiz sahələr hesab edilir, onların mənfi dinamikasının xəbərdarlıq edilməsi, qarşısının alınması və onların yararlı hala salınması üçün müvafiq ekoloji tədbirlərin (drenaj tətbiqi, yuma aparılması, kimyəvi meliorasiya, müəyyən inzibati və hüquqi və s.) görülməsi zəruridir.

Suvarılan torpaqların meliorativ cəhətdən qiymətləndirilməsinin nəticəsi respublika ərazisində 385,1 min hektar sahənin qeyri-qənaətbəxş olduğunu göstərir, o cümlədən 103,4 min hektar sahədə qrunt sularının səviyyəsinin yerin səthinə çox yaxın olması, 115,1 min hektar sahədə torpağın yüksək dərəcədə şorlu olması, 166,6 min hektarda isə hər iki amilin birgə təsiri əsas səbəb kimi göstərilir. Bu kateqoriyadan olan torpaqlar əkinə tam əlverişsiz hesab olunur və onların meliorasiyası üçün kompleks tədbirlərin görülməsi tələb edilir.

Respublikanın suvarılan torpaqlarının təxminən 670 min hektarı (46,4%-i) Kür-Araz düzənliyindədir. Burada suvarma çox qədim tarixə malikdir.

Professor M.R.Abduyev "Mil düzü torpaqlarının meliorativ yaxşılaşdırılması" əsərində bu ərazinin torpaqlarının şorlaşmasına, şorakətləşməsinə səbəb olan əsas amilləri aşağıdakı kimi qruplaşdırır.

– Kür-Araz ovalığı, o cümlədən Mil düzü vaxtı ilə dəniz suları altında olaraq Xəzərin qərb körfəzini təşkil etmişdir. Ərazinin dəniz sularından azad olması düzənliyin torpaqlarında asan həll ola bilən duzların toplanmasına səbəb olmuşdur. M.A.Abduyev hesablamalar

nəticəsində müəyyən etmişdir ki, Kür-Araz ovalığının sıfır horizontalından aşağıda yerləşən sahəsində Xəzər dənizi sularının sonuncu çəkilməsindən sonra olan təsiri nəticəsində 74 milyard ton duz toplanmışdır. Bu miqdardan 101 milyon tonu Mil düzünün hesabına düşür.

Dəniz tamamilə geri çəkilən zaman həmin sahədə böyük laqunlar əmələ gəlmişdir. Belə laqunlara indi də Mil düzündə təsadüf etmək olur. Bunlardan ən böyüyü şor suyu olan Sarısu gölü hesab edilir. Bu laqunların təsvir etdiyimiz ərazi torpaqlarının şorlaşmasına təsiri böyükdür.

– Çox qədim zamanlardan başlamış indiyə kimi davam edən geokimyəvi axıntıların da Mil düzü torpaqlarının şorlaşmasında rolu vardır. Bu məhlullarda duzların miqdarı çox olduğundan onlar düzənliyin torpaqlarının şorlaşmasının qədim dəniz çöküntüləri kimi əsas fonunu təşkil edir.

– Məlum olduğu kimi, hər hansı düzənlik sahənin torpaqlarının və qrunt suyunun kimyəvi tərkibi və şorluğu müəyyən dərəcədə həmin sahəni əhatə edən dağlıq hissənin çöküntülərinin kimyəvi tərkibi ilə də sıx əlaqədardır. Belə ki, bu dağlarda olan çöküntülər, o cümlədən duzlu çöküntülər xarici təsirin nəticəsində aşınma prosesinə məruz qalaraq səthi və yeraltı axınlar vasitəsi ilə düzənlik sahəyə gətirilir. Mil düzündə mövcud olan səthi axınların əsasını çay suları və delüvial-prolüvial sular təşkil edir. Müəyyən edilmişdir ki, öz sularını Araz çayından götürən təkcə keçmiş Orcenikidze adına kanal vasitəsilə Mil düzünə ildə 174 min ton duz gətirilir. Bundan əlavə, ərazidə delüvial-prolüvial axınlar vasitəsi ilə də külli miqdarda duz gətirilir.

– Mil düzü torpaqlarının şorlaşmasına yüksək dərəcədə təsir edən amillərdən biri də ərazidə mövcud olan qrunt sularıdır. Bu suların torpaqların şorlaşmasına olan təsiri əsasən onların böhran (kritik) səviyyəsindən, yəni dərinliyindən asılıdır. Müəyyən olunmuşdur ki, Mil düzü torpaqları üçün qrunt sularının böhran səviyyəsi 1,3-1,8 m. dərinlik hesab edilir (Q.V.Zaxarina, 1958; V.S.Muratova, 1962). Bu, o deməkdir ki, qrunt sularının səviyyəsi yerin səthindən həmin dərinlikdə olduqda, onlar səthi buxarlanmaya məruz qalır və torpağın üst qatlarını şorlaşdırır.

Mil düzündə qrunt suları ərazinin relyef, geomorfoloji quruluşu və maillik dərəcəsindən asılı olaraq müxtəlif dərinlikdə yerləşmişdir.

Mil düzündə qrunt suları bir çox hallarda torpaqları şorlaşdıra biləcək dərinlikdə yerləşmişdir.

– Torpaqların şorlaşmasında qrunt sularının təsiri eyni zamanda

həmin suların minerallaşma dərəcəsindən də çox asılıdır. Bu halda qrunt sularının minerallaşmasının böhran dərəcəsi əsas götürülür. Qrunt sularının böhran minerallaşma dərəcəsi ümumiyyətlə hər litr suda 2-3 q hesab edilir. Azərbaycan şəraiti üçün bu rəqəm hər litr suda 5-6 q-a qədər qəbul edilə bilər. Mil düzü torpaqları üçün qrunt sularının böhran minerallaşma dərəcəsi hər litr suda 1-10 q-dır.

Qrunt sularının minerallaşması göstərilən dərəcədən yüksək olduqda, onların böhran səviyyəsində torpaqlarda şorlaşma prosesi gedir. Həmin suların minerallaşma dərəcəsi böhran dərəcədən az olduqda, qrunt suları çox dayaz yerləşdikdə, onlar belə torpaqların şorlaşmasına təsir göstərə bilmir.

– Torpaqların üst qatlarının şorlaşmasında torpaq və qruntda qədimdən qalmış (dəniz geri çəkilən dövrdən) duzların miqrasiyasının (hərəkətinin) da rolu olduqca böyükdür. Bu halda torpaqda olan ilkin şorlaşma fonunda süni suvarmanın rolu xüsusilə nəzər diqqəti cəlb edir. Yuxarıda qeyd etdik ki, ərazi torpaqlarının alt qatları yüksək dərəcədə şorlaşmışdır. Bir sıra hallarda bu qatların susızdırma qabiliyyəti çox zəifdir. Ona görə də torpaqların suvarılması zamanı onlara hopmuş su çox da dərin qatlara keçməyərək torpağın orta qatlarında toplanır və burada olan duzları həll edərək asılı vəziyyətdə saxlayır. Beləliklə, torpaqda duzlu məhlul yaranır. İsti vaxtlarda səthi buxarlanma təsiri nəticəsində həmin məhlullar torpağın üst qatlarına qalxaraq onların təkrar şorlaşmasına səbəb olur. Bu hal suvarma qaydalarının pozulması nəticəsində artıq su itkisinə yol verilən zaman xüsusilə baş verir.

– Duzların torpaq profilindəki dövranında diffuziya prosesinin də rolu böyükdür. Duzların diffuziyası dedikdə, onların kəsafətinin torpaq məhlulunda bərabərləşməsi nəzərdə tutulur. Düzənliyin torpaqlarında duzların diffuziyası prosesinin getməsi üçün bəzi hallarda əlverişli şərait vardır. Bu prosesin getməsindəki əlverişli şərait dedikdə, biz torpaqların mexaniki tərkibinin ağır, susızdırma qabiliyyətinin zəif, su və duz ehtiyatının torpaqların bu və ya başqa qatlarında müxtəlif olmasını nəzərdə tuturuq.

Bu vəziyyət ərazinin dağətəyi zonasının suvarılmayan hissəsində aydın ifadə olunmuşdur. Burada torpaqların əksəri ağır mexaniki tərkibli olub, duzların çox hissəsi onların alt qatlarında toplanmışdır. Torpağın bu qatlarında nəmlik az, üst laylarında isə nisbətən çoxdur. Ona görə də ilk növbədə torpaqda olan rütubət onun alt qatlarına diffuziya yolu ilə hərəkət edir və sonra orada olan duzların torpağın üst qatına qalxmasına səbəb olur. Beləliklə, mütəmadi olaraq torpağın alt və üst qatlarında nəmlik və

duzların diffuziyası, başqa sözlə, bərabərləşməsi prosesi gedir. Bu isə torpağın alt qatlarında olan duzların hesabına onun üst qatlarının şorlaşmasına səbəb olur. Bu proses torpaqda rütubətin miqdarı artdıqca daha da kəskinləşir.

– Duzların torpaq profilində miqrasiyasında fəal amillərdən biri də onların bioloji dövranıdır. Bildiyimiz kimi, bitkilər qidalandıqları mühitdən kökləri vasitəsi ilə bir sıra maddələri mənimsəyərək, onları öz gövdə, budaq və yarpaqlarında toplayır və ömrünü başa vurduqdan sonra həmin maddələri yenidən yaşamış olduğu torpağa qaytarır.

Duzların bioloji dövranında bitkilərin həyat fəaliyyətinin bilavasitə təsiri onların məhvindən sonra toplanan duzların miqdarına nisbətən daha böyükdür. Məlumdur ki, bitkilər torpaqdan bu və ya başqa qida maddəsini suda həll olmuş formada su ilə birlikdə qəbul edir. Bu halda onlar qidalandıqları torpaq qatının nəmliyini transpirasiya yolu ilə buxarlandıraraq, orada olan maddələrin, o cümlədən bitkilər üçün zərərli olan duzların kəsafətini artırır və nəticədə həmin duzların çöküntü şəklində orada toplanmasına səbəb olur. Beləliklə, bitkilərin kök sistemi çox yayılan qatda duzların daha çox toplanması müşahidə edilir.

Professor M.R.Abduyev sonda belə qənaətə gəlir ki, bu amillərin hər biri torpaqların şorlaşmasında düzənliyin geomorfoloji şəraitindən asılı olaraq ərazinin bu və ya başqa hissəsində üstün rol oynayır. Belə ki, dağətəyi zonanın yuxarı hissəsinin torpaqlarının şorlaşması əsasən səthi axınların təsirilə keçirsə, aşağı hissədə buna suvarma daha çox təsir göstərir. Kürün qədim deltası və çayların gətirmə konusları rayonlarında isə torpaqların şorlaşması əsasən qrunt sularının təsiri nəticəsində baş verir. Bütün bunlara baxmayaraq torpaqların şorlaşmasında göstərilən amillərin təsirini heç də bütün hallarda bu qaydada bir-birindən təcrid olunmuş formada göstərmək olmaz. Bu geomorfoloji rayonlar bir-biri ilə müəyyən əlaqədə olduqları üçün, sözsüz ki, həmin sahələrin torpaqlarının şorlaşmasına təsir edən amillərin arasında da müəyyən əlaqə, yaxud qarşılıqlı təsir olmamış deyildir.

M.R.Abduyevə görə, şorlaşmiş torpaqların duzlardan azad edilib sağlamlaşdırılmasında ancaq kollektor-drenaj şəbəkələrinin tikilməsi ilə kifayətlənmək olmaz. Kollektor-drenaj şəbəkələri torpaqların sağlamlaşdırılmasında, sözsüz ki, ən vacib tədbirlərdəndir, ancaq bunlar təklikdə heç vaxt torpaqların əsaslı meliorasiyasını təmin edə bilməz. Bundan ötrü kollektor-drenaj şəbəkəsinin tikilişi ilə bərabər meliorativ tədbirlər

kompleksinin birgə tətbiqi lazımdır. Kompleks meliorativ tədbirlər dedikdə, biz torpaqları sağlamlaşdırılacaq ərazinin əsaslı surətdə hamarlanması, torpaqların yuyulması, onların yuyulmadan sonra mənimsəyici və kənd təsərrüfatı bitkiləri altında istifadə edilməsi, düzgün suvarma qaydalarının və yüksək mədəni əkinçiliyin tətbiqi kimi vacib məsələlərin ardıcıl olaraq həyata keçirilməsini nəzərdə tuturuq. Bu halda torpaqların müəyyən olunmuş su normaları ilə yuyulması məsələsi əsas həlledici tədbirlərdən hesab olunur.

Professor M.R.Abduyev bu əsərində daha sonra qeyd edir ki, meliorativ tədbirlərin daha da yaxşı təsir göstərməsi üçün ərazidə kollektor-drenaj şəbəkəsinin lazımi qaydada saxlanılması, onların vaxtaşırı təmizlənməsi, yarımçıq drenlərin tikilib başa çatdırılması əsas şərtdir. Sahələrin əsaslı surətdə hamarlanması, şoran torpaqların yuyulması, yumadan sonra onların nisbətən duzadavamlı mənimsəyici və kənd təsərrüfatı bitkiləri altında istifadə edilməsi ən vacib şərtlərdəndir. Suvarma və aqrotexnika qaydalarına düzgün əməl edilməsini də unutmaq olmaz. Bütün bunlar Mil düzü torpaqlarının daha sürətlə yaxşılaşmasına, əkin sahələrinin çoxalmasına və kənd təsərrüfatı bitkiləri məhsuldarlığının artmasına ən yaxşı amildir.

Azərbaycan Respublikası ərazisinin 60%-ni dağ və dağətəyi rayonlar təşkil edir. Ona görə də, ölkəmizdə torpaqlardan səmərəli istifadənin əsas istiqamətlərindən biri eroziyaya qarşı tədbirlər sisteminin həyata keçirilməsidir.

Torpağın üst qatının müxtəlif təbii və antropogen amillərin təsiri nəticəsində dağılması prosesinə **eroziya** deyilir. Ölkəmizin ərazisinin landşaft xüsusiyyətləri, təbii bitki və torpaq örtüyünün özünəməxsusluğu, əkinçilik mədəniyyətinin aşağı səviyyəsi, insanlarımızın təsərrüfat fəaliyyətlərindəki çatışmazlıqları kənd təsərrüfatına yararlı torpaqlarımızın eroziyaya uğramasını və bu proseslərin sürətlənməsini şərtləndirən amillərdəndir.

Akademik Q.Ş.Məmmədovun məlumatlarına görə respublikamızın ərazisinin 42,5%-i (3 mln. 685 min ha.) bu və ya digər dərəcədə eroziyaya uğramışdır.

Eroziyalardan Yer kürəsində ən çox yayılanı su eroziyasıdır. Ona hər bir təbii zonada rast gəlinir. Təbiətdə su eroziyası səthi və xətti (yarğan eroziyası) formadadır. Səthi eroziya prosesi nəticəsində torpağın üst qatı yuyulduğu halda, xətti eroziya sahənin yarğanlar tərəfindən dərininə

parçalanmasına gətirib çıxarır.

Atmosfer çöküntüləri güclü və torpağın susızma qabiliyyəti zəif olduqda torpaq səthinə düşən yağış damcıları onun tərkibindəki asan həll olunan birləşmələri yuyub çökəkliklərə aparır.

Xətti eroziya güclü olduqda dərin yarğanlar vasitəsilə sahələr bir neçə hissəyə parçalanır, bu da torpağın becərilməsini çətinləşdirir. Qrunt suları aşağı enir, torpağın rütubəti azalır, nəticədə münbitlik itir.

Suvarılan əkinçilik rayonlarında suvarma normasına düzgün riayət etmədikdə irriqasiya eroziyası baş verir. Münbit əkin qatı tədricən yuyulur, qalınlığı azalır, mexaniki tərkibi yüngülləşir, qida maddələrini itirir, su-fiziki xassələri pisləşir və yuyulmuş narın hissəciklər relyefin çökək hissələrində toplanır.

Quraq iqlimə malik olan susuz ərazilərdə, xüsusən bitki örtüyü seyrək olan qumluqlarda külək eroziyası (deflyasiya) baş verir.

Külək torpağın üst hissəsinə təsir edib, onu sovurur və bir yerdən digər yerə aparıb çökdürərək eol relyefi əmələ gətirir. Külək eroziyası torpağın narın hissəçiklərini (0,1 mm-dən kiçik) havanın yuxarı qatlarına (5 km-ə qədər) qaldırıb, hava axınları ilə çox uzaq məsafələrə (3-3,5 min km) aparır. Nəticədə torpaq qatı dağılır, sahələr qobu şəbəkələrinə parçalanır, dəyərli torpaq sahələri tədricən yararsız vəziyyətə düşür. Ümumiyyətlə, torpaq eroziyası get-gedə inkişaf edən proses olduğu üçün ona qarşı mütəmadi mübarizə tədbirləri görmək lazımdır.

Müasir əkinçilikdə eroziyaya qarşı elmi əsasarla mübarizə aparılır və torpaq münbitliyinin artırılmasına ümumxalq tədbiri kimi yanaşılır. Ona görə də ölkəmizdə elmi-tədqiqat idarələri bu mühüm problem üzərində daima işləyirlər.

Hazırda bir çox suvarılan təsərrüfatlarda irriqasiya eroziyası halları baş verir. Bunu tarlalarda su axarlarının, tirələrin, şırımların düzgün çəkilməməsi ilə izah etmək lazımdır. Belə hallar irriqasiya eroziyasının yaranmasına səbəb olur. Məsələn, Qarabağ düzündə bəzən suvarma arxlaının düzgün çəkilməməsi nəticəsində torpağın yuyulub aparılması hadisələri baş vermişdir. Sahənin meylliyi isə irriqasiya eroziyasını daha da gücləndirir. Odur ki, belə sahələrdə suvarma texnikasına düzgün riayət edilməsi tələb olunur.

Eroziyaya qarşı mübarizə tədbirlərindən biri də kənd təsərrüfatı bitkilərinin güclü inkişafını təmin edən miqdarda torpaqların gübrələnməsidir. Təcrübələr göstərir ki, eroziyaya uğramış torpaqlara gübrə verilmədikdə,

səpilən toxum qədər də məhsul yığmaq olmur. Bu baxımdan həmin tədbirlərin həyata keçirilməsi əkinçiliyin kimyalaşdırılması probleminin mühüm bir cəhətini əks etdirir.

Dağ və dəğətəyi rayonların ərazisində baş verən eroziya növlərindən biri də yarğan eroziyasıdır. Belə ki, yamaclarda, əkin sahələrində yarğanların əmələ gəlməsi, buranın təbii dərinləşməsinə səbəb olmaqla yanaşı, torpaqların başdan-başa texnika ilə becərilməsinə, yolların çəkilməsinə maneçilik törədir. Odur ki, qobular ilbəil böyüyərək əkin üçün yararlı olan sahələrin azalmasına, su rejiminin pisləşməsinə səbəb olur. Dağ-çəmən və dağ-meşə qurşaqlarında qobuların böyüməsi müxtəlif intensivliklə gedir. Sahədə yaxşı bitki örtüyü olduqda yarğanların böyüməsi müşahidə olunmur və qobuəmələgəlmə prosesi tədricən sönür, lakin bitki örtüyü tələf edildikdə-yəni yarğan ətrafında mal-qara otarıldıqda səthi su axını əmələ gəlir ki, bu da yarğanın böyüməsi ilə nəticələnir. Belə ərazilərdə yamacın eninə şumlanması torpağın əkin qatının qorunub saxlanmasında böyük rol oynayır. Əkin sahələri ətrafında tarlaqoruyucu meşə zolaqlarının salınması külək və su eroziyasına qarşı aparılan mübarizə tədbirlərindən biridir.

Respublikada vaxtilə meşə ilə örtülmüş və ya kənd təsərrüfatında istifadə edilən bəzi yamaclar təsərrüfatsızlıq nəticəsində güclü eroziya prosesinə məruz qalmış, yararsız sahələrə çevrilmişdir. Bu yamaclarda bağlar, meşə-bağlar salaraq onları kənd təsərrüfatı dövriyyəsinə qaytarmaq günün vacib problemlərindəndir.

Respublikamızın Lənkəran, Cəlilabad, Şamaxı, Dəvəçi və digər rayonlarında eroziyaya uğramış kənd təsərrüfatı bitkiləri üçün yararsız sayılan yamaclarda düzəldilmiş terraslarda çoxillik əkmələrin becərilməsi yaxşı nəticə verir.

Terraslar yamacın meyllərindən asılı olaraq müxtəlif üsullarla hazırlanır. Alimlərimizin tədqiqatları göstərir ki, meylliyi 8°-14° olan yamaclarda təkrar şumlanma, 14°-18° olan sahələrdə plantaj, 18°-40°-lik yamaclarda isə buldozerlə düzəldilən terraslar daha effektli olur.

Təkrar şumlama üsulu ilə terraslar düzəltdikdə əvvəlcə yamacda horizontallar üzrə xətlər çəkilir. Sonra isə adi 4 və ya 5 gövdəli kotanla çəkilən xətlər boyu dəfələrlə birtərəfli şumlama aparılır. Şumlama yamacda terraslar alınana qədər davam etdirilir. Qozmeyvəli ağac cinslərindən 2 cərgəli bağ salmaq üçün yaradılan terrasların eni 6-6,5 m olmalıdır.

Plantaj üsulu ilə terras düzəltdikdə sahə nivelirlənir, terrasların yeri müəyyən edilir. Sonra yamacın yuxarı hissəsindən başlayaraq plantaj kotanı ilə birtərəfli şumlama aparmaqla torpaq çevrilir və eni 5-5,5 m olan zolaqlar yaradılır.

Kotanın ilk gedişində şumun dərinliyi 20, ikincidə 40, üçüncüdə 50, sonrakı gedişlərində 70-80 sm-ə çatdırılır. Zolaqlar arasında 80-100 sm enində şumlanmamış sahələr saxlanılır. Belə zolaqlar yağış sularının və yuyulmanın qarşısını alır. Şumlanmış zolaqlarda yamacın yuxarısından başlayaraq qreyderlə terras yatağı düzəldilir. Qreyderin 4-5 gedişindən sonra terras yatağı başa gəlir.

Yamacın meylliyi 15-18 dərəcədən çox olarsa, təkrar şumlama və plantaj üsulu ilə terras düzəltmək mümkün olmur. Bu zaman buldozerlə terraslar düzəldilən sahədə torpağın qalınlığı və daşlılıq dərəcəsi müəyyən edilir, sonra terras açılan yerlər nivelir vasitəsilə nişanlanır və mıxçalarla qeyd olunur. Maşınla terras düzəldənin yaxşı görməsi üçün nişan payalarının boyu 1-1,2 m olmalıdır. Terrasların açılmasına yamacın yuxarı hissəsindən başlanır. Terrasın yatağı tökmə və kəsmə hissələrə ayrılır. Yatağın 60%-i kəsmə, 40%-i isə tökmə torpaq hissəsindən ibarət olur. Çəkilən terrasların eni 4 m-dən 6 m-ə qədər olub, uzunluğu yamacın relyefindən asılı olaraq 500-800 m təşkil edir.

Mühüm tədbirlərdən biri də torpaqların rekultivasiyasıdır, yəni bu və ya digər şəkildə münbitliyi pozulmuş və əkin dövriyyəsindən çıxarılmış torpaqların yenidən münbitliyinin bərpası məsələsidir. Müxtəlif tikintilər, yol şəbəkəsinin çəkilməsi, faydalı qazıntıların çıxarılması nəticəsində ildə 30-35 min hektar sahə üst qatını və bitki örtüyünü itirir. Respublikamızda 30 min hektara qədər torpaq sahəsi neft və neft məhsulları ilə çirklənmişdir. Hazırda bu sahələr tədricən bərpa edilib, kənd təsərrüfatında və yaşıllaşdırma işlərində istifadə olunur. Bundan başqa, respublikamızda dağ-mədən sənayesi inkişaf edən rayonlarda münbit torpaqların pozulması hallarına rast gəlinir. Hazırda belə sahələrdə də rekultivasiya işlərinin aparılmasına başlanmış və bu işlərin icrası üçün müvafiq maliyyə vəsaiti ayrılmışdır.

Rekultivasiya tədbirlərinin kompleks təşkili nəticəsində torpağın öz ilkin münbit qatı bərpa edilərək, o, kənd təsərrüfatı, yaxud meşə təsərrüfatı dövriyyəsinə qaytarılır. Bunun üçün ilk növbədə qruntun xassəsi öyrənilməlidir, yəni onun tərkibi, toksik birləşmələrin miqdarı və s. Bundan sonra sahədə rekultivasiya işləri aparıla bilər. Hazırda qəbul

olunmuş təsnifat əsasında pozulmuş və çirklənmiş sahələrdə kənd təsərrüfatı bitkiləri, yaxud meşə bitkiləri becərilməsinə dair yaxşılaşdırma tədbirləri işlənib hazırlanmışdır. Bu tədbirlər vasitəsilə onların münbitliyini bərpa etmək mümkündür.

Qruntun fiziki, fiziki-kimyəvi və mineroloji tərkibinə əsasən onu kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün 4 kateqoriyaya bölmək olar: çox yaxşı, yaxşı, kafi və qeyri-kafi. Hər bir kateqoriyaya müvafiq olaraq kompleks tədbirlər hazırlanıb tətbiq edilməsi torpağın üst qatının münbitliyini normal səviyyəyə qaldıra bilər.

Yeni torpaqların mənimsənilməsi və suvarılması, bataqlıqların qurudulması, faydalı qazıntıların istismarı, geniş yol şəbəkələrinin təşkili, süni göllərin yaradılması, yaşayış məntəqələrinin artması, sənayenin inkişafı ətraf mühitin dəyişməsinə böyük təsir göstərir. Ətraf mühitin vəziyyətinin təhlili və təbii mənbələrdən istifadə göstərir ki, təbiəti mühafizə sahəsində görülən işlər müasir tələblərə tam cavab vermir, respublikada ekoloji vəziyyət gərgin olaraq qalır.

Hazırda aqrar-ərzaq kompleksinin fəaliyyətinə cəlb edilmiş min hektarlarla sahələr müxtəlif kimyəvi və radioaktiv çirklənməyə məruz qalmışdır. Bu isə, öz növbəsində, kənd təsərrüfatı bitkilərinin inkişafına, məhsulların keyfiyyətinə mənfi təsir göstərir, insanların sağlamlığına və heyvanat aləminə zərər gətirir. Ona görə də, müasir mərhələdə yerquruluşu layihə və sxemlərində torpaqdan istifadələrin ərazilərinin təşkili zamanı çirklənmənin təsirini minimuma endirən tədbirlərin layihələndirilməsi məsələsi ön plana çəkilməlidir.

Bütün növ torpaqlarda radioaktiv maddələrin miqdarının çox olması həm təbii mənşəli radioaktiv maddələrlə, həm də texnogen xarakterli mənbələrlə əlaqədardır.

Torpaqlarda radioaktivliyİn normadan çox olmasına səbəb mənşəcə təbii və süni radioaktiv elementlər ola bilər.

Torpaqların kimyəvi maddələrlə çirklənməsinin əsas mənbələri kənd təsərrüfatında bitkilərin mühafizəsində istifadə olunan zəhərli kimyəvi maddələr, eyni zamanda mineral gübrələr, sənaye, məişət və sair xarakterli çirkablı sular və tullantılardır.

"Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi qaydalar"ı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 may 2000-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Bu “Qaydalar” Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq Azərbaycan Respublİkası ərazisində radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi qaydasını müəyyən edir.

Radioaktiv və kimyəvi çirklənmiş torpaq sahələrinin müəyyən edilməsi ilkin elmi-texniki ekspertiza nəticələri əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Səhiyyə Nazirliyi və öz səlahiyyətləri daxilində digər əlaqədar təşkilatlar tərəfindən həyata keçirilir.

Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaq sahələrinin çirklənmə dərəcəsi, çirklənmə mənşəyi, tərkibi, əsas torpaq kütləsi ilə əlaqə forması, aqreqat, fiziki-kimyəvi xüsusiyyətləri, dərin qatlara və yer səthinə zərərli təsirin məsafədən asılılıq qanunauyğunluqlarının müəyyən edilməsi xüsusi yüksəkixtisaslı mütəxəssislər tərəfindən elmi-tədqiqat işləri nəticəsində həyata keçirilir.

Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaq sahələri çirklənmə dərəcəsi və xarakterinə görə aşağıdakı qruplara bölünür:

a) çirklənmə dərəcəsi mövcud normaların son həddinin 1,0÷2,0 misli qədər olan təhlükə ehtimallı sahələr.

Bu sahələrdə canlı orqanizmlərin yaşaması və fəaliyyəti xüsusi sanitar və gigiyenik normativlərlə, həmçinin otlaq sahələrində həmin maddələrin dövranını ev heyvanlarından alınan ət və süd məhsullarının tərkibindəki miqdarı ilə müəyyənləşdirilir. Kənd təsərrüfatı üçün istifadəsi qeyri-mümkün olan torpaq sahələrini xüsusi çəpər və ya göstərici işarələr vasitəsi ilə izolə etmək lazımdır.

b) çirklənmə dərəcəsi mövcud normaların son həddinin 2.0 mislindən çox olan təhlükəli torpaq sahələri.

Bu sahələrdə təmas yalnız xüsusi sanitar-gigiyenik normativlərlə məhdudlaşır. Belə sahələr ətraf mühitdən tamamilə izolə edilməlidir.

Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və onların bərpası mülkiyyət formasından asılı olmayaraq bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.

Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış, insanların sağlamlığına təhlükə yarada bilən, habelə məhsul istehsalı üçün sanitar tələblərə cavab verməyən torpaqlar müvafiq yerli icra hakİmiyyətlərinin

və bələdiyyələrin qərarı ilə təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılaraq, konservasiya olunur və bərpa edilməsi üçün ehtiyat torpaq fonduna keçirilir. Sağlamlaşdırılan torpaq sahələri Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin və digər əlaqədar təşkilatların mütəxəssislərindən ibarət ekspert qrupunun rəyinə əsasən həmin torpaqları təsərrüfat dövriyyəsindən çıxaran orqanların qərarı ilə əvvəlki istifadəçilərinə qaytarılır və təyinatına uyğun olaraq istifadə edilir.

Radioaktiv elementlərlə çirklənmiş torpaq sahələrinin çirklənmə dərəcəsindən, torpaq qatının çirklənməsi dərinliyindən, torpağın tipi, növü, geomineraloji və ətraf mühitin coğrafi xüsusiyyətlərindən asılı olaraq konservasiya və bərpa işləri aşağıdakı qaydada həyata keçirilir:

a) təhlükə ehtimalı torpaq sahələrində çirklənməyə təbii radioaktiv izotoplar səbəb olduqda, həmin sahələrdə təsərrüfat fəaliyyəti və təmas üçün xüsusi qaydalar müəyyən olunur. Bu sahələrdə radioaktiv maddələrin tərkibi, aqreqat halı, ionlaşdırıcı şüaların mənşəyi və intensivliyi müəyyən edilir. İlk növbədə çirklənmə dərəcəsinin artmasının qarşısının alınması və sonrakı çirklənmənin azalmasına yönəlmiş elmi-texniki işlər aparılır;

b) təhlükəli torpaq sahələrində çirklənmə zonaları mütləq ətraf mühitdən izolə edilməlidir. Çirklənmə mənbəyinin xarakteri, tərkibi və şüa növü tədqiq olunaraq ətraf mühitə təhlükə ehtimalını müvəqqəti azaltmaq üçün işçi planı hazırlanıb yerinə yetirilməlidir. Sonralar isə əsaslı təmizləmə və radioaktiv dezaktivasiya texnologiyası əsasında tədbirlər planı yerinə yetirilməlidir.

Radioaktiv və kimyəvi çirklənməyə məruzqalma təhlükəsi gözlənilən sənaye obyektlərində həmin obyektlərin yerləşdiyi və qonşu torpaq sahələrində çirklənmə zonasının hüdudlarından asılı olaraq uzunmüddətli monitorinq müşahidə məntəqələri yaradılmalıdır.

İstehsal prosesi zamanı torpaqda radioaktiv və kimyəvi çirklənmə halları müşahidə edildikdə həmin torpaq sahələrində xüsusi cari sağlamlaşdırma tədbirləri həyata keçirilir, bu tədbirlərin tətbiqi müsbət nəticələr vermədikdə istehsal prosesi dayandırılır və torpaq sahələri təsərrüfat dövriyyəsindən çıxarılaraq konservasiya edilir.

İstehsal prosesi zamanı fiziki və hüquqi şəxslərin səhlənkarlığı nəticəsində radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi və

sağlamlaşdırılması işlərinin dəyəri təqsirkar şəxslər tərəfindən ödənilir.

Təbii fəlakət və fövqəladə hallar nəticəsində dövlət mülkiyyətində olan obyektlərdə baş verən qəza və eləcə də digər mənbələrin tullantıları ilə radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması işlərinin dəyəri müəyyən olunmuş qaydada dövlət büdcəsindən ödənilir.

Torpağı çirkləndirən amillər sırasında avtomobillərdən çıxan işlənmiş qazları göstərmək olar. Müxtəlif tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, hərəkət intensivliyi gündə 3000 avtomobil olan yollarda torpaqların çirklənmə zonası yoldan 200-300 m məsafəyə qədər yayılır. Başqa sözlə, əgər təsərrüfatın ərazisindən keçən magistral yolun uzunluğu 2 kilometrdirsə, onda çirklənmə zonası 40-60 ha olacaqdır.

Torpaqlar habelə sənaye müəssisələrinin tullantıları ilə də çirklənir.

Çirklənmiş zonaların plan-kartoqrafik materiallarda ayrılması, onların sahələrinin hesablanması, ayrı-ayrı torpaq yerlərinin və növbəli əkinlərin ərazilərinin təşkili məsələlərinin elmi əsaslandırılmış həll edilməsi yerquruluşu layihələrinin əsas elementlərindən olmalıdır.

Avtomagistral yollarına yaxın sahələrdə tarlaçılıq və tərəvəzçilik növbəli əkinlərinin yerləşdirilməsi daha məqsədəuyğundur. Lakin buradan yığılan məhsullar ancaq emal olunmalıdır. Bu cür növbəli əkinlərdə becərilmiş məhsullar mexaniki və digər sənaye emalına məruz qalır, yeyinti məhsullarında zəhərli tərkiblər tam ləğv edilir. Yem üçün toplanan məhsullar emala getmir. Belə ərazilərdə mədəni örüş sahələrinin, biçənək massivlərinin, habelə yemçilik növbəli əkinlərinin yerləşdirilməsi təcrübəsindən imtina etmək lazımdır. Belə ki, avtomobildən çıxan işlənmiş qazlarda olan zəhərli maddələr yem sahələrinə çökür və yemlərlə birlikdə heyvanlar tərəfindən həzm edilir, insan sağlamlığına zərər vura bilən yeni bir mənbə yaranır. Göstərilən ərazilərdə onların yerləşdirilməsi zərurəti ortaya çıxdıqda, yol boyunca iriyarpaqlı ağaclardan ibarət olan meşə zolaqları salmaqla bərabər, həm də yem sahələrinin məhsuldarlığını böyük miqyasda artıra bilən tədbirlərin həyata keçirilməsi vacibdir ki, bununla da zərərli maddələrin heyvan yemlərindəki nisbi yükü minimuma endirilmiş olar.

Torpaqların çirklənməsinin qarşısını müxtəlif üsullarla almaq mümkündür: çirklənmənin profilaktikası, yəni tullantıların azaldılması yolu ilə; torpaqların bilavasitə təmizlənməsi ilə; çirkləndirmə mənbələrinin yerləşdirilməsi zamanı sanitar zonalara riayət etməklə; mühafizə

divarlarını çəkmək, habelə təşkilat-təsərrüfat və yerquruluşu tədbirlərinin köməyi ilə.

Məlum olduğu kimi, müxtəlif torpaq tipləri və bitki növləri çirklənməyə müxtəlif cür reaksiya verir. Belə ki, bu zərərli maddələr bir torpaq növündə asanlıqla aşağı qata sızılır, digərlərində toplanır, üçüncü torpaq növündə isə parçalanıb, mənimsənilir və s. Bəzi bitkilər onları kök sisteminə toplayıb saxlayır, digərləri bütün orqanizm boyu yayır, yaxud parçalayır.

Azərbaycan Respublikasının təsərrüfatlarının ekoloji-iqtisadi şəraitlərinin tədqiqi göstərir ki, kənd təsərrüfatı müəssisələri aztorpaqlılıqla xarakterizə olunurlar. Məsələn, Azərbaycan Respublikasında sahəsi 3 hektara qədər olan təsərrüfatların nisbi yükü təsərrüfatların ümumi sayının 67%-ni təşkil edir.

Təsərrüfatların yarıdan çoxu 5 ha-ya qədər, 18%-dən çoxu 5,1-10 ha, 9,4%-i 10,1 -20 ha, 1,3%-i 20,1-50 ha intervallarında sahəyə malikdirlər. Yalnız respublikanın kənd təsərrüfatı müəssisələrinin 1%-i 50 ha-dan çox sahəyə malikdir. Habelə, ölkənin ərazisinin landşaft xüsusiyyətlərinin təhlili göstərir ki, respublikanın kənd təsərrüfatı torpaqları kiçikkonturluluqla xarakterizə edilir.

Respublikanın torpaqları son illərdə qida maddələrinin mənfi balansı ilə xarakterizə olunur. Bu da sahələrə verilən mineral və üzvi gübrələrin həcminin kəskin şəkildə azalması ilə izah olunur. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlar toplusunun təhlili göstərir ki, 2002-ci ilin əvvəlinə respublikanın əkin sahəsinin 1/3 hissəsi istifadəsiz qalmış, kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməmişdir. Bütün bunlara səbəb torpaq sahələrinin münbitliyinin artırılmasına dair əsas növ işlərin yerinə yetirilmə həcminin həddindən artıq aşağı düşməsidir.

Son 10-15 illər ərzində respublikada təbii yem sahələrinin (yay və qış otlaqlarının) səthi və kökündən yaxşılaşdırılmasına dair işlərin həcmi də minimuma endirilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin məkan (ərazi) şəraitlərinin təhlili göstərir ki, onların formalaşdırılması zamanı heç də həmişə yerquruluşu layihələndirilməsinin tələbləri nəzərə alınmamışdır. Nəticədə, mövcud torpaqdanistifadələr adda-buddalıq, səpələnmə, aztorpaqlılıq, topoqrafik adda-buddalıq, sərhədlərin düzgün yerləşdirilməməsi, təsərrüfatların torpaq növlərinin onların ixtisaslaşmalarıyla uyğunlaşmaması, torpaqdanistifadələrin ölçülərinin həddindən

artıq kiçik olması və s. bu kimi çatışmazlıqlarla xarakterizə olunur. Bütün bu çatışmazlıqlar texnoloji əməliyyatların vaxtında yerinə yetirilməsini ləngidir, kənd təsərrüfatı məhsullarının istehsalı üçün lazım olan xərclərin həcmini artırmaqla son nəticədə məhsulların maya dəyərini artırır. Eyni zamanda torpaqlardan tam, dolğun və səmərəli istifadə yollarında böyük əngəlliklər yaranır.

Müşahidələr yolu ilə habelə müəyyən edilmişdir ki, maliyyə vəsaitlərinin çatışmazlığı ucbatından, habelə təsərrüfatların məkan şəraitlərindəki çatışmazlıqlar üzündən aqrotexniki tələblər vaxtında yerinə yetirilmir ki, onlar da son nəticədə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına mənfi təsir göstərir. Bütün bunlar kiçikölçülü təsərrüfatların kooperasiyasını, torpaq bazarının intensivləşdirilməsini, torpaqdanistifadələrin təşkilini elmi əsaslar zəminində yerquruluşu layihələrinin tərtibi və tətbiqi ilə həyata keçirilməsini zəruri edir.

Respublikanın ərazisində ekoloji şəraitin mürəkkəbləşməsi və nəzərə çarpacaq dərəcədə pisləşməsi torpaqlardan istifadədə məhdudiyyətlərin qoyulmasını tələb edir. Təbiəti mühafizə, rekreasiya və qoruq rejimli ərazilərin əsaslandırılmış sərhədlərinin müəyyənləşdirilməsi məsələsi önəmə gəlir. Landşaftda ekoloji tarazlığı təmin etmək məqsədilə bir sıra təsərrüfatların ixtisaslaşmasına korrektirovka edilməli, torpaqların eroziyadan, aşınmadan və mənfi antropogen təsirlərdən qorunması üçün kompleks tədbirlər sistemi həyata keçirilməlidir.

Torpaq və digər istehsal vasitələri üzərində müxtəlif mülkiyyət formalarının təsbiti torpaqların hüquqi rejiminin dəyişməsinə səbəb olmuşdur. Torpaq fondunun kateqoriyalar üzrə funksional təyinatının, habelə torpaqlardan istifadənin rejiminin dəyişməsi sənaye, nəqliyyat, müdafiə, energetika və digər qeyri-kənd təsərrüfatı məqsədləri üçün torpaq ayrılmasının qaydaya salınmasını, təkmilləşdirilməsini tələb edir.

Təhlil göstərir ki, müvafiq dövlət orqanlarının, təşkilat və idarələrinin respublikanın torpaq fondundan istifadəyə monitorinq səlahiyyətləri artırılmalı, mövcud qanunçuluğun tələblərinə riayət üzərində nəzarət gücləndirilməlidir.

Təbiəti mühafizəyə yalnız təbii komponentləri, təbii kompleksləri mühafizə etmək kimi baxmaq zəruri deyildir. Təbii kompleksləri mühafizə etmək əsas məqsədin yalnız bir hissəsidir. Əslində təbiəti mühafizə təbiət-istehsal sistemi daxilində öyrənilməli, təhlil olunmalıdır. Bu məsələ daha geniş mənada ətraf mühitin mühafizəsi ilə uzlaşdırılmalıdır.

# FƏSİL III.
# AZƏRBAYCANDA TORPAQ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI TARİXİ VƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI

## 3.1. Ictimai-siyasi quruluş və torpaq münasibətləri

İstehsal prosesi məhsuldar qüvvələrin səviyyəsi və bu zaman yaranan iqtisadi münasibətlərin məcmusu ilə xarakterizə edilir. İnsanın təbiətlə qarşılıqlı təsir prosesi əmək prosesi olub, insanların məqsədyönlü fəaliyyətidir. Əmək fəaliyyəti prosesində insan təbiətlə yaxından təmasda olur və onu öz ehtiyaclarını ödəmək üçün bu və ya digər dərəcədə öz tələblərinə uyğunlaşdırır. Əmək prosesinin nəticəsi əməyin məhsuludur. Torpaqsız ümumiyyətlə hər hansı bir əmək prosesi mümkün deyil. İnsan cəmiyyətinin inkişaf mərhələlərində torpaq daima "ümumi əmək vasitəsi" kimi çıxış edir.

Təbii ehtiyatların əsasını təşkil edən torpaq ictimai formasiyalardan, xalqların din və dillərindən, coğrafi məskunlaşmasından asılı olmayaraq həmişə bəşəriyyətin ən dəyərli ümumxalq sərvəti kimi qiymətləndirilmişdir.

Lakin bu sərvətdən istifadənin qaydaları, mülkiyyət formaları ictimai-siyasi quruluşdan asılı olaraq müxtəlif olmuşdur. Yəni ictimai-iqtisadi formasiya torpaq münasibətlərini formalaşdırmış, onlara söykənərək torpaqdan istifadənin istiqamətlərini müəyyən etmişdir. Torpaqların yararlılıq dərəcəsi, onların potensial imkanlarından istifadənin səviyyəsi həmin torpaq münasibətlərindən irəli gəlmişdir.

Torpaq münasibətləri torpaqdan istifadə edən və ya mülkiyyətçisi olan ayrı-ayrı insanlarla əsas istehsal vasitəsi olan torpaq arasında istehsal prosesində yaranan münasibətdir. Torpaq münasibətləri istehsal münasibətlərinin spesifik sferasıdır. Bu özünəməxsusluq torpağı başqa istehsal vasitələrindən fərqləndirən xüsusiyyətlərdən və digər amillərdən irəli gəlir. Torpağın istehsal vasitəsi kimi istifadəsi və bununla bağlı torpaq münasibətləri sosial-iqtisadi, təbii-tarixi və sairə faktorlarla şərtləşir. Bu sistemdə əsas faktor kimi sosial-iqtisadi şəraitlər çıxış edir. Belə ki, məhz bu faktor torpaq üzərindəki mülkiyyət formasını müəyyənləşdirir ki, bu da öz növbəsində dövlətin torpaq münasibətlərinin xarakterini formalaşdırır.

İstehsal münasibətlərinin bazisi olmaqla, torpaq münasibətləri

məhsuldar qüvvələrin inkişafına böyük təsir göstərməklə, istehsal prosesini ya sürətləndirir və yaxud da ləngidir.

Digər tərəfdən, torpaq münasibətləri istehsal münasibətləri sisteminin tərkib hissəsi olmaqla onun xarakteri məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyən edilir. Məhsuldar qüvvələr inkişaf etdikcə, torpaq münasibətləri də təkmilləşir, yeni formalar alır.

Torpaq münasibətlərinin məcmusunu, onların xarakterini bu və ya digər cəmiyyətin torpaq rejimi adlandırmaq olar.

Torpaq rejiminin xarakteri ictimai münasibətlərin digər növlərinə təsir göstərməklə, cəmiyyətdə mənəvi-psixoloji mühiti formalaşdıran əsas amillərdən birinə çevrilir. Torpaq rejimi (quruculuğu) cəmiyyətdə sosial ziddiyyətləri səngidə və ya sərtləşdirə bilər, əmtəə istehsalçılarının ticarət və təsərrüfat fəaliyyətini artıra və ya məhdudlaşdıra bilər. Bu rejim elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqini stimullaşdırmaq və ya ləngitmək iqtidarındadır. Kənd təsərrüfatında və iqtisadiyyatın digər torpaqtutumlu sferalarında torpaq münasibətlərinin xarakteri ictimai münasibətlərin digər tərkib hissələrinin, məsələn, aqrar münasibətlərin faktiki forma və məzmununu müəyyənləşdirir.

Əsrlər boyu sosial münaqişələrin mənbəyi kimi torpaq rejiminin qeyri-optimallığı olub. Dünyada gedən demək olar ki, bütün müharibələrin kökündə dövlətlərin bir-birinə ərazi iddiaları olub. (məsələn, erməni faşistlərinin Azərbaycanın ərazi bütövlüyünə təcavüzü və s.). Dünya əhalisinin artımı, elmi-texniki tərəqqinin inkişafı torpaq ehtiyatları ilə bağlı ekoloji problemləri gündəmə gətirir. Bundan əlavə, əhalinin böyük sürətlə artımı və kənd təsərrüfatı məhsullarının istehsalı üçün ərazilərin məhdudluğu problemi də bütün bəşəriyyət qarşısında duran problemlərdəndir. Deməli, torpaq ehtiyatları və onlarla bağlı olan torpaq münasibətləri üzərində nəzarət elə istehsal prosesləri (təkcə kənd təsərrüfatında yox, digər sahələrdə də), demoqrafik vəziyyət, ekoloji vəziyyət üzərində nəzarət deməkdir. Son nəticədə torpaq-hakimiyyətdir. Onu demək kifayətdir ki, tarixin bütün inkişaf mərhələlərində ictimai-siyasi quruluşların dəyişməsi zamanı yeni hakimiyyətin ilk sərəncamları, dekretləri torpaq haqqında olub.

Ona görə də, bəşəriyyətin bütün zamanlarında torpaq münasibətlərinin qaydaya salınmasına, nizamlanmasına cəhdlər olmuşdur. Göründüyü kimi, torpaq münasibətlərinin iqtisadi və hüquqi tərəfləri vardır. Torpaq münasibətlərinin optimallaşdırılması üçün onların

təkmilləşdirilməsinə və nizamlanmasına dair müəyyən tədbirlər həyata keçirilməlidir.

Ona görə də, torpaq münasibətlərinin dövlət nizamlanması sferasına aşağıdakı tədbirlərin məcmusu kimi baxmaq olar: 1)qarşılıqlı əlaqədə olan qaydalarla (qanunların və digər aktların qəbulu ilə); 2) torpaq üzərində mülkiyyət, sərəncamvermə və istifadə hüquqlarına malik subyektlərin torpaq münasibətləri proseslərinin idarə edilməsinə dövlət müdaxiləsi ilə.

Torpaq münasibətlərinin nizamlanmasına dair tədbirlər sisteminin mərkəzində yerquruluşu durur.

Torpaq münasibətləri sisteminin əsas elementləri aşağıdakılardır: 1) torpaq münasibətlərinin obyekti-torpaq ; 2) bu münasibətlərin subyektləri-vətəndaşlar; 3) torpağa mülkiyyət münasibətləri; 4) torpaqların istifadəyə, icarəyə verilməsi, servitutların müəyyənləşdirilməsi zamanı meydana çıxan mülki-hüquqi münasibətlər; 5) torpaq istifadəsindən, o cümlədən torpaq satışından əldə edilmiş gəlirlərin mənimsənilməsi və ya bölüşdürülməsi ilə bağlı münasibətlər; 6) torpaqların təsərrüfat məqsədləri üçün istifadəsi zamanı yaranan münasibətlər; 7) torpaq münasibətlərinin nizamlanmasının üsul və metodları.

Torpaq münasibətlərinin ictimai münasibətlərin digər növlərindən fərqi bu münasibətlərin obyekti olan torpağın özünəməxsus xüsusiyyətləri ilə izah olunur: torpağın münbitlik xüsusiyyətinə malik olması; onun insan əməyinin tətbiqi ilə təkrar istehsalının mümkünsüzlüyü; torpağın təbiətin verdiyi ölçülərindən kənara genişləndirilməsinin mümkünsüzlüyü; torpağa ehtiyacın daimiliyi, mənəvi aşınmaya məruz qalmamağı və s.

Torpaq münasibətləri şüurlu tənzimlənmə olmadan kortəbii şəkildə inkişaf edə bilməz. Hal-hazırda bütün cəmiyyətlərdə torpaqdan istifadənin səmərəli üsullarının müəyyənləşdirilməsinə dair axtarışlar aparılır, insanla torpaq arasında daha harmonik qarşılıqlı əlaqənin bərqərar olmasına imkan yaradan iqtisadi, təşkilati-texniki, hüquqi və digər mexanizmlər işlənir.

Torpaq münasibətlərinin formalaşdığı və təşəkkül tapdığı bütün dövrlər ərzində dünya təcrübəsində torpaq rejiminin müxtəlif modelləri bərqərar olmuşdur. Konkret olaraq bu və ya digər ölkədə torpaq rejiminin formalarına həmin ölkənin tarixi, sosial-iqtisadi, etnomədəni, təbii-təsərrüfat və digər xüsusiyyətləri güclü təsir göstərmişdir.

Azərbaycanda feodal və kapitalist aqrar və torpaq münasibətlərinin

tədqiqi çoxillik tarixə malikdir. Azərbaycan alimləri və əcnəbi tədqiqatçıların əsərlərində Cənubi Qafqaz dövlətlərində feodalist və kapitalist aqrar-torpaq münasibətlərinin bir sıra aspektləri işıqlandırılır. Bu əsərlərdə torpaq münasibətləri problemləri müəlliflər tərəfindən əsasən feodal və kapitalist dövlətlərinin sosial-iqtisadi həyatlarının öyrənilməsi ilə əlaqədar olaraq qaldırılır.

Azərbaycan alimləri A.A. Əlizadə, S.B. Aşurbəyli, Z.M. Bünyadov, İ.M. Həsənov, M.A. İsmayılov, T. Musəvi, Ə.S. Sumbatzadə, M.X. Şərifli öz əsərlərində antik Azərbaycan, gürcü, ərəb, fars, türk, rus və Qərbi Avropa mənbələrinin məlumatları əsasında Zaqafqaziyanın orta əsrlər dövrünün mürəkkəb və zəngin hadisələri, region dövlətlərinin aqrar münasibətləri haqqında qiymətli məlumatlar verirlər. Bu alimlərin diqqətini torpaq münasibətlərinin təkamülü məsələləri daha çox cəlb etmişdir.

VI-XVI əsrlərdə Azərbaycanda aqrar münasibətlərə dair yuxarıda göstərilən və digər tədqiqatçıların fikirlərinin hərtərəfli təhlili, xüsusilə də mülkiyyət hüquqları və torpağa sahiblik məsələləri S.B.Aşurbəylinin “Şirvanşahlar dövləti (VI-XVI əsrlər)” monoqrafiyasında öz əksini tapmışdır.

Akademik Z.M.Bünyadovun əsərlərində feodal Azərbaycanda aqrar və torpaq münasibətlərinin əsas məsələləri hərtərəfli işıqlandırılır.

İ.P. Petruşevskinin çoxsaylı əsərləri XV-XVI əsrin əvvəlində Zaqafqaziyada feodal münasibətlərinin tədqiqinə həsr edilmişdir. Onun əsərlərində Zaqafqaziyada kənd təsərrüfatı istehsalının şəraiti və xüsusiyyətləri, kəndlilərin iqtisadi və hüquqi vəziyyəti, onların istismar formaları müfəssəl tədqiq edilmişdir.

Azərbaycanda feodal münasibətlərinin öyrənilməsi üçün T.Musəvinin əsərləri böyük maraq doğurur.

Ədəbiyyat mənbələrinə, eləcə də görkəmli şərqşünasların tədqiqatlarının nəticələrindən istifadə etməklə, tərəfimizdən Azərbaycanda feodalizm, kapitalizm, sosializm dövrləri üçün feodal, kapitalist və sosialist, habelə müasir bazar torpaq münasibətləri, torpaq mülkiyyətinin formaları və kənd təsərrüfatı vergilərinin növləri şərh edilir.

## 3.2. Azərbaycanda quldarlıq və erkən feodalizm dövründə torpaq münasibətləri

Azərbaycan ərazisində sinifli cəmiyyətin və dövlətin yaranması e.ə. III minilliyin sonundan başlamış, ilkin siyasi birləşmələr-tayfa ittifaqları yaranmışdır. E.ə. I minilliyin əvvəllərində isə Manna, Midiya, Atropatena, Albaniya kimi müstəqil dövlətlər tədricən formalaşmışdır. Quldarlıq dövrü dövlətlərini əvəz etmiş feodal dövlətləri-Şirvanşahlar, Atabəylər, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və s. təşəkkül tapmışdır.

Mannada torpaqlar dövlətin ümumi mülkiyyəti idi. Çar dövlətin torpaqlarının baş mülkiyyətçisi hesab edilirdi. Dövlətdə icma torpaqları ilə yanaşı, icma üzvlərinə məxsus həyətyanı torpaqlar da mövcud idi. Qədim Midiyada isə sinfi təbəqələşmə nəticəsində silki fərqlər yaranmağa başladı. Əhali əsasən azad adamlara və qullara bölünürdü. Artıq dünyəvi və dini zadəganlar təbəqəsi formalaşmışdı. İcma torpaqları və xüsusi torpaqlar əsasən icma üzvü olan azad kəndlilərin ixtiyarında idi. Onlardan torpaqdan istifadəyə görə vergi alınırdı. İqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq əmtəə təsərrüfatları yaranır, sənətkarlıq və ticarət tərəqqi edir, ibtidai-icma qalıqlarına son qoyulurdu. Quldarlıq münasibətləri dövlət və məbəd təsərrüfatında özünü daha geniş büruzə verirdi. Məbədlərin də özlərinə məxsus torpaqları və təsərrüfatları mövcud olmuşdur.

Sonradan Midiya iki hissəyə bölündü. Birinci hissəsi Böyük Midiya adlandırılırdı ki, onun da paytaxtı Ekbatan idi. İkinci hissəsi Midiya Atropatenası idi. Burada torpaq sahibləri əsas etibarilə qul əməyindən istifadə edirdilər. Əhalinin digər bir qrupunu təşkil edən azad adamlar hər cür siyasi hüquqlardan məhrum idilər. Onların torpaq sahələri olmadığına görə bu hüquqlardan istifadə edə bilmirdilər. Asılı əhali qrupunu isə əkinçilər təşkil edirdilər. Əmək alətlərindən, torpaq paylarından məhrum edilən bu təbəqə ağa torpaqlarını və məbədlərə məxsus torpaqları əkib-becərirdilər.

Əhəmənilər dövlətində mövcud olan quldarlıq ictimai-iqtisadi münasibətləri Albaniyaya da təsir edirdi. Albaniyada əhali əvvəlki dövrlərdə olduğu kimi əkinçilik və maldarlıqla məşğul olurdu. Aran-düzən hissəsində əkinçilik süni suvarma üsulunda aparılırdı. Albaniyada geniş məbəd torpaqları mövcud olmuşdur. Burada işlədilən herodullar, demək olar ki, heç bir hüquqa malik deyildilər. Bir mülahizəyə görə

herodullar məbədə təhkim olunmuş kəndlilər, digər fikrə görə isə məbəd təsərrüfatının əsas istehsalçıları idilər.

Maqların torpaqları məhsuldar ərazilərdə yerləşirdi. Ölkə əhalisinin əksəriyyətini təşkil edən əkinçilər şəxsən azad olsalar da, əslində qullar kimi torpağa bağlı olub, mülklə birlikdə alınıb-satılırdılar. Əkinçilər dövlət və əyanlara məxsus torpaqlarda mükəlləfiyyətlər yerinə yetirirdilər. Hökmdar dövlətə sədaqətli olan əyanlara torpaq sahələri ayırırdı. Torpaqların icarəyə verilməsi halları çoxalmışdı ki, bu da quldarlıq istehsal üsulunun tənəzzülə uğraması ilə bağlı idi.

III-V əsrlərdə Azərbaycan ərazisində feodal torpaq sahibliyinin yaranması başlanmışdı. Feodal münasibətlərinin yeni səciyyəvi cəhətləri yaranırdı. Əvvəllər torpaq hökmdara, dini təşkilatlara, ayrı-ayrı quldarlara və icmalara məxsus idi. Belə torpaqlarda qulların, məcburi əmək adamlarının, yəni hərbi əsirlərin, borca düşmüş adamların, müflisləşmiş əkinçilərin və icma üzvlərinin əməyindən istifadə edilirdi. Qul əməyinin az məhsuldar olduğu və ümumiyyətlə əməyin nəticələrində onun maraqlı olmadığı məlumdur.

Ölkədə baş verən siyasi dəyişikliklər torpağın yüksək təbəqəli əyanların ixtiyarında cəmləşməsini sürətləndirirdi. Hökmdar torpaqları xidmət əvəzinə hərbçilərə və dövlət məmurlarına paylanırdı. Xüsusi xidmətə görə paylanmış torpaqlar "feod" ("mülk") adlanırdı. Feodal torpaqlarında kəndli əməyindən geniş istifadə edilirdi. Kəndli feodaldan asılı vəziyyətdə idi, çünki o, feodalın torpağını becərməli, məhsulun müəyyən hissəsini torpaq sahibinə verməli idi.

Erkən feodalizm dövründə dövlət mülkiyyəti forması üstünlük təşkil edirdi. Lakin Atropatenanın və Albaniyanın ayrı-ayrı vilayətlərində dövlətə məxsus torpaqların hökmdar nəslinin nümayəndələri arasında bölüşdürülməsi xüsusi torpaq sahibliyinin inkişafına təsir edirdi.

Albaniyada torpaq üzərində xüsusi feodal mülkiyyəti iki formada mövcud idi. Birincisi, icma torpaq sahibliyinin dağılması və torpaqların dövlət tərəfindən hakim sinfin nümayəndələrinə mülk hüququnda paylanması nəticəsində meydana çıxmış şərtsiz və ya irsi torpaq sahibliyi ("dastakert"); ikincisi, torpaqların dövlət tərəfindən hakim sinfin nümayəndələrinə vassal xidməti müqabilində müvəqqəti olaraq paylanması nəticəsində meydana çıxmış şərti torpaq sahibliyi ("xostak").

Adurbadaqanda da bu dövrdə icma torpaqları, hökmdarın şərti mülkiyyət kimi bəxşiş verdiyi xüsusi sahibkar torpaqları, vilayətlərin irsi

sahibləri olan iri feodalların torpaqları və məbəd torpaqları mövcud idi. Lakin III əsrin birinci rübündə İranda hakimiyyətə gələn Sasanilərin Adurbadaqanı imperiyanın vilayətlərindən birinə çevirmələri ilə əlaqədar olaraq, feodal münasibətləri də imperiyanın vilayətlərdə yeritdiyi siyasətə uyğun olaraq inkişaf etməyə başladı.

487-488-ci illərdə Albaniya çarı III Vaçaqan tərəfindən çağırılmış Aluen məclisi əhalinin təbəqələrə bölünməsini və onların hüquqi vəziyyətini müəyyən edirdi. Hakim silk olan alban feodalları (azatlar) bir neçə qrupa bölünürdü ki, bunlardan ən yüksəkdə vilayət hakimləri-nahararlar dururdu. Feodal münasibətlərinin möhkəmlənməsi ilə nahararlıqlarda bütün hakimiyyət feodal patronomiyaları başçılarının əlində cəmləşirdi. Beləliklə, IV-V əsrlərdə dövlətin torpaq fondu tədricən azalır, onun çox hissəsi feodal malikanələrinə-patronomiyaların mülkiyyətinə keçirdi .

Feodal torpaq mülkiyyəti dövlət və icma mülkiyyəti formaları ilə rəqabət şəraitində formalaşırdı. Dövlət torpaq mülkiyyətinə dövlət dometi (mülki) ilə yanaşı divan torpaqları (o cümlədən yerli xanədən) daxil idi. Feodalizmin ilkin dövründə (III-V əsrlərdə) torpaq mülkiyyətinin dövlət (hökmdarın şəxsində) forması üstünlük təşkil edirdi. Lakin sonralar ordunun, dövlət aparatının, yerli strukturların saxlanılmasında divan torpaqları da əhəmiyyət kəsb edirdi Xüsusi feodal torpaq mülkiyyəti isə öz növbəsində iki yolla formalaşırdı: 1) feodalın şəxsi mülki olan torpaq üzərində irsi mülkiyyət ("dastakert"). Torpaq mülkiyyətinin bu forması torpaq üzərində icma mülkiyyəti formasının pozulması, habelə torpaqların hakim sinfin nümayəndələrinə malikanə hüququ əsasında mülk kimi bağışlanması yolu ilə yaranırdı; 2) şərti torpaq mülkiyyəti ("exostak"). Bu hərbi xidmət və yaxud məmurluq xidməti müqabilində dövlət tərəfindən müvəqqəti istifadə üçün verilən torpaq mülkiyyəti forması idi. Vassallıq xidməti üçün verilən torpaqların sonralar çox vaxt ''dastakert''ə, yəni şəxsi mülkiyyətə çevrilməsi ənənəsi mövcud idi.

## 3.3. VII-XII əsrlərdə Azərbaycanda torpaq münasibətləri

705-ci ildə Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti Xilafət tərəfindən ləğv edildi.

VII-IX əsrlərdə əhali əsasən iki təbəqəyə bölünürdü: hakim feodal sinfi və feodaldan asılı olan kəndlilər. Feodallara məxsus torpaqlarda

kəndli əməyindən geniş istifadə olunurdu. Kəndli feodaldan asılı vəziyyətdə idi, çünki o, feodalın torpağını becərməli, məhsulun müəyyən hissəsini torpaq sahibinə verməli idi. Bununla yanaşı, kəndli təsərrüfata (evi, həyətyanı torpağı, mal-qarası, əmək alətləri) malik idi. Lakin onun əsas gəliri icarəyə götürdüyü feodal torpağı ilə bağlı idi. Torpaqsız kəndlilər hüquqi cəhətdən feodaldan tam asılı olmaqla, onun torpağa təhkim edilməsi prosesi artıq bərqərar olurdu.

Azərbaycan istila edildikdən sonra Xilafətin vergi siyasəti burada da tətbiq olunmağa başladı. Çoxsaylı ağır vergilər torpaq sahiblərini tezliklə iflasa uğratdığına görə onlar məcbur olurdular ki, öz torpaqlarını ərəb tayfasının iri torpaq sahiblərinin və dövlət qulluqçularının hamiliyinə versinlər. Bu torpaqlar hami və ya ilca kateqoriyasına daxil edilib qeydə alınırdı. Torpağın əsl sahibləri məhsulun bir hissəsini hamilərə verirdilər ki, onlar torpaq sahibini məmurların zülmündən qorusunlar, torpağın özü isə sahibinin adına qeydə alınırdı.

Kəndli kütlələrini istismar etmək formaları arasında yarıdarlıq icarəsi xüsusi yer tuturdu. Torpaq sahibləri torpağı xırda sahələrə bölür və bunları yarıdarlıq icarə şərtləri-müzariə, müstəqil, qəbalə və i.a. əsasında yarıdarlara verirdilər. Yarıdarlara akkar, şərik, amil, münasif və s. deyirdilər. Torpaq məhsulun altıda bir və yeddi də bir hissəsinə müqabil icarəyə götürülürdü.

Müsəlman hüququ torpaq üzərində mülkiyyət formalarına və ya onun əldə edilmə üsullarına dair geniş olmayan müddəalar həsr etmişdir. Bu hüquq yalnız sahibsiz və istifadəsiz torpaqları əldə etməyin xüsusiyyətlərini və qaydalarını normalaşdırır. Torpaq üzərində mülkiyyətin əldə edilməsi formaları müsəlman hüququnun obyektinə o zaman çevrilir ki, o, qanunla nəzərdə tutulan hər hansı bir ictimai münasibətin yaranması, dəyişməsi və ya xitam edilməsinə səbəb olsun və bundan sonra mülki hüququn obyekti olsun.

Müsəlman hüquqşünasları torpaq üzərində mülkiyyəti özlərindən əvvəl mövcud olmuş şəkildə qəbul edir və mülkiyyətin dəyişildiyi zaman hüququn tənzimləmə obyektinə çevirir. Başqa halda mülkiyyət müsəlman hüququnun tənzimləmə obyekti deyildir. Yeni torpaqlar işğal edildiyi zaman belə torpağın mülkiyyətçisi aradan çıxmış olarsa, həmin torpağa yeni sahibkarlıqdan söhbət gedə bilər.

Azərbaycanda istifadəsiz, bataqlıqlar altında qalmış, şoranlaşmış torpaqlar mülkiyyətin heç bir kateqoriyasına daxil deyildi. Müəyyən əmək

sərf olunduğu halda “Ölü torpaq”lardan istifadə etmək mümkün idi. Ölü torpaqlar iki yerə bölünürdü: birincisi, uzun müddət istifadə olunduqdan sonra sahibinin köçməsi və ya müharibələr nəticəsində əhalinin qırılması ilə boş qalan, lakin suvarma sistemi yolu və başqa əkinçilik imkanları mövcud olan istifadəyə yararlı torpaqlardır. İkincisi isə heç zaman istifadə olunmamış, təsərrüfatçılıq imkanları son dərəcə məhdud olan, böyük əmək və sərmayə qoyuluşu tələb edən torpaqlardır.

Fiqhə görə ölü torpaqlara yiyələnmək üçün dini rəhbərin razılığı olmalı idi. Lakin torpaq üzərində mülkiyyət hüququ tədricən dövlətə keçmiş, dövlətin torpaq idarəçiliyinə baxan orqanları olmuşdur. Xilafətdəki torpaqlar beş əsas kateqoriyaya bölünürdü: 1) Sultan (xəlifə) mülkləri (diya əssultaniyyə); 2) iqta (icarə) torpaqları; 3) mülk torpaqları; 4) vəqf torpaqları; 5) icma torpaqları.

Sultan torpaqları Əməvilərdən Abbasilərə keçmişdi. Bu torpaqlar alqı yolu ilə və ya ölənin, yaxud vəzifədən kənar edilən məmurların mülklərini müsadirə etmək yolu ilə tədricən artırdı. Sultan torpaqları çox geniş idi və böyük gəlir verirdi. Bu torpaqları idarə etmək üçün bir neçə divan yaradılmışdı.

Yararlı torpaqların əksəriyyəti iqta torpaqlarına daxil idi. Xəlifə (Sultan) belə torpaqları müəyyən şəxslərə verir və həmin torpaq üzərində nəzarəti ona tapşırırdı, yəni torpaq iqta sahibinin mülkü olurdu. Lakin torpaq sahibliyi hüququna həmişə riayət olunmurdu və iqta geri alınıb yenidən xüsusi divana verilə bilərdi. Formal olaraq təkcə xassə torpaqlarından iqta bağışlaya bilməzdi, lakin çox vaxt buna riayət edilmirdi. İqta sahibləri hərbi mükəlləfiyyət daşımırdılar, lakin bunun əvəzinə vergi verirdilər. Onlar öz torpaqlarında olan kanal, yol və körpüləri təmir etməyi öhdələrinə götürmüşdülər. İqta torpaqları nəzəri cəhətdən iki kateqoriyaya bölünürdü ki, bu da iqta torpağına hansı hüquqa görə sahib olmaqdan asılı idi.

Bağışlanan iqta şəxsin tam sahibliyinə çevrilirdi və irs olaraq keçirdi. Bu iqta sahibi üşr verirdi. Bu növ iqta, adətən, becərilməyən torpaqlardan, ya da sahibi ölmüş və vərəsəsi olmayan torpaqlardan verilirdi.

İcarə edilən iqta (icarə) irsən keçmirdi, adətən, hərbçilərə verilirdi. Xərac torpaqları da bu kateqoriyaya daxil idi. Şəxsin cəmiyyətdəki mövqeyindən asılı olaraq ona verilən iqtaların aşağıdakı növləri mövcud idi: 1) mülki (şəxsi) iqta; 2) xüsusi (xassə) iqta; 3) hərbi iqta; 4) xəlifə iqtası.

Mülki iqta çox geniş yayılmışdı və məmurların tutduqları vəzifələrdən asılı olaraq verilirdi. Yüksək vəzifələrə təyin olunduqdan sonra məmura iqta verilirdi, lakin o, vəzifədən çıxarıldıqda iqta ondan geri alınır və onun yerinə keçən şəxsə verilirdi.

Xüsusi iqta şairlərdən başqa, xüsusi bir xidməti və ya xüsusi istedadı olan şəxslərə də verilirdi. Onun sahibləri torpağın tam sahibi olub, onu irs olaraq verə bilərdi. Abbasilər xilafətində bütöv vilayətlərin bağışlandığı müşahidə olunurdu. Babək üsyanı darmadağın edildikdən sonra xəlifə Mötəsim belə bir iqta adı ilə Azərbaycan, Arran və İrəvanı Afşinə vermişdi. Digər belə bir iqta, Bab əl-Əbvab (Dərbənd) şəhəri və ətraf vilayətləri ilə birlikdə iqta kimi Yəzid ibn Məzyədə verilmişdi. Həmçinin, Gəncə şəhərində "Xaldiyye" adlanan məşhur malikanələr də ona bəxş edilmişdir. Herik (dinc) saxlanan torpaq bu növ iqtaya daxil idi. Torpaq sahibi onu becərmək üçün kəndlilərə icarəyə verir, onları toxum, kənd təsərrüfatı alətləri və suvarmaq vasitələri ilə təchiz edirdi. Şəxsən özü hər il xəzinəyə müəyyən məbləğ pul verirdi, əvəzində isə torpağa nəzarət etmək və onu irs olaraq vermək hüququna malik idi. Belə iqta sahibləri başqa vergilərdən azad idilər.

Hərbi iqta başqa torpaq növləri-xassə iqta, xəlifə malikanələri və xəzinə torpaqları hesabına verilirdi. Hərbi iqta irsən də həmişəlik verilmirdi, bu iqta sahibinin mülkiyyəti deyildi. Hüquqşünas Əbu Yusif iqtanı satın alına bilən, satıla bilən və irs olaraq verilən bir əmlak kimi başa düşürdü. İqta torpağını irs olaraq və ya pul ilə əldə etmiş olan şəxsdən geri almağa heç bir kəsin ixtiyarı yox idi.

Torpaq üzərində müxtəlif növ ayrıca sahiblik var idi. Onlardan biri müxtəlif şəxslərə və icmalara bağışlanan xəlifə iqtası idi. İşğal altında olan torpaqların canlanması, mərkəzi hökumətin həvəsləndirməsi və köməyi ilə bataqlıqların qurudulması və bu torpaqların əkilməsi həmin torpaq sahiblərinə tam sahiblik hüququ verirdi. Mülk torpaqlarının əmələgəlmə mənbələrindən biri də məhz belə torpaqlar idi. Həmin kateqoriyadan olan torpaqların digər mənbəyi dövlət torpaqlarının satın alınması idi. Məmurlar və vəsaiti olan digər şəxslər özləri üçün xəlifə mülklərini (dövlət torpaqlarını) əldə edir və torpaqların daimi sahibi olaraq ondan nisbətən sabit gəlir götürürdülər. Həmin kateqoriyadan olan torpaqların sahibləri əlavə vergi verməli və öz torpaqlarından keçən kanalları bərpa etmək xərcini də öz üzərinə götürməli idilər. Mülkiyyətçinin sahibliyində olan daimi mülk torpaqları da mövcud idi.

Mülk torpaqlarını alıb-satmaq, özgəninkiləşdirmək və irsən vermək olardı. Bu torpaqların sahibi hərbi xidmətdən azad edilirdi.

Vəqf torpaqları torpaq mülkiyyətinin əsas növlərindən biridir. Vəqf torpaqları dedikdə, dini təsisatlara təhkim edilən torpaq mülkləri nəzərdə tutulur. Bu torpaqlar müqəddəs yerlər (Məkkə və Mədinə) üçün – məscid və qalalar tikmək və başqa ehtiyaclar üçün ayrılırdı. Bu torpaqlar içərisində zorla tutulanlar, yəni əvvəlki sahiblərindən müsadirə edilən, habelə dinc yolla əldə edilmiş torpaqlar da var idi.

Sülh müqaviləsi əsasında əldə edilən vilayətlərdən, habelə silah gücünə tutulanlardan əhali üçün saxlanılan torpaqlar nə desyatin, nə də xərac alınan torpaqlara məxsus deyildi. Bunlar dövlət torpaqları (ərzu malikiyyə), ya da xəzinə torpaqları (ərzu əmiriyyə) adlanır və əhalinin mülkiyyətinə verilməyərək, beyt ül-mal (xəzinə) üçün saxlanılaraq qanunsuz icarə yolu ilə icarəyə verilirdi ki, torpaq sahibləri bunları becərib xərac (müqasimə) versinlər. Bu kimi torpaqlar onların sahibinin mülkiyyətini təşkil etmir: onlar bu torpaqları nə sata bilər, nə ala bilər, nə bağışlaya bilər, nə də vəqf edə bilərdilər, yalnız sultan (xəlifə) torpaq sahibinə mülkiyyət hüququ verə bilərdi. Torpaq sahiblərindən biri öldükdə onun oğlu atasının yerini tutur və torpaqdan istifadə edir, əks təqdirdə həmin torpaq beytül-mala qaytarılırdı. Vergi verilən torpaqlardan istifadə edən şəxs onu üç il və ya daha artıq müddətdə becərməzsə, torpaq ondan alınıb başqasına verilirdi. Torpaq sahibi öz torpağını başqasına vermək istəsə, bu arzusunu yalnız sultanın icazəsi ilə edə bilərdi.

İcma torpaqları kəndlərdə əhaliyə məxsus torpaqlar, otlaqlar, biçənəklər, çəmənliklər, örüşlər, meşələr, suvarma arxları, qəbiristanlıq və s. icma torpaqları idi. İcmanın hər bir üzvünün bu torpaqlar üzərində ümumi mülkiyyət hüququ var idi.

X-XII əsrlərdə feodal münasibətləri daha sürətlə inkişaf etmiş, müstəqil feodal dövlətlərin sülalələri hakim feodal sinfinin ən yuxarı pilləsini təşkil etmişdir. Feodal iyerarxiyası nərdivanının orta pilləsində iri feodalların dehqanlar və azatlar deyilən vassalları dayanırdı. Məhsuldar torpaqlar onların əlində cəmləşmişdi.

Cəmiyyətin ən böyük sinfi olan kəndlilər iki təbəqədən ibarət idi. Onlardan birincisi uluc adlanan asılı kəndlilər, ikincisi azad kəndlilər idi. Uluclar əhalinin əksəriyyətini təşkil edirdilər. Kəndlilər dövlətə və feodallara məxsus olan torpaqlarda çalışırdılar. Torpaq payı olmayıb, istehsal alətlərindən məhrum olan, torpaq sahibinin təsərrüfatında

işləməyə məcbur olan kəndlilər əkər adlanırdı.

X-Xll əsrlərdə Azərbaycan ərazisindəki feodal dövlətlərində (Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Atabəylər) hüququn əsas mənbəyi müsəlman hüququ olaraq qalırdı.

Burada mülkiyyət hüququ münasibətlərinə xeyli diqqət yetirilmişdi. İri feodalların təbii sərvətlər, tapıntılar üzərində mülkiyyət hüququ təsbit olunurdu. Alban knyazlarının və hökmdarlarının torpaqlar üzərində qeyd-şərtsiz mülkiyyət hüququna əsasən təbii sərvətlər – mis, qalay, dəmir filizi, duz, neft və torpaqdan çıxarılan digər faydalı qazıntılar onlara məxsus idi

## 3.4. XIII-XIV əsrlərdə Azərbaycanda torpaq münasibətləri

XIII əsrin birinci yarısında iki dəfə hücum edərək (1221-1222 və 1239-cu illər) monqollar Azərbaycanı tamamilə işğal etdilər.

Monqolların torpaq və vergi siyasəti əsasən yerli feodalların torpaq sahələrini zəbt etmək və rəiyyətin istismarı nəticəsində əldə olunan gəlirin mənimsənilməsinə xidmət edirdi. Təkcə feodal və icma torpaqları deyil, vəqf torpaqları da zəbt edilirdi. Bütpərəst monqollar bu torpaqları incu və divan torpaqlarına çevirirdilər.

Qazan xanın (1295-1304-cü illər) torpaq siyasəti divan torpaqlarından əkin sahələrinin irsi iqta hüququ əsasında səxavətlə paylanması ilə səciyyələnirdi. Monqol feodallarına əkin yerləri və otlaqlarla yanaşı, həmin torpaqlarda sakin olan kəndlilərə su və suvarma qurğuları birlikdə verilirdi. Qazan xan nəinki sərkərdələrə, həm də bütöv qoşun hissələrinə iqta bağışlayırdı. Bu mülkiyyət onminbaşılar, minbaşılar, yüzbaşılar və onbaşılar arasında bölüşdürülürdü, onlar isə öz növbəsində siravi əsgərlər üçün pay ayırırdılar. İqta sahibləri dövlətə heç bir vergi vermirdilər, onlar xüsusi mülklər idarəsinə (xass) yalnız bir qədər taxıl təhvil verməli idilər.

Qazan xan feodalların mənafeyi naminə kütləvi qaçqınlığa son qoymaq məqsədi ilə l303-cü ildə kəndlilərin torpaqlara təhkim edilməsi haqqında yarlık (fərman) verdi. Keçən 30 il müddətində öz iqtidarlarını qoyub qaçan rəiyyət zorla əvvəlki yaşayış yerinə qaytarılırdı. Heç bir torpaq sahibinin qaçqınları qəbul edib gizlətməyə ixtiyarı yox idi. Bu fərman ilk dəfə olaraq rəsmi şəkildə kəndliləri torpağa təhkim edirdi. Onlara bir yerdən başqa yerə köçməyi qadağan edirdilər. Bununla yanaşı olaraq elxanın fərmanında deyilirdi ki, iqtidarlar rəiyyətə öz qulları kimi

baxmamalıdırlar. Fərmanda həmçinin o da göstərilirdi ki, rəiyyəti öldürə, onların əmlakını alıb şəxsən feodal üçün işləməyə məcbur edə bilməzlər.

Qazan xanın geniş həcmdə iqta paylaması xüsusi iri torpaq sahiblərinin artmasına kömək etdi, lakin bu tədbir nəticəsində mərkəzi dövlət hakimiyyəti zəifləmiş oldu.

XIII-XIV əsrlərdə hüququn inkişafında Qazan xanın torpaq, vergi, pul, hərbi, din və rabitə islahatlarının mühüm rolu olmuşdur. Hülakülər dövlətində vahid hüquq normaları ilə tənzimlənən iqtisadiyyat vergilərin vaxtında toplanmasına xidmət edirdi.

Qazan xanın hakimiyyəti illərində iqta torpaq mülkiyyəti yeni inkişafını tapır. Onun hakimiyyətinə qədər olan dövrdə monqollarda iqta institutu inkişaf etməmişdir. Orduda hərbçilərin maddi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə Qazan xan 1303-cü ildə verdiyi fərmanla onlara iqta paylanmasını əmrləşdirir. Fərmanda göstərilirdi ki, "qoşunların keçdiyi yollar" üzərində yerləşən torpaqlardan hərbçilər üçün iqta torpaqları ayrılsın. Xüsusilə, sərhəd ərazilərdə belə torpaqlar paylanılırdı. Qızıl Orda xanlarının tez-tez sərhəd ərazilərinə basqın etmələrini nəzərə alaraq Qazan xan ilk növbədə bu bölgələrdəki torpaqları iqta kimi paylayırdı.

Qazan xanın fərmanında qeyd edilirdi ki, iqta sahibi torpaqlardan vergi toplamaqda, kəndliləri müəyyən mükəlləfiyyətlər yerinə yetirməyə məcbur etməkdə tam iqtidar sahibidirlər. Lakin iqta torpaqları mərkəzi dövlət aparatının tabeliyinə daxil idi. Mərkəzi hərbi divanın məmuru (bitikçi ariz) hər il iqta torpaqlarını təftiş etmək hüququnu özündə saxlayırdı.

Qazan xanın fərmanına əsasən, iqta torpaqları püşkatma yolu ilə yüzlüklər və onluqlar arasında bölüşdürülürdü. İqta almış hər bir hərbçi nəinki torpağın, hətta orda yerləşən suvarma sisteminin, otlaqların və nəhayət, kəndlilərin sahibinə çevrilirdilər. Xüsusi olaraq qeyd edilirdi ki, "incu" və "divan" torpaqlarında çoxdan yaşayan, qonçur və digər mükəlləfiyyətləri yerinə yetirən kəndlilər yeni sahiblərinə-hərbi iqta almış torpaq sahiblərinə eyni ilə həmin vergi və mükəlləfiyyətləri ödəməlidirlər. İqta sahibi isə öz növbəsində 50 man Təbriz qiyaləsi həcmində dövlətə vergi verməli idi.

Fərmana əsasən, hərbçilər mülk sahiblərinə (malik) və vəqorlara məxsus torpaq və suvarma sistemini və ondan gələn gəlirləri mənimsəyə bilməzdilər. Xidmət müqabilində verilmiş iqta vərəsəlik yolu ilə atadan

oğula keçirdi. Lakin torpaqların özgəninkiləşdirilməsinə qanunla icazə verilmirdi. Hərbi xidməti buraxıb mülki xidmətə keçən hərbçilərdən iqtalar geri alınırdı.

## 3.5. XV əsrdə Azərbaycanda torpaq münasibətləri

XV əsrdə Azərbaycan dövlətlərində monqolların hakimiyyəti dövründə olan feodal üsul-idarəsi inkişaf etməkdə idi. Hakim feodal sinfi əsasən 4 qrupa bölünürdü: birincisi qədim yerli oturaq əyanlardan (məliklər), ikincisi, köçəri tayfaların hərbi əyanlarından (əmirlər), üçüncüsü, ali mülki bürokratiyadan ibarət məmurlardan və dördüncüsü, ali müsəlman ruhanilərdən ibarət idi.

XV əsrdə Azərbaycan feodal dövlətlərində XIII-XIV əsrlərdə tətbiq edilən feodal torpaq mülkiyyəti formaları saxlanılmışdı. Bu dövrdə dövlət torpağı-divan, dövlət başçılarının və ailə üzvlərinin xüsusi torpağı-xassə, feodalların torpağı isə-mülk adlanırdı. Mülkədar torpaqları irsi olmaqla nəsildən-nəslə keçirdi. Dini idarələrə məxsus vəqf yerləri və torpaqları vəqflərə aid idi. Kənd icmalarının istifadəsində olan torpaqlara çəmənliklər, meşələr, otlaqlar, biçənəklər və s. aid idi

XV əsrdə əvvəllər mövcud olan "iqta" torpaq mülkiyyəti soyurqalla əvəz edilir. Monqollar dövründə yaranan soyurqal ilk vaxtlar elxana yaxın olan adamlara bəxşiş kimi verilirdi. Dövlət soyurqal adı ilə müəyyən adamlara torpaq bağışlayırdı. Burada "soyurqal" hökmdarın rəiyyətinə verdiyi hər cür "hədiyyə" mənasında işlənirdi. Soyurqalın Azərbaycanda hökmdar tərəfindən irsi olaraq hərbi xidmətdə olanlara verilən mülk mənasında işlədilməsinə ilk dəfə XIV əsrin son rübündə rast gəlinir, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu padşahları soyurqal verir, bəzi keçmiş soyurqalları isə yenidən təsdiq edirdilər.

Soyurqal da iqta kimi irsi olaraq nəsildən-nəslə keçən mülk idi. Qeyd etmək lazımdır ki, 1408-ci ildə Qaraqoyunlu Qara Yusifteymurilər üzərində qəti qələbə çaldıqdan sonra bir çox əmirlərə, o cümlədən Şəmsəddin Ruzəkiyə verdiyi soyurqal hüququ haqqındakı fərmanla ona verilən soyurqal, sonralar o, xəyanətdə ittiham edilərək edam edilsə də, bütün XV əsrdə onun nəslinin əlində qaldı. Lakin kütləvi şəkildə paylanılan soyurqallar mərkəzi hakimiyyəti zəiflədirdi.

İqta üsulunda olduğu kimi, soyurqal sahibinə də maaf, yəni vergi imtiyazı (güzəşt) verilirdi. İmtiyazı olan soyurqal sahibinin rəiyyətləri

tərəfindən keçmişdə xəzinəyə (divana) verilən vergilər ləğv edilmirdi, lakin bu vergilərin toplanması hüququ soyurqal sahibinin ixtiyarına keçirdi.

Soyurqal sahibləri iqta sahiblərinə nisbətən daha artıq hüquqa malik idilər. Bir çox hallarda soyurqal sahəsinin geniş olması onu iqtalardan fərqləndirirdi. Soyurqal torpağında mövcud mənsəb sahibləri soyurqal sahibinə tabe idi. Hətta mərkəzi idarələrin məmurlarına belə, soyurqal torpağına daxil olmaq qadağan edilmişdi.

XV əsrdə Azərbaycanın ən qüdrətli dövlətləri Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri olmuşdur. Həmin dövrdə hüququn inkişafında hökmdar fərmanları və qanunvericilik aktları, xüsusilə də Ağqoyunlu padşahları Uzun Həsənin “Qanunnaməsi” və Gödək Əhmədin islahatları hüququn mənbəyi kimi təqdirə layiqdir.

Digər tərəfdən XIV əsrin sonları-XV əsrin əvvəllərində Azərbaycanı işğal edərək öz hakimlərini buraya təyin etmiş Əmir Teymurun “Tüzükat-i Teymuri” (“Teyrnur Qanunnaməsi”) adlı qanunnaməsi bütün imperiya ərazisində, o cümlədən Azərbaycanda da hüquqi qüvvəyə malik olmuşdur.

## 3.6. XVI-XVII əsrlərdə Azərbaycanda torpaq münasibətləri

Səfəvilər sülaləsinin nümayəndəsi olan İsmayıl Şirvanşah Fərrux Yassarı və Ağqoyunluları məğlub edərək vahid Azərbaycan-Səfəvilər dövlətini yaratdı (150l-l736-cı illər). Bu dövrlərdə Səfəvilər dövlətində müsəlman hüququ ictimai münasibətləri, o cümlədən torpaq münasibətlərini tənzimləyən əsas mənbə idi. Hüququn digər mənbəyi kimi şah fərmanları ilə yanaşı, Şah I Təhmasibin “Dəstur-əl-əməl şah Təhmasib”, I Şah Abbasın islahatları, I Şah Hüseynin vergi siyasəti böyük rol oynamışdır, Səfəvilər dövründə hakim feodal sinfi beş qrupdan ibarət idi: 1) Səfəvi şahları və sülalənin üzvləri; 2) şah qvardiyasından olan qızılbaş tayfalarının hərbi əyanları; 3) iri torpaq sahələri və vəqf mülkiyyəti olan ali şiə ruhaniləri; 4) mərkəzi və yerli bürokratiyanın yuxarı təbəqəsi; 5) oturaq əyanlar.

Feodal iyerarxiyasının ən yuxarı pilləsini təşkil edən Səfəvi şahları ən iri torpaq mülkiyyətçiləri idilər. Şah və onun sülaləsinin üzvləri ən məhsuldar və gəlirli torpaqların sahibləri olmaqla, Səfəvilərin əski zamanlardan Ərdəbildə və onun ətrafındakı iri torpaq mülklərinə malik olmuşdular. Əkinçilik və ticarətlə məşğul olan Səfəvi sülaləsi qədim

oturaq feodal əyanlarına mənsub idilər.

Səfəvilər dövlətində o dövrə qədər formalaşmış torpaq mülkiyyəti kiçik dəyişikliklərlə olduğu kimi qalmaqalda idi: 1) dövlət xəzinəsinə malik torpaqlar (əraziyi divani); 2) şah və onun sülaləsinə məxsus mülklər (əraziyi xassə); 3) hərbi və ya mülki xidmət müqabilində verilən torpaqlar (soyurqal, tiyul); 4) xüsusi mülkiyyətdə olan torpaqlar (mülklər); 5) dini idarələrin mülkiyyəti (vəqf torpaqları); 6) kənd icmalarının mülkiyyətində olan torpaqlar (camaatideh).

Səfəvilər dövləti mərkəzləşmiş feodal dövləti olduğundan onun dövlət torpaq mülkiyyəti fondu xeyli böyük idi. Şirvan və Şəki torpaqları da dövlətin mülkiyyətinə qatılmışdı. Xəzinə torpaqlarından gələn gəlir dövlət xərclərinin ödənilməsinə sərf edilirdi. Xassə torpaqlarından şəxsən şahın adında olan mülkiyyətin gəliri də xəzinəyə daxil olurdu və şahın sərəncamı ilə sülalənin üzvlərinə verilirdi. Şah ölkənin ən münbit torpaqlarını divan və xassə mülkiyyətinə qatmışdı. Üçüncü kateqoriyaya daxil olan torpaqlar dövlət fondundan hərbi və mülki bürokratiya üçün ayrılırdı. Torpaq sahiblərinə mülkiyyət hüququ müvəqqəti, həmişəlik və vərəsəlik əsasında verilirdi. Şəraitdən asılı olaraq belə torpaqlar soyurqal, tiyul və bəzən də iqta adlanırdı.

İlk Səfəvilər dövründə şərti torpaq mülkiyyətinin daha bir formasının – tiyulun meydana gəlməsi və XVI-XVI1 əsrlərdə geniş yayılması feodal torpaq sahibliyinin inkişafında əhəmiyyətli rol oynayırdı. Soyurqal Azərbaycanda XV əsrdə mövcud olduğu şəkildə irsi mülk sayılırdı və vergi, inzibati məhkəmə toxunulmazlığını nəzərdə tuturdu. Yeni yaradılmış tiyul torpaq sahibliyi isə soyurqalı əvəz etməklə mərkəzləşdirmə siyasətinin mənafeyinə xidmət edirdi.

Tiyulun ilkin iqtaya da uyğunluğu bildirilirdi. Belə ki, Səfəvilər dövründə tiyulun inkişafı onların dövlət torpaq sahiblərinə və bu torpaqlarda işləyən kəndlilərin dövlət aparatının köməyi ilə istismar olunması sisteminə yardım etmək siyasəti ilə bağlı idi. Bu sistem yeni idarəetmə sistemi əsasında qurulsa da, əvvəlki əsrlərdə mövcud olmuş iqta torpaq sahibliyinin ilkin inkişaf pilləsinə yaxın idi. Tiyul sahibi (tiyuldar) ilk dövrlərdə idarəetmə işinə qarışmayıb torpaqdan alınan vergilərin hesabına yaşayıb dövlət siyasətinə uyğun hərəkət edirdisə, sonralar tiyuldarlar mərkəzləşmə siyasətini heç də həmişə aparmırdılar.

Səfəvilər dövlətində bəylərbəylik inzibati ərazi quruluşu yarandıqdan sonra bəylərbəylərinə də geniş səlahiyyət verilmişdi. Belə ki,

bəylərbəyləri hətta tiyul bağışlamaq səlahiyyətinə malik idilər ki, bu da son olaraq mərkəzləşdirmə siyasətinə mənfi təsir göstərirdi.

XVI əsrin ortalarından başlayaraq tiyul paylanması o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Belə ki, böyük tiyullarla yanaşı, kiçik bir kəndin də tiyula verilməsi bəxşiş hüququna verilməsi kimi idi. Həm də yeni bağışlamalar həmin ərazidən yığılan vergi məbləğinin müvəqqəti mənimsənilməsini bildirirdi.

Torpaq sahibliyi və mülkiyyət əsasında formalaşmış mülk (mülk hüququ), daşınmaz əmlaklar üzərində, məsələn, bağlar, üzümlüklər, həyətyanı sahələr, dəyirmanlar, suvarma kanalları və s. üzərində sahibliyi bildirirdi. Bu mülkiyyət sahibləri mülkdən istifadəyə görə dövlət xidmətində olmağa məcbur edilə bilməzdilər. Mülk sahibinə (malik və yaxud mülkədara) əmlakdan istifadəyə görə kəndlilər tərəfindən renta ödənilirdi. Tiyul və soyurqallardan fərqli olaraq mülk əmlakı sərbəst satıla, bağışlana, başqasına varislik əsasında verilə bilərdi. Mülkədar torpaqlarından yığılan məhsulun renta vergisi 10%-dən 20%-ə qədər təşkil edirdi. Mülk təkcə torpaq deyil, suvarma sistemləri də ola bilərdi. Fiziki şəxs feodal tərəfindən çəkilmiş kanaldan istifadəyə görə, mülk sahibinə isə mülkiyyətdən istifadəyə görə renta verməli idi.

Səfəvilər dövlətində vəqf torpaq sahibliyi və vəqf mülkiyyəti çox geniş yayılmış feodal-ruhani mülkiyyəti forması idi. Səfəvilər sülaləsi hakimiyyətə gəlməmişdən əvvəl onların Ərdəbil, Marağa, Muğan və Talış ərazilərində iri vəqf mülkləri olmuşdur. Əmir Teymur vəfat etməmişdən əvvəl Səfəvilər nəslinə vəqf olaraq müəyyən əmlak və torpaq vəsiyyət etmişdi. Vəqf təsisatı Səfəvilər hakimiyyətə gəldikdən sonra xüsusilə geniş yayıldı. Şiəliyi dövlət dini elan edən Səfəvilər sülaləsindən olan şahlar onun hər yerdə genişləndirilməsində maraqlı idilər. Buna görə də onlar ruhaniləri öz tərəflərinə çəkməyi zəruri sayır, ruhanilərə sərəncam verdikləri vəqflər bağışlayırdılar.

Vəqflər, adətən, vergi və inzibati toxunulmazlıq hüququndan istifadə edir, çox nadir hallarda müsadirəyə məruz qalırdılar. Bəzən feodallar bu yolla öz mülkiyyətlərini şiə ruhanilərinin etibarlı mühafizəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (vəqf işləri müdiri) vəzifəsini yazdırmaqla xəzinəyə ödəyəcəyi vergilərdən yayınırdılar.

Kənd icmasının-camaatın istifadə etdiyi torpaq camaat torpağı adlanırdı. İcmanın başçısı ağsaqqal hesab olunurdu.

O, vergiləri bölüşdürür, toplayır, əvəzində məhsulun müəyyən

hissəsini alırdı. İcmada əkinçiliklə yanaşı, sənətkarlıq da müəyyən yer tuturdu. XVI əsrdə natural təsərrüfatın hökm sürdüyü şəraitdə icma kəndlilərin ehtiyaclarını pulsuz ödəmək üçün sənətkarları icma kollektivi hesabına saxlayırdı. İcma kənd təsərrüfatında əmək alətlərinin geriliyinə səbəb olur, daha da mütərəqqi ictimai münasibətlərin inkişafına əngəl törədirdi.

XVI-XVII əsrlərdə Azərbaycan əhalisinin əsas məşğuliyyəti, əvvəllər olduğu kimi, əkinçilik idi. Kəndlilərin əsas hissəsi dövlətdən, feodallardan və digər torpaq mülkiyyətçilərindən ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda yaşayır və onu becərirdilər. Yalnız torpaqlar deyil, suvarma kanalları və su ehtiyatları da feodalların mülkiyyəti sayılırdı.

Kəndlilərin bir neçə kateqoriyası mövcud idi. Birinci kateqoriyaya varlı kəndliləri aid etmək olar. Əvvəllər icma üzvləri olan bu təbəqə tədricən varlanaraq kiçik torpaq mülkiyyətçilərinə çevrilmişdilər. Həmçinin kəndlə şəhər arasında kənd təsərrüfatı məhsulları ilə ticarət edən, sələmçiliklə məşğul olan, kənddə kiçik inzibati vəzifələr tutan və öz həmkəndlilərini istismar edən kəndliləri də bu kateqoriyaya daxil etmək olar.

Kəndlilərin ikinci kateqoriyasını icma üzvü olan azad kəndlilər təşkil edirdi. İri feodallardan asılı olan azad kəndlilər torpaq rentası və xəzinəyə vergi ödəyirdilər. Lakin birinci və ikinci kateqoriyaya aid kəndlilərin sayı Səfəvilər dövründə xeyli azalmışdı.

Kənd əhalisinin əsas hissəsini isə yarıdar kəndlilər təşkil edirdi. Onlar feodal torpaqlarında çoxsaylı mükəlləfiyyətlər yerinə yetirirdilər. Yarıdarlar kateqoriyası aztorpaqlı və torpaqsız kəndlilərdən ibarət idi. Bu kateqoriyadan olan kəndlilər "rəiyyət" adlanırdılar.

Yarıdar kəndlilər öz növbəsində müxtəlif təbəqələrə ayrılırdılar. Əkinçilik texnikası və iş heyvanları olan və özünəməxsus əmək alətləri ilə feodalın verdiyi torpaq payını əkib-becərən kəndlilər hampa adlanırdı. Hampanın ən azı cüt adlanan iki öküzə və avadanlığa malik olmağı vacib idi. Cütlərinin saylarından asılı olaraq hampalar böyük və kiçik təbəqələrə ayrılırdılar.

Yarıdar kəndlilərin ikinci kateqoriyasını təşkil edən, əmək alətləri olmayan və yalnız feodalın verdiyi avadanlıqlarla torpağı becərən, əvəzində isə cüzi miqdarda məhsul payı olan kəndliləri rəncbərlər adlandırırdılar.

Yoxsul kəndlilərin digər kateqoriyasını (qarovulçular, çobanlar,

bağbanlar, qulluqçular) yardımçı kənd təsərrüfatı işləri ilə məşğul olan və qara, bekar, qərib, xoşnişin adlanan kəndlilər təşkil edirdi. Bəzən ümumi əkər adı ilə tanınan bu kateqoriyadan olan yoxsullar məhsulun yalnız 30%-ni ala bilərdilər.

Səfəvilər dövründə kəndlilərin torpağa təhkim edilməsi barədə qaynaqlarda yalnız bir sənəd var. l6l2-ci ildə I Şah Abbasın ramazan ayında (7 noyabr-7 dekabr) verdiyi fərmanda qeyd edilirdi ki, bundan sonra kəndlilər 12 il müddətinə torpağa təhkim edilə bilərlər.

Kənd əhalisinin daha bir kateqoriyasını yarımköçəri həyat keçirən maldar elatlar təşkil edirdilər. Elatlar şah ordusuna hərbi xidmətə çağırılırdılar. Lakin oturaq əhaliyə nisbətən elatlardan vergi və mükəlləfiyyət çox az miqdarda alınırdı.

## 3.7. XVIII əsrdə Azərbaycanda torpaq münasibətləri

Hələ l700-ci ildən rus çarı I Pyotr Cənubi Qafqazla maraqlanmağa başlamış, l7l6-cı ildə xüsusi ekspedisiyanın vasitəsi ilə Xəzərsahili vilayətlərin ətraflı təsvirini xəritəyə köçürtdürmüş, bu yerlərə yürüş etməyə gizli hazırlıq görürdü.

l722-ci ilin yazında I Pyotr böyük bir qoşunla Həştərxandan yürüşə başlayır. O, Azərbaycan dilində “Manifest” nəşr etdirərək Şirvana və Xəzərsahili vilayətlərə göndərir. l723-cü ildə Dərbəndin, Bakının, Salyanın və Rəştin tutulması ilə Xəzərsahili vilayətlərin Rusiyaya birləşdirilməsinin birinci mərhələsi başa çatır.

Lakin həmin əsrin 20-30-cu illərində Azərbaycan əhalisinin güclü müqavimətinə rast gələn Rusiyanın bu işğalçılıq niyyəti düz bir əsr ləngidildi.

l723-cü ilin yazında Türk ordusu Kartli və Kaxetiyanı tutub, Gəncə, Şamaxı və Bakı üzərinə hərəkət etdi. Bu Rus dövlətinin mənafeyi üçün ciddi təhlükə yaratdığından, l724-cü ilin iyunun 12-də Rus hökuməti Türkiyə ilə sülh imzalamaqla, 1723-cü il 12 sentyabr Peterburq müqaviləsinin şərtlərini təsdiq etdi. Həmin müqavilə ilə Rusiya Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt, Ənzəli və s. ərazilərin ona ilhaq edilməsi faktının qəbul olunmasına nail oldu.

Tarixdən məlum olduğu kimi, 1724-cü ilin avqustunda türk qoşunları Naxçıvanı, 1725-ci ilin iyulunda Təbrizi, həmin ilin dekabrında Ərdəbili ələ keçirib. Azərbaycanın bu torpaqlarında türk inzibati idarələri yaradılır,

çoxlu vergi və mükəlləfiyyətlər təyin edilirdi.

Əfşar tayfasından çıxmış məşhur sərkərdə Nadir İrandan əfqan tayfalarını qovaraq II Təhmasibi taxtdan salmış və onun dörd aylıq oğlunu III Abbas adı ilə şah elan etmişdi. 1736-cı ilin fevralında Muğanda keçirilən qurultayda vəfat etmiş kiçik yaşlı III Şah Abbasın yerinə Nadir şah seçilir. Səfəvi sülaləsi hakimiyyətdən uzaqlaşdırılır. 1747-ci ildə Nadir şahın ölümündən sonra ayrı-ayrı xan, sultan, məlik və bəylər öz müstəqilliyini qorumaq üçün vahid Azərbaycan dövləti yaratmaq siyasəti aparan xanlara qarşı çıxırdılar.

Həmin dövrdə Şimali Azərbaycanda Şəki, Qarabağ və Quba, Cənubi Azərbaycanda isə Urmiya, Qaradağ, Xoy, Maku xanlıqları daha böyük əhəmiyyətli feodal dövlətləri idilər. Daha kiçik olan Qəbələ, Ərəş, İlisu, Qazax və Şəmşəddil sultanlıqları Dağlıq Qarabağ məlikləri xanlıqlardan asılı idilər.

Feodal iyerarxiyasına xanlığın ali hakimi olan xan başçılıq edirdi. Xan dövlət başçısı kimi ən iri feodal idi. Onun geniş əkin sahələri, saysız-hesabsız mal-qarası, ilxısı, dəyirmanları, kənd təsərrüfatı alətləri, qoşqu heyvanları və s. var idi. Xandan sonra ikinci hakim silkə sultanlar və məliklər daxil idi.

Hakim silkin əsas hissəsini bəylər və ağalar təşkil edirdi. Bəylərin iki qrupu fərqləndirilirdi: irsi və xidmətdə olan bəylər. Birinci qrupa daxil olanlar iri torpaq sahibliyinə malik olmaqla vaxtilə Səfəvi şahlarından bəylik titulu alanlar idi. İkinci qrupa xanın yanında xidmətdə olanlar, tiyuldarlar və hərbi sərkərdələr daxil idilər.

Qazax, Şəmşəddil və Borcalı sultanlıqlarında kəndliləri idarə etmək hüququ olanlar ağa adlanırdı. Onlar da bəylər kimi vergi və mükəlləfiyyətlərdən azad idilər. Kəndlərdən gələn gəlirin bir hissəsini özləri üçün istifadə etməklə kənd əhalisi ağaların xidmətində durmağa borclu idilər. Ağalara kəndlərin idarə edilməsi bəzən ömürlük və vərəsəliklə verilirdi.

Lakin feodallar sinfinə yüksək rütbəli müsəlman ruhaniləri də daxil idi. Onlar vergi və mükəlləfiyyət ödəməkdən azad edilmişdilər. Onların əsas gəlir mənbələri vəqf əmlakı və dini rüsumlar idi. Ölkə xanları bu ruhanilərə imtiyaz kimi torpaqlar və kəndlər də bağışlayırdılar. Xanlıqlarda xüsusi imtiyazlı silk olan maaflar fərqləndirilirdi. Onlar vergi və mükəlləfiyyətdən azad edilib, əvəzində xanın qoşununda xidmət edirdilər. Bəzən maaflar öz ictimai vəziyyətlərinə görə bəylərdən sonra

aşağı səviyyədə duran kiçik torpaq sahibləri idilər. Üzərinə qoyulan vəzifəni yerinə layiqincə yetirsin deyə xan onlara torpaq sahəsi də bağışlayırdı.

Azərbaycan xanlıqları dövründə əhalinin əsas kütləsini bir neçə qrupa bölünən kəndlilər təşkil edirdi. Kəndlilərin əksəriyyəti divan, xassə, sahibkar və vəqf torpaqlarında sakin olan rəiyyətdən ibarət idi. Rəiyyətin öz təsərrüfatı və torpaq sahəsi, əmək alətləri və iş heyvanları var idi. Onlar feodalın xeyrinə vergi verməli və mükəlləfiyyətlər yerinə yetirməyə borclu idilər. Rəiyyətin iki kateqoriyası fərqləndirilirdi. Belə ki, dövlət (xəzinə) torpaqlarında və mülkədar torpaqlarında işləyən rəiyyətlər müxtəlif dərəcədə istismar olunurdular.

Rəiyyətlərdən fərqli olaraq rəncbərlər torpağa deyil, şəxsən feodallara təhkim olunmuşdular. Onların xeyli hissəsi kənd icmalarına daxil deyildi. Daha ağır istismara məruz qalan rəncbərlərin öz torpaq payı, alətləri, təsərrüfatı yox idi. Bəylər rəncbərləri hər cür iş görməyə məcbur edə bilərdilər. Rəncbərlər feodalların təsərrüfatında işləyir, taxıl əkir, mal-qara saxlayır və pambıq istehsalı ilə məşğul olurdular. Hətta rəncbərlərə sahib olmaq haqqında bəylərə rəsmi vəsiqə-təliqə də verilirdi.

Rəncbərlər ayrı-ayrı xanlıqlarda müxtəlif öhdəlik funksiyalarını yerinə yetirirdilər. Talış xanlığında rəncbər əkər adlanırdı. Onların əməyindən əsasən çəltik becərilməsində istifadə olunurdu. Xanlar mahal naiblərinə, bəylərə, qazılara və hətta kəndxudalara rəncbər paylayırdılar. Əvəzində katibdən tutmuş kəndxudalara qədər inzibati qulluqda olan şəxslərin çoxu öz xidmətinə görə xəzinədən pul almayaraq, rəncbərlərin əməyindən istifadə edirdilər.

Xanın əmri ilə hər bir rəiyyət rəncbərə çevrilə bilərdi ki, bu da rəncbərlərin sıralarının artmasına səbəb olurdu. Rəncbərin sayı təkcə rəsmi yolla deyil, digər formada da artırdı. Belə ki, öz şəxsi təsərrüfatından məhrum olaraq, məhsuldan pay vermək şərti ilə feodalların torpaqlarını icarəyə götürməyə məcbur olan yoxsullaşmış rəiyyətlər rəncbərə çevrilirdi. Belə hallarda feodallar məhsulun altıda iki hissəsindən ikidə bir hissəsinə qədərini rəncbərlərə verirdilər. Başqa xanlıqlardan gələn qaçqınlar və hərbi əsirlər də rəncbərlərin sıralarını artırırdılar.

Rəncbərlər təhkim olunduqları təsərrüfatı özbaşına tərk etmək hüququndan məhrum idilər. Feodallar isə istədikləri kimi rəncbərləri bir yerdən digər yerə köçürə bilərdilər. Feodallıqlarda rəncbərlər institutunun

meydana çıxması Azərbaycan kəndlilərinin daha da yoxsullaşması prosesinin nəticəsi idi.

Kənd əhalisinin tərkibinə köçəri elatlar adlanan maldarlar daxil idilər. Onlar köçəri tayfa əyanlarından asılı idi. Elatlar tədricən oturaqlığa keçir, maldarlıqla yanaşı, əkinçiliklə də məşğul olmağa başlayırdılar. Lakin bir sıra vergi və mükəlləfiyyətlərdən azad olduqlarına və əhalinin köçəri hissəsinin vəziyyəti nisbətən yaxşı olduğuna görə bu proses ləng inkişaf edirdi.

XVIII əsrdə kənd icması üzvlərinin də vəziyyəti yaxşı deyildi. Bir çox ailələr feodallardan asılı idilər. İcmaların asılı kəndlilərə çevrilmə prosesi Azərbaycanın, demək olar ki, bütün xanlıqlarında baş verirdi. İcmaçıların nökərlərə çevrilməsi halları da olurdu.

Xidmət əvəzinə verilən torpaqlar tiyul adlanırdı. Xan tiyul paylayarkən xüsusi vəsiqə-təliqə verirdi. Tiyuldarın varislik hüququ xan tərəfindən formal olaraq təsdiq edilirdi. Qarabağ, Naxçıvan, Quba xanları və başqa xanların fərmanlarında tiyul mükafatı renta və ya onun bir hissəsini almaq hüququ ilə bərabər, qışlaqlara və yaylaqlara, habelə qışlaq və yaylaqlarda sakin olan kəndlilərə də aid olurdu.

Quba xanlarının fərmanlarından aydın olur ki, tiyul sahiblərinin – tiyuldarların, onların şəxsi asılılığına verilən adamları öz ixtiyarında saxlamaq hüququ mövcud olmuşdur. Belə hüquqlara başqa dövrlərin tiyul vəsiqələrində də təsadüf edilirdi.

Bu dövrdə mülk torpaq sahibliyi olduğu kimi qalmışdır. Mülk sahibləri xana qulluq etməyə borclu deyildilər, lakin əksər hallarda aldıqları gəlirin bir hissəsini vergi olaraq dövlətin xəzinəsinə verməli idilər. Mülk sahiblərinin çox az hissəsi vergi verməkdən azad idi. Mülkədarların bu qrupu mülk-xalisə sahibləri adlanırdılar. Xanlıqlarda mülk torpaq mülkiyyəti geniş yayılmışdı. Şəriət məhkəmələrinin qərarlarında, bəzən isə xanların fərmanlarında və digər sənədlərdə çoxlu mülk alınıb-satılmasına rast gəlinirdi. Torpaqlarla bərabər, suvarma arxları və kəhrizlər də satılırdı.

Azərbaycan xanlıqlarında vəqf torpaqları və vəqf mülkiyyəti əvvəlki dövrlərdə olduğu kimi qalmaqda davam edirdi. Belə ki, Şuşa məscidlərinin çoxlu torpağı, dükanı və evi var idi. Bakı yaxınlığındakı böyük torpaq sahələri Bibiheybət şeyxlərinin vəqf yerləri sayılırdı.

XVIII əsrdə kənd icmalarına məxsus torpaqlar daha çox camaat torpaqları kimi tanınırdı. Məmurlar və adlı-sanlı adamlar, köçəri tayfa

başçıları, dövlət vergilərini götürənlər, sərmayəçilər və tacirlər tərəfindən camaat torpaqlarının zorla tutulması halları olurdu. Bunun nəticəsində icma torpaqlarının, habelə ayrı-ayrı kəndlilərin mülkiyyətini təşkil edən torpaqların sahəsi getdikcə azalırdı.

Azərbaycan xanlıqlarında vergi və mükəlləfiyyətlər, demək olar ki, əvvəlki əsrlərdə olduğu kimi qalırdı. Məhsul rentası ilə yanaşı, mükəlləfiyyətlə və pulla ödənilən vergi formaları da mövcud idi. Xanların saray, məmur, qoşun və başqa ehtiyacları külli miqdarda xərc tələb edirdi ki, bunların da əsas ağırlığı rəiyyətin üzərinə düşürdü.

Rəiyyət xanlara başqa vergilər verməli və məhsulla ödənilən mükəlləfiyyət yerinə yetirməli idi: dərğalıq, töycü, mancanaq pulu, toxucu pulu, dəyirman pulu, dabbağ pulu, duz pulu, qapan pulu, xırdavat pulu, şirəxana pulu, ilxıçı, vəzirlik, at arpası, cizyə, otaq xərci, bağbaşı, dırnaqlıq, cütbaşı, peşkəş, zəkat, xüms, rüsum və s. alınırdı. Kəndlilər torpaq sahiblərinin xeyrinə ildə üç gündən altı günə qədər biyar və iki gün əvrəz adlı ödəmə mükəlləfiyyətlərini də icra edirdilər.

Dövlət və feodallardan torpaq icarə edən kəndlilərin vəziyyəti son dərəcə ağır idi. Belə ki, məhsulun ikidə birindən beşdə üç hissəsinə qədəri, bəzi hallarda isə üçdə iki hissəsinə qədəri torpaq sahibinə verilirdi. İcarənin belə forması paydarlıq adlanırdı. İcarə haqqının həcmi müəyyən edildikdə, feodalın icarədarı toxum, inventar və iş heyvanı ilə nə dərəcədə təmin etməsi nəzərə alınırdı. Paydarlığın geniş yayılmış forması məhsulun ikidə birini vermək şərti ilə olan icarə idi. Bu cür icarədarlara yarıkərlər deyilirdi.

Həmin dövrdə hüququn inkişaf xüsusiyyəti kimi Şəki xanı Məhəmməd Həsən xanın dövründə tərtib edilən “Dəstur-üləməl” adlı qanunlar məcəlləsini, 1751-ci il dekabrın 20-də Zaqatala rayonunun Ağdam kəndi məclisində qəbul edilmiş, CarBalakən mahalının hüquq sisteminin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən “Car-Tala Qanunnaməsi”dir.

## 3.8. XIX əsrdə və XX əsrin (1900-1917-ci illərdə) əvvəllərində Azərbaycanda torpaq münasibətləri

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazda daha fəal siyasət yeritməsi 180l-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşməsi ilə nəticələndi. Rus çarının niyyəti

Azərbaycanı tutmaq idi. General Sisiyanovun bu işğal planında ilk hədəf Car-Balakən oldu (1803-cü il). Sonra Gəncə xanlığı (1804-cü il), Qarabağ xanlığı (1805-ci il), Bakı xanlığı (1806-cı il), Quba xanlığı (1806-cı il), Talış xanlığı (1809-cu il) Rusiyaya qatıldı. 1804-cü ildə başlamış Rusiya-İran müharibəsi 1813-cü ilin oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Gülüstan müqaviləsi Azərbaycanın Rusiya və İran arasında iki yerə bölünməsinin başlanğıcı idi.

Şimali Azərbaycan Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra xanların, bu işğalla barışmayıb Türkiyə və İrana keçmiş feodalların torpaqları dövlət xəzinəsinin ixtiyarına keçirilirdi. Bu torpaqlarda yaşayan və onu becərən kəndlilər də dövlət xəzinəsinin ixtiyarına keçmişdilər. Belə kəndliləri dövlət kəndliləri adlandırırdılar. Dövlət torpaqları ilə yanaşı, mülk sahibi olan feodal və bəy torpaqları da var idi. Feodallardan hüquqi cəhətdən asılı olan həmin torpaqları becərən kəndlilər isə sahibkar kəndliləri hesab olunurdular. Çar Rusiyası torpaqları əsasən dövlətin ixtiyarında cəmləşdirdiyinə görə sayca sahibkar kəndliləri dövlət kəndlilərindən təxminən üç dəfə az idi. Sahibkar və dövlət kəndliləri rəiyyətlərə və rəncbərlərə bölünürdülər. Xanlıqlar dövründə olduğu kimi, rəiyyətlər xəzinə və bəy torpaqlarını öz əmək alətləri ilə becərir, götürdükləri məhsulun bir hissəsini xəzinəyə, yaxud feodala verirdilər. Rəncbərlərin isə tamamilə asılı təbəqə kimi nə torpağı, nə də əmək aləti var idi. Onlar hüquqi cəhətdən də rəiyyətlərdən fərqlənir, daha ağır vəziyyətdə yaşayırdılar. Rəncbərlər öz ağalarına xidmət edir, təsər-rüfatında çalışır, onların bir qisminə xəzinədən, yaxud bəylər tərəfindən toxum, əmək aləti, qoşqu heyvanı verilir, əvəzində isə rəncbərlər be-cərdikləri məhsulun yarısına sahib olurdular. Kəndin ümumi istifadəsində müəyyən qədər torpaq olur və kəndlilər vergiləri icmalıqla ödəyirdilər. İcma torpaqları hər 4-5 ildən bir icmaların 15 yaşına çatmış kişiləri arasında bölünürdü, Kənd icması onun payına düşən vergiləri kənddə yaşayan ailələr arasında, bu ailələrdə olan kişilərin sayına və ya istifadə etdiyi torpağın miqdarına uyğun olaraq bərabərləşdirirdi. Vəqf mülkiyyəti (əmlakı) və vəqf torpaqları dini idarələrin əsas gəlir mənbəyi idi.

XIX əsrin birinci rübündə Zaqafqaziyada rus qoşunlarının baş komandanı İ.F .Paskeviç, bura yoxlama üçün göndərilən senatorlar P.İ.Kutaysov və Y.İ.Meçnikov Azərbaycanda tiyul torpaqlarının ləğv edilməsi haqqında hökumətə təqdim etdiyi layihənin əksinə olaraq, Çar I

Nikolay 13 iyul l830-cu il tarixli qanununu imzaladı ("Əlahəzrət buyruğu"). Bundan əvvəl isə A.P.Yermolovun l818-ci ildə verdiyi "Ağalar haqqında əsasnamə" üzrə yerli feodallar tiyul torpaqlarının sahibi deyil, yalnız yerlərdə inzibati xidmətdə olan və bu torpaqlar üzərində idarəetmə hüququ olan şəxslər sayılırdılar. Əlahəzrətin buyruğunda tiyul torpağı ilə bağlı siyasi çəkişmələrə son qoyulmadı. Belə ki, 10 aprel 1840-cı il qanunu ilə çar hökuməti Zaqafqaziyada xan və bəyləri dövlət qulluğundan kənar etdi, 1841-ci ilin qanunu ilə onların tiyul torpaqlarını ləğv etməyə çalışdı. Yalnız 6 dekabr 1846-cı il qanunu qəti olaraq tiyul torpaqlarını feodalların mülki kimi tanıdı. Bu fərmana əlavə olaraq 1847-ci il aprelin 20-də və həmin ilin dekabrın 28-də nəşr olunmuş "Kəndli salnamələri"nə görə bəy və ağa torpaqlarında yaşayan müxtəlif kateqoriyalı kəndlilər – rəncbərlər, rəiyyətlər vahid ad-mülkədar tabeliyi adı alır, 15 yaşına çatmış kişilərin hər birinə 5 desyatin pay torpağı almaq hüququ verilirdi.

Azərbaycan kəndlilərinin istifadəsində olan torpaqlar onun ailəsinin ehtiyaclarını ödəmirdi. Digər tərəfdən isə çar hökuməti erməniləri və Rusiyanın müxtəlif yerlərindən əhalini Azərbaycana köçürür, ən yaxşı torpaqları onlara verirdi. Bəzən isə elə hallar olurdu ki, yerli kəndlilərin istifadəsindəki torpaqların bir qismi onlardan alınıb gəlmələrə verilirdi. Bu isə Azərbaycan kəndində aztorpaqlı və tamamilə torpaqsız kəndlilərin sayının artmasına səbəb olurdu.

Torpaq sahibləri ilə kəndlilər arasında qarşılıqlı münasibətlər çar hökumətinin 1847-ci ildə verdiyi "Kəndli əsasnamələri" ilə rəsmiləşdi.

Azərbaycanda kəndlilərin idarə olunması Rusiyanın mərkəzi quberniyalarından xeyli fərqlənirdi. Müsəlman əyalətlərində kənd əhalisini mütləqiyyət-polis sistemindən daha çox asılı etməyə çalışırdı. Belə ki, Qafqaz canişinliyi tərəfindən 11 avqust 1865-ci il tarixli "Tiflis və Kutaisi quberniyalarının kənd cəmiyyətləri əsasnaməsi" və 23 avqust 1866-cı il tarixli "Bakı quberniyasının kənd cəmiyyətləri əsasnaməsi" 1870-ci ilin aprel ayından Yelizavetpol (Gəncə) quberniyasına şamil edildi. 1870-ci il 14 may tarixli "Əsasnamə"nin tətbiq edilməsi ilə əlaqədar olaraq 1865-1866-cı illər "Kənd cəmiyyətləri haqqında" əsasnamənin bəzi maddələrində dəyişikliklər edildi. 1865-1866-cı illərdə qəbul edilmiş Zaqafqaziyada kənd cəmiyyətləri Əsasnamələri öz tərkibində müxtəlif kəndli qruplarını birləşdirən əhaliyə şamil edilirdi. Bu tərkibə dövlət, mülkədar, vəqf, xəzinə (xanədan), icma kəndliləri daxil

idilər. Kiçik kəndlər canişinin icazəsi ilə bir kənd cəmiyyətində və yaxud daha da böyük kənd cəmiyyətlərində birləşirdilər. Bütövlükdə Bakı quberniyasında 423, Yelizavetpol quberniyasında isə 335 kənd cəmiyyəti yaradılmışdı. Müxtəlif sosial qruplardan olan kəndlilərin bir cəmiyyətdə birləşdirilməsi, onların inzibati-məhkəmə vahidindən asılı edirdi. Polis dövlətin maliyyə ehtiyaclarını ödəmək üçün kəndliləri asanlıqla mükəlləfiyyətə cəlb edə bilirdi.

Kəndli cəmiyyətlərinin idarəetmə orqanları kənd yığıncaqlarından və kənd ağsaqqallarından ibarət idi. "Əsasnamə"yə uyğun olaraq kəndlilərin ümumi yığıncağında yeniyetmə yaşında olan hər bir ailə başçısı iştirak etmək hüququna malik idi. "Əsasnamə" ciddi şəkildə kənd yığıncaqlarında baxılacaq məsələlərin tərkibini müəyyən edirdi. Əlbəttə, kəndli cəmiyyətinin yığıncaqlarının keçirilməsi Azərbaycan kəndlilərinin problemlərini heç də həll etmirdi.

Zaqafqaziyada kəndli islahatını hazırlamaq məqsədilə 1861-ci ildə Zaqafqaziya Mərkəzi İslahat Komitəsi yaradıldı. İslahatı hazırlamaq üçün əvvəlcə dövlət sahibkar torpaqlarının və kəndlilərin pay torpaqlarının sərhədləri dəqiq müəyyənləşdirilməli idi. Bu məqsədlə 1861-ci il iyunun 29-da Zaqafqaziya ölkəsinin mərzləşdirilməsi haqqında Əsasnamə təsdiq edilmiş və 1862-ci il yanvarın 1-dən torpaqların bilavasitə mərzləşdirilməsi işinə başlanmışdı. İslahatın hazırlanması yolunda ikinci mühüm addım 1866-cı ildə Qafqaz Canişini Baş İdarəsi Şurasının qərarı ilə Bakı, Şuşa, Tiflis və İrəvan bəy Komissiyalarının yaradılması oldu. Həmin Komissiyalar Azərbaycanın ali müsəlman silkinin tərkibini və hüququnu müəyyən etməli idi. Onların işi Azərbaycanda 1188 irsi və şəxsi bəy nəslinin, 3 xan nəslinin-Şirvan, Bakı, Talış xan nəsillərinin imtiyazlarını tanımaq, 1048 ailənin isə iddialarını rədd etməklə başa çatdı. Əslində, çar hökuməti "kəndli islahatı"na hazırlıq adı altında yerli mülkədarların mənafeyini qabaqcadan "həll etmişdi".

Azərbaycanda "kəndli islahatı" çarın imzaladığı 14 may 1870-ci il tarixli Əsasnaməsi üzrə tənzimlənirdi. İslahat keçmiş xan nəslindən olanların, bəylərin və ağaların 6 dekabr 1846-cı il, 20 aprel 1847-ci il, 28 dekabr 1847-ci il və 8 iyun 1851-ci il tarixli fərmanlarına müvafiq olaraq onların torpaq üzərindəki mülkiyyət hüququnu bir daha təsbit edirdi. Digər tərəfdən, ali silkdən olanlar pay torpağı almaq hüququnu saxlayırdılar. Kəndlilərin istifadəsində olan pay torpaqları üzərində mülkiyyət hüququ mülkədarların hüququ kimi təsbit edilirdi.

Əsasnaməyə görə hər bir malikanədə adları olan istər ailələrin, istərsə də subay kəndlilərin həmin malikanədə pay torpağı almaq hüququ təsbit edilirdi. 5 desyatindən artıq kəndli pay torpağından sahibkar kəsim tələb etmək hüququna malik idi. Lakin ümumən kəndli icmasının pay torpağı hər bir kəndli kişi üçün 5 desyatindən az olarsa, onda kəndli cəmiyyətinin sahibkardan torpağın çatışmayan hissəsini tələb etmək hüququ var idi və sahibkar çatışmayan torpağı kəsib verməyə borclu idi. Meşələr bəylərin mülkiyyəti kimi təsbit olunur və kəndlilər əvvəllər birgə, elliklə istifadə etdikləri meşələr üçün indi ayrıca pul verməli idilər.

Kəndlilər üçün pay torpağı kimi müəyyən edilmiş torpaqlar kəndlilər tərəfindən mükəlləfiyyətlər icra edilib qurtardıqdan sonra kəndlinin daimi istifadəsinə (mülkiyyətinə yox) verilirdi. Kəndlinin evi, həyətyanı sahəsi həmin tüstülərin (evin) irsi istifadəsində qalırdı. Kəndli əkin sahəsinin irsən keçməsi qaydası və onların bölünməsi yerli adət hüququ əsasında aparılırdı. Kəndli həyətyanı torpağını və əkin yerini kənd cəmiyyətinə mənsub olan kəndliyə verə bilərdi. Bağları isə hətta kənar şəxsə vermək hüququna malik idi. Kəndli başqa silkə keçdikdə tərk etdiyi icmanın torpağından istifadə hüququnu itirirdi.

1870-ci il kəndli islahatı kəndlilərin əksəriyyətini təşkil edən dövlət kəndlilərinə şamil edilmirdi. İslahatın əhatə etdiyi sahibkar kəndliləri isə Azərbaycan kəndlərinin yalnız beşdə bir hissəsindən bir qədər artığını təşkil edirdi. Bununla belə, ümumilikdə bütün kəndlilərin şəxsən azad edilməsi, torpaqların alqı-satqısı kənddə kapitalist münasibətlərinin inkişafına zəmin yaradırdı.

XIX yüzilliyin sonlarında Azərbaycan kəndinin siması xeyli dəyişmiş, artıq kənd əhalisi yeni – kapitalist cəmiyyətinin siniflərinə parçalanmışdı. Bu siniflərdən biri torpaqların xeyli hissəsini əllərində cəmləşdirmiş kənd varlıları, öz torpaqlarını muzdlu əmək tətbiq etməklə becərən qolçomaqlar, həmçinin təsərrüfatla məşğul olub, bu təsərrüfatda muzdlu əmək tətbiq etməklə kapitalistə çevrilmiş bəylər idi. Digər sinfi isə torpaqsız və ya aztorpaqlı kəndlilər təşkil edirdilər.

XX əsrin əvvəllərindən Azərbaycanda kapitalist münasibətləri daha sürətlə inkişaf etməyə başladı. Bu dövrdə kəndlilərin vəziyyəti daha ağır idi. Onlar torpaqsızlıqdan və aztorpaqlılıqdan daha böyük əziyyət çəkirdilər. Torpaqların 3/4 hissəsindən çoxu xəzinənin (dövlətin) ixtiyarında idi. Ümumi əhalinin 80%-i kəndlərdə yaşayırdı. Onların isə 70%-ni xəzinə torpaqlarında yaşayan dövlət və xanədan kəndliləri təşkil edirdi.

Kəndli şəxsən azad olmaqla öz pay torpağından istifadəyə görə dövlətə töycü verirdi. Dövlət kəndliləri nisbətən geniş hüquqlara malik idi.

Şəxsən azad olan kəndli pay torpaqlarından istifadəyə görə dövlətə töycü verib, bu torpağı sata, bağışlaya, icarəyə verə bilərdi. Ümumi vətəndaşlıq hüquqları əldə etmiş kəndli, hüquqi şəxs kimi çıxış etmək-saziş bağlamaq, iddia irəli sürmək, daşınar və daşınmaz əmlaka sahib olmaq hüququna malik idi.

Kəndlilərin ikinci böyük qrupunu bəy, mülkədar və yaranmaqda olan qolçomaq torpaqlarında yaşayan sahibkar kəndliləri təşkil edirdi. İqtisadi cəhətdən mülkədarlardan asılı olan kəndli ödənc müqaviləsi bağlanana qədər hələ də müvəqqəti mükəlləfiyyətli hesab olunurdu. Sahibkar kəndliləri dövlət kəndlilərinə nisbətən torpaqla pis təmin olunmuş, əsasən az məhsuldar torpaqlara malik idilər.

Bu dövrdə torpağin daimi mülkiyyətçisi olmuş icma kəndliləri arasında təbəqələşmə getdikcə qüvvətlənirdi. İcmada vergi verməkdə, dövlət və mülkədar mükəlləfiyyətlərini yerinə yetirməkdə elliklə zəmanət saxlanılırdı. Tədricən icma torpaqlarının çox hissəsini ələ keçirmiş qolçomaqlar və varlı kəndlilər pay torpaqlarının vaxtaşırı bölüşdürülməsi qaydasını daim pozurdular.

1 yanvar 1901-ci ildən qüvvəyə minmiş yeni torpaq qanunu bütün kateqoriyalardan olan kəndlilərin dövlət və sahibkar qarşısında vergi və mükəlləfiyyətlərini dəqiq müəyyən edirdi. Belə ki, dövlət kəndliləri özlərinin həmişəlik istifadəsində olan pay torpaqlarına görə xəzinəyə həyətbaşı (tüstü) adlanan vergi əvəzinə, gəlirin l0-12%-ni təşkil edən dövlət töycüsü, istifadə etdiyi digər torpaqlara görə torpaq vergisi və bütün kateqoriyalardan olan torpaqlara aid olunan zemski rüsumu ödəməli idilər. Zemski rüsumu yerli xərclərin – təhsil, səhiyyə, baytarlıq, əsasən də yerli inzibati idarəetmə aparatının saxlanılması üçün alınırdı.

Mülkədar kəndliləri öz ağasının xeyrinə mükəlləfiyyətlər yerinə yetirir, malcəhət, yaxud bəhrə, qışlaqda saxlanılan heyvanlar üçün ot pulu, tüstü pulu, bağ pulu və s. ödəyirdilər.

XX əsrin əvvəllərində Şimali Azərbaycan artıq tərkibinə daxil olduğu Rusiya imperiyasının qanunları ilə idarə edilirdi. İnqilabi yüksəliş illərində çar hökuməti qanunvericilikdə bir sıra yeniliklər etməyə məcbur olmuşdu.

1906-cı ilin iyununda çar hökuməti kəndli icmasının ləğv edilməsi, icma torpaqlarının ləğv edilməsi və icma torpaqlarının kəndlilərin şəxsi

mülkiyyətinə verilməsi barədə öz təkliflərini baxılmaq üçün I Dövlət Dumasının müzakirəsinə vermişdi. Lakin Duma buraxıldığından icma kəndli torpaq sahibliyindən xüsusi torpaq sahibliyinə keçmək haqqında qanun 1906-cı il noyabrın 9-da Dövlət Dumasında müzakirə olunmadan elan edildi. Həmin qanuna əsasən, icma torpaqlarına sahib olan hər bir kəndliyə icma torpağından ona düşən payı xüsusi mülkiyyət kimi almaq hüququ verilirdi. 24 il ərzində torpaqların yenidən dövraşırı bölünmədiyi kəndli icmalarında kəndlilər bu vaxta qədər istifadə etdikləri torpaq sahələrinin mülkiyyətçisi ola bilərdi. Fərman mülkiyyətçi kəndlilərə köhnə yerdə yaşamaqda davam etmək və ya onlara mülkiyyət kimi ayrılmış torpaq sahəsinə keçmək hüququ verirdi. Birinci halda onlar oturaq kəndlilər, ikinci halda isə xutor sahibləri adlanırdı.

Aqrar islahat həm zadəganları, həm də burjuaziyanı tamamilə təmin edirdi. Onlar əsas kəndli kütləsini yenidən qarət etmək platformasında birləşdilər. Çünki, Stolıpin islahatı kəndlilərə bir qarış da olsun mülkədar torpağı vermirdi. Hökumət bir şeyə ümid edirdi ki, kəndlilərin xeyli hissəsi və ən əvvəl yoxsullar qəti surətdə var-yoxdan çıxacaq və öz torpaqlarını qolçomaqlara satacaqlar. Beləliklə də, qolçomaqlar torpağı alaraq, xüsusi torpaq sahiblərinə çevriləcək, mülkədarların labüd müttəfiqləri olacaq və inqilabi kəndli hərəkatına qarşı bir növ səddə çevriləcəkdir. Hökumət qolçomaqlara açıq surətdə belə bir çağırışla müraciət etdi: "Var1anın, icmanı qarət edin, xüsusi mülkiyyəti möhkəmləndirin".

14 iyun 1910-cu ildə II Nikolay Dumanın və Dövlət Şurasının qəbul etdiyi "Kəndli torpaq sahibliyinə dair" qanun layihəsini təsdiq etdi. Yeni aqrar qanun 1906-cı il 9 noyabr tarixli fərmanın prinsiplərini bərqərar edir və icma torpaq sahibliyinin ləğv edilməsi üçün daha böyük imkanlar yaradırdı. 1910-cu il qanunu ilə artıq məcburi qaydada bütün icmaçı kəndlilər, əgər onların yaşadığı icmalarda ödəncə keçildiyi vaxtdan icma torpağı yenidən dövraşırı bölünməyibsə, xüsusi mülkiyyətçilər vəziyyətinə keçirilirdilər. 19 may 1911-ci il tarixli qanuna görə kəndlilərin icmadan çıxması üçün kəndli yığıncağının razılığını almaq işi də xeyli asanlaşırdı.

Kəndlilər çar aqrar qanununa qarşı qətiyyətlə mübarizə aparırdılar. Onlar öz nümayəndələrini yerquruluşu komissiyalarina göndərməkdən imtina edir, kəndlilərin icmadan ayrılması üçün cəmiyyətin razılığını vermir, torpağın öz xüsusi mülkiyyətinə keçirilməsi barədə ərizə verən kəndliləri təqib edir və onları öz ərazilərindən imtina etməyə məcbur edir,

xutor1ara və ortabablara ayrılan qolçomaq kəndlilərlə mübarizə aparırdılar.

Stolıpin aqrar qanunvericiliyinə qarşı yönəldilmiş belə açıq-aşkar kəndli "hökumətləri" çox idi. Kəndlilər Stolıpinin yerquruluşuna dair işlərini bəyənmirdilər və qətiyyətlə rədd edirdilər. Stolıpinin aqrar siyasəti bütövlükdə hökumətin və mülkədarların gözlədikləri nəticələri vermədi. Qolçomaqlığın bir qədər artması, mülkədar təsərrüfatında burjua münasibətlərinin güclənməsi, bazarın və onunla əlaqədar olaraq kənd təsərrüfatının genişlənməsi bütövlükdə ölkənin iqtisadi inkişafının əsas ziddiyyətini-inkişaf edən kapitalizmlə saxlanmaqda olan feodalizm qalıqları arasında ziddiyyəti aradan qaldıra bilmədi.

Mülkədarlarla kəndlilər arasında torpaq uğrunda mübarizə Stolıpinin aqrar siyasəti nəticəsində nəinki zəifləmədi, əksinə daha da gücləndi. Rusiyada mülkədarın siyasi hökmranlığı və kənd təsərrüfatında həlledici iqtisadi mövqelərin onların əlində saxlanması ictimai inkişafın əsas tələbləri ilə bir araya sığmırdı. Sinfi mübarizənin güclənməsi göstərdi ki, Stolıpin öz vəzifələrini yerinə yetirmədi. Çünki, 1910-cu ildən 1914-cüilədək bütün Rusiyanı kəndli çıxışları bürümüşdü. Mülkədar torpaq sahibliyinin tərəfdarı olan partiyalar (eserlər) öz liderlərindən məyus oldular. "Yuxarı təbəqələrdə" Stolıpini dəyişdirmək haqqında danışmağa başladılar.

I Dünya müharibəsi illərində də kəndli-torpaq məsələsi həmişə gündəlikdə olmuş Rusiyanın aqrar quruluşunun doğurduğu bütün sinfi ziddiyyətlər davam etmişdir. Bununla birlikdə Stolıpinçiliklə əlaqədar olaraq kəndlilər arasında artan ictimai təbəqələşmə yoxsullarla qolçomaqlar arasında toqquşmanı labüd edirdi.

## 3.9. Azərbaycan Demokratik Respublikasında (1918-1920-ci illərdə) torpaq münasibətləri

XIX əsrin əvvəllərindən Rusiya imperiyasının tərkibinə qatılmış Şimali Azərbaycan 1918-ci il mayın 28-də öz müstəqilliyini elan edərək Şərqdə ilk demokratik respublikanı yaratdı. ADR-in yaranmasının bir sıra siyasi və hüquqi əsasları mövcud olmuşdur. Xalqın milli mənlik şüurunun artması, müstəmləkə əsarətindən qurtulmaq, öz milli dövlətini yaratmaq, demokratik respublika idarəçilik formasına üstünlük vermək, az vaxt ərzində dövlət mexanizmini, qanunvericilik, idarəetmə və hüquq

institutlarını təşkil etmək Azərbaycan xalqının XX əsrin əvvəllərində əldə etdiyi ən böyük nailiyyəti idi.

Azərbaycan Cümhuriyyəti hökuməti son dərəcə mürəkkəb bir dövrdə bəzi vacib tədbirləri həyata keçirdi. İlk növbədə daxili asayişi bərpa edə bildi, yerli idarəetmə orqanlarının fəaliyyəti üçün şərait təmin edildi. Qısa zaman kəsiyində dağılmış təsərrüfat bərpa edildi, poçt, rabitə, maliyyə işləri sahmana salındı. Əhalinin yoxsul təbəqəsinə, işsizlərə, eləcə də erməni-daşnak zülmündən qurtulan insanlara yardım edildi.

ADR-in ərazisi təxminən 114 min kv. km olmuşdur. Respublikanın ərazisi-inzibati quruluşunda əvvəlki kimi çar Rusiyası dövründə mövcud olmuş ərazi vahidləri qalmaqda davam edirdi-quberniya, qəza, dairə və nahiyə bölgüsü saxlanılmışdı. Bakı, Gəncə və İrəvan quberniyaları, Zaqatala dairəsi ən iri inzibati vahidlər idi.

1919-cu ilin əvvəllərinə qədər Dərbənd şəhəri və onun ətraf rayonları Azərbaycan hökumətinin qərar və sərəncamları ilə işləyirdi. Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş Dərbənd əyaləti Denikinin qoşunları tərəfindən işğal edildi. Azərbaycan hökuməti işğal barədə Paris Sülh Konfransına məlumat göndərmiş və zəbt edilmiş ərazinin geri qaytarılması barədə tədbirlər görülməsini tələb etmişdi.

Cənub-Qərbi Azərbaycan qubernatorluğunun ərazisi keçmiş çar inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasına daxil edilmişdi. 1918-ci il noyabrın sonlarında müvəqqəti müstəqilliyini elan etmiş Araz Respublikası (paytaxtı Kəmərli, sonra isə Naxçıvan) yaradıldı. Onun ərazisinə Cənub-Qərbi Azərbaycanın müsəlmanlar yaşayan Naxçıvan, Şərur, Dərələyəz, Sərdarabad, Vedibasar, Mehri, Kəmərli və s. bölgələri daxil edilmişdi. 1918-ci ilin dekabrında daha bir yeni Respublika-Cənub-Qərbi Qafqaz Demokratik Respublikası (paytaxtı Qars şəhəri idi) yaradıldıqdan sonra Araz Respublikası yeni qurumun tərkibinə daxil olur.

Azərbaycan hökuməti Cənub-Qərbi Azərbaycan əhalisinin idarəsinə uyğun olaraq, bu ərazilərin özünün ayrılmaz tərkib hissəsi olduğunu bildirdi.

ADR-in ərazi bütövlüyü üçün digər təhlükə Cənub-Şərqi Azərbaycan ərazisində rusların və erməni daşnaklarının əli ilə yaradılmış və Muğanda sovet hakimiyyətini qurmağa çalışan oyuncaq qurumun yaradılması oldu. 1919-cu il mayın 15-də Lənkəranda kəndli deputatları Sovetinin qurultayı Sovet hakimiyyətini elan etdi. Lakin 1919-cu il iyulun 16-da Azərbaycan hökuməti ərazi bütövlüyünü bərpa edərək yerli idarəetmə orqanlarının

təşkil olunmasına başladı.

ADR-də hüququn mənbələri Milli Şuranın qərarları, Azərbaycan parlamentinin qanunları, Nazirlər Kabinetinin qanun qüvvəli aktları, qərar və sərəncamları, Bakı Soveti və çar Rusiyası dövründə qəbul edilmiş qanun, qərar, sərəncam və müxtəlif məcəllələrin yeni şəraitə uyğunlaşdırılmış formaları olmuşdur.

Azərbaycan hökuməti torpaq islahatlarına xüsusi diqqət verirdi. O, 1918-ci il iyunun 22-də Zaqafqaziya seyminin torpaq islahatları haqqında qəbul etdiyi qanunun icra olunmasını dayandırdı. Qərara görə, Müəssisələr Məclisi çağırılana qədər torpaq islahatları keçirilmirdi. Qərar verilənə qədər tutulmuş torpaqlar müvafiq strukturlara qaytarılırdı. Əkinçilik Naziri X. Sultanova Müəssisələr Məclisinin müzakirəsinə çıxarılacaq aqrar məsələlərlə bağlı materialları toplamaq, torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi təkliflərini hazırlamaq tapşırıldı.

24 fevral 1919-cu ildə hökumət Əkinçilik Nazirliyində aqrar islahatlar və su təsərrüfatı üzrə şöbənin yaradılması barədə qərar qəbul etdi. Eyni zamanda hökumət aqrar islahatları sürətləndirmək məqsədi ilə həmin ilin iyunun 6-da Əkinçilik Nazirliyinə hərtərəfli yardım göstərilməsi barədə qərar verdi, Əkinçilik Nazirliyinə iyunun sonlarına qədər aqrar layihəni Nazirlər Kabinetinin müzakirəsinə çıxarmaq tapşırığı verildi.

Parlamentin ən böyük fraksiyalarından olan “Müsavat” partiyası aqrar islahatlar “Əsasnaməsi”nin layihəsini hazırlayıb parlamentə təqdim etmişdi. Layihəyə görə hüquqi və fiziki şəxslər üçün müəyyən edilmiş normadan artıq olan torpaq sahələri alınaraq dövlət xəzinəsi fonduna daxil edilirdi.

Torpaqsız və aztorpaqlı oturaq əhaliyə, həmçinin onlara bərabər fiziki və hüquqi şəxslərə dövlət xəzinəsi fondu hesabından müəyyən edilmiş normaya uyğun torpaq ayrılırdı.

Əsasnamənin layihəsində respublikanın maldarlıqla məşğul olan köçəri əhalisinə veriləcək torpaq payları da tənzimlənirdi.

Dövlət tərəfindən normadan artıq torpaq mülkü olan fiziki və hüquqi şəxslərdən kəsilib götürülmüş fonddan torpaqsız və ya aztorpaqlı əhaliyə verilmiş ərazilərin yeraltı sərvətləri (yerin təki) yalnız dövlətə məxsus hesab edilirdi.

Respublikada su ehtiyatlarından istifadə, suvarma sistemləri, qurğular

və s. kimi problemlərin hüquqi nizamlanmasının əsasları yeni qanunvericilik qəbul edilənə qədər əvvəlki qaydada saxlanılırdı. Əsasnaməyə görə respublika əhalisi üçün ayrılan torpaq fonduna həm kənd, həm də şəhərətrafı yaşayış yerlərinin sahələri daxil edilirdi. Şəhər ətrafında yerləşən, lakin şəhər mülkiyyətinə daxil edilməyən torpaqlardan istifadəyə icazə verilirdi.

Torpaq islahatına görə, bu vaxta qədər fiziki və hüquqi şəxslərə məxsus olmuş normadan artıq torpaqlar, həmçinin digər fondlardan kəsilib götürülən və aşağıda göstərilən torpaqlar yenidən bölüşdürülməyərək həmişəlik dövlət xəzinəsinə daxil edilirdi: a) meşələr; b) yaylaqlar və qışlaqlar; c) meliorasiya və digər texniki üsullardan istifadə etməklə qurudulan, habelə yararsız olan torpaqlar; ç) məscid və kilsəyə məxsus vəqf torpaq mülkiyyəti; d) aqrokimyəvi idarələrin istifadəsində olan torpaqlar, həmçinin təhsil müəssisələrinə, mədəni-maarif, xeyriyyə, xəstəxana, hərbi idarələr və digər ümumdövlət əhəmiyyəti kəsb edən ictimai təşkilatlara məxsus torpaqlar; e) dağ-mədən sənayesi üçün istifadə edilən torpaqlar; ə) mineral sular və müalicə əhəmiyyətli torpaqlar (belə ərazilərin sanitariya cəhətdən qorunması üçün və kurort təsərrüfatının yaradılması məqsədilə ətraf ərazilərə məxsus olan torpaqlarla birlikdə); f) təbiət və qoruq abidələrinə daxil olan torpaqlar; g) tarixi və arxeoloji əhəmiyyətli şəhər məskənləri, yaşayış yerləri, qazıntı aparılan sahələr, məscid, kilsə və digər abidələrə yaxın ərazilər, qalalar və onlara bərabər tarixi abidələrin əraziləri, kənd təsərrüfatı təcrübəsi aparmaq və digər ictimai əhəmiyyət kəsb edən torpaqlar.

Fərdi sahibkara məxsus həyətyanı sahələri və bağların aşağıda göstərilən normalardan çox olan hissələri dövlət tərəfindən özgəninkiləşdirilirdi: kənd yerləri üçün 25 desyatindən 75 desyatinə qədər olan bağlar və həyətyanı sahələr, şəhər ərazilərində isə 5 desyatindən 7,5 desyatinə qədər olan sahələr.

Sahibkarlar üçün saxlanılmış torpaqların ölçüləri qəza komissiyaları tərəfindən müəyyən edilir və təsdiq edilmək üçün Əkinçilik Nazirliyi nəzdindəki şuraya göndərilirdi.

Aqrar islahatın həyata keçirilməsi Əkinçilik və Əmlak Nazirliyinə və onların yerlərdə təşkil etdikləri qəza və rayon komissiyalarına həvalə edilirdi. Qəza komissiyaları qəza idarə orqanları tərəfindən, hər kənd cəmiyyətindən iki nəfər olmaq şərtilə, çağırılan qəza yığıncağında seçilmiş 10 nəfərdən ibarət tərkibdə olurdu. Rayon komissiyalarının

tərkibi isə Əkinçilik Nazirliyi tərəfindən müəyyən edilmiş ərazilər üzrə bölüşdürülərək hər birindən bir nəfər olmaq şərtilə kəndlərdən seçilirdi.

Bu komissiyanın tərkibinə rayon üzrə keçirilmiş yığıncaqda seçilən 6 nəfər nümayəndə də daxil edilirdi.

Parlamentin aqrar komissiyasının qərarı ilə Zaqafqaziya Komissarlığının 16 dekabr 1917-ci il tarixli Əsasnaməsində nəzərdə tutulan xəzinə, xanədan, kilsə, monastır, həmçinin hüquqi şəxslər və sahibkarlara məxsus torpaqların torpaq komitələrinə verilməsi və Zaqafqaziya Seyminin 7 mart 1918-ci il tarixli torpaq normalarının müəyyən edilməsi haqqında islahat proqramının icra edilməsi Azərbaycan Respublikası ərazisində dayandırılırdı.

## 3.10. Azərbaycanda vergi və mükəlləfiyyətlər tarixinə ekskurs

Vergilər müəyyən edilmiş qanun çərçivəsində təsərrüfat subyektlərindən və əhalidən dövlət tərəfindən alınan icbari ödənişlərdir. Vergilər dövlətin yarandığı gündən cəmiyyətdə iqtisadi münasibətlərin zəruri həlqəsini təşkil edir. Vergilərin mövcudluğu ilkin ictimai istehlak ilə əlaqədardır. Dövlət quruluşunun inkişafı və dəyişməsi ilə əlaqədar olaraq vergi sistemində də dəyişikliklər baş verir. Müasir sivilizasiyalı cəmiyyətdə vergilər dövlət gəlirlərinin əsas formasını təşkil edir. Vergi mexanizmindən dövlətin cəmiyyətə iqtisadi təsiri üçün istifadə edilir.

Alimlərimizdən Z.M.Bünyadovun, T.T.Mustafazadənin, T.Ə.Əzizovun, A.A.Əlizadənin, R.Məhərrəmovun, R.M.Quliyevin tədqiqat işlərinin materiallarına istinadən tarixi keçmişimizə nəzər salıb, Azərbaycan dövlətinin vergi sistemini və müxtəlif dövrlərdə mövcud olmuş vergi və mükəlləfiyyətlərin dövlət xəzinəsinə və əhalinin həyat səviyyəsinə təsirini təhlil edək.

III-IV əsrin I yarısında bütün Sasani dövlətində olduğu kimi Adurbadaqanda da (Azərbaycan nəzərdə tutulur) əhali sinfi strukturuna görə dörd zümrəyə bölünürdü: 1) kahinlər, 2) döyüşçülər, 3) katiblər, 4) vergiverənlər.

Vergiverənlər zümrəsi özündə bütün zəhmətkeş əhalini- əkinçiləri, sənətkarları, eləcə də ticarətlə məşğul olanları birləşdirirdi. Bütün vergiverən zümrənin başında vastarioşansalar dururdu.

Vergi və mükəlləfiyyətlər içərisində ən mühümü qazidağ, maraq və xaraq idi. I Xosrovun vergi islahatından sonra qazidağ termini "can

vergisi” mənasında işlənilirdi. Əvvəllər, ümumiyyətlə, vergi mənasında olan “xaraq” termini də elə həmin dövrdə (III-IV əsrlər) torpaq vergisinə aid edilirdi.

Vergilərin başçısı olan xarqbed – Sasani dövlətinin idarə aparatında yüksək mövqe tuturdu.

I Xosrovun dövründə üzərinə vergi qoyulmuş torpaqlar siyahıya alınırdı. Torpaq siyahısı hələ Kavadın dövründə tutulmağa başlanmış, oğlu I Xosrovun zamanında başa çatdırılmışdır. Vergi vahidi 1/10 hektara bərabər olan qarilə sayılmağa başladı. Torpaq vergisinin miqdarı əkilən bitkinin xarakterindən asılı olaraq müxtəlif idi. Məsələn, bir qarilə buğda və ya arpa sahəsindən bir drahma, bir qarilə üzümlükdən 8 drahma, bir qarilə qarayonca sahəsindən 7 drahma alınırdı. Dörd xurma palmasından və altı zeytun ağacından isə 1 drahma vergi tutulurdu.

I Xosrovun dövründə əmlakın qədərindən asılı olaraq 20-50 yaşlı kişilərdən 12, 8, 6 və 4 drahma can vergisi müəyyən edilmişdi. Kübar nəsillər, əyanlar, döyüşçülər, katiblər, kahinlər və məmurlar can vergisindən azad idilər. Vergilərin ödənilməsi çətin olduğundan dörd aydan bir, ildə üç dəfə alınırdı. Torpaq və can vergisi ilə yanaşı əhalidən başqa vergilər də tutulurdu.

Yerli feodal cəmiyyəti üzərində hakim mövqe tutan Xilafət üsul idarəsi VII əsrdə ərəblərin işğalı dairəsinə düşmüş bütün becərilən torpaqları müsəlman icmasının mülkiyyəti elan etdi. Bu torpaqlar, əsasən, öz rəiyyətlərinə qarşı münasibətdə bütün hüquq və imtiyazlarını qorumuş əvvəlki sahiblərinin ixtiyarında saxlanılır, ərəblər isə bu sahibkarların müsəlman icması xəzinəsinə (beytülmala) boyun olduqları vergilərlə kifayətlənirdilər.

Əsasən silah gücünə ələ keçirilmiş şimallı-cənublu Azərbaycanın tabe edilmiş əhalisi ilə qarşılıqlı münasibətlər işğalçılarla yerli əhali arasında bağlanmış müqavilələrlə tənzimlənirdi. Hər bir belə müqavilə başqa şərtlərlə yanaşı, birdəfəlik və illik vergilərin ödənilməsi təəhhüdü haqqında maddəni də nəzərdə tutur, yerli əhaliyə məxsus torpaqları onun ixtiyarında saxlayırdı. Zimmi, yəni başqa dinə mənsub yerli adam statusunu qazanmış bu sahibkarlar müsəlman icmasının himayəsində qalır, torpaq vergisi-xəracla yanaşı, qeyri-müsəlmanların verdiyi can vergisi-cizyəni də ödəyirdilər.

Müsəlman qanunvericiliyinə – şəriətə görə cizyə hər il ancaq kişilərdən, özü də onların sənət və ticarətdən əldə etdikləri qazancdan asılı

olaraq alınırdı. Varlılar 48, ortabablar 24, yoxsullar isə 12 dirhəm ödəyirdilər. Əgər can vergisi-cizyə ancaq qeyri-müsəlmanlardan alınırdısa, torpaq vergisi-xərac həm müsəlmanlardan, həm də başqa dinlərə etiqad edənlərdən alınırdı, ancaq qeyri-müsəlmanlar bu vergini ikiqat həcmdə ödəyirdilər.

Xəlifə Huşam dövründə (724-743) ərəblərin Azərbaycan və Arrandakı vergi siyasəti köklü dəyişikliyə məruz qaldı: buradakı Əməvi hakimləri cizyəni xəzinəyə böyük gəlir gətirən vergilərdən biri kimi fərqləndirməyə başladılar.

725-726-cı illərdə Hişamın sərəncamına görə, Azərbaycanda əhali, torpaq, mal-qara və hər cür başqa əmlakın yeni siyahıyaalınması keçirildi. Bu məqsədlə o öz sərkərdəsi Haris ibn Əmri Arrana göndərdi. Moisey Kalankatlının məlumatına görə, ağır vergi qoyulmasına səbəb olan bu yeni siyahıyaalma əhalinin vəziyyətini daha da ağırlaşdırdı.

Bu siyahıyaalmadan sonra tətbiq edilən yeni vergi sistemi vergiverən əhali ilə yanaşı rahiblərdən də vergi alınmasını nəzərdə tuturdu. Əhalinin üzərinə sənətkarlığa, kəbinə görə yeni əlavə vergilər qoyuldu. Ölkənin cənubunda xəlifə II Ömər zamanı ləğv edilmiş əvvəlki Sasani vergiləri ‘‘Novruz və Mihrican hədiyyələri’’ bərpa edildi. Belə vergi sistemi təkcə yoxsulları deyil, hətta bir çox əyan və varlıları da səfalətə düçar etdi.

Əgər Əməvilər dövründə natura ilə ödənc vergilərin mühüm hissəsini təşkil edirdisə, Abbasilər dövründə vergilərin ancaq bir hissəsi natura ilə ödənilirdi. Özü də bu natura içərisində zinət şeyləri və ərəblərdə aztapılan mallar üstünlük təşkil edirdi. Bu sistem II Abbasi xəlifəsi əl-Mənsurun dövründə (754-775) xüsusən geniş tətbiq edilməyə başlanmışdı. Onun dövründə misahə adlanan xərac əkilib-əkilməməsindən asılı olmayaraq torpaq sahəsinə görə pulla, yəni hələ Ömər ibn əl-Xəttabın qoyduğu qaydalar üzrə alınırdı.

Əl-Mənsurun varisi xəlifə əl-Mehdinin dövründə (775-785), onun sərəncamına görə xəracalma sistemi dəyişildi. Misahə xəracı-torpağın sahəsinə görə alınan vergi əvəzinə müqasəmə xəracı-məhsula görə alınan vergi qoyuldu: suvarılan torpaqlardan məhsulun yarısı, *dəliyə* və *kirbə* ilə suvarılan torpaqlardan məhsulun 1/3-i, *duləblə* suvarılan torpaqlardan məhsulun 1/4-i alınırdı. Əl-Mehdinin dövründə meyvə ağaclarına, zeytun və üzüm bağlarına xərac qoyuldu.

Torpaq vergisi və can vergisindən əlavə aşağıdakı vergilər alınırdı: xüms-mülkiyyətdən və əmlakdan alınan, gəlirin 1/5-nə bərabər olan vergi;

zəkat-yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan vergi; zəkat əl-fitr-orucluğun başa çatması münasibətilə verilən pay-fitrə; sədəqə-yoxsullara verilən ianə; uşr-məhsulun 1/10-nə bərabər vergi.

Xüms-pul və ya natura şəklində dinc yolla ələ keçirilmiş əmlakdan, əmək haqqından, mədən və dəfinələrdən, kafir və ya zimminin müsəlmandan satın aldığı torpaqdan, əsirlər də daxil olmaqla hərbi qənimətlərdən alınırdı. Dəyəri ailənin illik xərcindən artıq olan əmlak satın alındıqda və ya müxtəlif peşə sahiblərinin gəlirləri illik məxaricdən çox olanda xüms ödənilməli idi.

Zəkat-ildə bir dəfə alınırdı. Bu vergi dənli bitkilər (düyü və lobyadan başqa), giləmeyvələr, daş-qaş və ev heyvanları üzərinə qoyulurdu. Buğda və arpadan zəkat yetişəndən sonra alınır, üzüm üçün isə qora dövründə müəyyənləşdirilirdi.

Zəkat əl-fitrə-ildə bir dəfə, orucluq ayının başa çatması münasibətilə varlı müsəlman ailəsinin yetkinlik yaşına çatmış hər bir üzvünə görə ödənilirdi. Fitrə məhsul və ya pulla ödənilə bilərdi. Onun qədəri 3 kq buğdaya, arpaya və ya çəltiyə, xurmaya, kişmişə, qarğıdalıya və başqa məhsullara bərabər idi.

Uşr-hər il əkinçilik, heyvandarlıq, balıqçılıq məhsullarından satış üçün nəzərdə tutulan və qiyməti 200 dirhəmdən artıq olan başqa məhsullardan natura ilə alınan vergi növü idi və bu verginin həcmi məhsulun 1/10-nə bərabər idi.

Şirvanda (Bakıda) bunlardan başqa neft və duz mənbələri üzərinə də vergi qoyulmuşdu.

IX-XI əsrlərdə Azərbaycanda feodal münasibətləri inkişaf etmişdi. Torpaq mülkiyyəti forması olan mülk (və ya əmlak torpaqları) xüsusi mülkiyyət olub, onu almaq, satmaq, irs vermək, bağışlamaq, girov qoymaq olurdu. Mülk sahibi (malik) və ya mülkədar dövlətə xərac, yəni yeni torpaq vergisi verirdi.

Dövlətə məxsus, yəni gəliri birbaşa xəzinəyə gələn torpaqlara divani deyilirdi. Bu dövrdə şərti torpaq mülkləri-iqta sistemi inkişaf etməkdə idi. Zaman keçdikcə iqta torpaqları iqtidarların xüsusi mülkiyyətinə çevrildi.

Bu dövrdə icma torpaqları da mövcud idi. İcma torpaqları dövlətin mülkiyyətində idi. Buna görə də həmin torpaqlardan elliklə istifadə edən camaat bunun müqabilində dövlətə torpaq vergisi-xərac verirdi.

Torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi uşr və ya üşur (onda bir), sonralar isə xərac adlanırdı. Xərac toplamaq üçün ayrı-ayrı

adamlara verilən icazə kağızına qəbalə deyilirdi. Xərac toplayan vergi məmurları mütəqəbbil və ya amil, maliyyə müfəttişləri isə mütəsərrif adlanırdılar. Amillər xərracı özbaşına artırırdılar və bəzən məhsulun yarısı kəndlinin əlindən alınırdı. Xərac əvvəllər əsasən məhsulla alınırdı. Azərbaycan kəndliləri X-XI əsrlərdə xəracın müəyyən hissəsini pulla ödəyirdilər. Bu, hələ o zaman Azərbaycanda əmtəə-pul münasibətlərinin inkişaf etdiyini göstərir. IX əsr tarixçiləri Azərbaycandan ildə 4-4,5 milyon dirhəm xərac toplandığını qeyd edirlər.

Xəracdan başqa müsəlman ailəsi öz əmlakına görə nəzir verirdi ki, buna da zəkat və ya sədəqə deyilirdi. Müsəlman olmayan əhalidən can vergisi-cizyə alınırdı.

Böyük Səlcuq imperiyasının yaranması ilə torpaq mülkiyyəti və vergi sistemində ciddi dəyişikliklər baş verdi.

Əhalidən ənənəvi vergilərdən əlavə səlcuq döyüşçüləri üçün silah və şərab tədarük etmək, onların atlarını nallamaq üçün mal-üs-silah, şərab bahası, nal bahası kimi vergi, şəhər sənətkarlarından isə onların hazırladığı sənət məhsullarından pay alınmağa başlandı. Ümumiyyətlə, XI-XIII əsrin əvvəllərində əhalinin müxtəlif təbəqələrinin xərac, üşr, cizyə, haqq, alaf, nüzl, avariz, qismət, təyyarət, dəraib və bir çox başqa vergi, rüsum və mükəlləfiyyətlər ödədiyi məlumdur.

XIII-XIV əsrlərdə Azərbaycan torpaqlarının çox böyük bir qismi monqol hakim dairələrinin əlinə keçmişdi. Elxanın və sülalə üzvlərinin əlində olan torpaqlar ‘‘incu’’ adlanırdı. Bu dövrdə iqta institutu qüvvətlənmişdi. Torpaqların bir hissəsi kənd icmasının ixtiyarında qalırdı. Vergi verilməsində əvvəlki kimi ellik zəmanət mövcud idi.

Monqol zülmü altında olan əhali dövlətə və feodallara 40 cür vergi və rüsum verirdi. Torpaq vergisi “xərac” natura ilə alınırdı və ilk Hülakülər dövründə taxıl məhsulunun 70%-ni təşkil edirdi. Can vergisi “qopçur” adlanırdı. Oturaq əhali bu vergini 1-7 dinaradək pulla, köçərilər isə mal-qara ilə verirdilər. Monqol qoşunlarının saxlanması üçün əhali üzərinə xüsusi vergi-tacar qoyulmuşdu.

Hökmdarlar əhalidən bazar qiymətindən aşağı qiymətə müxtəlif istehlak malları alır və ya tacirləri bazar qiymətlərindən yuxarı qiymətə məhsul almağa məcbur edirdilər. Gömrükxanalarda bac alınırdı. Mövcud vergilər zəhmətkeşlərin gəlirinin 3/4 hissəsini aparırdı.

Vergi toplamaqla ayrıca idarə-divan məşğul olurdu. Divan vergiləri ya dövlət darğaları vasitəsi ilə, ya da vergi yığmaq hüququnu icarəyə

vermək (müqatiə) yolu ilə toplanırdı. Azərbaycanın cənub vilayətlərində toplanan vergi 210 tümənə (1 tümən-10 min dinar), şimal vilayətlərində toplanan vergi isə 54 tümənə çatırdı. Vergi verə bilməyənlərə icbari əmək müəyyən edilirdi.

Xəzinə gəlirinin azalması, kəndlilər arasında qaçqınçılıq və ixtişaşların artması ilə əlaqədar olaraq Keyxatu xan pul islahatı keçirdi: ölkədə kağız pullar tədavülə buraxıldı.

Lakin bu tədbir səmərə vermədi, bazar qiymətləri artdı, ticarət dövriyyəsi azaldı. Qazan xan feodalların hakimiyyətini möhkəmlətmək, dövlət gəlirini artırmaq məqsədilə bir sıra qanunlar verdi. Divan torpaqlarından əkin sahələri irsi iqta hüququ əsasında kəndlilərə paylandı.

Qazan xan vergi sistemini qaydaya salmağa çalışaraq müqatiəni məhdudlaşdırdı. İslahat müəyyən dərəcədə kənd təsərrüfatı istehsalının yüksəlişinə, gəlirin artmasına və onun daha müntəzəm xəzinəyə yığılmasına səbəb oldu.

XV əsrdə Azərbaycanda Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin mövcud olduğu bir dövrdə otuzdan çox adda vergi və mükəlləfiyyət mövcud idi və bu ağır vergi sistemi əhalini əzirdi. Məlcahət (və ya bəhrə) əsas vergi olmuşdu. Uzun Həsənin "Qanunnamə"sinə əsasən bəhrə əldə edilən məhsulun 1/5 hissəsini təşkil edirdi. Kəndlilər istifadə olunmuş suyun müqabilində də bəhrə vergisi ödəyirdilər. Hərbiçilərin, mülki və ruhani vəzifələr tutan şəxslərin xeyrinə toplanan vergilərin məcmusu ixracat adlanırdı. Qeyri-qanuni surətdə, özbaşına toplanan vergilər şiltaqat adlanırdı. Kəndlilər feodal ziyafətlərinin təşkilinin ağırlığını çəkirdilər (şilənbəha, süfəbəha və b. mükəlləfiyyətlər). Yerli inzibati-polis məmurunun (dərucəki), vergiyığan məmurların (mümayizane), ruhani başçıların (rəsm əl-vüzarə) xeyrinə toplanan vergilər mövcud idi. Maldarlardan çobanbəyi vergisi alınırdı. Məcburi bəxşişlər sistemi də mövcud idi. Bu bəxşişlər torpaq sahiblərinə, şahın məmurlarına, xidmətçilərinə verilirdi (düşüllük, novruzi, peşkəş, eydi və s.). Dövlətin və feodalların xeyrinə toplanan vergilər yerinə yetirilməli olan mükəlləfiyyətlər (çərik, tərh, ulaq, ulam, biyar və s.) əhalini müflisləşdirdi.

XVI-XVII əsrlərdə də Azərbaycan kəndlisi müxtəlif vergilər və mükəlləfiyyətlər ödəyirdi. Çobanbəyi, çöl pulu-örüşdə heyvanları otarmaq üçün alınırdı. Dəh-yek (onda bir)-iri feodal torpaqlarından götürülən gəlirlərin 10 faizi alınırdı. Cüftbaşı-torpağı əkib-becərmək üçün bir cüt qoşqu vasitəsi olanlardan alınırdı. Dəzgahbaşı hər bir toxucu dəzgahından

istehsal edilən məhsuldan alınan vergi idi. İxracat – XVI əsrdə ümumi və müxtəlif vergilərin məcmusu mənasında işlənirdi və dövlət canişinlərinin, hərbi xidmətdə olanların və əyanların tələbatını ödəmək üçün alınırdı.

Ot-alafa-yük heyvanları, atlar üçün alınırdı. Ulafa (ərzaq)-bir nəfərin (hərbçi, canişin və s.) yaşaması üçün alınan vergi idi. Bu iki vergi bəzən pulla da alınırdı. Konalqa-əyanların kəndlinin evində düşərgə salmaq hüququ idi. Kəndli əyanı, onu müşayiət edənləri yataqla təmin etməli, yedirtməli, atlarını yemləməli idi. Təyin isə şəhər və kəndlərdə xarici dövlətlərin səfirlərinə və onları müşayiət edənlərə qulluq etmək üçün əhalidən alınan məbləğ idi. Ulaq və ulam-kəndli şah çaparlarının ixtiyarına minik, yük, qoşqu atları verməli idi. I Şah Abbasın əmri ilə alafa, biyar, ulaq, peşkəş, salami, şiltaqat kimi əvvəlcədən nəzərdə tutulmamış, təsadüfi səciyyə daşıyan bütün töycü növləri "ixracat" və "əvazirat"a daxil edilmişdi. Rüsum – dövlət canişinləri və ruhanilər üçün natura ilə alınan vergi idi. Səvari-əhalinin hakim sülalənin üzvlərinə-sərkərdələrə, yeni fəth edilmiş yerlərə gələn tanınmış adamlara (Novruz bayramı münasibətilə) verdiyi hədiyyə idi. O, bəzən novruzi adlanırdı. Tərh dövlətə və feodala məxsus olan malın bazar qiymətindən yuxarı zorla kəndliyə satılması və yaxud, dövlətə və feodala lazımi olan malın bazar qiymətə alınması idi. Dəstəndaz-aşağı səviyyəli dövlət icraedici şəxslərin xidmətinə verilən vergi idi. Başpulu-yetkin kişi cinsinə mənsub şəxslərdən alınırdı. Otaqxərci (həmçinin yurtanə)-hər evdən, hər ailədən alınan vergi idi. Cizyə-xristianlardan alınırdı. Biyar-kəndlinin feodal və ya dövlət üçün zorla, pulsuz işləməsi idi. Bütün ailə üzvləri növbə ilə 2 gündən 6 günə qədər biyara getməli idi. Çərik – döyüşən orduya kənar vilayətlərdən göndərilənlərdən alınırdı. Bunlardan başqa tüstü pulu, alaçıq pulu və s. alınırdı.

XVII əsrdə vergi və mükəlləfiyyətlərin sayı 35-ə çatmışdı. Onların arasında natural səciyyə daşıyanlar üstünlük təşkil edirdi. Ölkədə əmtəə-pul münasibətləri inkişaf edirdi. Dövlət xəzinəsinin müflisləşməsi ilə əlaqədar olaraq vergilərin məbləği kəskin surətdə artırılmışdı.

1699–1702-ci illərdə əhalinin yeni siyahıyaalınması keçirildi. Bu siyahıyaalınma zamanı vergilər 3 dəfə artırıldı.

XVIII əsrin I yarısında vergi və mükəlləfiyyətlərin ağırlığı rəiyyət və elatların boynuna düşürdü. İranda mövcud olan vergilər Azərbaycanda da tətbiq olunurdu: torpaq vergiləri (malcəhət, uşr, çobanbəyi), adambaşına alınan vergi (sərşomari, cizyə), qoşunları saxlamaq üçün (ulufa, sursat,

əsb-e çapar), hərbi qulluq mükəlləfiyyəti (çərik), şah və dövlət məmurlarının xeyrinə toplanan vergi (ruşmat, təhzilat, peşkəş, xərc-e təyin mütəraddin), dövlət və feodallar üçün görüləcək işlər (biyar və əvazir), torpaqbasdı vergisi (rahdari) və s.

Vergilər dövlət xəzinəsini dolduran yeganə mənbə idi. Vergi verməkdən boyun qaçırmasınlar deyə, şah hökuməti 15 yaşına çatmış bütün kişi cinsindən olanları siyahıya alırdı.

XVIII əsrin II yarısında Azərbaycanda xanlıqlar dövründə əsas vergini malcəhət (Naxçıvan və Şirvan xanlıqlarında bu vergi bəhrə adlanırdı) təşkil edirdi. Müxtəlif xanlıqlarda onun həcmi 1/10-lə 1/3 arasında tərəddüd edirdi. Feodallar otlaqlardan istifadə müqabilində rəiyyətdən çopbaşı adlı əlavə vergi alırdılar. Kəndli bağlarından toplanan bağbaşı adlı vergi məhsulun 1/10-ni təşkil edirdi. Kəndlilərdən toypulu da alınırdı. Əgər toy kəndlinin ailəsində olurdusa, onda o, bəyə toyxərci verməli idi. Toy bəyin ailəsində olurdusa, onda bəy kəndlidən toypulu tələb edirdi. Hər bir kəndli həyətindən otaqxərci deyilən vergi də yığılırdı.

Kəndli xanın atları üçün arpa verməli idi. Bu vergi at arpası adlanırdı. Rəiyyət tez-tez öz hesabına xanın muzdlu əsgərlərini də saxlamalı olurdu. Bu mükəlləfiyyət dişkirəsi adlanırdı. Rəiyyətdən həmçinin xan dəftərxanasının və inzibati idarəetmənin digər qurumlarının xərclərini ödəmək üçün mirzəyanə, kələntərlik və digər vergilər toplanırdı. Vergiyığanlar xanın əmrinə əsasən öz xeyirlərinə darğalıq vergisi toplayırdılar.

Mirzə Camal Qarabağ xanlığında vergi və mükəlləfiyyətlər haqqında maraqlı məlumatlar verir. O yazır ki, hər il Novruz bayramında sərkərdələrə xanın adından müxtəlif hədiyyələr-xələtlər, atlar, silahlar bağışlanırdı. Feodallar da bunun müqabilində xana öz adlarına layiq hədiyyələr gətirirdilər. İbrahimxəlil xan səfərdə olarkən və ya hər hansı yerdə düşərgə qurarkən minbaşıların, yüzbaşıların, bəylərin, ağaların əksəriyyəti, bəzi döyüşçülər, katiblər, eşik-ağası, darğalar və yolçular xanın mətbəxindən yemək alırdılar. Çox vaxt xanın mətbəxinin bir günlük xərci onlarla qoyundan, qırx puddan artıq düyüdən və s. ibarət olurdu. Bütün bunlar çoxlu xərc tələb edirdi və əsasən istehsalçıların istismarı hesabına ödənilirdi.

Məhəmmədhəsən xan dövründə Şəki xanlığında ‘‘Dəs ul-əməl’’ adlı qanunlar məcmuəsi tərtib olunmuşdu. Burada bütün vergi və mükəlləfiyyətlər ‘‘tənzimlənirdi’’.

XIX əsrin ortalarında dövlət rəiyyətləri xəzinəyə çoxlu vergi ödəyir

və mükəlləfiyyətlər daşıyırdılar. Bu vergilər içərisində ən geniş yayılanı natura ilə ödənilən vergi idi. Vergi sistemi bir qədər qaydaya salınmışdı: saysız-hesabsız xırda vergilər bir və ya bir-iki vergidə birləşdirilmişdi.

Əyalətlərin əksəriyyətində dövlət vergiləri kəndlər və ya kəndli həyətləri üzrə deyil, sahələr (nahiyələr) üzrə müəyyənləşdirilirdi.

Vergi sistemində ən mühüm dəyişiklik 1819-cu ildə Şəki əyalətində həyata keçirilmişdi. Natural vergilərin yerinə pul vergiləri qoyulmuşdu. Ərzaqla toplanan vergi çoxluq təşkil edirdi.

Vergilərin bölünməsi sistemi və yığılması üsulu bir-birindən fərqlənirdi. Məsələn, Şirvan əyalətində vergilər hər kənd, Qarabağ əyalətində hər kəndli həyəti, Lənkəran əyalətində isə mahallar üzrə təyin olunurdu. Çar hökuməti əvvəlki vergi sistemində də dəyişikliklər və əlavələr etmişdi. Natural vergiləri pul vergiləri əvəz etməyə başladı. Qarabağ və Talış əyalətlərində pul rentasının xüsusi çəkisi artdı. Quba əyalətində ərzaq vergisi üstünlük təşkil edirdi. Bakı əyalətində də kəndlilərin vergiləri xeyli artmışdı.

Dövlət rəncbərləri xəzinə tərəfindən istismara məruz qalırdılar. Talış qəzasında bütün əkərlər ildə hər ailədən gümüş pulla 2 manat zemstvo vergisi ödəməli idilər. Zemstvo mülkiyyətindən əlavə xəzinə hər əkər həyətindən gümüş pulla daha 17 manat 40 qəpik qoparırdı.

XIX əsrin 40-cı illərində feodal vergisi rəiyyətlərdən hər üç formada- işləyib ödəmə, natural və pul formalarında alınır, özü də natural forma üstün mövqe tuturdu.

XIX əsrin əvvəllərində Şimali Azərbaycanda bəy rəiyyətlərinin vergi və mükəlləfiyyətlərinin sayı 35-ə çatırdı. Bu mükəlləfiyyətlərin içərisində ən ağır və zəhmətlisi işləyib ödəmə idi.

Sahibkar rəiyyətlərinin ən geniş yayılmış vergi forması malcəhət, salyana, darğalıq, at arpası və s. idi. Bütün bu mükəlləfiyyətlər natural xarakter daşıyırdı.

Malcəhət kənd təsərrüfatı bitkisi məhsulundan torpaq sahibkarının xeyrinə ayrılan hissədən ibarət idi. O, adətən dənli bitkilər məhsulunun 1/10, pambıq və ipək məhsulunun isə 1/5 hissəsi həcmində toplanırdı.

Darğalığın həcmi çox vaxt məhsulun 20%-dək artırdı.

Sahibkar kəndliləri bəy atlarının yemlənməsi üçün feodallara "at arpası" deyilən daha bir natural mükəlləfiyyət icra etməyə borclu idi. Rəiyyətlərin məhsulunun 20%-ə qədəri at arpasının ödənilməsinə gedirdi.

Rəiyyətlərin pul mükəlləfiyyətləri də (cütbaşı, bağbaşı, toy pulu və

bayramlıq) rəngarəng idi. Cütbaşı – cütə qoşulan öküzlər üçün alınırdı: bağbaşı-meyvə, üzüm və tut bağları üçün yığılan vergi idi; toy pulu – hər toya görə müxtəlif məbləğlərdə alınırdı (məsələn, Şirvan əyalətində hər toydan gümüş pulla 3 manat), bayramlıq-novruz və qurban bayramları günü yığılırdı.

1901-ci ildən qüvvəyə minən yeni torpaq qanunu ilə bütün kateqoriyalar üzrə kəndlilərin dövlət qarşısında mükəlləfiyyətləri müəyyənləşdirildi.

Həmin qanuna əsasən, dövlət kəndliləri özlərinin həmişəlik istifadəsində olan torpaqlarına görə xəzinəyə həyətbaşı (tüstü) adlanan vergi əvəzinə, gəlirin 10-12 %-ni təşkil edən dövlət töycüsü, istifadə etdiyi başqa torpaqlara görə torpaq vergisi, bütün torpaqlara şamil edilən zemski rüsumu ödəməli idi.

Zemski rüsumu əhalinin təhsil, səhiyyə, baytarlıq və s. xərclərini ödəmək məqsədilə alınırdı. Lakin o, əsasən, polisin saxlanmasına sərf edilirdi. Həmin dövrdə, əvvəllər olduğu kimi, sahibkar kəndliləri öz ağalarının xeyrinə bir sıra mükəlləfiyyətlər, o cümlədən, torpaqdan istifadəyə görə məhsulun 1/10 hissəsindən yarısına qədərini təşkil edən malcəhət, yaxud bəhrə, qışlaqda saxlanan heyvana görə ot pulu, alaçıq tikməyə görə tüstü pulu, bağ və tərəvəz yetişdirməyə görə bağ pulu və s. ödəyirdilər. Onlar dövlətə də bir sıra vergilər verirdilər. Yeni qanuna əsasən, vergilər iki qrupda cəmləşdirildi: sahibkar kəndlilərin, həmçinin bəy və mülkədarların bilavasitə istifadəsində olan torpaqlara görə torpaq vergisi; bütün torpaqlara şamil edilən zemski rüsumu (vergisi).

Azərbaycanlı kişilər əsgərliyə çağırılmadıqlarına görə dövlətə hərbi vergi də verirdilər.

XX əsrin əvvəllərində vergilər üç istiqamətdə müəyyənləşdirilmişdi: birbaşa vergilər, dolayı vergilər və rüsumlar. Bunların arasında mədən vergisi, torpaq vergisi, əmlak vergisi xüsusilə fərqlənirdi və büdcə gəlirlərinin çox hissəsini təşkil edirdi.

Dolayı vergilərin, demək olar ki, yarısını gömrük rüsumları və aksizlər təşkil edirdi.

Azərbaycan Cümhuriyyətinin ilk illərində dövlətin maliyyə vəziyyəti çox ağır idi. Siyasi cəhətdən qeyri-sabitlik, işsizlik, manatın alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə əlaqədar olaraq dövlət vergi siyasətinin formalaşmasına yardım edən qanunlar paketi hazırladı. İlk vaxtlar bu

sahədə iş keçmiş Rusiya imperiyasının müvafiq qanunlarına düzəlişlər və əlavələr edilməklə məhdudlaşdırıldı, sonralar isə müxtəlif vergilər haqqında ayrı-ayrı qanunlar qəbul edildi. Bu zaman parlament başlıca olaraq ənənəvi vergi sistemindən istifadə edirdi və xəzinənin ehtiyaclarının ödənilməsində dolayı vergilər-inhisar yığımları, gömrük vergiləri və aksizlər mühüm rol oynayırdılar. Vergilər ağır olduğundan siyasi partiyalar (‘‘Müsavat’’ partiyası başda olmaqla) dolayı vergilərin ləğv edilməsini və mütərəqqi gəlir vergisinin tətbiq edilməsini istəyirdilər. Lakin dövlət büdcəyə əlavə vəsait cəlb etmək məqsədilə dolayı vergiləri saxladı.

1919-cu ilin əvvəllərində dövlət gəliri 600 milyon manat idi ki, bunun da 400 milyon manatı dolayı vergilərin, xüsusilə də neft məhsullarının payına düşürdü.

1919-cu ilin aprelində sonralar dövlətin vergi siyasətinin formalaşmasında əsas rol oynamış ən mühüm qanun da Maliyyə Nazirliyindən daxil olmuşdu. Qanun cəmi 2 bənddən ibarət olsa da, onun böyük əhəmiyyəti var idi, çünki ilk dəfə olaraq bu qanunla kapital vergisinin, müstəqil vergilərdən fərqli olaraq, qəti təyin olunmuş vaxt və tarif dərəcəsi müəyyən edilirdi. Kapital vergisi hər 100 manata 30 manat olmaqla ilin başlanğıcında, ancaq fevralın 1-dən gec olmayaraq ödənilirdi, gəlir vergisi isə ilin sonunda, gəlirin həcmi aydınlaşdıqdan sonra ödənilirdi.

Bu qanunlarla yanaşı, hökumətin tələbi ilə parlament dəfələrlə torpaq vergisinin, spirtli içkilərə, kənd təsərrüfatı məhsullarına, neft məhsullarına qoyulan aksizlərin, tərpənməz əmlak vergisinin və digər tariflərin artırılmasına əl atırdı. Lakin bu dolayı vergi tariflərinin qəbul edilməsi əks nəticəyə gətirib çıxarırdı. Daxili bazarda qiymətlər qalxır, inflyasiya artır və son nəticədə isə əhalinin həyat səviyyəsi aşağı düşürdü.

Müasir formada mövcud olan gəlir vergisi 1805-ci ildən etibarən İngiltərədə, Fransada, Almaniyada, sonralar Rusiyada və Azərbaycanda tətbiq edilmişdir. O zaman bu vergi məcmu illik gəlirdən hesablanırdı və bu zaman hər bir ölkənin spesifik xüsusiyyətləri nəzərə alınırdı.

Verginin bu növündən alınan yüksək gəlirlər XX əsrin əvvəllərində iqtisadi artım ilə müşayiət olunurdu. İllər keçdikcə bu vergi proqressiv xarakter daşıyırdı. Əvvəllər ümumi gəlirin 5-10 %-ni, sonralar isə artaraq 15-50 %-ni təşkil edirdi. Gəlir vergisinin artması birbaşa vergiləri ön plana çəkirdi.

Yeni iqtisadi siyasət dövründə mülkiyyət formasının müxtəlif növləri

və bir sıra iqtisadi qanunlar fəaliyyət göstərirdi ki, bu da vergi sisteminin mövcudluğu üçün ilkin şərtləri yaradırdı. 1920-ci illərin təcrübəsi göstərirdi ki, normal vergiqoyma mülkiyyət formaları arasında münasibətlərdən asılıdır. Vergiqoymanın düzgün təşkili sahələr və müəssisələr arasında kapital axınını tənzimləməli, kapital bazarını formalaşdırmalı idi.

O dövrdə aşağıdakı vergi növləri mövcud idi: kənd təsərrüfatı vergisi, mədən vergisi, gəlir vergisi, təsərrüfat dövriyyəsindən alınan torpaq rentası, varislik rüsumu, aksizlər, gömrük rüsumları və s.

Azərbaycanda SSR-də bir sıra vergilər mövcud olmuşdur: əhalidən alınan gəlir vergisi (1943), subaylardan, tək adamlardan, kiçik ailələrdən alınan vergilər (1944), kənd təsərrüfatı vergisi (1953), tikililərdən alınan vergi, torpaq vergisi, nəqliyyat vasitələri sahiblərindən vergilər, kolxoz bazarlarından birdəfəlik rüsum, gömrük və dövlət rüsumu və s.

Müharibədən sonra əhalidən tutulan vergilərin həcmi nisbətən azaldılmışdı. Hərbi vergi (1946) ləğv edildi və subaylardan alınan vergi azaldıldı.

Sov.İKP-nin XXI qurultayı (1959) vergiyə düşməyən minimum gəlirin və vergi güzəştinin genişləndirilməsində əsas rol oynadı. 1975-ci ildən Azərbaycanda aylıq əmək haqqı 70 manat olan fəhlə və qulluqçulardan vergi tutulmurdu. Aylıq əmək haqqı 71-90 manatadək olan fəhlə və qulluqçulardan tutulan vergi orta hesabla 1/3 qədərdən çox azaldılmışdı.

Dövlət büdcəsinə 1979-cu ildən etibarən aşağıdakı vergilər daxil edilmişdi: dövriyyə vergisi, dövlət müəssisələrinin mənfəətindən vergi, əsas vəsaitlərdən və dövriyyə fondlarından ödənişlər, renta ödənişləri, mənfəətin sərbəst qalığı, kinofilmlərin baxışından alınan gəlirdən vergi, kolxoz və kooperativ təşkilatlarından gəlir vergisi, meşə vergisi, dövlət əmlakının satışından alınan gəlirdən vergi, digər vergilər və rüsumlar.

1991-ci ildə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra öz müstəqil büdcə və vergi siyasətini həyata keçirməyə başlamışdır. Bu dövr ərzində, məlum olduğu kimi, bir çox qanunlar qəbul edilmiş, vergilərin növləri və dərəcələri, dövlət rüsumları müəyyən edilmişdir. Bazar iqtisadiyyatı münasibətlərinin formalaşması ilə əlaqədar olaraq qanunlarda dəyişikliklər edilmiş və son nəticədə ‘‘Vergi məcəlləsi’’ qəbul edilmişdir.

Bu gün müstəqil Azərbaycanda torpaq vergisi torpaq mülkiy-

yətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır.

Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir.

Fiziki şəxslər və müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balları müəyyənləşdirilir.

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələri və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə müəyyən olunan dərəcələr tətbiq olunur.

**Aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir:**

– yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;

– dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Milli Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;

– istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su-fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar;

– dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

Müvafiq orqanlar tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyyə bildirişləri avqustun l-dən gec olmayaraq onlara çatdırılır.

Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir.

Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün son illər əlverişli vergi mühiti yaradılması üzrə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. ‘‘Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında’’ Azərbaycan Respublikasının Qanununa əsasən onlar 1 yanvar 2001-ci ildən 3 il müddətinə əmlak və digər vergilərdən azad edilmişlər və yalnız torpaq vergisi ödəyirdilər. Həmin qanunun müddəti Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2003-cü il tarixli fərmanına əsasən 5 ilədək uzadılmışdır. Bundan başqa, kənd təsərrüfatı istehsalı ilə məşğul olan müəyyən kateqoriyadan olan şəxslərə torpaq vergisi üzrə də güzəştlər edilir.

Azərbaycan Respublikasında fiziki şəxslər əmlak vergisini ödəyərkən, onlara məxsus tikililərin inventarlaşdırılmış dəyərindən vergini hesablayır. Həmin tikililərin altındakı torpaq sahələrinə görə isə ayrıca torpaq vergisi ödəyirlər. Burada onu da qeyd etmək lazımdır ki, binaların və tikililərin inventarlaşdırılmış dəyəri, torpaqların coğrafi yerləşməsi və keyfiyyət qruplarına görə şərti bonitet balları əsasında müəyyənləşdirilən qiymətləri, bir çox hallarda, həmin tikililərin və torpaqların real bazar qiymətlərini əks etdirmir. Bunun nəticəsində də hər il dövlət və bələdiyyə büdcələri xeyli miqdarda vəsait itirirlər.

Səmərəli vergi sisteminin qurulması əhəmiyyətli dərəcədə torpaq

vergisinin düzgün təşkilindən, bu isə, öz növbəsində torpaq sahələrinin dəyərinin düzgün müəyyən edilməsindən, yaxud qiymətləndirilməsindən asılıdır. Torpağın bir neçə səviyyədə düzgün qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. İlk növbədə düzgün qiymətləndirmə torpaq vergisi üzrə büdcəyə daxilolmaların həcminə təsir göstərir. İkincisi, torpağın düzgün qiyməti torpaqla bağlı bazar əməliyyatlarının (alqı-satqı, girov, özəlləşdirmə və s.) düzgün aparılmasına təsir edir. Üçüncüsü isə torpağın qiymətinin düzgün müəyyən edilməsi torpaqdan istifadə üzrə qərarlara və torpaqdan səmərəli istifadəyə əhəmiyyətli təsir göstərir.

Torpağın qiymətləndirilməsinin ümumi müddəaları Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 94-cü maddəsi (Torpağın qiymətləndirilməsi) ilə müəyyənləşdirilmişdir.

Torpaq alınıb satıldıqda, girov qoyulduqda, irsən verildikdə, onun barəsində digər əqdlər bağlandıqda torpağın qiyməti bazar qiyməti ilə, lakin normativ qiymətdən az olmamaq şərti ilə müəyyən edilir.

Torpağın qiymətləndirilməsinin səmərəli sisteminin təşkilindən onun nəticələri bilavasitə asılıdır. Bu məqsədə nail olmaq üçün qiymətləndirmə sisteminə bir sıra tələblər irəli sürülür. İlk növbədə qiymətləndirmə sistemi lazımi səviyyədə planlaşdırılmalı və tənzimlənməlidir. Qiymətləndirmənin ən müasir və uyğun metodları seçilib tətbiq edilməli, səmərəli qiymətləndirmə siyasəti hazırlanmalı, bazarın vəziyyəti daimi izlənilməli və qiymətləndirmənin dəqiq aparılmasına şərait yaradılmalıdır.

Təhlil göstərir ki, Azərbaycan Respublikasında torpaq vergisi üzrə büdcəyə daxilolmalar ildən-ilə artır. Belə ki, 1996-2005-ci ildə daxilolmaların məbləği 11 dəfədən çox artmışdır. Onu da qeyd edək ki, həmin dövr ərzində torpaq vergisi üzrə daxilolmaların artım tempi ümumi vergi daxilolmalarını əhəmiyyətli dərəcədə qabaqlamışdır. Bunun nəticəsində torpaq vergisinin vergi daxilolmalarında xüsusi çəkisi 4-5 dəfə artmışdır. 2005-ci ildə torpaq vergisinin xüsusi çəkisi ümumi vergi daxilolmalarında 0,9 % təşkil etmişdir, halbuki, 1996-cı ildə bu göstərici 0,2 %-ə bərabər idi.

Vergitutma məqsədləri üçün qiymətləndirmə işinin müasir vəziyyətinin öyrənilməsi, torpağın qiymətləndirilməsinin mövcud təcrübəsi göstərir ki, Azərbaycan Respublikasında torpaqların qiymətləndirilməsinin daha yaxşı təşkili və təkmilləşdirilməsi üçün çevik və səmərəli qiymətləndirmə sistemi fəaliyyət göstərməlidir.

## 3.11. İslamda torpaq münasibətləri və onları tənzimləyən şəriət hökmləri

İslamda ictimai münasibətləri, o cümlədən torpaq münasibətlərini tənzimləyən ən ali istinad mənbəyi-Allah-təalanın bəşəriyyət üçün hidayət çırağı olaraq göndərdiyi Qurani-Kərimdir.

Allah-təala bəşər övladını torpaqdan yaratdığını deyir. Belə ki, Qurani-Kərimin Taha surəsinin 55-ci ayəsində oxuyuruq. "Sizi (ulu babanız Adəmi) də ondan (o torpaqdan) yaratdıq. Sizi (öləndən sonra) ora qaytaracaq və (qiyamət günü) bir daha oradan (dirildib) çıxardacağıq". Və ya Ali-İmran (İmran ailəsi) surəsinin 59-cu ayəsində oxuyuruq: ''Allah yanında İsa da (İsanın atasız dünyaya gəlişi də) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona ''Bəşər ol!-dedi, o da oldu''. Yaxud da Əl-Muminun surəsinin 12-ci ayəsində buyrulur: ''Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan nüftədən xəlq etdik)''.

Xəmiri torpaqdan yoğrulmuş insanın torpağı qorumaq, ona qayğı ilə yanaşması, ən müqəddəs varlıq kimi ona səcdə etməsi bəşər övladının Allah-təala qarşısındakı ən böyük borcudur, müqəddəs vəzifəsidir.

Qurani-Kərimin bir çox surələrində, Məhəmməd Peyğəmbərin kəlamlarında torpağın becərilməsi və bir ağacın əkilməsi sadağa və ehsan hesab edilir, ölü və xam torpağı dirildən adamın öz əməyinin haqqını alacağı bildirilir.

Əl-Bəqərə (inək) surəsinin 267-ci ayəsində göstərilir: ''Ey iman gətirənlər! Qazandığınız və Sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin (ən pak, halal və) yaxşılarından (Allah yolunda) sərf edin''. Bu surədə torpaq ən pak, halal nemətlərin mənbəyi kimi təqdim edilir.

Həmin surənin 264-cü ayəsində bəşər övladını düz yola qaytarmaq məqsədilə, malı ilə özünü xalqa göstərmək istəyən insanların halı belə izah olunur: "…üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı (yuyub) aparar və qayanı çılpaq bir daş halına salar…". Əməlisaleh insanlar isə həmin surənin 265-ci ayəsində "…təpənin üstündə olan bir bağa bənzərlər ki, ora düşən bol yağış onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmasa, az bir şəbnəm (şeh də ona kifayət edər)…" və ya buradaca, 266-cı ayədə yazılır: "…içində xurma ağacları, üzümlüklər, (ağaclar) altından arxlar axan və cürbəcür meyvələr olan bir

bağçası olsun…”.

Sözügedən ayələrdə həm eroziyadan (ayə 264), həm yamaclarda ayrı-ayrı torpaq növlərinin səmərəli nisbətlərindən – qayalarda bitkilərin yox, bağların salınmasından (ayə 265), eyni zamanda isti ölkələrdə ağacların suvarılması üçün arxların çəkilməsindən (ayə 266) söhbət gedir.

Qurani-Kərim nazil olandan islam dünyasında torpaq üzərində müxtəlif əqdlərə icazə verilmişdir.

Müasir Azərbaycanın yeni bazar torpaq münasibətləri üçün xarakterik olan torpaq bazarı əqdlərinin formaları islam torpaq münasibətləri üçün də xarakterikdir: torpaq sahələrinin alqı-satqısı (müamilə), torpaq sahəsinin girovu-ipotekası (rəhn), torpaq sahəsinin bağışlanması (vəqf), torpaq sahəsinin vərəsəlik qaydasında başqasına keçməsi (vəsiyyət, irsən), torpaq sahəsinin istifadə və icarə hüquqlarının başqasına keçməsi (ariyə, musaqat, müzariə, icarə).

İslamda torpaq münasibətlərini tənzimləyən şəriət hökmləri bir çox müctehidlər tərəfindən izahlanmışdır. Dərslikdə bu məsələləri tədqiq etmək üçün Ayətullahül-Üzma Hacı Şeyx Məhəmməd Fazil Lənkaraninin Risaləsindən (izahından) istifadə edilmişdir.

**Torpaq icarəsinin** təşkilinə dair şəriət hökmlərinə nəzər salaq.

Şəriət hökmünə görə torpağı icarəyə verən (icarəyəverən) və torpağı icarəyə alan (icarəçi) şəxslər mükəlləf (həddi-buluğa çatmış) və aqil (ağıllı) olmalıdırlar. Torpaq sahibi (icarəyəverən) və ya icarəyə torpaq götürən şəxs sözügedən məsələ ilə bağlı başqasını vəkil tutarsa, bağlanmış müqavilə islamda qanuni sayılır.

Torpaq sahibi (icarəyəverən) “öz torpağımı sənə icarəyə verdim”, icarəçi də “qəbul etdim” desə, icarə siyğəsi (müqaviləsi) baş tutmuş hesab edilir. Danışa bilməyən bir şəxs işarə ilə torpağı icarəyə verməyi, yaxud icarəni qəbul edən icarəni qubul etməyi başa salsa, müqavilə bağlanmış hesab olunur.

İcarəyəverən icarəçiyə torpaqdan yalnız onun özünün istifadə etməsi şərtini bildiribsə, icarəçi torpağı başqasına (subicarəyə) verə bilməz.

Torpaq icarəyə götürən şəxs torpaq sahəsi (mal) haqqında müfəssəl məlumatlara malik olmalıdır:

– torpaq sahəsinin konturları, sərhədləri, sahəsi məlum olmalıdır. İcarəyəverənin “100 ha sahəmdən 20 ha-nı sənə icarəyə verdim” şərti qəbuledilməzdir;

– icarəçi torpaq sahəsini ya görməlidir, ya da icarəyəverən torpaq

haqqında elə müfəssəl izah verməlidir ki, burada heç bir anlaşılmazlıq olmasın;

– icarəyə verilən torpaq sahəsi icarəçinin tələblərinə (icarəyə götürənin təyinatı) məqsədinə uyğun gəlməlidir. Belə ki, əgər məqsəd torpağı əkib-becərməkdirsə, bu torpaq da əkinə yararsızdırsa, onda müqavilə əsassızdır;

– icarəyə verilən torpaq sahəsi təyinat məqsədinə görə istifadə üçün yararlı olmalıdır: sahədə məhsul yetişdirmək üçün suvarma suyunun olması zəruridirsə, deməli bu şərt ödənməlidir, əks təqdirdə müqavilə düzgün deyil;

– icarəyə verilən sahə icarəyə vermək istəyənin ya öz mülkü olmalıdır, ya da buna vəkillik etməyə onun haqqı olmalıdır.

Şəriət icarəyə verilən maldan (torpaqdan) istifadənin 4 şərtini buyurur:

– torpaq halal iş üçün ayrılmalıdır. Əgər torpaq sahəsi narkotik və digər zəhərli və zərərli bitkilər əkmək, şərab emalı və ya saxlamağı üçün obyekt altına verilirsə, bu, islamda haramdır (yolverilməzdir);

– icarəyə torpaqgötürənin torpaq sahəsinə olan mümkün tələbləri ödənməlidir;

– icarəçi tərəfindən torpaqdan istifadənin təyinatı (əkin-biçin üçün, mal-qaranın otarılması üçün və s.) bəyan edilməlidir;

– tərəflər icarənin müddətini müəyyənləşdirməlidir. Adətən icarə müddətinin son həddi məhsul yığımının sonunadək müəyyənləşdirilir.

Vacib şərtlərdən biri də ondan ibarətdir ki, icarə haqqı və onun ödənilməsi qaydaları əvvəlcədən müəyyənləşdirilməlidir.

Təbii ki, torpaq hələ icarəyə verilməyibsə, ona haqq tələb etmək olmaz. Digər tərəfdən, əgər icarəçi müqavilədən sonra torpaq sahəsini təhvil almazsa və ya torpağı icarə müddətinin sonuna qədər əkib-becərməsə belə, o icarə haqqını ödəməyə borcludur.

İcarəyə götürülmüş torpaq sahəsi icarə müddətində icarəçinin səhlənkarlığı üzündən deyil, ondan asılı olmayan səbəblərdən (təbii fəlakət-daşqın, uçqun və s.) yararsız hala düşərsə, bunun üçün icarəçi heç bir məsuliyyət daşımır. Digər tərəfdən icarəçinin səhvi üzündən korlanmış (suvarmanın düzgün aparılmaması, torpağın çirklənməsi, torpağın keyfiyyətinin aşağı düşməsi və s.) torpaq sahəsinə görə şəriət icarəçinin məsuliyyətli olduğunu göstərir.

Əgər icarə müddətinin başlanğıcına kimi torpaq sahəsi təyinat

məqsədinə görə istifadəyə yararsız hala düşərsə, yaxud şərtləşdikləri kimi istifadə edilə bilməyən tərzdə korlanarsa, torpaq sahəsinə görə icarəçinin əvvəlcədən verdiyi pul geri alınmalıdır.

İslamda torpaq münasibətlərini tənzimləmə üsullarından biri də **müzariədir**.

Müzariə-torpaq sahibi tərəfindən torpaq sahəsinin bir hissəsinin əkinçinin ixtiyarına gələcək məhsulun müqabilində istifadəyə verilməsi halıdır.

**Müzariənin baş tutmasının bir neçə şərti vardır:**

– yerin sahibi əkinçiyə "torpağı sənə həvalə etdim", əkinçi də "qəbul etdim" desin, yaxud heç nə danışmadan yer sahibi torpağı ona təhvil versin, əkinçi də onu təhvil alsın;

– yerin sahibi və əkinçi – hər ikisi mükəlləf (həddi-buluğa çatmış) və aqil olmalı, müzariəni yerinə yetirmək iqtidarında olmalıdırlar;

– bu sahədə yetişdirilən məhsul həm yerin sahibinə, həm də əkinçiyə məxsus olmalıdır;

– məhsul yığımından sonra bu iki tərəfin hər birinin payı muşa şəklində (ümumi məhsuldan) ayrılmalıdır və bu payların bölgü nisbəti əvvəlcədən məlum olmalıdır. Yerin bir hissəsinin məhsulunun bir tərəfə, digər sahənin məhsulunun isə digər tərəfə çatacağı barədə tərəflər qərara gəlsələr müzariə düzgün deyil. Həmçinin əgər mülk sahibi əkinçiyə "bu yerdə əkin ək, hər nə istəsən mənə verərsən" desə – bu halda da müzariə düzgün deyil;

– yerin əkinçinin ixtiyarında olacağı müddət də əvvəlcədən müzariədə tərəflər arasında razılaşdırılmalıdır. Müzariənin axırı adətən məhsul tədarükünün sonu götürülür;

– müzariə obyekti əkin-biçin üçün yararlı olmalıdır;

– əkiləcək kənd təsərrüfatı bitkisinin növü məlum olmalıdır. Əgər bu məmləkətdə yalnız və yalnız hər hansı bir bitki becərilirsə, bu halda bitkinin müzariədə açıqlanmasına ehtiyac yoxdur;

– yerin sahibi hansı torpağı verdiyini, əkinçi isə hansını becərəcəyini bilməlidir, əks təqdirdə müzariə batildir.

Müzariədə həmçinin hər kəsin hansı xərci çəkəcəyi bilinməlidir.

Əgər müzariənin müddəti qurtarsa, amma qeyri-əlverişli təbii şəraitlər (suvarma suyunun azlığı, həddindən artıq quraqlıq, yağıntıların normadan artıq olması və s.) ucbatından məhsulun çox az hissəsi alınıbsa, miqdar qərara uyğun olaraq hər ikisinin malıdır.

Əgər əkinçi ona ayrılmış sahədə heç nə əkməsə və bu sahədən sahib də istifadə etməmiş olsa, onda əkinçi torpaq sahibinə müddətin icarəsini adi qaydada sahibkara ödəməlidir. Əgər əkin əkməmək səbəbindən torpağın keyfiyyətinə zərər və ziyan dəymişsə, əkinçi bunları ödəməlidir.

Əgər məhsul yığılıb müzariə vaxtının tamam olmasından sonra əkilən bitkinin kökləri torpaqda qalıb sonrakı ildə yenə məhsul verərsə, bu halda torpaq sahibi və əkinçi əkini öz mülkiyyətindən xaric olacaq tərzdə boşlamış olsalar, mübah şey hökmündədir (oğurluq olmayan halal hökmündədir). Əgər bütün məhsul və onun kökünün müştərək olmasını qərara almış olsalar, onda bölməlidirlər. Əgər qərarları yalnız birinci ilin məhsulu barəsində olsa, ikinci ilin məhsulu toxum sahibinindir.

İslamda **torpaqların girov qoyulması (rəhn)** məsələsinə də aydınlıq gətirilir. Torpaq girovunun (ipotekasının) məqsədi budur ki, borclu şəxs öz malının bir miqdarını borc aldığı şəxsin sərəncamına verir ki, əgər borcunu vaxtında qaytara bilməsə torpaq borcverənə çatsın.

Torpağı girov qoyan və girov götürən şəxs mükəlləf (həddi-buluğa çatmış), aqil olmalıdır, əqdin bağlanmasına heç bir kəs onları məcbur etməməlidir. Şəriət hökmlərinə görə girov qoyulan şeyin mənfəəti onun sahibinindir.

Girov qoyan və alan şəxs girov qoyulan şeyi (bu halda torpağı) bir-birinin icazəsi olmadan kiminsə mülkünə keçirə bilməz – bağışlaya və yaxud sata bilməz.

Əgər girov müqaviləsinə əsasən borclu tərəf borcu qaytarmalı olduğu vaxt borcunu qaytarmazsa, borc sahibi həmin torpaq sahəsini satıb borcunu götürə bilər, artıq qalanını isə borclu olana qaytara bilər.

İslamda **ariyənin** şərtlərinə də aydınlıq gətirilir. Ariyə budur ki, insan öz malını istifadə etmək üçün başqasına versin, əvəzində də heç nə almasın.

İnsan, mənfəəti özünün olan (məsələn, icarə etdiyi) bir şeyi ariyə verə bilər. Amma, əgər icarədə, təkcə özünün istifadə edəcəyini şərt etsələr, yaxud o yerin camaatı arasında icarə bu mənada başa düşülərsə, başqasına ariyəyə verə bilməz.

Həddi-buluğa çatmamış, aqil olmayan şəxsin öz malını ariyəyə verməsi məqbul deyildir. Amma əgər onların qəyyumu ariyə verməyi məsləhət görsə və bu iş onların məsləhəti ilə olsa, eybi yoxdur. Müfəlləs (borcları mal-dövlətindən çox olan şəxsə deyilir) borclu olduğu şəxslərin icazəsi ilə öz malını ariyəyə verə bilər.

Torpağı ariyəyə götürən şəxsin səhlənkarlığı üzündən deyil, digər səbəblərdən (təbii fəlakət və s.) torpağın münbitliyinə ziyan gələrsə, bu şəxs buna zamin (cavabdeh) deyil. Amma torpağı ariyəyəgötürənin səhvi üzündən ziyan dəyibsə və torpağı ariyəyəgötürən hər bir şeyə görə zamin olması şərti əvvəlcədən şərtləndirilibsə, onda ariyəyə götürülən torpaq sahəsi sahibinə yararlı vəziyyətdə qaytarılmalıdır.

Şəriətdə **musaqat** çoxillik əkmələr (üzümlüklər, bağlar və s.) altında olan torpaq sahələrinin müəyyən mərhələdə şərtlər daxilində digərlərinə həvalə edilməsini nizamlayır.

Əgər bir kəs meyvəsi özünün olan, yaxud onun ixtiyarında olan ağacları müəyyən müddətə qədər becərib su vermək üçün başqasına versə və əvəzində o meyvədən qərar qoyduqlarından muşa qədər (ümumi halda) götürməsi əsasında alver etsə, bu alverə musaqat deyilir.

Musaqat müamiləsi (alveri) söyüd, çinar kimi bar verməyən ağaclar altında olan sahələrdə tətbiq olunmur.

Bağ sahibi və ağacları becərməyi öhdəsinə alan şəxs həddi-buluğa çatmış və aqil olmalıdırlar.

Musaqatın müddəti məlum olmalıdır. Musaqatın əvvəli müəyyən tərzdə təyin edib axırını da həmin ilin meyvələri yetişən vaxta kimi müəyyənləşdirilsə, düzgündür.

Tərəflərə çatacaq pay yetişdiriləcək məhsulun müəyyən nisbətdə bölüşdürülməsi ilə müəyyənləşdirilməlidir (məsələn 3:1, 2:1, 5:2 və s.) Amma torpaq sahibinin “sahədən yığılacaq məhsulun 100 tonu mənim, qalanı qulluq edən, sənin olsun” şərti şəriətdə qədul edilmir.

Musaqat müqaviləsi bağlayan tərəflər bir-birinin razılığı ilə alveri poza bilərlər. Əgər müqavilə şərtlərində müqavilənin birtərəfli qaydada pozulması barədə razılıq varsa da, müsaqatın bir tərəfdən pozulması məqbuldur.

Əgər müsaqat dövründə bağ sahibi ölərsə müsaqat alveri pozulmur, varisləri onun yerinə keçir.

Əgər müsaqat qərarının digər tərəfi – ağacları becərməyi öhdəsinə alan şəxs ölsə, bu halda əqddə onları şəxsən özü becərməsi şərt edilməyibsə varisləri onun yerini tutur.

İslam dini bəşər övladını adil olmağa, saflığa, ədalətliliyə çağırır. Məhz bu baxımdan vergi və mükəlləfiyyətləri müəyyənləşdirən şəriət hökmləri insanlara davranışda insaflı olmağı, hamının yaşamağa Allah tərəfindən müəyyənləşdirilmiş hüququ olduğunu israrla tələb edir. Buna

misal olaraq, İmam Əlinin hökmranlığı zamanında müxtəlif rəhbərlərə tələblərini bariz nümunə kimi göstərmək olar.

İmam Əli Harüsül-Əştər oğlu Maliki Misirə vali təyin etdiyi zaman ona verdiyi Əmrnamədə buyururdu… "vergi işini də araşdır, məmurlarının vəziyyətini sahmana sal, çünki vergi işinin və vergi məmurlarının nizama düşməsi, başqalarının da nizama düşməsi deməkdir… Çünki, insanların hamısı verginin, vergi məmurlarının əhli-əyalıdır. Ancaq vergi toplamaqdan daha çox məmləkətin dirçəlişinə diqqət yetirməlisən. Çünki məmləkət dirçəldikdə vergi yığıla bilər. Məmləkət dirçəlməyincə, abad bir hala düşməyincə vergi istəyən şəhərləri dağıdıb gedər, bəndələri həlak edər. Elə bir buyruq sahibinin işi, idarəsi çox az sürər. Vergiverənlər verginin ağırlığından, yaxud vergi verəcəkləri şeyə bir bəla gəldiyindən, ya da içməli, suvarmalı suların kəsildiyindən, ya da bir bənd uçulub, ərazini su basdığından, yaxud da məhsulun məhv olduğundan şikayət etsələr, vəziyyətlərini düzəldənə qədər vergiləri müəyyən dərəcədə azaltmağın lazımdır… bu yardımla, bu yüngülləşdirmə ilə xalq rifaha qovuşar, ölkə abad olar… xalqı ədalətlə idarə etdiyin üçün onların hörmətini, sevgisini qazanmış olarsan… Elə bir an gələr, elə bir vaxt çatar ki, onlara müraciət etməyin gərək olar. O zaman onlar sənin istəyini canü dildən qəbul edərlər, yerinə yetirərlər. Çünki ölkədə yaranan abadlıq və sərvət, onlara yükləyəcəyin yükü çəkməyə qüvvət verər…"

Zəkatyığan məmurlara əmrnaməsində İmam Əli buyururdu: "…Arzu edirəm ki, xalqı incitməsin, sözlərini rədd etməsin, məmur olduğu işə görə özünü onlardan üstün saymasın. Çünki onlar da din qardaşlarımızdır. Haqları verməkdə isə köməkçilərimizdir… xəyanətin ən böyüyü-ümmətə xəyanət etmək, hiylənin ən pisi – imama hiylə gəlməkdir, vəssalam".

Xəractoplayan məmurlara isə O belə əmr edirdi: "İnsanlarla insaflı rəftar edin. Çünki Siz xalqın xəzinə məmurları, o xəzinənin qoruyucularısınız. Ümmətin vəkillərisiniz, imamın elçilərisizniz".

## 3.12. Azərbaycanda sosialist torpaq münasibətləri və yeni torpaq münasibətlərinin yaranma zəruriliyini şərtləndirən amillər

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan (28 aprel 1920-ci il) sonra İnqilab komitəsinin ilkin dekretlərindən biri "Torpaq haqqında" dekret oldu.

Bu dekretə görə Azərbaycan SSR-in inqilabi hökuməti elan edirdi: "…Azərbaycan Sovet Sosialist Respublikasında şəxsi mülkiyyət həmişəlik ləğv edilir. Xanların, bəylərin, mülkədarların, eləcə də monastır, kilsə, vəqf və məscid torpaqları bütün canlı və cansız inventarı ilə birlikdə heç bir alqı (aşkar və ya gizli) olmadan bərabərləşdirici torpaq istifadəsi əsasında əməkçi xalqa verilir…".

Dekretin həyata keçirilməsi üçün yerlərdə qəza və kənd komitələri yaradılırdı. 5 may 1920-ci il tarixli "Torpaq haqqinda dekret"ə görə nəzərdə tutulurdu ki, "… Dekretin keçirilməsinə maneçilik törədən hər bir kəs əməkçi xalqın açıq düşməni sayılmalı və Azərbaycan SSR qanunlarından kənar elan olunmalıdır".

İnqilab komitəsinin 12 may 1920-ci il tarixli dekretinə görə bütün meşələr, sular və yerin təki Azərbaycan SSR-in sərvəti elan edilirdi. Əhəmiyyətindən asılı olaraq meşələr, sular və yerin təki, təbiətin canlı qüvvələri üzərində sərəncam vermək qəza, quberniya şuralarına və mərkəzi sovet hakimiyyətinə həvalə edilirdi

Bu dekretdən sonra hər hansı şəxs və özəl qurumların yer təkinə olan hüquqları haqqında bütün akt və müqavilələr qüvvəsini itirmiş sayılırdı. Torpaq əmlakına, həmçinin meşələrə, sulara və yerin təkinə girovqoyma və ya başqa əmlak hüququnun müəyyən edilməsi və yaxud keçməsi, həmçinin yuxarıda göstərilən əmlaklara kütləvi hərracların aparılması haqqında sövdələşmələrlə bağlı təhkimçilik və ya digər aktların rəsmiləşdirilməsi qadağan edilirdi.

Torpağın, meşələrin, suların və yer təkinin milliləşdirilməsi ideyalarını tətbiq etmək məqsədilə Azərbaycan İnqilab Komitəsi 1 iyun 1920-ci ildə "Qızıl ordu hissələrində müvəqqəti torpaq komissiyaları haqqında Əsasnamə və onlar tərəfindən 5 və 12 may 1920-ci il Dekretlərinin həyata keçirilməsinə dair təlimatı" təsdiq etdi

Müvəqqəti torpaq komissiyaları Xalq Torpaq Komissarlığının təyinatı ilə inqilab komitələrinin tövsiyəsi nəzərə alınmaqla, ordu siyasi şöbəsinin və yerli sakinlərin nümayəndələrinin kooptasiya olunması hüququ ilə üç şəxs tərkibində yaradılırdı. Müvəqqəti torpaq komissiyasının elanına görə "bütün mülkədar, kilsə, monastır, məscid və vəqf torpaqları bütün canlı və cansız inventarı, kənd təsərrüfatı məhsulları ehtiyatı və bütün təsərrüfat təyinatlı yaşayış və qeyri-yaşayış tikililəri ilə birgə dərhal əməkçi xalqa verilirdi". Çoxillik əkmələrdən ibarət olan (bağlar, üzümlüklər, şitilliklər və s.) mülklər bütün canlı və cansız

inventarı ilə müvəqqəti torpaq komissiyası tərəfindən uçota götürülür və sovet təsərrüfatları təşkil etmək üçün Xalq Torpaq Komissarlığının sərəncamına verilirdi.

Meşələrin siyahıya alınması və qəbul edilməsi üçün müvəqqəti torpaq komissiyalarının tərkibinə yerli meşəbəyilər və torpaq komitələrinin üzvləri cəlb olunurdu.

Sudan istifadəni düzgün normalaşdırmaq və su qurğularını mühafizə etmək üçün komissiya tərəfindən bütün iri su obyektləri (kanallar, kəhrizlər, arxlar) üzərində bir müdirdən və əməkdaşların – cuvarların lazımi sayından ibarət nəzarət təsis edilirdi.

Bu "Əsasnamə"yə görə şəxsi mülklərdən özgəninkiləşdirilmiş torpaqlarda yerləşən və əvvəlki qeyri-əməkçi icarədarlar tərəfindən istehlak-əmək normasından artıq səpilmiş bütün əkin sahələri torpaqsız və aztorpaqlı kəndlilər arasında bölüşdürülürdü.

Azərbaycan SSR hökuməti siyasi, ərzaq və torpaq proqramının həyata keçirilməsi məqsədilə 23 sentyabr 1920-ci il tarixli qərar ilə Azərbaycan İnqilab Komitəsi tərəfindən kəndli yoxsulluq komitələrinin təsis olunması haqqında dekret qəbul edildi. Dekretə görə kənd inqilab komitələri ləğv olunurdu. Kənd yoxsulluq komitəsi ("kombed") öz səlahiyyətləri çərçivəsində ali hakimiyyət orqanı sayılmaqla, onun bütün qərarları sözügedən ərazidə yaşayan əhalinin icraatı üçün məcburi idi.

Kənd yoxsulluq komitələrinin üzvləri seçki yolu ilə təyin edilirdi. Ancaq kəndin yoxsul təbəqəsinə və hər iki cinsdən olan ortabab kəndlilərə mənsub 18 yaşından cavan olmayan və seçki anına sözügedən ərazidə yaşayan şəxslər kənd yoxsulluq komitələrinə seçə və seçilə bilərdilər. Kənd yoxsulluq komitəsinin üzvlərindən biri torpaq işlərinə rəhbərlik edirdi.

Taxıl və digər ərzaq məhsulları artığına malik tanınmış qolçomaqlar, qoçular, ticarət və sənaye müəssisələrinin sahibkarları, daima muzdlu əməkdən yararlanan və zəhmətlə qazanılmamış gəlirlərlə, əmlakdan daxilolmalarla və kapitaldan faizlərlə yaşayan şəxslər, eləcə də keçmiş polis işçiləri, jandarmlar və inqilab məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər kənd yoxsulluq komitələrinin seçkilərinə buraxılmırdılar. Bununla da qolçomaq sinfi sosialist dövlətinin iqtisadi-siyasi həyatından kənarlaşdırılırdı.

27 sentyabr 1920-ci il tarixli "Kənd yoxsulluq komitələri haqqında Əsasnamə" yerquruluşu sahəsində kənd yoxsulluq komitələrinin

vəzifələrini aşağıdakı kimi müəyyən edirdi:

– torpaq şöbələri və Xalq Torpaq Komissarlığının qərarlarına müvafiq olaraq kəndli təsərrüfatlarının, kənd təsərrüfatı artellərinin və torpaqdanistifadənin digər yoldaşlıq formalarının təşkil olunmasına yardım göstərmək;

– sosialist yerquruluşunun və yerquruluşçularına həvalə edilmiş tapşırıqların həyata keçirilməsi üzrə kənd əhalisinin üzərinə düşən natural mükəlləfiyyətin gerçəkləşdirilməsini yerinə yetirmək;

– respublikanın kənd əhalisi tərəfindən yerquruluşu və torpaqdan istifadə məsələləri üzrə qanunçuluğa və sərəncamlara tam riayət olunmasına nəzarət etmək;

– aidiyyəti təşkilatlara torpaq sahələrinin uçota alınmasında yardım göstərmək.

Kənd Yoxsulluq Komitələrinin köməkliyi ilə şəxsi mülkiyyətçilərdən onların torpağa, meşələrə və yerin təkinə olan hüquqlarını təsbit edən planlar və sərhəd sənədləri alınırdı. Əllərində plan və sərhəd sənədləri saxlayan keçmiş mülkiyyətçilər onları dərhal Xalq Torpaq Komissarlığının torpaq şöbəsinə verməyə borclu idi. Eləcə də girovqoyma və yaxud digər hallarda torpağa şəxsi mülkiyyət sənədləri və planları olan müəssisə və şəxslər də onları Xalq Torpaq Komissarlığına təqdim etməli idilər. Dekretin şəxsi mülkiyyətçilərdən plan və sərhəd sənədlərinin götürülməsinə dair tələblərini yerinə yetirməyən şəxslər onlara məxsus olmayan əmlakın mənimsənilməsinə görə məsuliyyətə cəlb olunurdular.

Şəxsi mülkiyyətdə olan torpaqların müsadirə edilməsi və onların bərabərləşdirici əsasda bölüşdürülməsi üzrə işlər çox vaxt qeyri-peşəkar səviyyədə aparılırdı. Bu halın səbəbi mürəkkəb sosial-siyasi şərait, dürüst hüquqi-normativ bazanın olmamağı idi. Torpaqdan istifadə edilməsində mövcud olan xeyli miqdarda nöqsan və çatışmazlıqlar nəinki yuxarıda göstərilən səbəblərlə, həm də geodezik alətlərin, yerölçən kadrların çatışmazlığı və sonuncuların peşəkarlığının aşağı səviyyədə olması ilə şərtlənirdi.

Torpaq haqqında dekretin həyata keçirilməsi məqsədilə Azərbaycan İnqilab Komitəsi Xalq Torpaq Komissarlığı ilə birlikdə 30 sentyabr 1920-ci ildə yerölçən-texniklərin uçotu və səfərbərliyə alınması barədə dekret qəbul etdilər. Bu dekretdə geodeziyaçılara, yerölçənlərə və hərbi topoqraflara, yerölçən köməkçisi vəzifələri tutan yerölçmə işi praktikantlarına, xəritə çəkənlərə və yerölçmə cizgiçilərinə cinsinə fərq

qoyulmadan ən qısa müddətdə Xalq Torpaq Komissarlığının torpaq şöbələrinin yerölçmə-texniki yarımşöbəsində qeydiyyata düşmək təklif olunurdu. Hərbi xidmət keçən şəxslər də qeydiyyata düşməli idilər. Bu dekretə görə bütün yuxarıda qeyd olunan şəxslər ərzaq təminatı sarıdan birinci kateqoriyaya aid olmaq hüququ alırdı.

Azərbaycan SSR-in yerli orqanları mümkün sakit işə zəmanət verən və əlverişli iş şəraiti yaratmağa yardım göstərən bütün tədbirləri görməyə borclu idilər. Bu dekretə görə xidmətə çağırılan və eləcə də xidmətdə olan şəxslər səfərbərliyə alınmış sayılır və vəzifə cinayətinə görə inqilab tribunalının mühakiməsinə verilirdilər.

RSFSR Xalq Torpaq Komissarlığı Azərbaycana respublikada sosialist torpaq münasibətlərinin bərqərar olması məqsədilə xüsusi ədəbiyyatlarla, təlimatlarla, həmçinin mütəxəssislərlə köməklik göstərirdi. Belə ki, 31 avqust 1920-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissarlığı nümayəndələrinin iştirakı ilə RSFSR Xalq Torpaq Komissarlığının müşavirəsində razılaşma əldə edildi. Bu razılaşmaya görə Azərbaycan SSR Xalq Torpaq Komissarlığına onun tabeçiliyində olan işlər üzrə Moskvada nümayəndəliyin açılması məqsədəuyğun sayıldı. Torpaq məsələləri üzrə ümumrusiya qurultayında Azərbaycan Xalq Torpaq Komissarlığı nümayəndələrinin iştirakı da məqsədəuyğun hesab edildi. 10 aqronomun və 20 yerölçən rus mütəxəssislərinin Azərbaycana ezam edilməsi haqqında qərar çıxarıldı. Arzuedənlər olmadıqda göstərilən say Kuban və Don vilayətlərindən səfərbərliyə alınırdı. Rusiyanın ehtiyatında olan geodeziya alətləri Azərbaycana göndərilirdi. Yerli şəraitə uyğun olaraq sosialist yerquruluşuna dair Əsasnamənin tətbiq olunması üzrə təlimatın hazırlanması məqsədilə Azərbaycan Xalq Torpaq Komissarlığına Rusiyadan mütəxəssislər ezam edilirdi.

1920-ci ilin avqust ayında torpaq komitələri nümayəndələrinin qurultayı çağırıldı. Qurultayda bütün Azərbaycan üçün minimal və maksimal torpaq pay norması müəyyənləşdirildi

Belə ki, aşağı suvarılan qurşaqda minimum torpaq pay norması 3/4 desyatin, maksimum isə – 1,5 desyatin, dağətəyi qurşaqda – minimum 1,5 desyatin, maksimum – 3 desyatin; mədəni (becərilən) bağlarda – minimum 3/8 desyatin, maksimum 3/4 desyatin hesablanırdı.

Torpaq komitələri nümayəndələrinin qurultayı torpaq ehtiyatlarının milliləşdirilməsinə dair işlərin vəziyyətini müzakirə edib, qətnamə qəbul etmişdi. Bu qətnamədə ilk növbədə torpaq fondunun torpaqsız kəndlilər

arasında bərabər əsasda paylanması və eləcə də sosialist torpaq-danistifadələrin məkan şəraitlərindəki çatışmazlıqların aradan qaldırılması üçün yerquruluşu işlərinə başlanması nəzərdə tutulurdu. Qurultayın qərarında həmçinin nəzərdə tutulurdu ki, torpaq paylanarkən ilk növbədə torpaqsız və aztorpaqlı əkinçi əhalinin və əkinçilik təsərrüfatına keçmək istəyində olan kommunal cəmiyyətlərin, fəhlələrin ehtiyacları ödənilsin. İkinci növbədə torpaq paylanarkən gəlmə, yəni torpaq haqqında 5 may dekreti dərc olunduqdan sonra gələn əhaliyə pay ayrılırdı. Kəndli və fəhlə mühitindən işçi kadrların hazırlanması məqsədilə qısa müddətli yerölçmə kurslarının açılması qərara alındı.

9 sentyabr 1920-ci ildə Bakı şəhərində bütün Azərbaycan torpaq komitələrinin qurultayı açıldı. Qurultayda ehtiyacı olanların arasında torpağın dərhal bölüşdürülməsi üçün tədbirlər, torpaq mübahisələrinin həlli metodları, suyun bölüşdürülməsi məsələləri, kollektiv təsərrüfatların yaradılması, qaçqın kəndlilərin təsərrüfatlarının yerquruluşu, örüşlər (otlaqlar) haqqında məsələlər və onlarda kollektiv heyvandarlıq təsərrüfatlarının yaradılması, meşədən istifadə və meşələrin mühafizəsi məsələləri müzakirəyə çıxarılmışdı. Qurultay torpaqların paylanması haqqında qərar çıxartdı. Xalq Torpaq Komissarlığının sərəncamında yerölçən-texniklərin yetərincə olmadığı ilə əlaqədar, həmçinin şumlamada gecikməmək üçün sovet təsərrüfatları yaradılmamış keçmiş mülkədar və istifadəsiz dövlət torpaqlarının müvəqqəti olaraq bölüşdürülməsi zəruri sayılırdı. Qurultayın qərarlarında göstərilirdi ki, cəmiyyətin mübahisəsiz sərhədləri çərçivəsində meydana çıxan yerölçmə-bölüşdürmə işləri əsnasında ayrı-ayrı təsərrüfatlar arasındakı mübahisələr birinci instansiyada kəndli-ictimai torpaq komitələri, qəti olaraq isə – qəza torpaq komitələri tərəfindən həll edilir. Cəmiyyətlər arasındakı mübahisələr isə belə hallarda bütün mübahisəyə qoşulmuş tərəflərin torpaqlarını onların bərabərləşdirici əsasda bölüşdürülməsi üçün bir tam kimi qəbul edən xüsusi komissiyalar tərəfindən baxılaraq həll edilirdi.

Azərbaycan SSR-də sosialist ictimai münasibətlərin, o cümlədən də torpaq münasibətlərinin yaranması iqtisadi ehtiyatlar kimi insan ehtiyatlarının, respublika potensialının da məhv edilməsi ilə müşayiət olunurdu.

“Yoldaş kəndlilər, hakimiyyəti əllərinizdə möhkəm saxlayın! Torpaqları parazitlərə-mülkədarlara verməyin!” şüarı altında iri və möhkəm şəxsi mülkiyyətçilik təsərrüfatları ləğv edilir, torpaq sahib-

karlarının torpaq sahələri onlarda yerləşən bütün binalarla və daşınan əmlakla dövlət mülkiyyəti elan olunurdu. O illərdə Azərbaycanın kommunist funksionerləri öz vəzifələrini belə təsəvvür edirdilər: "… hər bir kommunistə aydındır ki, bütün burjuaziya, bütün varlılar əmlak sarıdan tam təmizliyədək məhv edilməlidirlər, yəni onların iqtisadi qüdrəti onlardan alınmalı və ola bilsin ki, onlar indi yox, zaman etibarilə nə vaxtsa vicdanlı insan ola bilsinlər. Nəticə etibarilə onları iqtisadi cəhətdən bərabərləşdirmək lazımdır… Bütün məsələ ondan ibarətdir ki, siyasəti necə aparmalı ki, bütün zərbələr ancaq bu qolçomaqların başına ələnsin" .

Bəylərdən, xanlardan və ağalardan torpaqların müsadirə edilməsi mülkədar sinfinin siyasi cəhətdən ləğv edilməsi ilə yanaşı getməli idi. Torpaq siyasəti sahəsində aşağıdakılar Azərbaycan inqilab komitəsinin vəzifəsi kimi müəyyən edilirdi: keçmişdə mülkədar olmuş xanlardan, bəylərdən, həmçinin bütün digər iri torpaq sahibkarlarından və sovet hakimiyyətinə aşkar müqavimət göstərən qolçomaqlardan nəinki torpaq, eləcə də malikanələr, onlarda olan bütün canlı, cansız inventarlar, ərzaq və pul ehtiyatları bütün daşınan əmlakla birlikdə alınsın. Belə ki, Azərbaycan inqilab komitəsi AK(b)P-in qərarını yerinə yetirərək, ancaq 16 sentyabr 1920-ci il tarixli 113 №-li dekreti ilə Mərdəkan və Şüvəlan kəndlərindəki iyirmi yeddi bağ sahəsini milliləşdirib, onları Xalq Torpaq Komissarlığının sərəncamına verdi.

Sovet hakimiyyəti Azərbaycanda öz mövcudluğunun ilk günlərindən respublikanın təbii-tarixi, sosial-iqtisadi şəraitini nəzərə almamaqla kobud, düzəldilməsi qeyri-mümkün səhvlər buraxır, bunun nəticəsində də təsərrüfat quruluşunun dağılmasına, aclığa və minlərlə insanın repressiyaya məruz qalmasına gətirib çıxarırdı.

Azərbaycanın torpaq komitələrinin qurultayının materiallarında oxuyuruq: "Bütün iri, fərdi mal-qara və qoyunçuluq təsərrüfatları milliləşdirilir və sovet təsərrüfatlarına daxil olurlar. Kiçik mülkiyyətçilərin aşağıda göstərilən normadan artıq qoyun sürüləri və mal-qarasına gəldikdə isə, bu halda beləleri heyvandarlıq kommunalarına, yaxud da sözügedən kəndin ümumi istifadəsinə verilir".

Torpaqların müsadirə edilməsi və bərabərləşdirici əsasda bölüşdürülməsi kasıb və qolçomaq təsərrüfatları arasındakı ziddiyyətləri kəskinləşdirirdi. Torpaqsız və aztorpaqlı kənd sakinləri bütün torpaqların (xanların, bəylərin, ağaların, mülkədarların, monastırların, kilsələrin, vəqflərin, məscidlərin) yenidən bölüşdürülməsində və torpağın istehlak

normasına görə ilk növbədə onlara verilməsində təkid edirdilər.

Qolçomaqlar isə öz növbəsində qoşqu heyvanın, inventarın və digər istehsal vasitələrinin, alətlərin miqdarına görə bölüşdürülməsinə tərəfdar idilər. 1920-ci ilin payızında bu ziddiyyətlər qolçomaqları sovet hakimiyyətinin qatı düşmənlərinə çevirdi. Mülkədar təsərrüfatlarının ləğv edilməsi, dövlət və kollektiv təsərrüfatların tam yerbəyer olmamağı ilə əlaqədar kənd təsərrüfatı məhsullarının əsas tədarükçüsü qolçomaq sinfi idi. Ümumiyyətlə o vaxt qolçomaq sinfi yetərincə güclü siyasi və iqtisadi təsirə malik idi.

Gəlirlərin yenidən bölüşdürülməsinin, yığım proseslərinin tənzimlənməsi məqsədilə Azərbaycanda sovet hakimiyyəti vasitə kimi vergi sistemindən yararlanırdı. Belə ki, vergi siyasətinə münasibətdə AK(b)P-nin V qurultayı göstərir ki, o (vergi siyasəti) fəhlə sinfi ilə kəndlilərin ittifaqının möhkəmləndirilməsi prinsipindən irəli gəlməli və elə aparılmalıdır ki, kənddə vergi tutumunun əsas ağırlığı qolçomaq ünsürlərinin üzərinə düşsün.

1923-cü ilin sentyabrında Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi (Zaq. MİK) və Zaqafqaziya xalq komissarları şurası birlikdə vahid kənd təsərrüfatı vergisi haqqında dekret qəbul etdilər.

Kənd təsərrüfatı sahələrinin ayrı-ayrı növlərinə vergilərin miqdarı onları şərti olaraq zəmiyə çevirdikdən sonra təyin edilirdi. Zaqafqaziyanın müxtəlif respublikalarında, eləcə də respublika daxilində ayrı-ayrı qəzalarda bu əmsallar fərqli idilər. Azərbaycan SSR-də vergilərin miqdarının təyin olunması üzrə rayonlaşdırma respublika vergi komissiyası tərəfindən aparılmış və Xalq Komissarları Şurası və AzMİK tərəfindən təsdiq edilmişdi. Belə ki, Azərbaycanda biçənəklərin desyatini zəmi desyatininin yarısına bərabər tutulurdu. Meyvə bağları və qoz plantasiyalarının bir desyatini iki zəmi desyatininə bərabər götürülürdü. Üzümlüklərin bir desyatini Gəncə, Şamxor, Qazax və Şamaxı qəzalarında üç, qalanlarında isə iki zəmi desyatininə bərabər sayılırdı.

Vergi tutulması pulla olduğu kimi natural şəkildə də ödənilirdi. Pullu tutum rayonlarında vergi qeyd-şərtsiz olaraq müəyyən edilmiş müddətlərdə Xalq Ərzaq Komissarlığı və Xalq Maliyyə Komissarlığı tərəfindən müəyyənləşdirilmiş bir pud buğdanın dəyəri hesabı ilə ödənilməli idi, çünki bütün vergi buğda vahidləri ilə ifadə olunurdu.

Natural vergi rayonlarında vergi ödəyicisinə vergini ya natura ilə və yaxud da pulla, eləcə də sərfəliliyindən asılı olaraq qismən natura ilə,

qismən də pulla ödəmək hüququ verilirdi.

Qolçomaq zümrəsinə təsərrüfat siyasətinin bütün istiqamətləri üzrə edilən basqı ona gətirib çıxartdı ki, əkinçilik rayonlarında istehsal vasitələrinin, xüsusilə də mal-qaranın miqdarı azalmağa başladı. Əmlakın satılması (hərraca qoyulması), əsas istehsal fondlarının pul ifadəsinə, ehtiyatlara və s. keçirilməsi istehsalın kəskin surətdə azalmasına gətirib çıxartdı.

Dövlətin düşünülməmiş vergi siyasəti nəticəsində minlərlə möhkəm ortabab təsərrüfatları dağılaraq müflisləşirdi. Belə ki, 1927-ci ildə bütün kəndli təsərrüfatlarının ümumi sayından 17,3%-i mal-qarasız, 43,0%-i inventarsız və 15,9%-i səpinsiz qalmışdı. Kolxoz quruculuğunun vüsət alması ərəfəsində (1927-ci ildə) Azərbaycanda 41,8% yoxsul, 51,4% ortabab və 6,8% qolçomaq təsərrüfatları mövcud idi. O dövrün ən geniş yayılmış səhvi ortabab kəndlilərin qolçomaq zümrəsinə aid edilməsi və onlara məxsus mal-qaranın alınması şəklində onlara qarşı ölçünün tətbiq edilməsi idi.

A. Skaçko AK(b)P-nin II qurultayındakı çıxışında xəbərdarlıq edirdi: "… Öz sərvətləri ilə bölüşməyən və saysız miqdarda bir neçə onlarca üzvlərini dolandıran çoxsaylı ailələri qolçomaqlara aid etmək böyük səhv olardı… Adətən belə ailələr hədsiz dərəcədə varlı, çox güclüdürlər; bunun sayəsində onlar mehriban ailələrdir, birlikdə çalışmış və buna görə də sərvətlərini bir yerdə saxlaya bilmişlər. Onlar böyük miqdarda canlı və cansız inventara malikdirlər, lakin onlar öz əməkləri ilə yaşayaraq, başqalarının muzdlu əməyini istismar etmirlər və buna görə də qolçomaq ailələri siyahısına aid edilə bilməzlər. Belə ailələrin sayı böyük miqdarda olduğuna görə biz onlarla hesablaşmalı və onları qolçomaqların siyahısına salmamalıyıq, çünki onlara dəyən zərbə ortabab kəndlilərə dəymiş zərbə olacaqdır… onlar nəinki ailə, nəinki ideoloji, eləcə də təsərrüfat vahidləridir".

"Aqrar inqilab"ın aparılması nəticəsində 1921-ci ildə ölkədə bütün kənd təsərrüfatı bitkilərinin əkin sahələri 1913-cü ilə nisbətən 361,9 min ha və yaxud 38%, dənli və paxlalı bitkilərin əkin sahələri 264,1 min ha və yaxud 32%, pambıq əkinləri isə 1913-cü ildəki 103,2 min ha-dan 1921-ci ildə qeydə alınan 5,2 min ha-dək azaldı. 1921-ci ildə iribuynuzlu mal-qaranın sayı 1916-cı ilə qarşı 417 min baş və yaxud 30%, qoyun və keçilərin sayı isə 1,3 milyon başdan artıq və yaxud 2 dəfədən çox azaldı.

Respublikada sovet hakimiyyətinin ilk illərində sahələrin səpil-

məməyinin səbəbləri müxtəlif cür izah olunurdu. Ehtimallardan birinə görə bu dini mövhumatla bağlı idi. Belə ki, kəndlilər arasında belə bir fikir mövcud idi ki, şəriət özgənin əmlakını mənimsəməyə qadağa qoyur. Belə baxışları aradan götürmək məqsədilə dövlət xalqın dini etiqad (inanc) yerlərini məhv etməyə, kilsə, vəqf və məscid torpaqlarını zəbt etməyə başladı. Digər bir ehtimala görə şumlanmış torpaqların əkilməməyi onunla izah edilirdi ki, kəndlilər gələcəkdə intiqamdan çəkinərək, bəylərin, ağaların, xanların torpaqlarına yaxın düşmürdülər. Zənnimizlə, ən başlıca səbəb suvarma əkinçiliyinin mühüm komponentlərindən biri sayılan suyun çatışmazlığı idi. Bu vaxta qədər Azərbaycan SSR suvarmanın aşağıdakı mənbələrinə malik idi: iri magistral kanallar – 5000 verst, kiçik suvarma şəbəkəsi – 12000 verst. Bundan əlavə, kəhrizlər – 400 ədəd. Suvarmanın mürəkkəb üsullarından biri istil üsulu idi. Bu üsul Lənkəran rayonunda çəltik sahələrini suvarmaq üçün tətbiq edilirdi. Belə istil (anbar) bütün il ərzində dağ çaylarından 300000 kubmetrədək su yığır və sonra suvarma dövründə ehtiyacına görə bir dəfəyə bir neçə kənd bu sudan istifadə edirdi. Bəylər, xanlar, ağalar üçün su həmişə ola bilərdi, ona görə ki, onların sərəncamında suvurma məntəqələri, kəhrizlər, ən yaxşı su mənbələri və yaxşı suvarılan torpaqlar vardı. Hakimiyyətin proletariatın əlinə keçməsi ilə Kür çayı və onun axmazlarının üzərindəki 126 suvurma məntəqəsi işə salınmamışdı. Vaxtilə isə bu 126 suvurma məntəqəsi 40000 desyatin torpağı suvarmağa qadir idi. Bu baxımdan su məsələsi Azərbaycan hökuməti qarşısında çox kəskin dayanırdı. Məhz buna görə də AK(b)P-nin II qurultayı sudan istifadənin tənzimlənməsi üzrə tövsiyələr hazırlanmasını və suvarılan torpaqların sahəsini mümkün qədər genişləndirməyi Xalq Torpaq Komissarlığının əsas vəzifələrindən biri kimi müəyyənləşdirmişdi.

Əgər Inqilab Komitəsinin düzgün olmayan iqtisadi siyasəti milyon baş miqdarında heyvanların azalmasına gətirib çıxarırdısa, o vaxt bir ata görə insanı ən ağır cəzaya məhkum edirdilər. AzFK-nın 20 sentyabr 1921-ci il tarixli məlumatında yazılırdı: “AzFK-nin kollegiyası özünün 5 və 13 sentyabr tarixli iclaslarında …şəxslərin təqsirləndirilməsinə dair işlərə baxaraq, aşağıdakı qərarı çıxartdı: Samoylov Fyodor Spiridonoviç, 26 yaşlı, Sibir qəzası Penza quberniyasının Polyanı kənd sakini, bitərəf, savadlı, oğurlanmış atı satdığına görə ən ağır cəzaya – güllələnməyə məhkum edilsin”.

İnqilabçı-islahatçılar “dövlət mülkiyyətini belə qoruyurdular”.

Kənddə inqilabi dəyişikliklər kobud səhvlərlə müşayiət olunurdu. Sosialist təsərrüfatlarının təşkil olunmasının qeyri-düzgün fəndləri nəinki qolçomaq-mülkədarların, hətta ortabab kəndlilərin narazılığına gətirib çıxarırdı.

Azərbaycan SSR-də aqrar inqilabın, o cümlədən torpaq dəyişikliklərinin ilk yekunlarını təhlil etməklə, A.Skaçko, AK(b)P-nin II qurultayında çıxış edərək deyirdi: "Qazax qəzası üzrə 1880 desyatin sahəyə malik 10 malikanə (38 məntəqə) qəbul edilib. Alınmış malikanələrdən 1436 desyatin sahəyə malik 3 sovet təsərrüfatı yaradılmışdır. Rəqəmlərə diqqət yetirin. 1880 desyatin alınmış, onun da 1436 desyatini sovet təsərrüfatlarının yaradılmasına sərf edilmişdir. Torpaqsız ortabab kəndlilərə 444 desyatin paylanmışdı. Miqdar, əlbəttə ki, təəccübləndirici dərəcədə azdır. Gəncə qəzasında 85000 desyatin torpağa malik 41 mülk qəbul edilmişdir. Bu miqdardan ancaq 1770-i kəndlilərə verildiyindən, sonuncular faktiki olaraq onların hesabına yaşayır və torpağı becərirdilər. Qərara alındı ki, rusları, erməniləri, tatarları birləşdirmək, onlara sülh şəraitində yaşamağı aşılamaq və millətlərarası düşmənçiliyi yaddan çıxarmaq üçün bütün mülklərdən "beynəlmiləl kənd təsərrüfatı kommunaları" qurulsun. Bu punkt ola bilsin çox gözəldir, lakin o bizə fantastik və çox gülməli görünür: 85000 desyatinədək qoparıb, onun 1500 desyatinini kəndlilərə vermək, 84000 desyatinədək möhkəm sahəni isə beynəlmiləl kənd təsərrüfatı kommunalarına həsr etmək… Akademikliyə, ideallara hədsiz dərəcədə böyük cəhd… Mülkədarlardan qoparılmış mal-qara ilə də uğursuz alındı, onu mülkədarlardan və qolçomaqlardan aldılar, lakin o kəndliyə çatmadı: mal-qara tamamilə sovet müəssisələrinin əlində, sovet təsərrüfatlarının əlində qalırdı və yoxsul kəndlilər də kənarda qalır və ancaq seyr edirdi ki, bu mal-qara mülkədar və qolçomaq əllərindən sovet mülklərinə necə keçir, özləri isə gözlərini döyür və bundan azacıq da olsa mənfəət götürə bilmirdilər. …ona torpaqla öz istədiyi kimi məşğul olmaq hüququ vermək lazımdır. Ayrıca sahə istəyir, qoy ayrıca olsun, icma sahəsi istəyir, qoy icma sahəsi olsun… həyatbaşı hüquqla sahəyə malik kəndlini həyat özü kollektiv əməyə gətirib çıxaracaqdır. Lakin qoy bunu həyat özü etsin…".

Yeni iqtisadi siyasət ("NEP") gerçəkliyi şəraitində ənənəvi kəndli təsəvvür və normaları yeni ictimai ideologiya ilə qarşı-qarşıya gəlirdi. Torpağın milliləşdirilməsi kənd yerlərində torpaq nizam-intizamına dövlət təsirinin imkanlarını xeyli dərəcədə genişləndirdi. Yerquruluşu aşkar ifadə

olunmuş sinfi xarakter daşıyırdı. Torpaq siyasətində "keyfiyyətinə və torpağın yerləşməsinə görə yaxşılar – kolxozlara və yoxsullara" prinsipi hökm sürürdü. Möhkəm və iqtisadi cəhətdən səmərəli təsərrüfatlar uzaq və pis torpaqlara sıxışdırılırdı. Yeni iqtisadi siyasət dövründə kəndlinin torpağa münasibəti transformasiyaya uğrayaraq başqa müstəviyə keçirdi. Belə şəraitdə torpaq özü-özlüyündə o qədər yox, nə qədər ki, kəndli təsərrüfatının digər komponentləri, həmçinin də xarici amillər aparıcı rola malik olurdular. Kəndliyə daha çox torpaq gərək idi, lakin torpağa görə ödənilən vergilər kəndlini bu işdən çəkindirirdi.

Torpaq üzərində xüsusi mülkiyyətin ləğvi, eləcə də onun alqı-satqısına, girov qoyulmasına, bağışlanmasına, vəsiyyət edilməsinə və dəyişdirilməsinə yol verilməməyi – bütün bunlar torpağa əsaslı vəsait qoyuluşunu, təsərrüfata isə onun yaxşılaşdırılması və məhsuldarlığının artırılması məqsədilə əmək sərfini daha da əlverişsiz edirdi.

1929-1930-cu illərdən başlayaraq kəndlilərin kütləvi şəkildə kolxozlara qəbul olunması baş verirdi. Kəndli təsərrüfatlarının kollektivləşdirilməsinədək olan dövrdə kənd yerlərində kooperasiyanın müxtəlif növləri və formaları – kredit, təchizat, torpağın birgə becərilməsi üzrə yoldaşlıqlar və s. təşkil olunurdu. 1932-ci ildə, birinci beşilliyin sonunda kolxozlar artıq 50,6% kəndli təsərrüfatlarını və bütün səpin sahəsinin 63,7%-ni birləşdirirdi. 1940-cı ilin sonuna doğru Azərbaycanda kənd təsərrüfatının kollektivləşdirilməsi əsasən başa çatdırıldı.

Sovet təsərrüfatlarının təşkilinin formalaşdırılması ilə əlaqədar iri həcmlərdə yerquruluşu işləri yerinə yetirilirdi. Başdan-başa kollektivləşmə nəticəsində sosialist kənd təsərrüfatı müəssisələrinin ərazilərinin təşkili məqsədilə məzmun və metodlarına görə yeni olan yerquruluşu işlərinin aparılması zərurəti meydana çıxdı. Belə ki, həmin illərdə yerquruluşunun iki yeni növü formalaşırdı: təsərrüfatlararası və təsərrüfatdaxili yerquruluşu. Təsərrüfatlararası yerquruluşunun fəaliyyəti kolxoz və sovxozların yeni torpaqdanistifadələrinin formalaşması, mövcudlarının qaydaya salınması ilə bağlı idi. Təsərrüfatdaxili yerquruluşunun fəaliyyəti isə bu müəssisələrin sərhədləri daxilində ərazinin təşkilinə yönəlmişdi. Yeni yerquruluşunun əsas funksiyası nəinki torpaqların bölüşdürülməsi, eləcə də təsərrüfatçılığın yeni formalarının tələblərinə müvafiq olaraq torpağın istehsal vasitəsi kimi təşkil edilməsi idi. Bu illərdə yerquruluşu texniki, hüquqidən çox, sosial-iqtisadi tədbir xarakteri daşıyırdı.

O dövrdə təsərrüfatlararası yerquruluşuna xüsusi diqqət yetirilirdi. İlk

dəfə olaraq respublikanın bütün ərazisinin irimiqyaslı xəritəyə alınması aparıldı. Kolxoz və sovxozların yaradılmasından sonra bütün təsərrüfatların sahələrinin sərhədləri müəyyən edildi, torpaqdan istifadə hüququna dair dövlət aktları verildi, ilk növbəli əkin layihələri tərtib edildi, torpaqların tədqiqinə və xəritəyəalınmasına dair işlərə başlandı.

Yerquruluşu üzrə işlərin aparılmasının birinci mərhələsi kolxoz və sovxozların ərazilərinin təşkilində çoxlu çatışmazlıqlarla müşayiət olunurdu. Bu çatışmazlıqlar əsasən işlərin irimiqyaslı olması, yerquruluşu elminin istehsalatın yeni tələblərindən geri qalması ilə bağlı idi. Çox vaxt yeni təsərrüfatların əraziləri çoxlu sayda mürəkkəb konfiqurasiyalı səpələnmiş sahələrdən formalaşır, torpaq sahələrinin yerləşməsi, kənd təsərrüfatı bitkilərinin səpin sahələrinin strukturu haqqında çıxarılmış qərarlar heç də həmişə elmi cəhətdən əsaslandırılmış olmurdu. Səpin dövriyyəsi sahələrinin təşkilati-ərazi bölmələrinin sərhədləri naturada bərkidilmirdi. Növbəli əkinlərin tip və növləri aqroiqtisadi əsaslandırma aparılmadan müəyyən edilirdi. Kollektiv təsərrüfatlardan kənarda qalmış kəndlilərin kolxozlara qəbulu onların öz ixtiyar və arzularının sadə işi deyildi. Onlara güclü təzyiq göstərilirdi: iri vergilər alınır, kolxozçular üçün olanlardan daha artıq tədarüketmə normaları müəyyən edilirdi, hərçənd ki, kolxozda mövcud olan normalar onsuz da çox üzücü idi.

Azərbaycan SSR-də torpaq üzərində qurulan yeni təsərrüfatların formaları sosializmin aqrar bölməsini möhkəmləndirmir, əksinə onu tədricən dağıdırdı. Torpaq üzərində ən müxtəlif formalarda iri, simasızlaşdırılmış dövləti istehsal Azərbaycan kəndinin kəndlisizləşdirilməsi ilə nəticələndi. Buna XX əsrin 30-cu illərinin əvvəli – 40-cı illərinin ikinci yarısı minlərlə insanın qırılmasına gətirib çıxaran aclıq rəvac verirdi.

Onilliklər ərzində aqrar bölümünün inkişafına yönəldilmiş xeyli kapital qoyuluşu kənd təsərrüfatı istehsalının hiss ediləcək dərəcədə artımına gətirib çıxarmadı. Əksinə bu vaxt ərzində istehsalın inkişaf səviyyəsi əhali artımından aşağı dururdu.

İstehsalın dövlətləşdirilməsi ideyası aqrar bölmədə ən güclü məğlubiyyətə uğradı. Azərbaycanda istehsalatın dövləti təşkilinin yetmişillik təcrübəsi kəndlinin torpağa bağlanmasının belə üsulunun tarixi perspektivsizliyini isbat etdi. Bu təcrübə özlüyündə kənd təsərrüfatı məhsullarının davamlı artımını təmin edə bilmədi, kollektivləşmə əyintiləri nəticəsində meydana çıxmış ərzaq məhsulları defisitini yaratdı.

1965-ci ildə Sovet İKP MK və SSRİ Nazirlər Soveti aqrar islahatın

aparılması barədə qərar qəbul etdi.

Əvvəlcə bu islahat bir sıra müsbət nəticələr verdi. Kənd təsərrüfatının maliyyələşdirilməsi çoxaldı, sovxoz və kolxozların maddi-texniki bazası möhkəmləndi ki, bunun da nəticəsində kənd təsərrüfatı istehsalının iqtisadi potensialı cüzi də olsa artdı.

XX əsrin 70-ci illərində Sov.İKP-nin aqrar siyasətinin əsas istiqaməti kənd təsərrüfatının intensivləşdirilməsi idi. Dövlət öz əməli fəaliyyətində təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası əsasında istehsalın ixtisaslaşdırılması və təmərküzləşdirilməsi, əsas kənd təsərrüfatı bitkilərinin becərilməsinin kompleks mexanikləşdirilməsi, torpaqların kimyalaşdırılması və meliorasiyası istiqamətini götürmüşdü. Bütün bunlar o vaxtkı yerquruluşunun məzmununu və praktiki işlərin miqyasını müəyyənləşdirirdi. Yerquruluşu sxem və layihələri daha kompleks xarakter alırdı. Bu sxem və layihələrdə aşağıdakılar nəzərdə tutulurdu:

– kənd təsərrüfatı istehsalının ixtisaslaşmasının və təmərküzləşməsinin, təsərrüfatlararası kooperasiyanın və aqrar-sənaye inteqrasiyasının inkişafına, əhalinin məskunlaşmasının təkmilləşdirilməsinə, təsərrüfatlararası təyinatlı obyektlərin yerləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflərin həyata keçirilməsi;

– kənd təsərrüfatı texnikasının tətbiqinin səmərəliliyini təmin edən ərazi şəraitlərinin yaradılması;

– əsas istehsal vasitələrinin (heyvandarlıq kompleks və fermalarının, yolların, meliorasiya obyektlərinin) uzunmüddətli və səmərəli fəaliyyətini təmin etmək məqsədilə əsaslı tikinti obyektlərinin düzgün yerləşdirilməsi;

– müxtəlif təyinatlı kənd təsərrüfatı torpaqlarının tərkibinin optimallaşdırılması, kiçikkonturluluq və adda-buddalıq kimi çatışmazlıqların aradan qaldırılması, ixtisaslaşdırılmış növbəli əkinlər sisteminin tətbiqi, yem istehsalı sisteminin təşkili;

– torpaqların eroziyaya qarşı təşkili və digər təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi.

Respublikanın elm və layihə təşkilatları tərəfindən bütün kənd təsərrüfatı sahələrinin iqtisadi qiymətləndirilməsinə dair böyük işlər görüldü ki, onların da nəticələri kənd təsərrüfatı istehsalının təhlili, planlaşdırılması və təşkili üçün geniş istifadə olunurdu.

Azərbaycanda torpaq xəritələri tərtib edilərək təshih olundu, 3,3 milyon hektar sahədə yeni irimiqyaslı tədqiqat işləri aparıldı.

Azərbaycan Respublikası EA-nın Botanika İnstitutu tərəfindən yem

sahələrinin geobotanik tədqiqi aparıldı. Azərbaycan Dövlət Yerquruluşu Layihə İnstitutu (Azdövyerqurlayihə) AR EA Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə birlikdə 35 əsas əkinçilik rayonlarında torpaqların bonitirovkasına dair işlər apardı. Torpaqların iqtisadi qiymətləndirilməsini aparmaq üçün Azdövyerqurlayihə, EA Coğrafiya İnstitutu, həmçinin AR EA Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə birlikdə respublikanın torpaq fondunun təbii kənd təsərrüfatı kadastr rayonlaşdırılması işlənib hazırlandı. Torpaqların sistemli siyahısı tərtib edildi ki, ona uyğun olaraq respublikada 1585 torpaq növlərini birləşdirən 28 torpaq tipi müəyyənləşdirildi . Qiymətləndirmə vahidləri kimi qəbul edilən 181 torpaq qrupu da ayrıldı. Sonradan qiymətləndirmə vahidi kimi götürülən torpaqların aqroistehsalat qruplaşdırılması aparıldı.

O illərdə rayon planlaşdırması sxeminin daha dəqiq işlənməsi zərurəti meydana çıxdı. Rayon planlaşdırma sxemlərində ərazinin planlaşdırılması, təsərrüfatların ixtisaslaşdırılmasının perspektivləri– inkişafı, kənd təsərrüfatı istehsalının təmərküzləşməsi, ərazi istehsalat birliklərinin yaranması, iri heyvandarlıq komplekslərinin yerləşdirilməsi məsələləri və landşaft formalaşmasının bir sıra məsələləri həll edilirdi.

XX əsrin 70-ci illərində respublikada torpaq ehtiyatlarının mühafizəsi, bütün torpaqlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, bütün nazirlik və idarələr tərəfindən torpaq qanunvericiliyinin tələblərinə riayət olunması sahələrində xeyli iş görüldü.

1970-ci ildə bütün Sovet İttifaqında olduğu kimi Azərbaycanda da kənd təsərrüfatı məhsullarının qiymətləri əvvəlki səviyyədə qaldığı halda yanacaq-sürtgü materiallarına, kənd təsərrüfatı texnikasına, toxuma, gübrəyə və s. qiymətlər xeyli qaldırıldı. Nəticə etibarilə kolxoz və sovxozların əksər hissəsi maliyyə işlərini zərərlə başa vururdular. İslahat baş tutmadı.

1978-ci ildə maddi-texniki vasitələrə qiymətlərin qaldırılmasından sonra, yenə də qiymətlərin dispariteti kəskin şəkildə artdı.

1968-ci ildə SSR İttifaqı və müttəfiq respublikaların torpaq qanunvericiliyinin əsaslari, 1970-ci ildə isə Azərbaycan SSR-in Torpaq məcəlləsi qəbul edildi. Azərbaycan TM-in 124-cü maddəsində deyilirdi: …Kənd yaşayış məntəqələrinin gələcək inkişafı üçün perspektivlilərə aid edilmiş torpaqları digər torpaqlardan yaşayış məntəqələrinin, onların planlaşdırılması və abadlaşdırılması layihələrinə müvafiq olaraq sərhədlərinin müəyyən edilməsi yolu ilə məhdudlaşdırılır. Kənd yaşayış

məntəqələrinin perspektivlilərə aid edilməyən torpaqları digər torpaqlardan təsərrüfatdaxili yerquruluşu qaydasında ayrılır. Tərtib edilmiş bəsirətsiz sxem və layihələr yüzlərlə kəndi "perspektivsiz" elan edir və onlarda həyat dayanırdı.

Min hektarlarla yararlı torpaqlar becərilmir, məskunlaşdırılmırdı. Bunun nəticəsində SSRİ-də olduğu kimi respublikada da ərzaq böhranı dərinləşməyə başlayırdı.

Ümummilli liderimiz H.Ə. Əliyev cənabları 1969-cu ildə respublikaya rəhbər təyin edildiyi ilk vaxtlardan sosialist iqtisadi münasibətlər çərçivəsində Azərbaycan SSR-nin aqrar-sənaye kompleksinin sürətli inkişafını təmin edən istiqamətləri müəyyənləşdirdi. Bu istiqamətlərdə torpaqların münbitliyini artırmaq, qabaqcıl istehsal texnologiyasını tətbiq etmək, mineral və üzvü gübrələrdən istifadə etmək, torpaqların geniş meliorasiyasını həyata keçirmək, eroziyaya qarşı tədbirlər görmək, bitkilərin xəstəliklərdən, ziyanvericilərdən qorunması sahəsində tədbirlər sistemini həyata keçirmək, məhsul itkisini aradan qaldırmaq, əkin sahələrinin quruluşunu təkmilləşdirmək, torpaq ehtiyatlarına qayğı ilə yanaşmaq, qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq ayrılarkən israfçılığa yol verməmək və sair məsələlər nəzərdə tutulurdu.

Bu illərdən başlayaraq Azərbaycanın iqtisadiyyatı kompleks şəkildə inkişaf etməyə başladı. Həm sənayedə, həm də kənd təsərrüfatında böyük işlərin təməli qoyuldu və uğur uğur dalınca qazanıldı. Uzun illər torpaqdan ayrı düşən adamlara müəyyən sərbəstlik verildi. Torpaqların məhsuldarlığını artırmaq, münbitliyini qorumaq məqsədilə müasir tələblərə cavab verən aqrotexniki metodlardan istifadə edilməyə başlandı. Artıq əhali başa düşürdü ki, torpaq onu sevindirəcək və üstəlik kənd təsərrüfatında yüksək göstəricilər əldə ediləcək və nəhayət, ölkənin ərzaqla təminatında dönüş olacaqdır.

Kənd təsərrüfatının inkişafı ilə əlaqədar tez-tez zona müşavirələri keçirilər, mövcud problemlər yerindəcə həllini tapardı. Doğrudan da keçirilən hər hansı bir tədbir az müddət ərzində səmərə verərdi. Yəni kənd təsərrufatının ayrı-ayrı sahələrində göstəricilər durmadan artardı. Bir sözlə, həmin dövrdə nə etmək mümkün idisə, o da görülürdü.

Şübhəsiz ki, həmin illərdə də əhali ilə torpaq arasında müəyyən sədd qalmaqda davam edirdi. Yəni, adamlar hələ də torpaqdan yalnız istifadə etmək hüququna malik idi. Sərbəst mülkiyyətdən isə danışmaq olmazdı. Bütövlükdə torpaq dövlətin mütləq mülkiyyətində qalırdı. Vahid

idarəetmənin nəticəsi idi ki, hamı Moskvadan verilən göstəriş və tapşırıqları gözləyirdi.

Danılmaz həqiqətdir ki, torpaq dövlət mülkiyyəti kimi lazımi qaydada əkilib becərilir, kifayət qədər məhsuldarlıq əldə edilirdi.

Respublikanın kənd əməkçiləri XI beşillikdə ərzaq proqramının vəzifələrini həyata keçirərək kənd təsərrüfatı məhsulunun bütün əsas növlərinin dövlətə satışına dair planları və sosialist öhdəliklərini vaxtından əvvəl yerinə yetirmişdilər. Sahənin ümumi məhsulunun orta illik həcmi X beşilliyin səviyyəsinə nisbətən 32 faiz artmışdı. XI beşillikdə sahənin ümumi məhsulunun orta illik həcmi 2,7 milyard manat va ya X beşillikdəkindən 353 milyon manat çox olmuşdu. Ət-süd, yeyinti məhsulları, konserv sənayesi sahəsində xalq üçün mallar buraxılışı beşillik ərzində 46,6 faiz artmışdı. Kənd təsərrüfatı üçün yararlı torpaqların hər yüz hektarı hesabı ilə ümumi məhsul çıxımı 31 faiz çoxalmışdı. Quş əti satışı 1985-ci ildə 20,4 min ton olmuşdu ki, bu da 1980-ci ildəkindən 4 dəfə çox idi. Hər hektardan dənli bitkilərin orta illik məhsuldarlığı 25 sentner olmuşdu.

Bütün bu illər ərzində kənd təsərrüfatının, bütün aqrar-sənaye kompleksinin daha da inkişaf etdirilməsi prosesi fəal surətdə davam etmişdi. Buraya milyardlarla manat əsaslı vəsait qoyuluşu yönəldilmiş, 100 min hektarlarla yeni suvarılan torpaqlar istifadəyə verilmiş, geniş miqyasda su təsərrüfatı və meliorasiya qurğuları tikintisi aparılmışdı. Kolxoz və sovxozlarda energetika qurğularının gücü, əməyin fond təchizatı dəfələrlə artırılmışdı.

Başqa sözlə, Azərbaycanın müstəqilliyinin çox da uzaqda olmadığını görən respublika rəhbəri H.Ə.Əliyev cənabları, o rejim çərçivəsində də dövlətimizin iqtisadi infrastrukturlarının inkişafına dair nə etmək mümkün idisə, hamısını edirdi. Əbəs yerə deyildir ki, keçən əsrin 80-ci illərinin sonunda SSRİ dövləti dağılarkən müttəfiq respublikalar içərisində 2 ölkədən məhz biri Azərbaycan idi ki, onun iqtisadi potensialı müstəqilliyini təmin edirdi. (Çox təəssüflər olsun ki, sonradan dağıdıcı qüvvələr ölkənin bu potensialını qısa müddətdə heçə endirdilər).

SSRİ-nin Azərbaycan kimi bir guşəsində sosialist iqtisadi münasibətlərinin çərçivəsini aşaraq ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində müvəffəqiyyətlər qazanılırdısa da, digər respublikalarda yüksək göstəricilər əldə edilmirdi.

Lakin bu nailiyyətlərin hamısı bütövlükdə iqtisadi qanunların

nəticələrindən çox, ayrı-ayrı partiya rəhbərlərinin təşəbbüslərinin, şəxsiyyətlərin fərdi qələbəsinin təcəssümü idi. İlk öncə bu müvəffəqiyyətlərin mərkəzində əməyə, torpağa hörmətdən çox, "partiyaya məhəbbət" dururdu. Çünki, torpaq dövlətinki, partiya isə özününkü idi. On illərlə sovet adamının ideologiyası belə formalaşmışdı. Təbii ki, "partiya gözü"ndən kənarlarda min hektarlarla torpaqlar zəhərlənir, sıradan çıxır, yararsız hala düşürdü. "Nəyin bahasına olursa olsun partiya tapşırığının yerinə yetirilməsi" müddəası torpaqlara normadan yüz dəfələrlə çox zərərli maddələrin verilməsinə, onun nəticəsində isə ekologiyanın tələblərindən çox-çox uzaq olan zəhərli məhsulların istehsalına gətirib çıxarırdı. Bütün bunların nəticəsində ən müqəddəs vəzifəsi bəşəriyyəti yaşatmaq olan torpaq zəhər mənbəyinə çevrilirdi. Belə torpaqlardan qidalanma, həmçinin zəhərlənmiş plantasiyalarda işləmə eybəcər uşaqların doğulmasına, sonsuzluq və digər xəstəliklərin yaranmasına səbəb olurdu. Deməli, sosialist torpaq münasibətləri şəraitində həm hüquqi baxımdan, həm də mənəvi baxımdan torpaq doğmadan çox, ögey idi. Bu günah xalqın, millətin yox, bütövlükdə sosializm quruluşunun günahı idi.

Sosialist torpaq münasibətləri çərçivəsində, yuxarıda qeyd edildiyi kimi, torpaq dövlətin müstəsna mulkiyyəti olduğundan, dilini bilənlərə, qəlbini oxşayanlara yalnız istifadəyə (müddətli və müddətsiz) verilirdi. Belə hüquqi rejim kəndçinin sahibkarlıq, mülkiyyətçilik hüququnu onun əlindən alırdı. Çox vaxt "hər şeyin biliciləri" olan yerli partiya funksionerlərinin "səpini 3 günə qurtar", "yığımı 5 günə başa çatdır" göstərişlərinin yerinə yetirilməsi bu baxımdan labüd olurdu. Bu isə "yetişməmiş" sahələrin səpilməsinə, "dəyməmiş" məhsulun toplanmasına səbəb olurdu. Butün bunlar son nəticədə, ya ilk başlanğıçdan, ya da sonra min bir zəhmət hesabına əldə ediləcək və ya edilmiş məhsulun itkisinə gətirib cıxarırdı.

Bu rejim daxilində torpaqların tam gücündən əksər hallarda istifadə edilmirdi. Buna səbəb elmi cəhətdən əsaslandırılmamış plan-tapşırıqların müəyyənləşdirilməsi idi. Belə ki, azaldılmış plan əmək adamını arxayın saldığından, torpağın potensial gücündən tam istifadə edilmirdi. İstehsal qüvvələrinin inkişaf səviyyəsinə uyğun olmayan, yerinə yetirilməsi reallıqdan uzaq olan plan-tapşırıqların raportu üçün ən müxtəlif üsullar seçilirdi. Bütün bunların nəticəsində insan öz zəhməti muqabilində xoşbəxtçilikdən çox, narahatçılıq tapırdı.

Su ilə təmin ediləcək sahələrin xüsusi mülkiyyətdə olmamağı

üzündən xeyirxah məqsədlər güdən meliorasiya işləri aparılarkən, meliorasiya kanalları çəkilərkən ərazinin landşaft xüsusiyyətləri hərtərəfli nəzərə alınmır, onların çəkilişi zamanı texniki qüsurlara yol verilirdi, son nəticədə bu tədbirlər sistemi torpaqların şoranlaşmasına gətirib çıxarırdı.

Ərazinin kompleks təşkilini təmin edən yerquruluşu layihələrinin tərtibi zamanı layihəyə dair tapşırıq torpaqların real məhsuldarlıq vəziyyətini, onların keyfiyyətini nəzərə almadan tərtib edilirdi. Bu yönüm isə torpaqları halsızlaşdırır, torpağı həddindən artıq kimyalaşdırır, onlardan elmi cəhətdən uzaq olan üsullar tətbiq etməklə məhsul götürulməsinə gətirib çıxarırdı.

Keçmiş SSRİ-də təbiətə hüçum o yerə çatmışdı ki, plan-kartoqrafik materiallar üzərində təbiətdə ekoloji tarazlıq sanki gözlənilirdi (landşaft infrastrukturlarının, elementlərinin nisbəti və s.), lakin reallıq bu nisbətlərdən çox uzaq idi. "Əkin ən qiymətli kənd təsərrüfatı torpağıdır" şüarı altında kəndyanı örüş sahələri əkin, çoxillik əkmələr altına böyük sürətlə transformasiya edilirdi. Bu bir tərəfdən ekoloji cəhətdən sabit ərazilərin saxlanması müddəasına zidd idi, digər tərəfdən heyvandarlıq sahəsinin inkişafını, bütövlukdə isə torpaqlardan səmərəli istifadənin qarşısını alırdı. Xüsusi mulkiyyətçilik şəraitində, problemin kiçik miqyasda həlli kontekstində əlbəttə, belə problemlərin qaydaya salınması çətin deyil.

Sosialist torpaq münasibətlərinin bərqərar olduğu bir mühitdə ən acınacaqlı hallar kənd təsərrüfatı torpaqlarının qeyri-kənd təsərrüfatı məqsədləri üçün ayrılması zamanı müşahidə olunurdu. Torpaqayırma ilə bağlı layihələndirmə işləri bəzən başdansovdu yerinə yetirilir, elmi cəhətdən hərtərəfli əsaslandırılmamış layihə variantları qəbul edilirdi. Həmçinin torpaqayırmada qeyri-kənd təsərrüfatı obyektləri üçün sahələrin normadan artıq ayrılması hallarına da təsadüf edilirdi. Bunlar isə ilbəil əkinə yararlı torpaqların sahələrinin azalması ilə nəticələnirdi.

"Torpağa sonsuz məhəbbət" o həddə çatmışdı ki, 100 ildə çəmi 2 sm münbit qat yaradan torpaqlardan düzgün istifadə edilmədikdə, təqsirkar bir çox hallarda yalnız tənbeh olunur, məzəmmət edilirdi.

Paradoksa fikir verin. Yüz hektarlarla yararlı sahələr becərilmədiyi və ya səpilən bir çox sahələrdən yüksək məhsuldarlıq əldə edilmədiyi bir dövrdə onillərlə zəhmət çəkib topladığı vəsait hesabına tikdirdiyi evi əkinçinin özünəcə "zəbt olunmuş torpaq üzərində tikili" adıyla sökdürürdülər.

Sual olunur, əgər insan dünyaya gəlibsə, yaşaması üçün onun evi, yatacağı olmalıdırsa, niyə kəndli bu tikintinin qeyri-qanuni aparılması yolunu seçməli idi? Çünki, o dövrdəki bürokratizm “torpaq dövlətindir” pərdəsi altında insanları qanunu pozmağa düçar edirdi.

Torpağın müstəsna dövlət inhisarında olmasının bir acı nəticəsi də var idi. Bağından bir alma, yaxud bir qarış torpaq oğurlayıb zəbt eləmək mümkün olmayan kolxoz və sovxoz rəhbərlərinin başçılıq etdikləri təsərrüfatların xırmanlarından tonlarla taxıl, ot, üzüm “oğurlanır”, ictimai torpaqlar zəbt edilirdi.

Torpağın ayrı-ayrı adamlar tərəfindən zəbt edilməsi bir tərəfdən insanın torpağa can atması ilə bağlı olsa da, digər tərəfdən dövrün torpaq qanunlarına zidd idi.

Tarix göstərdi ki, yalnız dövlət inhisarına əsaslanan torpaq münasibətləri şəraitində torpaqlardan tam, dolğun və səmərəli istifadə mümkün deyildir. Bazar iqtisadiyyatına keçid dövründə formalaşan torpaq münasibətləri və yeni təsərrüfatçılıq formaları şəraitində təşəkkul tapan kəndli (fermer) təsərrüfatlarının özəl qurumlarının qısa zaman kəsiyində əldə etdikləri nailiyyətlər bunu əyani sübut etdi. Bəli, torpaqlardan səmərəli istifadə yalnız və yalnız çoxmülkiyyətli təsərrüfatçılıq şəraitində mövcuddur.

1987-ci ildə “Dövlət müəssisələri (birlikləri) haqqında” SSRİ Qanunu qəbul edildi. Bu qanun dövlət müəssisələrinin hüquqlarını, onların təsərrüfat sərbəstliyini kəskin surətdə genişləndirdi. Lakin bu hüquqlar və sərbəstlik sosialist istehsal münasibətləri çərçivələrində hiss ediləcək nəticələr verə biləcək iqtidarda deyildi.

1988-ci ildə “SSRİ-də kooperasiya haqqında” SSRİ Qanunu qəbul edildi. Bu qanun da istənildiyi kimi geniş fəaliyyət göstərə bilmədi. Səbəb həminki idi: xalq təsərrüfatı, qismən də kənd təsərrüfatı idarəçiliyinin sosialist dövlətində mövcud olan inzibati-amirlik sistemi.

Respublikanın ən qabaqcıl təsərrüfatı – İsmayıllı rayonunun Nikitin adına kolxozu (keçmişdə onları “mayaklar” adlandırırdılar) ilə tanışlıq göstərir ki, kolxoz öz torpaqlarından istifadədə müqayisəyəgəlməz dərəcədə sərbəstliyə malik olmuşdur. “Mayak” üçün yaradılan əlahiddə şərait (kənd təsərrüfatı texnikasının bolluğu, yüksək keyfiyyətli elit toxumlarla ilk növbədə təchizolunma, kənd təsərrüfatı məhsullarının növbədənkənar alqısı, sərt (ağır) planların yoxluğu, rəhbər kadrların seçilməsi və təyin olunması üçün əlverişli şərait, dövlət büdcəsi hesabına

təsərrüfatın infrastrukturunun yaxşılaşdırılmasına xüsusi diqqət və s. bu kimi) təsərrüfatın hər bir üzvünə məhsuldar işləmək imkanı verirdi. Yuxarıdan diktata qarşı immunitet onlar tərəfindən qətiyyətli qarşıdurmada əldə edilmişdir, onların sonrakı nailiyyətləri və rəhbərin nüfuzu nisbi müstəqilliyi qoruyub saxlamağa köməklik göstərirdi. Lakin bu subyektiv və obyektiv səbəblərin uğurlu uzlaşması sayəsində istisna idi. Elə buna görə də, özəlləşdirilən torpaqlarda təsərrüfatçılıq formalarının könüllülük əsasında seçilməsinə zəmanət verən "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunu qüvvəyə mindikdən sonra Nikitin adına kolxozun kollektivi təsərrüfatçılığın mövcud formasını seçməyə üstünlük verdi. Təəssüflər olsun ki, Azərbaycanda sovet hakimiyyəti mövcudluğunun 70 ili ərzində belə təsərrüfat yeganəlik təşkil etdi. Bütün bunlar sosialist tipli kənd təsərrüfatı istehsalının təşkil edilməsi sahəsində kommunist ideyalarının məntiqi sonluğu (başa çatması) idi.

**Azərbaycanda sosialist torpaq münasibətlərinin təhlili aşağıdakı nəticələrə gətirir:**

– istehsal vasitəsi kimi torpaq üzərində müstəsna dövlət mülkiyyətinin mövcudluğu, istehsal prosesinin nəticələrinə xüsusi mülkiyyət hüququnun olmamağı istehsalın səmərəliliyinin artımında və torpaqların məhsuldarlığının yüksəldilməsində kənd təsərrüfatı işçilərində iqtisadi maraq doğurmurdu;

– torpağın dövlətin müstəsna mülkiyyətində olduğu və ancaq istifadəyə verildiyi belə şəraitdə, o maddi nemətlərin yaradılmasında layiqli rol oynaya, insan cəmiyyətinin var-dövlət mənbəyinə çevrilə bilməzdi;

– torpaq ehtiyatlarının idarə olunması prosesinin əməli olaraq dövlət hakimiyyətinin yuxarı səviyyələrində mütləq mərkəzləşdirilməsi, yerlərdə torpaqdan istifadənin vəziyyəti üzərində lazımi nəzarətin olmamağı torpaq məhsuldarlığının böyük surətlə aşağı düşməsinə gətirib çıxarırdı;

– dövlətin "insan-cəmiyyət-təbiət" sistemində harmonik inkişafa xidmət edən əsaslandırılmış torpaq siyasəti yox idi;

– yetərincə səlahiyyət sahibi olmayan yerquruluşu xidməti torpaqların səmərəli istifadəsini təşkil etmək, obyektiv monitorinq aparmaq iqtidarında deyildi;

– torpaq münasibətlərini tənzimləyən lazımi mexanizm çatışmırdı, torpaqdan istifadə sahəsində dövlətin, ayrı-ayrı kollektivlərin, vətəndaşların iqtisadi maraqları üst-üstə düşmürdü;

– sosialist torpaq münasibətləri şəraitində torpaqlardan tam, dolğun və səmərəli istifadəyə dair yerquruluşu tədbirləri sisteminin əhəmiyyəti lazımi qədər dəyərləndirilmirdi və onlar həyata keçirilmirdi;

– sosialist istehsal münasibətləri çərçivəsində dövlət tərəfindən torpaqlardan tam, dolğun və səmərəli istifadənin təşkili üzrə tədbirlərin həyata keçirilməsində yerquruluşu layihələndirməsinin əhəmiyyətinin lazımi qədər qiymətləndirilməməsi kənd təsərrüfatı torpaqlarının sahələrinin azalmasına, torpaqların keyfiyyət vəziyyətinin pisləşməsinə, sonda isə onların istehsalat prosesindən təcrid edilməsinə gətirib çıxarırdı.

Bütün bu səbəblər torpaq islahatının aparılmasını, suveren Azərbaycan Respublikasında yeni torpaq münasibətləri və yerquruluşu sisteminin bərqərar olmasını zəruri edirdi.

## 3.13. Müasir müstəqil Azərbaycanda bazar torpaq münasibətlərinin formalaşması və inkişaf qanunauyğunluqları

Xalqımızın ümummilli lideri H.Ə. Əliyev müdriklik göstərib xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra aqrar-sənaye kompleksimizin 80-ci illərdən başlayan tənəzzülü dayandırıldı. H.Ə.Əliyev hakimiyyətinin ilk dövründəcə respublikada bazar iqtisadi münasibətləri çərçivəsində iqtisadiyyatın formalaşdırılması, ölkənin dünya təsərrüfat sisteminə inteqrasiyası istiqamətində "islahatın layihələndirilməsinə dair yanaşmalara" başlandı.

"İslahatın layihələndirilməsinə yanaşma" məfhumu problemin müəyyənləşdirilməsini, fəaliyyət planının tərtibini, qərarların qəbulu və islahatın həyata keçirilməsi üçün strategiyanın hazırlanması kimi fəaliyyət növlərini özündə cəmləşdirir.

Dünya təcrübəsində islahatın layihələndirilməsinə müxtəlif yanaşmalar mövcuddur. Bu yanaşmalar xüsusilə cəmiyyət üzvlərinin baxışlarına istinad dərəcəsinə görə müxtəlifdirlər. Bu müxtəliflik siyasətin müəyyən edilməsi və həyata keçirilməsi prosesinə insani dəyərlərin nə dərəcədə müdaxiləsi ilə səciyyələnir. Müdaxilə dərəcəsi öz növbəsində siyasi faktorlardan asılıdır ki, bununla da islahata yanaşmanın özünəməxsusluğu acıqlanır.

Yanaşmalar həmçinin problemin həlli və baş verən dəyişikliklərə münasibət amilinə görə də fərqlənirlər. Bu fərq passiv münasibətdən – yəni artıq peyda olmuş problemlə mübarizədən və aktiv hərəkətdən-

problemin qarşısını qabaqcadan almaqdan ibarətdir.

Müstəqilliyin ilk illərində (1992-1993) hökumətin islahatlara yanaşması zamanı praktiki olaraq respublikada kənd təsərrüfatı üzrə siyasətin hazırlanmasında və problemlərin həllində insani dəyərlər nəzərə alınmır və ya onlara istinad passivliklə xarakterizə edilirdi. Burada problemin həllinə yanaşma "necə olursa olsun hakimiyyəti saxlamaq" prinsipləri ilə müəyyən olunurdu. İdarəetmə sisteminin nümayəndələri özlərinin əsas vəzifələrini hakimiyyətlərini saxlamaqda görürdülər.

Belə yanaşma şəraitində uzunmüddətli qərarların əhəmiyyəti lazımi qədər qiymətləndirilmir, diqqət əsasən qısamüddətli, cari tələbatlar üzərində cəmləşdirilirdi. Bu cür yanaşma strategiyasının tətbiqinin nəticələrini heç kim əsaslı surətdə təhlil və müzakirə etmirdi. Buna görə də artıq həll olunmuş görünən problemlər yenidən və daha təhlükəli formada meydana çıxırdı.

Bu dövrdə zəif icra hakimiyyəti, mühafizəkar təsərrüfat rəhbərləri, ölkədəki qeyri-sabit siyasət, hökumətin əsaslandırılmış sosial-iqtisadi siyasətinin olmamağı, inzibati-amirlik sistemi üçün xarakterik olan idarəetmə strukturlarının mövcudluğu, fiziki infrastruktura və səriştəsiz qərarqəbuletmə aparatı Azərbaycanda kənd təsərrüfatını durğunluğa və tənəzzülə gətirib çıxartmışdı. Bütövlükdə, hökumətin inzibati-amirlik iqtisadiyyatından azad bazar iqtisadiyyatına keçidi üçün elmi cəhətdən əsaslandırılmış proqramı yox idi. Buna görə də o dövrdə islahata cəhdlər bazar iqtisadiyyatının yaranmasına və iqtisadi artımın bərpa olunmasına köməklik etmirdi.

Ölkə iqtisadiyyatında dövlət sifariş sistemi fəaliyyət göstərirdi. Məlumdur ki, dövlət sifariş sistemi kənd təsərrüfatı əmtəələrinin dövlətə dünya bazar qiymətlərindən ucuz satılmasını tələb edirdi. Eyni zamanda aqrar bölmədə əsas istehsal resurslarının qiymətlərinin liberallaşdırılması (sərbəstləşdirilməsi) həyata keçirilirdi. Bütün bu qərarlar kənd təsərrüfatı sahəsində ''istehsal xərcləri-qiymət'' göstəricisinə xeyli təsir göstərirdi. Belə bir şəraitdə dövlət əvvəllər kənd təsərrüfatına böyük köməklik göstərən subsidiyaların əsas hissəsini ləğv edir, eyni zamanda kənd təsərrüfatı məhsullarının daxili qiymətlərinin dünya bazar qiymətlərindən aşağı düşməsinə şərait yaradır və bununla da ölkənin aqroərzaq kompleksini çıxılmaz vəziyyətə salırdı. Nəticədə ölkədə işsizlər ordusu yaranır, kasıbçılıq artır, əhalinin ərzaq məhsulları ilə təmin edilməsində ölkə getdikcə daha çox çətinliklərlə qarşılaşırdı.

Müstəqilliyin ilk illərində Azərbaycanda kənd təsərrüfatı istehsalının böhranını şərtləndirən səbəbləri aşağıdakı kimi sistemləşdirmək olar.

İlk növbədə siyasi, hüquqi və iqtisadi sahədə fəaliyyət göstərən cəmiyyət qruplarının aşağı peşəkarlıq və səriştəsizlik səviyyəsini göstərmək lazımdır. Bu böhran əhalinin sosial, siyasi baxışlarına, iqtisadi durumlarına, həmçinin formalaşmış dünyagörüşlərinə görə təbəqələşməsi zəminində daha da dərinləşirdi. Bu dövrdə böyük həyat və əmək təcrübəsinə malik olan səriştəli mütəxəssislər keçmiş ideoloji mənsubiyyətlərinə görə idarəcilikdən uzaqlaşdırılırdılar. Başqa sözlə desək, kommunist bolşevikləri tərəfindən sosialist inqilabından sonra yazılan tarix təkrar olunurdu.

İslahatlar başlanan zaman hüquq sahəsində olan kortəbiilik əsas mənfi amilə çevrilmişdi. Qanunvericilik və normativ aktlar, fərmanlar əsaslandırılmamış prinsiplərlə qəbul edilir və bu sənədlər "özfəaliyyət dərnəyinin zay məhsulu" təəssüratı bağışlayırdı. İslahatçılıq ideyaları dövlətin inkişaf mərhələsinin xüsusiyyətlərini nəzərə almırdı. Guya bazar iqtisadiyyatı istiqamətində fəaliyyət göstərən bu hökumətdə dövlət nəzarətinin zəiflədilməsi və şəxsi təşəbbüslərin stimullaşdırılması istiqamətində heç bir hüquqi tədbirlər həyata keçirilmirdi.

Qanunvericilikdə bir çox hallarda qanunauyğunluğa riayət edilmirdi. Qanunvericilik fəaliyyəti hüquqi aktların yaradılmasında tələsikliklərlə, onların məzmunlarının tez-tez dəyişdirilməsi, ciddi qanunçuluq sənədlərinin hazırlanmasına səthi münasibətlərlə xarakterizə olunurdu. Qanunçuluqdakı xaos dövlət hakimiyyətinin qətiyyətsizliyinin, siyasətdəki qeyri-sabitliyin iqtisadi sahədə uyğunsuzluqlarının, mövcud idarəçilik formasının cəmiyyət tərəfindən dərk edilməməyinin ifadəsi idi.

Bu illərdə Azərbaycanda torpaq məsələsi vətəndaşlar və hüquqi şəxslər tərəfindən qanunçuluğun şüurlu surətdə pozulması, qanunvericiliyə zidd olan hüquqi aktların qəbulu ilə müşahidə olunurdu.

Azərbaycan xalqının tələbi ilə Heydər Əlirza oğlu Əliyevin hakimiyyətə gəlişindən sonrakı dövrdə respublikada islahatın layihələndirilməsinə yanaşmanın bir sıra aspektlərini nəzərdən keçirək.

1994-cü ilin sonunda nisbətən sabit siyasi vəziyyətin yaranması hökumətə kənd təsərrüfatı sahəsində islahat üzərində diqqətini cəmləşdirməyə imkan verdi.

Prezident H.Ə. Əliyevin rəhbərliyi altında hazırlanmış müstəqil Azərbaycanın aqrar siyasəti onun gələcək inkişafına və dünya iqtisadi

sisteminə inteqrasiyasına, xarici bazarlara geniş çeşiddə və yüksək keyfiyyətli məhsulların çıxarılmasına imkan verən rəqabət qabiliyyətli iqtisadi sahələrin inkişaf etdirilməsinə yönəldilmişdi. Eyni zamanda ölkə iqtisadiyyatının bütün səviyyəsində balanslaşdırılmış inkişafa nail olmaq, aqrar sahənin bazar münasibətləri prinsipləri əsasında qurulması, kənd təsərrüfatında xüsusi mülkiyyətə əsaslanan iqtisadiyyatın formalaşdırılması ali məqsəd kimi qarşıya qoyulmuşdu.

Aqrar bölmədə istehsal münasibətlərinin islahatı ilk növbələ torpaq münasibətlərinin radikal islahatını nəzərdə tutur.

Azərbaycan Respublikası Prezidentinin 2 mart 1995-ci il tarixli fərmanı ilə sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin islahatını həyata keçirmək məqsədilə Aqrar İslahat üzrə Dövlət Komissiyası yaradılmışdı. Bu komissiya tərəfindən aqrar islahat üzrə dövlət proqramı, təlimatlar, tövsiyələr, qanunların tətbiqi üçün zəruri olan digər sənədlər, dövlət mülkiyyətində saxlanılan obyektlərin siyahısı hazırlanmışdı.

12 noyabr 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası torpaq üzərində dövlət inhisarını ləğv etməklə ölkədə dolğun torpaq islahatı keçirilməsi prosesinin başlanğıcını qoydu.

Müstəqil dövlətin yeni Konstitusiyası (Əsas Qanunu) qəbul edildikdən sonra Azərbaycan Respublikasının iqtisadiyyatında və aqrar-sənaye kompleksində köklü dəyişikliklər baş verməyə başladı. Respublikada aqrar islahatların aparılması əvvəlcədən normativ-hüquqi bazanın – "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" qanunların yaradılması ilə başlandı. Bu qanunçuluq sənədləri əsasında Azərbaycan kəndinin problemləri müvəffəqiyyətlə həll edilirdi. Bu dəyişikliklər kənd təsərrüfatı müəssisələrinin təşkilati-hüquqi və təşkilati-ərazi formalarını, torpaq üzərində mülkiyyət formalarını və torpaq münasibətlərini əhəmiyyətli dərəcədə dəyişdirdi.

16 iyul 1996-cı ildə Azərbaycan Respublikasının "Torpaq islahatı haqqında" qanunu qəbul edildi. Torpaq-su resurslarının məhdudluğu, bir çox təbii-iqtisadi zonalarda əmək resurslarının artıqlığı, ölkə ərazisinin özünəməxsus landşaft xüsusiyyətləri və respublika aqrar-sənaye kompleksinin inkişafının özünəməxsusluğu dövlətin torpaq siyasətinin məqsəd və məzmununu müəyyən etdi. İqtisadi azadlıq və sosial ədalətlilik

prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərinin yaranması, bazar iqtisadiyyatının və sahibkarlıq təşəbbüskarlığının inkişafı, iqtisadi müstəqilliyə, o cümlədən ölkənin ərzaqla təmin olunmasına nail olmaq və son nəticədə Azərbaycan xalqının maddi rifah halının yüksəldilməsi torpaq islahatının əsas məqsədi kimi müəyyən edilmişdi. Torpaq islahatının qarşısında duran vacib məsələ Azərbaycan respublikası ərazisində dövlət torpaqlarının müəyyən edilməsi, torpağın bələdiyyələrə və xüsusi mülkiyyətə verilməsi, mülkiyyətçilərin torpağa sahibolma, istifadə və onun barəsində sərəncamvermə hüquqlarının təmin edilməsindən ibarət idi.

Azərbaycanda torpaq islahatı ərazinin ekoloji-iqtisadi və təbii-tarixi şəraitini, yerli təsərrüfatçılıq formalarının özünəməxsusluğunu, torpağın iqtisadi məhsuldarlığını nəzərə almaqla həyata keçirilmişdir. Torpaqların təyinatına görə istifadə edilməsi, torpaq islahatının elmi cəhətdən əsaslandırılmış yerquruluşu layihələri əsasında həyata keçirilməsi və ətraf mühitin mühafizəsinin təmin edilməsi kimi müddəalar da torpaq islahatının əsas tələblərinə daxil idi.

Torpaq islahatının obyekti Azərbaycan Respublikasının vahid torpaq fondudur. İslahatın əvvəlində ölkənin yerquruluşu orqanları tərəfindən dövlət, bələdiyyə və həmçinin xüsusi mülkiyyətə verilən torpaqların sərhədləri müəyyənləşdirilmişdir.

**“Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinə görə dövlət mülkiyyətində aşağıdakı torpaqlar saxlanılır:**

– dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;

– dövlət obyektlərinin – dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;

– yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

– meşə fondu torpaqları;

– su fondu torpaqları və Xəzər dənizinin (gölünün). Azərbaycan Respublikasına mənsub olan sektorunun altında yerləşən torpaqlar;

– təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət, tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti

qadağan edilmiş qanunla qorunan ərazilərin torpaqları;

– dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;

– dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar və digər torpaqlar.

Göstərilən torpaqlar dövlətin müstəsna mülkiyyətindədir, onlar qanunvericiliklə müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər.

Həmin torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsi qanunla müəyyən edilir.

Dövlət torpaqlarının istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirir.

Ölkədə dövlət kənd təsərrüfatı müəssisələrinin – kolxoz və sovxozların islahatı prosesi praktiki olaraq başa çatmışdır. Dövlətin mülkiyyətində yalnız tətbiqi elmi tədqiqatlarla məşğul olan müəssisələr, damazlıq zavodları, toxumçuluq təsərrüfatları və özəlləşməsi nəzərdə tutulmayan Azərbaycan Kənd Təsərrüfatı Akademiyası və digər tədris müəssisələrinin tədris-təcrübə təsərrüfatları saxlanılmışdır.

Müvafiq inzibati ərazi hüdudlarında dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar müstəsna olmaqla qalan torpaqlar bələdiyyə mülkiyyətinə verilmişdir.

Xüsusi mülkiyyətə vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların altında olan torpaqlar, habelə sovxoz və kolxozların özəlləşdirilən torpaqları aiddir.

Kolxoz və sovxozların daimi istifadə etdikləri torpaqlardan bələdiyyələrin ehtiyat fonduna verilən torpaqlar çıxıldıqdan sonra qalan torpaqlar özəlləşdirmə üçün müəyyənləşdirilmişdir.

İslahat aparılarkən bələdiyyələrin ehtiyat fonduna kolxoz və sovxozların kənd təsərrüfatı üçün yararlı torpaqlarının 5%-dən çox olmayan hissəsi, azyararlı və yararsız torpaqların isə hamısı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli fərmanı ilə aqrar islahatın həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktlar təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş “Sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdiriləcək torpaqlarının keyfiyyəti nəzərə alınmaqla torpaq paylarının müəyyən edilməsi haqqında əsasnamə” torpaq payının ölçülərinin müəyyən edilməsi qaydalarını təsdiq edir. Orta torpaq payı fiziki sahə və torpaq qayiməsi ilə müəyyən olunan torpaq dəyəri formasında hesablanır. Torpaq payının fiziki sahəsi kolxoz və sovxozların özəlləşdirilən torpaqlarının sahəsindən, onun keyfiyyətindən, həmçinin torpaq payı almaq hüququ olan subyektlərin sayından asılı olaraq müəyyən edilir. Pay dövlət yerquruluşu xidməti idarəsi tərəfindən hesablanır. Göstərilən payların bölgüsünü əks etdirən yerquruluşu layihəsi rayon aqrar islahat komissiyası tərəfindən yerli aqrar islahat komissiysı ilə razılaşdırmadan sonra təsdiq olunur.

“Sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin torpaqlarının özəlləşdirilməsi (xüsusi hallar nəzərə alınmaqla ) haqqında əsasnamə” kolxoz və sovxoz torpaqlarının Azərbaycan Respublikasının qanunçuluq aktlarına uyğun özəlləşdirilməsinin qayda və şərtlərini müəyyən edir. Kənd təsərrüfatı müəssisələrinin özəlləşdirilən torpaqları kolxoz və sovxozların daimi istifadəsində yerləşən torpaqlardan bələdiyyələrin ehtiyat fonduna ayrılan torpaqları çıxmaqla müəyyənləşdirilir. Kolxoz və sovxozların özəlləşdirilən torpaqları əkin sahələrindən, çoxillik əkmələr altında yerləşən torpaqlardan, dincə qoyulmuş torpaqlardan və biçənək üçün istifadə olunan torpaqlardan ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 1997-ci il tarixli fərmanı ilə təsdiq olunmuş “Özəlləşdirilən dövlət müəssisələri və obyektləri yerləşən torpaq sahələrinin satış qaydaları haqında əsasnamə” fiziki və hüquqi şəxslərə üzərində özəlləşmə üçün nəzərdə tutulan dövlət müəssisə və obyektləri yerləşən torpaq sahələrinin satış qaydalarını müəyyənləşdirir.

Aqrar islahatların birinci mərhələsində islahatın həyata keçirilməsini təmin etmək üçün müvafiq hüquqi baza yaradılmış, kənd əhalisinə torpaqların, həmçinin sovxoz və kolxozların əmlakının paylanması başa çatdırılmışdır. Lakin 1999-cu ilin başlanğıcından hökumətin hesabatlarında göstərilirdi ki, islahatın dərinləşməsi üçün hələ kifayət qədər tədbirlər həyata keçirilməmiş, aqrar bölmədə mövcud olan istehsal münasibətləri bazar iqtisadiyyatının tələblərinə tam uyğunlaşdırılmamışdır. Kənd təsərrüfatı məhsullarının istehsalçıları hələ də kolxoz və

sovxozlar mövcud olduğu dövrdən saxlanılmış doqquz növ vergi və ödənclər verirdilər. Bu səbəbdən əksər hallarda kənd təsərrüfatı məhsulları istehsalı ziyanla başa gəlirdi. Nəticədə bir sıra kənd təsərrüfatı məhsullarının istehsalının azalması müşahidə olunmuş, kənd əhalisi arasında işsizlik yüksəlmişdi.

22 mart 1999-cu ildə Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə islahatın sürətləndirilməsinə dair bəzi tədbirlər" adlı fərmanı verildi.

Bu fərman qəbul edildikdən sonra mövcud problemlərin elmi təhlili aparılmış və islahatın ikinci mərhələsini təmin etmək üçün proqram hazırlanmışdır. Bu proqram aqrar bölmə üçün planlaşdırılmış maliyyə və kreditin müdafiəsinə, bank fəaliyyətinə, vergilərə və daxili bazar qiymətlərinə dair tədbirlərdən ibarət olmuşdur.

Bu fərmandan sonra Azərbaycan Respublikasının Milli Məclisi kənd təsərrüfatı məhsulları istehsalçılarını 5 il müddətinə, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad etdi və bu vergilər üzrə keçmiş borclarını ləğv etdi. Aqrar sektorun, xüsusilə fermer təsərrüfatlarının inkişafını təmin etmək üçün buraya əlavə kredit resursları yönəldildi. Kənd təsərrüfatı məhsulları istehsalçılarına neft məhsullarının güzəştli satışı təşkil olundu. Aqrar islahatların gələcəkdə dərinləşməsinin əsas istiqamətini müəyyən etmək, sahibkarlığın inkişafı və onların iqtisadi maraqlarının müdafiəsi mexanizminin formalaşması məqsədilə "1999-2000 –ci illərdə Azərbaycan Respublikasının kənd təsərrüfatında aqrar islahatların dərinləşməsinə və sahibkarlığın inkişafına kömək göstərmək haqqında Dövlət proqramı" qəbul edildi. Proqram ölkədə aqrar islahatların dərinləşməsi üçün dövlət himayəçiliyinin aşağıdakı əsas istiqamətlərini nəzərdə tuturdu: aqrar bölmədə əmlakın özəlləşdirilməsini başa çatdırmaq; torpaq islahatını yekunlaşdırmaq; meliorasiya və su təsərrüfatı sahəsində islahatı sürətləndirmək; aqrar bölmədə sahibkarlığın inkişafına dövlət yardımı; aqrar sahədə idarəetmə sisteminin islahatı; kəndin sosial inkişafı; aqrar bölmənin elmi, normativ-hüquqi təminatı və kadr hazırlığı; aqrar sahənin məlumat təminatı.

Respublikada bütünlüklə torpaq münasibətlərini, həmçinin onunla bağlı olan mülkiyyət münasibətlərini tənzimləyən yeni Torpaq Kodeksi qəbul olundu. Azərbaycan Respublikasının yeni Torpaq Kodeksi torpaq sahələri ilə mülki qanunçuluğun mümkün saydığı hər cür əqdlərin həyata keçirilməsinə icazə verir. Buraya alqı-satqı, bağışlama, dəyişmə, girov,

icarə, irsi ötürmə daxildir. Bu hüquqi rejim kənd təsərrüfatı müəssisələrinin yeni təşkilati formalara çevrilməsi zamanı əldə edilən torpaq paylarına da şamil edilir. Azərbaycan Respublikasının Torpaq Kodeksi konsepsiyası onu nəzərə alır ki, torpaq kənd təsərrüfatında əsas istehsal vasitəsi olmaqla yanaşı, həmçinin mülkiyyət obyektidir. Eyni zamanda Kodeksdə qeyd edilir ki, bu mülkiyyət dövriyyəyə daxil edilir və daşınmaz əmlakın xüsusi növüdür. Daşınmaz əmlakın digər növlərindən fərqli olaraq xüsusi mülkiyyətçilər tərəfindən torpaq sahələri alınan zaman onun miqdarına (sahəsinə) məhdudiyyətlər qoyulur. Daşınmaz əmlakın digər növləri üçün bu məhdudiyyət nəzərdə tutulmayıb.

Xaricilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, həmçinin xarici dövlətlər Azərbaycan Respublikası qanunçuluğunda nəzərdə tutulmuş qaydada dövlət müəssisələrini özəlləşdirmək hüququna malikdirlər. Bu hüquqi və fiziki şəxslər torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər. “Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin yerləşdiyi torpaq sahələrinin satışı qaydaları haqqında” Əsasnamədə göstərilir ki, vətəndaşlığı olmayan xarici fiziki və hüquqi şəxslər tərəfindən dövlət müəssisə və obyektləri özəlləşdirilən zaman onların yerləşdiyi torpaq sahələri dövlətin və yaxud müvafiq bələdiyyələrin mülkiyyətində qalır, qanunda göstərilmiş qaydada həmin şəxslərə almaq hüququ olmadan icarəyə verilir.

Kənd təsərrüfatında torpaqların gələcək mülkiyyətçilərindən peşəkar hazırlıqların olması tələb olunur, hansı ki, digər daşınmaz əmlak üzrə əqdlər zamanı bu tələb olunmur. Azərbaycan Respublikasının “Kəndli (fermer) təsərrüfatı haqqında” Qanununun 4-cü maddəsində göstərilir ki, kəndli təsərrüfatı yaratmaq üçün torpaq sahəsinin alınmasında üstünlük hüququ ilk növbədə bu ərazidə daim yaşayan, kənd təsərrüfatı işlərində peşəkarlığa və üç ildən artıq təcrübəyə malik olan vətəndaşlara verilir.

Digər mülki-hüquqi əqdlərdən fərqli olaraq burada kənd təsərrüfatı torpaqlarının onların təyinatlarına uyğun istifadə olunmasının mütləq tələbi mövcuddur.

Bazar torpaq münasibətlərinin tənzimlənməsində dövlətin rolu kifayət qədər yüksək olaraq qalır. Ona görə ki, dövlət torpaqların səmərəli istifadəsində maraqlıdır. Bu səbəbdən kənd təsərrüfatı torpaqlarının istifadəsinin səmərəliliyi dövlət tərəfindən daima nəzarət altında saxlanılmalıdır. Torpaqlardan səmərəli istifadə qaydalarının pozulması

mülkiyyətçinin, sahibkarın, istifadəçinin yaxud icarəçinin əlindən torpaq sahəsinin alınması üçün əsas ola bilər.

Torpaq üzərində xüsusi mülkiyyət hüququnun yaranması və torpaq mülkiyyətinin müxtəlif formalarının mövcudluğu, həmçinin torpaq üzərində müxtəlif əqdlərin aparılmasının mümkünlüyü torpaq münasibətlərinin dəyişdirilməsinin başlanğıcını qoydu və respublikada torpaq bazarının yaranmasına səbəb oldu.

7 may 1999-cu il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının "Torpaq bazarı haqqında" qanununda torpaq-bazar münasibətlərinin bütün aspektləri-torpaq bazarı haqqında qanunçuluğun məqsəd və məzmunu, torpaq bazarının təşkili və tənzimlənməsi, torpaq bazarında yaranan hüquqi əqdlərin rəsmiləşdirilməsi, qanunçuluğun pozulmasına görə məsuliyyət, münasibətlərin həlli və s. suallar öz əksini tapmışdır.

Hüquqi şəxslər və Azərbaycan Respublikasının vətəndaşları qanuna görə torpaq bazarında mülkiyyətçilər, istifadəçilər, icarədarlar, girovqoyanlar, girovsaxlayanlar, həmçinin alqı-satqı və digər əqdlərin iştirakçıları kimi çıxış edə bilərlər.

Yeni ictimai münasibətlər şəraitində təşkil olunmuş torpaq bazarı torpaq ehtiyatlarının daha səmərəli istifadə edən subyektlərin əlinə keçməsinə şərait yaradır. Torpaq bazarını təşkil etməklə ölkə iqtisadiyyatı yalnız torpağın satışından, torpaq vergisindən və digər torpaqla bağlı əməliyyatlardan vəsait əldə etmir, hər şeydən əvvəl o, torpağın əsl sahibinin tapılmasına şərait yaradır.

Xaricilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər, təşkilatlar və xarici dövlətlər öz səlahiyyətləri çərçivəsində qanunla müəyyən edilmiş qaydada, torpaq bazarında torpağın xüsusi mülkiyyətə alınması əqdləri istisna olmaqla digər əqdlərdə iştirak edə bilərlər.

İcra hakimiyyəti və bələdiyyələrin müvafiq orqanları qanunçuluqla onlara verilmiş hüquqlar çərçivəsində torpaq bazarında iştirak edirlər. Ölkənin yeni torpaq siyasətinin ilkin nəticələri göstərir ki, Azərbaycanda normal fəaliyyət göstərən torpaq bazarı təşkil etməklə ölkə iqtisadiyyatının sabit və davamlı inkişafına nail olunmuş, həmçinin kənd təsərrüfatı istehsalına investisiya qoyuluşu güclənmişdir.

Respublikada hər yerdə torpaq sahələrinin alqı-satqısı üzrə əməliyyatlar həyata keçirilir. Bu proses şəhərlərdə və digər yaşayış məntəqələrində daha intensiv, aqrar sahədə isə zəif həyata keçirilir.

Azərbaycan Respublikasında torpaq bazarının formalaşması dövlətin bilavasitə iştirakı və nəzarəti altında həyata keçirilir və bu proses daha da təkmilləşdirilərək davam etdirilməlidir. Torpaqların əsas hissəsi dövlətin mülkiyyətində saxlanılır. Buna görə də dövlət yalnız torpaq bazarında baş verən dəyişiklikləri tənzimləməməli, əhəmiyyətli həcmdə kapital olan bütün torpaq fondunu idarə etməlidir. Müasir mərhələdə torpaq ehtiyatlarının idarə edilməsinə dair dövlətin gördüyü işlər torpaq potensialından dolğun və səmərəli istifadəyə tam cavab vermir.

Ölkənin bir çox şəhərlərində (Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Əlibayramlı, Mingəçevir və s.) qeyri-adi vəziyyət yaranmışdır. Belə ki, işləməyən nəhəng zavodlar böyük əraziləri tuturlar və əksər hallarda investorlar üçün cazibədar olan torpaq sahələri onlara məxsus olur. İqtisadi və inzibati-hüquqi mexanizmdən istifadə etməklə bu torpaqların səmərəli yenidənbölgüsünü aparmaq məqsədəuyğun olardı.

Respublikada torpağın alqı-satqısı və torpaqdan istifadə hüququ institutu tətbiq edildiyi vaxtdan rəsmiləşdirilmiş və qeydiyyatdan keçmiş sazişlərin sayı tədricən çoxalmağa başlamışdır. Bir sıra şəhərlərdə torpaq auksionları keçirilmişdir.

Bu gün respublikada torpaqların icarəsi xüsusi əhəmiyyət kəsb edir. Mülki Məcəllədə icarə sazişinə izah verilir, onun predmeti və əsas şərtləri müəyyənləşdirilir, sazişin forması, onun dövlət qeydiyyatı, bağlanma müddəti, əmlakın icarədara verilməsi qaydası üçün irəli sürülən tələblər dəqiqləşdirilir. Mülki Məcəllədə və “Torpağın icarəsi haqqında” qanunda icarədarların və icarəyəverənlərin hüquq və vəzifələri müəyyənləşdirilir.

Bu gün Azərbaycanda torpaq icarə institutu kənd təsərrüfatı və digər sahə sahibkarlarına imkan verir ki, onlar bu və ya digər səbəblərdən torpaq sahəsini mülkiyyətlərinə götürə bilmirlərsə onda icarə torpaqları hesabına öz fəaliyyətlərini genişləndirmiş olsunlar. Məsələn, kəndli-fermer kənd təsərrüfatı istehsalı ilə məşğul olmaq üçün dövlətdən pulsuz yalnız torpaq payı həcmində sahə alır. Bir qayda olaraq bu pay səmərəli istehsal qurmaq üçün kifayət etmir. Əkin sahələrini genişləndirmək, yaxud digər istehsal ehtiyaclarını ödəmək üçün əlavə torpaq almağa vəsait olmadıqda, onlar bu torpaqları haqla icarə hüququ çərçivəsində əldə edə bilərlər. Torpaq icarə institutu torpaq sahələrinin Azərbaycan vətəndaşlığında olmayan şəxslərə, xarici dövlətlərin fiziki və hüquqi şəxslərinə verilməsi üçün səmərəli hüquqi alətdir. Belə ki, bu institut dövlətə imkan verir ki, öz müstəqilliyinə xələl gətirmədən, milli sərvət

kimi torpaq mülkiyyəti ilə alver etmədən xarici sərmayədarlarla (investorlarla) fəal əməkdaşlıq qursun.

Torpaq icarə institutunun mənfi tərəfləri də vardır. Azərbaycan Respublikasında torpaqlar hüquqi və fiziki şəxslərə qısamüddətli (on beş ilə qədər) və uzunmüddətli (on beş ildən doxsan doqquz ilə qədər) icarəyə verilir. Lakin praktikada əksər hallarda torpaq payları 1-3 il müddətinə icarəyə verilir. Təbii ki, belə qısamüddətli icarə zamanı elmi cəhətdən əsaslandırılmış növbəli əkin sistemlərini tətbiq etmək mümkün deyildir. Qısamüddətli icarə icarədara torpaqdan səmərəli istifadə etməsinə, onun qorunmasına stimul yaratmır, baxmayaraq ki, qanunla bu vəzifələr onun üzərinə düşür.

Torpaq münasibətlərinin inkişafını və torpaq islahatının yeni mərhələsinin gedişatını təhlil edərkən onların yüksək səviyyəsini görmək olar. Yeni torpaq münasibətləri üçün hüquqi-normativ əsasların bütöv sistemi yaradılmışdır. Bu baza sivil bazarlara daxil olmağı təmin etməyə qadirdir və torpaq münasibətləri sahəsində dünya qanunçuluğu sisteminə əhəmiyyətli dərəcədə inteqrasiya olunmuşdur. Torpaq mülkiyyəti münasibətlərinə və torpaq üzrə sövdələşmələrə mülki-hüquqi institutların şamil edilməsi keçmiş illərin torpaq qanunçuluğunda özünə yer tapmış əsaslandırılmamış məhdudiyyətləri aradan qaldırır.

Respublikada torpaq münasibətlərinin təkmilləşdirilməsi və torpaq islahatının dərinləşdirilməsi yaxın perspektivdə torpaq bazarının və torpaqdan istifadə hüququnun gələcək inkişafına zəmin yaradar, icarə münasibətlərini təkmilləşdirər, son nəticədə torpaqlardan səmərəli istifadə edilməsinə və onların qorunmasına xidmət etmiş olar.

# FƏSİL IV.
# YERQURULUŞUNUN ELMİ ƏSASLARI

## 4.1. Azərbaycanda müasir yerquruluşu elminin və təhsilinin formalaşması tarixi

Respublikamızda təbii sərvətlərdən səmərəli istifadənin təşkili, istehsalatın təşkilində ekoloji tələblərin nəzərə alınması və s. bu kimi məsələlərin həllinə elmi əsaslarla, təbiətin qanunlarına ciddi riayət etməklə yanaşmalar XX əsrin ortalarından etibarən yerquruluşu, torpaqşünaslıq, ekologiya elmlərinin mərkəzi məsələlərindən birinə çevrilmişdi.

Məhz həmin dövrdən başlayaraq Azərbaycanda müasir yerquruluşu, torpaqşünaslıq, ekologiya elmlərinin banisi **Həsən Əlirza oğlu Əliyev** təbii sərvətlərdən səmərəli istifadə, təbiəti mühafizə sahəsində elmi, maarifçilik və praktiki fəaliyyətə başlamışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, Əməkdar Elm Xadimi, Azərbaycan Dövlət Mükafatı Laureatı, kənd təsərrüfatı elmləri doktoru, professor Həsən Əlirza oğlu Əliyev ömrünü Azərbaycan təbiətinin qorunmasına, inkişafına, ekoloji saflığa və bu sahədə yetərincə elmi kadrların hazırlanmasına sərf etmişdir.

Akademik H. Əliyev bütün varlığı ilə torpağa bağlı insan olub. Torpağın mühafizəsini həmişə diqqət mərkəzində saxlayan alim yazırdı: “Təbiətin bizə bəxş etdiyi ən dəyərli sərvət torpaqdır. Torpaq bizim “Çörək ağacımız” olmaqla bərabər həm də yaşayışımızın ibtidasını təşkil edir. Məhz buna görə də torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir… Torpaq vətən deməkdir”.

Həsən Əliyev torpaq oğlu idi. O, göstərirdi ki, “İnsanın yaşayışı üçün zəruri olan bütün nemətlər torpaq üzərində bərqərardır. Təbiət deyəndə öncə torpaq yada düşür. Buna görə də, bəşər övladının bütün xidməti, fəaliyyəti torpağa məhəbbət üzərində köklənməlidir”.

Bütün dövrlərdə təbii proseslər nəticəsində, yaxud insan amilinin təsiri ilə ətraf mühitdə və onun tərkib hissəsi olan canlılar aləmində baş verən proseslər yerquruluşunun, torpaqşünaslığın, ekologiyanın problemləri kimi həmişə öz elmi həllini axtarmışdır. Təbiətdə ekoloji tarazlığın saxlanılması, ətraf mühitin qorunması, onun çirklənməsinin qarşısının alınması, ümumiyyətlə bütövlükdə təbiət haqqında problemlərin həlli H.Ə.Əliyevin amalı, məqsədi olmuşdur.

Akademik Həsən Əliyev əsərlərində israrla və uzaqgörənliklə göstərirdi ki, antropogen gərginlik şəraitində respublikanın torpaq ehtiyatları ciddi təsirlərə məruz qalır. O, yazırdı: "Torpağın dərdi çoxdur. Onu düşünmək, görmək və hiss etmək lazımdır. Torpaqların kənd təsərrüfatında, sənayedə, məişətdə düşüncəsiz istifadəsi nəticəsində torpaq ehtiyatları azalır, münbitlik qabiliyyəti zəifləyir, məhsuldarlıq aşağı düşür".

Hələ keçən əsrin 70-80-ci illərində böyük alim özünün əsərlərində dünyada və Azərbaycanda ekoloji mühitdə tarazlığın pozulmasından, ana təbiətin, müqəddəs vətən torpaqlarının göz bəbəyi kimi qorunması vacibliyindən ürək ağrısı, millət yanğısı ilə söz açır, həyəcan təbili çalırdı. Alimin "Həyəcan təbili", "Təbiətin keşiyində", "Təbiətin yaşıl libası" və onlarla digər əsərləri Azərbaycan təbiəti, Azərbaycan torpağı, Azərbaycan ekologiyası, ətraf mühitin mühafizəsi barədə yazılmış şah əsərlərdir. Alimin bu əsərləri ölkədə ekoloji mədəniyyətin yüksəlməsində, insanların təbiətə münasibətinin düzgün istiqamətləndirilməsi və ətraf mühitin şüurlu qorunması işinin təşkilində bu gün də böyük aktuallıq kəsb edir.

Hələ keçən əsrdə böyük uzaqgörənliklə söylənmiş müdrik alim tövsiyələri ekoloq alimin torpağın, ətraf mühitin, bütövlükdə insanlığın qorunması naminə bugünkü və gələcək nəsillərə, bütün bəşəriyyətə ünvanlanmış çağırışları idi.

Akademik əsərlərində respublikamızda baş verən müxtəlif ziyanlı təbii hadisələrin (sel, sürüşmə və s.) qarşısını almaq üçün dağ yamaclarının yaşıllaşdırılmasını, çəmən və otlaqların mühafizəsini, təkmilləşmiş və təbii şəraitə uyğun zonal əkinçilik sistemlərinin tətbiqini, azmünbitli torpaqların meliorasiya yolu ilə əkin dövriyyəsinə qaytarılmasını və bu səpgidən olan digər yerquruluşu, meliorasiya, əkinçilik, ekologiya tədbirlərinin həyata keçirilməsini tövsiyə edir və eyni zamanda o, bütün bunları insan üçün sağlam mühitin mühafizəsinə imkan verən tədbirlər kompleksi kimi qiymətləndirirdi.

Akademik H.Ə. Əliyevin Azərbaycanda xüsusi mühafizə olunan ərazilərin yaradılmasında, təşkilində də əvəzsiz rolu olmuşdur. Belə ki, Qarayazı, Ağ göl, Bəsitçay, Türyançay, İsmayıllı, Pirqulu, Göy göl, Qara göl, Şirvan dövlət təbiət qoruqları məhz akademik H.Ə.Əliyevin ya bilavasitə təşəbbüsü ilə yaradılmış, ya da onun sayəsində bu ərazilərə ikinci həyat verilmişdir.

Akademik H.Ə.Əliyev dünyanın hər yerində həmişə "Təbiət və

insan” problemlərinə həsr olunan beynəlxalq simpoziumlarda və konfranslarda təbiətin təəssübkeşi kimi çıxış edir, təbii sərvətlərin, o cümlədən torpaq ehtiyatlarının mühafizəsini təmin edə biləcək elmi konsepsiyalar irəli sürürdü.

Akademik H.Ə.Əliyevin elmi-tədqiqat işlərinin obyekti Adəm peyğəmbərin yarandığı torpaq olub. Torpağı tədqiq etməklə, deməli bu Nurlu İnsan həm Tanrımıza xidmət etmiş, ilahinin tapşırığını yerinə yetirmiş, həm də xalqın qida və ərzaq mənbəyi olan müqəddəs torpaqlarımızın yaxşılaşdırılmasına, sağlamlaşdırılmasına dair insanların arzu və istəklərini həyata keçirmişdir.

Akademik Həsən Əliyevin təbiət-insan münasibətlərinə dair bəzi aforizmləri bəşər adamına hələ çox yüzilliklər çıraq olacaqdır:

– təbii sərvətlərin mühafizəsi və artırılmasını insanın mənafeyi tələb edir;

– təbii gözəlliyi görmək, hər şeydən əvvəl, ona qayğı göstərmək deməkdir. Əgər biz gözəlliyin qayğısına qalmırıqsa, demək onu görmürük;

– sağlam və gözəl təbiət insana nəinki təkcə yeni fiziki qüvvə verir, habelə onun ağlına, şüuruna, zehninə təsir edir, insanda özünə inam hissini, yaradıcılıq şövqünü artırır;

– torpaq vətən deməkdir. Hər şey torpağın üstündə bitir. Bu mənada insan üçün torpaqdan kənar təbiət anlayışı yoxdur;

– təbii sərvətlərin mühafizə edilməsində istər maddi və istərsə də estetik baxımdan birinci növbədə insanı nəzərdə tutmaq lazımdır. Siyasətdə də, iqtisadiyyatda da,elmdə də, ədəbiyyatda da insan həyatı birinci yerdə durmalıdır;

– biz təbiətimizi nə qədər sevsək, onu nə qədər yaxşı mühafizə etsək, o da bizə o qədər qida və şəfa verəcəkdir;

– insan özü özünün keşikçisi olmalıdır. Ayrı bir canlı onun harayına gəlməyəcək. Ona görə də, bu gün heç bir təşvişsiz –haraysız həyəcan təbili çalmaq yerinə düşərdi. Bu “təbil”i heç yerdən asmaq lazım deyil. O, bu günün insanının ürəyidir.

Torpaqla bağlı alimlər bəşər tarixində, elm tarixində xüsusi yer tuturlar. Bütün varlığı ilə torpağa bağlı olan akademik Həsən Əliyev də məhz elələrindəndir. Alimin elmi irsi bu gün də yerquruluşu, torpaqşünaslıq, ekologiya sahələrində alim-mütəxəssislər tərəfindən tədqiq edilir. Bu günün tələbələrinə, tədqiqatçılarına, gələcək torpaq

adamlarına aşılanır, öyrədilir.

Məlum olduğu kimi, keçən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimiz H.Ə. Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikamızın iqtisadiyyatının bəzi sahələrindəki mütəxəssis qıtlığını aradan qaldırmaq məqsədilə ölkəmizdən kənara oxumaq üçün azərbaycanlı gənclər göndərilirdi. O illərdə mütəxəssis qıtlığı ilə rastlaşan sahələrdən biri də yerquruluşu sahəsi idi.

Azərbaycan Respublikası üçün yüksəkixtisaslı mühəndis yerqurluşçuları əsasən SSRİ-nin mərkəzi ali təhsil ocaqlarında-Voronej Kənd Təsərrüfatı İnstitutunda, Moskva Yerquruluşu Mühəndisləri İnstitutunda hazırlanırdı.

Azərbaycan ölkəsi üçün mühəndis yerqurluşçularının hazırlanmasında VKTİ-nin yerquruluşu və torpaq kadastrı kafedrasına uzun müddət rəhbərlik etmiş, RKTEA-nın həqiqi üzvü, Rusiya Federasiyasının Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor **Zapletin Vladimir Yakovleviçin** xüsusi əməyini qeyd etmək lazımdır.

İkinci Dünya Müharibəsinin qanlı-qadalı günlərində belə cəbhə xəttində müsəlman əsgərlərinə, böyük Türk Dünyasının insanlarına xüsusi rəğbət bəsləyən bu böyük vətəndaş-alim müharibədən keçən uzun müddətdən sonra da o hislərə sadiq qalmışdı. Belə ki, Azərbaycana və azərbaycanlılara böyük hörmətlə yanaşan V.Y.Zapletin dövlətimizin kadr hazırlığı sahəsindəki bu siyasətinə qayğı göstərir, gənclərimizin gələcəkdə bacarıqlı ixtisas sahibi, yüksəkintelektli ziyalı kimi formalaşması istiqamətində böyük işlər görürdü. Professor V.Y. Zapletin yerquruluşu ixtisası üzrə müdafiə etmiş ilk azərbaycanlı alimlərin (i.e.n. R.M.Quliyevin, i.e.n. M.M.İsmayılovun) namizədlik dissertasiyalarının elmi rəhbəri olmuşdur.

Professor V.Y.Zapletinin elmi-tədqiqat işlərinin əsas istiqamətləri kənd təsərrüfatı təyinatlı torpaqdanistifadələrin ərazilərinin kompleks təşkilinin nəzəri və metodiki əsaslarının işlənməsindən, torpaq ehtiyatlarından səmərəli istifadəni və onların mühafizəsini təmin edən yerquruluşu və torpaq kadastrı üsullarının İRÜ və kompüter texnologiyasının tətbiqi ilə müəyyənləşdirilməsindən ibarət olmuşdur.

Professor V.Y.Zapletinin elmi-tədqiqat işləri aqrar iqtisadiyyat elminə böyük yeniliklər gətirmişdir. O, əsərlərində kənd təsərrüfatı müəssisələrində istehsalatın sosial-iqtisadi səmərəliliyinə yerquruluşu tədbirlərinin kompleks təsirini müəyyənləşdirmiş, bu səmərəliliyin

müəyyənləşdirilməsi üsullarını göstərmiş, istehsalatın təşkilində, ərazilərdə və torpaq münasibətlərindəki dəyişikliklərin olması zamanı yerquruluşu işlərinin aparılmasının zəruriliyini isbat etmişdir.

Professor V.Y.Zapletin "Yerquruluşu layihələşdirməsi", "Yerquruluşunda geodeziya işləri", "Kolxozların ərazilərinin təşkili", "Yerquruluşu layihələrinin iqtisadi səmərəliliyi", "Rusiyanın Qaratorpaq zonasında torpaqlardan səmərəli istifadə yolları" və s. kimi onlarla dərsliklərin, dərs vəsaitlərinin müəllifi və həmmüəllifi olmuşdur. Bu ədəbiyyatlar keçmiş SSRİ məkanının bütün ali təhsil ocaqları üçün dərslik və dərs vəsaiti kimi qəbul edilmişdir.

"Zapletin yerquruluşu məktəbi"nin müdavimləri sonradan müasir müstəqil Azərbaycanımızda torpaq islahatının müvəffəqiyyətlə həyata keçirilməsində yaxından iştirak etdilər. Onlar Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında, Azərbaycan Memarlıq və İnşaat Mühəndisləri İnstitutunda yerquruluşu və torpaq kadastrı istiqaməti üzrə mütəxəssis hazırlığında, Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində, Ekologiya və Təbii sərvətlər Nazirliyində, Kənd Təsərrüfatı Nazirliyində, digər dövlət orqanlarında ölkəmizin təbii sərvətlərindən, o cümlədən torpaq ehtiyatlarından səmərəli istifadə edilməsinə, onların mühafizəsinə dair dövlət əhəmiyyətli proqramların hazırlanmasının və həyata keçirilməsinin bilavasitə iştirakçıları oldular.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik, kənd təsərrüfatı elmləri doktoru, professor **Məmmədtağı İbrahim oğlu Cəfərov** Azərbaycanda yerquruluşu təhsilinin təşəbbüskarı və təşkilatçısıdır. Aqillərdən biri deyib ki, xeyirxah bir işi ürəkdən tərifləmək həmin işdə müəyyən dərəcədə iştirak etməyə bərabərdir. Məhz bu aqil aforizminə istinad edərək, akademik M.İ. Cəfərovun yerquruluşu elminə, təhsilinə göstərdiyi xidmətlərin bir qismi barədə gələcək yerquruluşçularının bilməsini zəruri hesab edirəm.

Hələ keçən əsrin 70-ci illərində torpaqşünas və aqrokimyaçı alim kimi professor M.İ. Cəfərov özünün çoxsaylı əsərlərində respublikada ekoloji problemlərin günü-gündən kəskinləşdiyini, təbii sərvətlərdən, o cümlədən torpaq ehtiyatlarından ekstensiv yolla deyil, artıq intensiv yollarla istifadə edilməsinin zəruriliyini göstərirdi. M.İ.Cəfərov hələ o zamanlar, sivil bazar torpaq münasibətlərinin bərqərar olduğu Avropa ölkələrinin təcrübələrinə istinad edərək belə qənaətə gəlmişdi ki, ölkəmizdə torpaq ehtiyatlarından səmərəli istifadəyə, onların mühafi-

zəsinə dair aqrokimyaçı-torpaqşünas, aqronom, meliorator və s. mütəxəssislərin ayrı-ayrılıqdakı tövsiyələri öz əksini kompleks şəkildə elmi cəhətdən əsaslandırılmış yerquruluşu layihə və sxemlərində tapmalıdır. Bütün bunların reallaşdırılması isə yerquruluşu üzrə ixtisaslaşmış mütəxəssis hazırlığını tələb edirdi. Belə mütəxəssislərin sayı respublikada o zamanlar həddindən artıq az idi (5-10 nəfər).

Doğrudur, həmin illərdə ümummilli liderimiz H.Ə. Əliyevin təşəbbüsü ilə respublikamızdan kənarda (Voronej Kənd Təsərrüfatı İnstitutunda, Moskva Yerquruluşu Mühəndisləri İnstitutunda və s.) yerquruluşu sahəsi üzrə ölkəmiz üçün mütəxəssis hazırlanırdı. Amma bu azsaylı kontingent ölkə qarşısında duran böyük bir problemi – təbii sərvətlərdən, o cümlədən torpaq ehtiyatlarından səmərəli istifadə etmək, onların mühafizəsinə dair kompleks tədbirlər sistemi hazırlamaq kimi qlobal problemləri tam həll etmək iqtidarında deyildi.

Keçən əsrin 70-ci illərində yaxın vaxtlarda Azərbaycanın ictimai-siyasi həyatında radikal dəyişikliklərin olacağı qənaətinə gələn ziyalılarımız çox az idi. O dövrdə respublikamızın inkişafına dair uzaqgörənliyi ilə fərqlənən alimlərdən biri də o vaxtlar AKTİ-də "Torpaqşünaslıq və meliorasiya" kafedrasının müdiri işləyən professor M.İ. Cəfərov idi. Yaxın gələcəkdə torpaq məsələsinin siyasi məsələyə çevriləcəyini görən M.İ. Cəfərov Azərbaycan və SSRİ hökumətləri qarşısında ölkəmizdə yerquruluşu ixtisası üzrə mütəxəssis hazırlığına başlanması üçün vəsatət qaldırılmasının zəruriliyi barədə məsələ qaldırdı. Qısa zaman kəsərində bu təşəbbüs bəyənildi və 1976-cı ildən başlayaraq AKTİ-də yerquruluşu ixtisası üzrə tələbə qəbuluna nail olundu.

Yerquruluşu mütəxəssislərinin hazırlığı ilk illərdə professor M.İ.Cəfərovun rəhbərlik etdiyi "Torpaqşünaslıq, kənd təsərrüfatı meliorasiyası və yerquruluşu" kafedrasında aparılırdı. Zaman keçdikcə bu sahə üzrə mütəxəssis hazırlığı üçün ixtisas kafedrasının yaradılması zəruriliyini qabaqcadan görən professor M.İ. Cəfərov mütəxəssis hazırlığının ilk vaxtlarında bilavasitə istehsalatda yerquruluşu sahəsində çalışan mütəxəssisləri kafedraya dəvət edir, perspektivli gəncləri SSRİ-nin yerquruluşu elmi sahəsində uğurları ilə fərqlənən ali təhsil müəssislərinə aspiranturaya oxumağa göndərirdi. Sonralar AKTİ-yə rektor kimi rəhbərlik edən AMEA-nın müxbir üzvü, professor M.İ. Cəfərov səlahiyyətlərindən istifadə edərək öz təşəbbüsü ilə yaradılmış "Yerquruluşu və geodeziya", sonralar "Yerquruluşu və torpaq müfəttiş-

liyi” adlandırılan kafedranın maddi-texniki bazasının yaradılmasına, kafedranın elmi-pedaqoji potensialının möhkəmləndirilməsinə nail oldu. Akademik M.İ. Cəfərovun dos. R.M.Quliyevlə birgə yazdıqları “Torpaq fondu və ondan səmərəli istifadə” adlı dərsliyi “Yerquruluşu və torpaq kadastrı” istiqaməti üzrə təhsil alan tələbələr üçün ixtisas fənnini öyrədən dərslikdir.

Məhz akademik M.İ. Cəfərovun elmi rəhbərliyi ilə ‘‘Yerquruluşu və torpaq müfəttişliyi’’ kafedrasının əməkdaşları R.M.Quliyev doktorluq dissertasiyasını, k.t.e.n. Ə.İ.Hüseynov namizədlik dissertasiyasını müdafiə etmişlər.

Respublikadan kənara oxumağa göndərilən Azərbaycan gəncliyinin əksəriyyəti təhsillərini başa vurduqdan sonra doğma vətənlərinə mütəxəssis kimi işləmək arzusu ilə qayıdırdılar. İlk vaxtlarda onlar iş yeri tapmaq, məişət məsələlərini həll etmək və s. kimi həyati problemlərlə üzləşirdilər. Onların vətənsevər ziyalı qayğılarına böyük ehtiyacları olurdu. Belə ziyalılardan biri də bu dərslik müəllifinin mütəxəssis, pedaqoq, alim və təşkilatçı kimi formalaşmasında müstəsna rolu olmuş əsil vətəndaş-alim, AMEA-nın həqiqi üzvü, akademik, kənd təsərrüfatı elmləri doktoru, professor, uzun illər Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına rəhbərlik etmiş Məmmədtağı İbrahim oğlu Cəfərovdur. Mark Avreliy deyirdi: ‘‘Ən yüksək elm-müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır’’. Akademik M.İ. Cəfərovun xeyirxahlıqları barədə yuxarıda göstərilənlər onun müdrikliyinə dəlalət edir. Demək o, elmin ən yüksək zirvəsində dayanan şəxsiyyətdir.

Müasir müstəqil Azərbaycanda yerquruluşu sisteminin formalaşdırılması 1997-ci ildən Dövlət Torpaq Komitəsinin, 2001-ci ildən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri kimi fəaliyyət göstərən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik **Qərib Şamil oğlu Məmmədovun** adı ilə bağlıdır. Müasir Azərbaycanda Torpaq islahatı kimi müqəddəs, şərəfli və taleyüklü ümummilli tarixi aktın həyata keçirilməsinin metodiki və praktiki əsaslarının hazırlanmasının böyük qismi məhz bu Komitənin əməkdaşlarının, bilavasitə bu Komitənin sədri akademik Q.Ş. Məmmədovun adı ilə bağlıdır.

Akademik Q.Ş. Məmmədovun ‘‘Yerquruluşu və torpaq kadastrı’’ istiqaməti üzrə mütəxəssis hazırlığının təşkilində də əvəzsiz xidmətləri vardır. Belə ki, onun müəllif və həmmüəllif olduğu ‘‘Azərbaycanın torpaq ehtiyatları’’, ‘‘Azərbaycanda torpaq islahatı: hüquqi və elmi-metodiki

məsələlər'', ''Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələlər'', ''Ekologiya və ətraf mühitin mühafizəsi'' və s. kimi fundamental əsərləri Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında ''Yerquruluşu və torpaq kadastrı'' istiqaməti üzrə bakalavr və magistratura pillələrində mütəxəssis hazırlığında dəyərli tədris vəsaiti kimi istifadə olunurlar.

Akademik Q.Ş. Məmmədovun əsərlərində torpaq münbitliyinin bioekoloji qiymətləndirilməsi, kənd təsərrüfatı və meşə torpaqlarının bonitirovkası, ayrı-ayrı landşaft komplekslərinin qiymətləndirilməsi və digər qlobal problemlərin nəzəri məsələləri tədqiq edilir, bazar iqtisadiyyatının təşəkkülü şəraitində respublikanın təbii sərvətlərindən, o cümlədən torpaq ehtiyatlarından səmərəli istifadəyə dair metodiki əsaslar verilir, praktiki vərdişlər aşılanır.

Akademik Q.Ş. Məmmədovun AKTA-nın ''Yerquruluşu və torpaq müfəttişliyi'' kafedrası üçün elmi-pedaqoji kadrların hazırlanmasında da müstəsna rolu vardır. Belə ki, məhz onun elmi rəhbərliyi və elmi məsləhəti ilə kafedra əməkdaşlarından R.M.Quliyev doktorluq dissertasiyası, A.D.Babayeva namizədlik dissertasiyası müdafiə etmişlər.

Bu gün respublikamızda həyata keçirilən torpaq islahatı MDB məkanında öz orijinallığı ilə fərqlənir. Bu isə torpaq islahatının həyata keçirilməsinin məhz geniş elmi əsaslara söykənməsiylə, bu aktı həyata keçirən quruma ölkəmizin hüdudlarından da kənarda elmi nailiyyətləri ilə şöhrət tapmış akademik Q.Ş. Məmmədovun rəhbərlik etməsidir.

Yuxarıda qeyd edildiyi kimi, respublikamızın tarixində ilk dəfə olaraq ali təhsilli yerquruluşçularının hazırlığına 1976-cı ildən etibarən Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında başlanmışdır. Bu sahə üzrə mütəxəssis hazırlığı ilə bilavasitə məşğul olan ixtisas kafedrası kimi ''Yerquruluşu və geodeziya'' kafedrası 1981-ci ildə təşkil edilmişdir. Kafedranın ilk müdiri kənd təsərrüfatı elmləri namizədi, dosent **Urfan Bala oğlu Ağayev** olmuşdur. Sonralar ''Yerquruluşu və torpaq müfəttişliyi'' adı altında fəaliyyət göstərən bu kafedraya qısa fasilələrlə 1986-cı ildən 2002-ci ilədək iqtisad elmləri namizədi, dosent **Ramiz Mirmahmud oğlu Quliyev** rəhbərlik etmişdir. 2002-2007-ci illərdə kafedra müdiri vəzifəsində kənd təsərrüfatı elmləri namizədi, dosent **Zahid İlyas oğlu Süleymanov** çalışmışdır. 2007-ci ilin iyunundan kafedraya yenidən kənd təsərrüfatı elmləri doktoru **R.M.Quliyev** rəhbərlik edir.

Kafedra əməkdaşlarının müəllifi və həmmüəllifi olduğu bir sıra əsərlər ali təhsil ocaqlarında, liseylərdə dərslik və dərs vəsaitləri kimi istifadə olunurlar. Kafedranın elmi-tədqiqat işinin əsas istiqaməti bazar torpaq münasibətləri, yüksəklik qurşağı və suvarma əkinçiliyi şəraitində torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinin təşkilinə dair nəzəriyyənin və elmi-metodiki əsasların işlənməsindən ibarətdir.

Burada əsas məqsəd torpaq islahatı nəticəsində formalaşmaqda olan yeni təsərrüfatların (kəndli-fermer təsərrüfatlarının, ailə təsərrüfatlarının, kənd təsərrüfatı təyinatlı birliklərin, assosiasiyaların, kooperativlərin) təbii-resurs potensiallarından tam istifadəni təmin etmək məqsədilə yerquruluşu tədbirlər sisteminin hazırlanmasında landşaft-ekoloji yanaşmaların tətbiqindən ibarətdir. Ərazilərin təşkilinin landşaft-ekoloji əsaslara söykənməsi davamlı kənd təsərrüfatı üçün müvafiq zəmin yaradır, eroziyaya, səhralaşmaya, digər təbii mənfi antropogen təsirlərə ərazinin davamlığını artırır, ekoloji cəhətdən dayanıqlı tarla landşaftlarının quruculuğuna şərait yaradır.

Kafedra əməkdaşları tərəfindən son illərdə məhz bu problemin həllinə yönəlmiş 1 doktorluq, 2 namizədlik dissertasiyaları müdafiə edilmişdir.

Kafedra əməkdaşları ölkəmizdə aparılan aqrar və torpaq islahatlarının hüquqi-normativ bazasının yaradılmasında yaxından iştirak etmiş, Milli Məclisin işçi qruplarının tərkibində fəaliyyət göstərmişlər. Kafedra əməkdaşlarının alim-mütəxəssis kimi rəy və təklifləri Azərbaycanda torpaq qanunvericiliyinin daha sivil, daha mükəmməl olmasını, onların müvəffəqiyyətlə həyata keçirilməsinə xidmət etmişdir.

1976-2007-ci illər ərzində AKTA-ya yerquruluşu və torpaq müfəttişliyi ixtisası üzrə təhsil almaq üçün cəmi 940 tələbə qəbul olmuşdur. Bunlardan 396 nəfəri birpilləli təhsil sistemini, 300 nəfəri bakalavr təhsil pilləsini, 9 nəfəri isə magistr təhsil pilləsini başa vurmuşlar.

“Yerquruluşu və torpaq kadastrı” istiqaməti üzrə hazırlanmış bu mütəxəssislər Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində, Kənd Təsərrüfatı Nazirliyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyində və digər dövlət qurumlarında, özəl təşkilatlarda öz fədakar əməkləri ilə respublikamızda tarixi aktların-aqrar və torpaq islahatlarının müvəffəqiyyətlə həyata keçirilməsinin bilavasitə icraçılarına çevrilmişlər.

## 4.2. Müasir yerquruluşu elmi, onun konsepsiyası və digər elmlərlə əlaqəsi

Ölkəmizdə torpaq islahatının həyata keçirilməsi ilə torpaq münasibətlərinin məzmununda radikal dəyişikliklər baş vermişdir. Belə ki, torpaq islahatının ilkin mərhələsindəcə torpaq üzərində dövlət inhisarına son qoyulmuş, onun dövlət, xüsusi və bələdiyyə mülkiyyət formaları təsbit edilmiş, iqtisadiyyatda çoxmülkiyyətli təsərrüfatçılıq formalarının təşəkkülünə hüquqi zəmin yaradılmışdır.

Respublikada torpaq fondunun yeni mülkiyyətçilər (dövlətdən başqa həm də bələdiyyə və xüsusi mülkiyyətçilər) arasında bölgüsü, müxtəlif mülkiyyətli təsərrüfatçılıq formalarının təşəkkülü, yeni bazar torpaq münasibətləri mahiyyətcə yeni torpaq quruluşunun (rejiminin, siyasətinin) yaranmasına səbəb olmuşdur.

Ona görə də müstəqil respublikamızda formalaşmaqda olan yeni torpaqdanistifadələr sisteminin nizamlanması, torpaq ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, torpaq fondunun idarə edilməsi və mühafizəsi sivil dünya təcrübəsinə əsaslanan mexanizmlərin işlənməsi və həyata keçirilməsi Azərbaycan dövlətinin torpaq siyasətinin ana xəttini təşkil edir.

İnkişaf etmiş xarici ölkələrin, habelə Azərbaycan Respublikasının təcrübələri göstərir ki, yeniləşmiş torpaq münasibətləri şəraitində torpaqlardan səmərəli istifadənin və onların mühafizəsinin təşkilini həyata keçirəcək real mexanizm yerquruluşudur. “Yerquruluşu” (bəzən səhv olaraq “Yer quruluşu” yazılır!) sözü “Yer” və “Quruluş” kimi sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözdür. “Yerquruluşu” sözünün hərfi mənasına nəzər salaq.

“Konstitusiya” sözü latın sözü olan “constitutio” sözündən olub, Azərbaycan dilinə tərcümədə hərfi mənası “quruluş” deməkdir. Onda “Yerquruluşu” sözünün mənasını “Yerin Konstitusiyası” kimi də başa düşmək olar. Deməli, yerquruluşunda torpaq ehtiyatlarından istifadənin təşkilinin əsas qanunları (konstitusiyası) öyrədilir, torpaqlardan istifadənin təşkilinin üsulları, təşəkkül formaları, “konstruksiyası” (ayrı-ayrı massivlərin qarşılıqlı yerləşməsi) göstərilir, elmi cəhətdən əsaslandırılır.

Yalnız torpaqdanistifadələr sisteminin təşkilinin hüquqi, iqtisadi, ekoloji tələblərinin optimal variantlarını özündə birləşdirən yerquruluşu

layihə sənədlərinə istinadən səmərəli torpaqdanistifadələr sistemi yaratmaq mümkündür.

İctimai və istehsal münasibətlərinin inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövrlərdə yerquruluşunun məqsədi iqtisadiyyatın bütün sahələrində torpaqlardan səmərəli istifadəni və onların mühafizəsini təşkil etməkdən, ərazinin və istehsalatın təşkilini iqtisadi münasibətlərin tələblərinə uyğunlaşdırmaqdan ibarət olub. Yerquruluşu prosesində torpaqlardan səmərəli istifadə edilməsi və mühafizəsi üçün optimal şəraitlər yaradılır, ekoloji-iqtisadi cəhətdən davamlı torpaqdanistifadələr sisteminin təşkili problemləri həll edilir.

Ölkəmizdə dövlət yeni torpaq münasibətlərinin formalaşdırılmasına dair islahatları yerquruluşu sistemi vasitəsi ilə həyata keçirdiyindən yerquruluşu dövlət xarakteri daşıyır.

Yerquruluşu dövlət funksiyalarından əlavə, həm də sahələrarası, ərazilərarası (təsərrüfatlararası) və təsərrüfatdaxili funksiyaları yerinə yetirir.

Dövlət səviyyəsindəki funksiyaları ilə yerquruluşu ölkədə torpaq islahatının həyata keçirilməsini təmin edir, torpaqlardan istifadənin perspektivlərini proqnozlaşdırır, torpaqlardan istifadənin və onların mühafizəsinin əsas təyinatını müəyyənləşdirir, Respublikanın, Muxtar Respublikanın, rayonların, bələdiyyələrin yerquruluşu sxemlərinin tərtibi ilə torpaqlardan istifadəyə, onların mühafizəsinə, səmərəli torpaqdanistifadələr və torpağa sahibkarlıq sistemlərinin formalaşdırılmasına nail olur. Yerquruluşu sənədləri dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən torpaq ehtiyatlarının idarəedilməsinə dair qərarların çıxarılması üçün əsas rolunu oynayır.

Sahələrarası yerquruluşunun funksiyalarına iqtisadi sahənin xarakterindən, ixtisaslaşmasından və istehsalatın xüsusiyyətlərindən asılı olaraq aşağıdakıları aid etmək olar:

– kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələrində səmərəli təsərrüfatçılıq fəaliyyəti üçün müvafiq təşkilati-ərazi şəraitlərinin yaradılması;

– mövcud torpaqdanistifadələr sistemlərinin təkmilləşdirilməsi, yenilərinin təşkili;

– sahələrarası davamlı və optimal iqtisadi əlaqələri təmin edəcək torpaqdanistifadələr sistemini qurmaq məqsədilə torpaq sahələrinin təmər-

küzləşməsi və yığcam yerləşməsi üçün ərazi şəraitlərinin yaradılması.

Sahələrarası yerquruluşunun funksiyalarına həmçinin qeyri-kənd təsərrüfatı istehsalatının (sənayenin, nəqliyyatın, tikintinin və s.) ehtiyacları üçün torpaq sahələrinin ayrılması da aid edilir.

Təsərrüfatlararası (ərazilərarası) yerquruluşunda iqtisadiyyatın bütün sahələrinin normal fəaliyyətləri üçün müvafiq şəraitlər yaradılır, kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı təyinatlı davamlı torpaqdanistifadələrin səmərəli sisteminin formalaşdırılması həyata keçirilir. Təsərrüfatlararası yerquruluşu vasitəsi ilə həmçinin vətəndaşlar və hüquqi şəxslərə verilməsi üçün torpaq sahələrinin formalaşdırılması həyata keçirilir, habelə bələdiyyə və digər inzibati-ərazi vahidlərinin təyinatına görə müxtəlif olan torpaq kateqoriyalarının yerdə (naturada) sərhədləri bərkidilir.

Təsərrüfatdaxili yerquruluşu işləri konkret kənd təsərrüfatı müəssisələrinin (ailə təsərrüfatlarının, kəndli (fermer) təsərrüfatlarının, assosiasiyaların, birliklərin, kooperativlərin və s.) sərhədləri daxilində aparılır. Məqsəd-ərazinin ekoloji-landşaft xüsusiyyətlərini nəzərə almaqla aqrar istehsalatın fəaliyyətini təmin edəcək təşkilati-ərazi şəraitlərin yaradılmasından ibarətdir. Təsərrüfatdaxili yerquruluşunda obyektin sərhədləri daxilində təbii landşaftı yaxşılaşdıracaq, torpaq ehtiyatlarından səmərəli istifadəni təmin edəcək torpaqqoruyucu, təbiəti mühafizə, meliorativ və s. tədbirlər layihələndirilir.

**Yerquruluşu işlərinin yerinə yetirilməsi zamanı aşağıdakı əsas prinsiplərə (müddəalara) riayət edilməlidir:**

– yerquruluşu işləri aparılan ərazilərdə yaşayan vətəndaşların və torpağa hüququ olan subyektlərin qanuni maraqlarının təmin edilməsi;

– müxtəlif təsərrüfatçılıq formalarının və iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün bərabər təşkilati və ərazi şəraitlərinin yaradılması;

– bələdiyyə və digər inzibati-ərazi vahidlərinin ərazilərinin perspektiv və kompleks inkişaflarının nəzərə alınması;

– torpaq ehtiyatlarının və təbii landşaftların mühafizəsi və səmərəli istifadəsi;

– torpaqdanistifadələrin formalaşdırılması zamanı onların sahə və məkan yerləşmələrinə görə optimallığının, yığcamlığının təmin edilməsi;

– torpaqdanistifadələrin dayanıqlığının təmin edilməsi, torpaq sahələrinin ekoloji-landşaft baxımından məqsədəuyğun olmayan kiçiköl-

çülü paylara parçalanmamağının zəruriliyi;

– torpaq, meşə, su qanunvericiliyinin və ətraf mühitin mühafizəsinə dair qanunvericiliyin tələblərinin yerinə yetirilməsi;

– ilk növbədə təbiəti mühafizə məsələlərinin həlli, başqa sözlə ətraf mühitə ziyan vura biləcək hər hansı bir ərazinin təşkili variantlarının baxılmasının mümkünsüzlüyü;

– kənd təsərrüfatı müəssisələrinin yenidən təşkili zamanı ərazinin təbii, ekoloji-təsərrüfat xüsusiyyətlərinin nəzərə alınması;

– ərazinin təşkilinin dayanıqlı və aqroekoloji cəhətdən düzgün yerləşmiş elementlərinin saxlanmasının təmin edilməsi;

– yerquruluşu layihələri əsasında ərazinin aqroekoloji qiymətləndirilməsi və ərazinin zonalaşdırılmasının ekoloji-texnoloji prinsiplərinin təmin edilməsi;

– çirklənmiş, zəhərlənmiş və deqradasiyaya uğramış torpaq sahələrinin kənd təsərrüfatı istifadəsindən çıxarılması, konservasiya edilməsi və bölüşdürmə fonduna daxil edilməsinə dair tələblərin yerinə yetirilməsi.

Ekoloji tələblərin həyata keçirilməsinin təmin edilməsi üçün yerquruluşu işləri kompleks şəkildə ekoloji-landşaft yanaşmalardan istifadə etməklə həyata keçirilməlidir. Bunun üçün ilk öncə inzibati rayonun (bələdiyyənin) yerquruluşu sxemi tərtib edilməli, sonra yerquruluşu layihəsi hazırlanmalı və ən nəhayət, sonda işçi layihəsi tərtib edilməlidir.

**Bazar torpaq münasibətləri müasir yerquruluşu qarşısında yeni vəzifələr qoyur:**

– dövlətin yeni torpaq siyasətinin həyata keçirilməsi: mülkiyyət formalarına və torpaq üzərində hüquqi subyektlərə görə iqtisadi və ekoloji tələbləri nəzərə almaqla torpaq bölgüsü, səmərəli torpaqdanistifadələr sisteminin formalaşdırılması, torpaqların yenidən bölüşdürülməsində sosial ədalətin təmin edilməsi, torpaq üzərində konstitusion hüquqların təminatı;

– mülkiyyət formalarından asılı olmayaraq bütün kateqoriyadan olan torpaqlardan bütün səviyyələrdə – Respublika, Muxtar respublika, rayon, bələdiyyə, özəl qurumlar səviyyəsində səmərəli istifadəni təmin edəcək tədbirlərin hazırlanması, kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələrində səmərəli təsərrüfatçılıq üçün müvafiq təşkilati-ərazi şəraitlərin yaradılması;

– bələdiyyələrin və digər inzibati-ərazi vahidlərinin sərhədlərinin layihələndirilməsi və yerdə (naturada) bərkidilməsi, şəhərlərin və digər yaşayış məntəqələrinin sərhədlərinin (cizgilərinin) naturada müəyyənləşdirilməsi;

– Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları, həmçinin AR-in subyektləri, yerli özünüidarəetmə orqanları tərəfindən torpaq ehtiyatlarının idarəedilməsinə dair qərarların qəbulu üçün müvafiq yerquruluşu sənədlərinin hazırlanması;

– təbii ehtiyatların mühafizəsi və yaxşılaşdırılması, torpaq münbitliyinin bərpası və artırılması, korlanmış torpaqların rekultivasiyası, torpaqların eroziyadan, səhralaşmadan, sellərdən və digər mənfi təsirlərdən qorunması üçün kompleks tədbirlər sisteminin hazırlanması;

– yerquruluşu obyektlərinin (kənd təsərrüfatı təyinatlı torpaqdanistifadələrin) səmərəli fəaliyyətini təmin edəcək ərazi şəraitlərinin yaradılması məqsədilə təsərrüfatdaxili yerquruluşu işlərinin aparılması;

– yerquruluşu sənədlərinin işlənməsi üçün, habelə dövlət torpaq və digər kadastrların, torpaq monitorinqinin, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi və torpaq ehtiyatlarının dövlət idarəetməsinə dair digər funksiyaların reallaşdırılması üçün torpaqların kəmiyyət və keyfiyyətcə xarakteristikasına dair məlumatların hazırlanması.

Yerquruluşu bir-biri ilə sıx əlaqədə olan bir sıra fənlər (Yerquruluşunun elmi əsasları, Torpaq bazarı və torpaq ehtiyatlarının idarə edilməsi, Yerquruluşu layihələşdirməsi və s.) vasitəsi ilə öyrənilir.

"Yerquruluşunun elmi əsasları" fənni gələcək yerquruluşçularına torpaq haqqında müasir təlimi açıqlayır, torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinin elmi-metodiki əsaslarını öyrədir. Bu fənn vasitəsi ilə Azərbaycanda torpaq münasibətlərinin formalaşması və inkişaf qanunauyğunluqları tədqiq edilir, yerquruluşu elminin nəzəri əsasları öyrədilir, müasir yerquruluşunun növü və formaları verilir. Fənn Azərbaycanda torpaqlardan istifadəyə və onların mühafizəsinə nəzarət edən dövlət orqanlarının quruluşunu, əsas vəzifələrini, funksiyalarını, hüquqlarnı şərh edir, xarici ölkələrdəki yerquruluşu sisteminin məzmun və mahiyyətini açıqlayır.

''Torpaq bazarı və torpaq ehtiyatlarının idarə edilməsi'' fənni vasitəsi ilə sivil dünya iqtisadiyyatının qanunları ilə yaşayan Azərbaycanda

formalaşmış yeni bazar torpaq münasibətlərinin normativ-hüquqi əsasları şərh edilir, torpaq bazarında mövcud olan əqdlərin həyata keçirilməsi mexanizmləri tədqiq olunur. Bu fənn vasitəsi ilə habelə torpaq bazarı şəraitində ölkəmizdə torpaq ehtiyatlarının idarə edilməsinin konseptual əsasları verilir, torpaq-mülkiyyət münasibətlərinin dövlət tənzimlənməsinin üsulları öyrədilir.

‘‘Yerquruluşu layihələşdirməsi’’ (Təsərrüfatlararası yerquruluşu layihələşdirməsi, Təsərrüfatdaxili yerquruluşu layihələşdirməsi) fənni ‘‘Yerquruluşu və torpaq kadastrı’’ istiqaməti üzrə mütəxəssis hazırlığında daha böyük əhəmiyyət kəsb edir. Belə ki, yerquruluşu layihələşdirməsində cəmiyyətin iqtisadi qanunlarını və torpağın əsas istehsal vasitəsi kimi xüsusiyyətlərini, ərazinin ekoloji-landşaft şəraitlərini nəzərə almaqla iqtisadiyyatın bütün sahələrində, ilk öncə kənd təsərrüfatında, ayrı-ayrı kənd təsərrüfatı təyinatlı torpaqdanistifadələr sistemində torpaq ehtiyatlarından tam, dolğun və səmərəli istifadənin nəzəriyyəsi və metodiki əsasları hazırlanır.

“Yerquruluşu layihələşdirməsi” fənni həmçinin torpaqların münbitliyinin artırılması, əməyin düzgün təşkili, vahid sahədən maksimum ekoloji təmiz məhsul istehsalı tələbləri çərçivəsində torpaqlardan tam, dolğun və səmərəli istifadəni təmin edəcək ərazinin təşkilinin (landşaft quruculuğunun) üsullarını öyrədir.

“Yerquruluşu layihələşdirməsi” çərçivəsində yerquruluşu sxemlərinin, təsərrüfatlararası və təsərrüfatdaxili yerquruluşu layihələrinin tərtibinin əsaslandırılmasının və həyata keçirilməsinin metodiki əsasları da işlənilir.

Yerquruluşu elmi müxtəlif elmlərlə sıx əlaqədə fəaliyyət göstərir. Yerquruluşuna dair layihə həllərinin keyfiyyətinə təsir edən amillərdən biri də torpaqları xarakterizə edən kadastr göstəricilərinin yerquruluşu istehsalat prosesində nəzərə alınması şərtidir. Belə ki, məhz **torpaq kadastrı** işləri nəticəsində hər bir torpaq sahəsini digərlərindən fərqləndirən xüsusiyyətlər tədqiq olunurlar ki, bunlar da yerquruluşu layihə və sxemlərində obyektin (torpaq massivinin) özünəməxsusluğunu, onunla bağlı layihə həllərinin hazırlanması istiqamətlərini müəyyənləşdirir.

Torpaq kadastrı məlumatları yerquruluşunda torpaqayırmaları, torpaqla bağlı müxtəlif əqdlərin həyata keçirilməsi proseslərində bilavasitə informasiya bazisi rolunu oynayırlar.

Yerquruluşu və torpaq kadastrı istehsalat prosesləri ilə, daşınmaz əmlaka (torpağa) hüququn dövlət qeydiyyatı hərəkətləri ilə torpaqis-tifadəçiləri, sahibkarlar torpaq sahələrində istifadəyə, onlar üzərində sərəncamverməyə hüquq verən sənədləri əldə etməyə nail olurlar.

Yerquruluşunun istehsalat prosesi həmçinin torpaq kadastrının tərkib hissəsi olan **torpaqların iqtisadi qiymətləndirilməsi** işləri ilə də sıx əlaqəlidir. Torpaq ehtiyatlarından səmərəli istifadənin təşkili və palanlaşdırılması işləri torpaqların iqtisadi cəhətdən qiymətləndirilməsi materiallarına istinad etmədən mümkün deyildir.

Yerquruluşu layihə və sxemlərində istehsalatın yerləşdirilməsi və ərazicə təşkilinə dair qərarların qəbulu zamanı torpaqların iqtisadi potensialını və torpaq münbitliyini xarakterizə edən göstəricilərin nəzərə alınması əsaslandırılmış layihə həllərinin hazırlanmasına şərait yaradır.

Yerquruluşu həllərinin qəbulu zamanı iqtisadi qiymətləndirmənin nəticələrindən istifadə layihə həllərinin iqtisadi cəhətdən əsaslandırılması, mümkün variantlardan ən yaxşısının seçilməsinə imkan verir.

Yerquruluşunun istehsalat prosesini **topoqrafiya, geodeziya, kartoqrafiya, fotoplanaalma** və digər planaalma işlərsiz təsəvvür etmək olmaz. Bu işlər adətən yerquruluşu əməliyyatlarını qabaqlayır. Belə ki, yerquruluşu işləri məhz geodeziya və sair planaalma proseslərində hazırlanmış planlar üzərində aparılır.

Azərbaycan suvarma əkinçiliyi ölkəsidir. Genişhəcmli **meliorasiya** respublikamızın torpaqlarının fiziki-kimyəvi, bioloji xüsusiyyətlərinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər kompleksidir. Yalnız yerquruluşu və meliorativ tədbirlərin kompleks vəhdətində torpaq ehtiyatlarının səmərəli istifadəsinin və mühafizəsinin təşkilinə nail olmaq olar.

Kənd təsərrüfatı müəssisələrində istehsalatın təşkilinə dair bütün məsələlərin mərkəzində torpaqlardan istifadə durur. Ona görə də, kənd təsərrüfatı müəssisələrində istehsalatın təşkili məsələlərini yerquruluşunu inkar etməklə aparmaq heç cür mümkün deyildir.

Son zamanlar inkişaf etmiş ölkələrdə olduğu kimi bizim respub-likamızda da təbiətdənistifadənin idarəedilməsi praktikasında **coğrafi informasiya sistemləri** və **torpaq-informasiya sistemləri** geniş istifadə olunur. Müstəqil respublikamızda hal-hazırda torpaq informatikasının konseptual elmi əsasları işlənib hazırlanmışdır. Müasir elektron avadanlıqlar və proqram vasitələrindən geniş istifadə etməklə

Azərbaycanda torpaq tədqiqatlarının operativ, obyektiv və riyazi əsaslarla aparılmasını təmin edən informasiya sistemi yaradılmışdır.

Çox təəssüflər olsun ki, hələ də bəzi alimlərimiz torpaqdan səmərəli istifadənin təşkili probleminə primitiv yanaşaraq ‘‘problemin həlli yalnız mənlikdir’’ təkəbbüründən çıxış edirlər. Biz problemin həllinə belə bəsit yanaşmalarla onun həllinə nail ola bilmərik. Problemin həlli yalnız və yalnız kompleks yanaşmadadır.

Torpaqdan səmərəli istifadənin təşkili probleminə ictimai-siyasi münasibətlər, bu münasibətlərin tərkib hissəsi olan torpaq münasibətləri, istehsalatın təşkili, iqtisadiyyatı, idarə edilməsi, torpaqlardan istifadənin ərazicə kompleks təşkili kontekstindən yanaşmalıyıq. Əks təqdirdə ana təbiət, torpaq lüzumsuz laboratoriya analizlərinin nəticələri ilə, bir çox hallarda xeyrindən çox ziyanı olan mineral gübrələrlə üzbəüz qalar. Torpaq torpaqşünasla, aqrokimyaçı ilə, mühəndis-mexaniklə, yerquruluşçusuyla, iqtisadçıyla ayrı-ayrılıqda danışmaq istəmir.

Yerquruluşu bir “bulaq”dır. Bu “bulağ”ın “göz”ləri torpaqşünaslıq, aqrokimya, əkinçilik, meliorasiya, sahə iqtisadiyyatı, kompüter texnologiyası və s. kimi elmlərdir. Bu “göz”lərdən süzülmüş təklif, tədbir dolu “damcı”lar yerquruluşu layihə və sxemlərində birləşib “saf bulaq suyu”nu – kompleks yerquruluşu tədbirlər sistemini əmələ gətirirlər.

## 4.3. Yerquruluşu istehsalat prosesinin iştirakçıları

Yerquruluşu əməliyyatları prosesində yaranan münasibətlərin iştirakçıları yerquruluşu işlərinin aparılmasını sifariş edənlərdən, yerquruluşu işlərinin podratçılarından və yerquruluşu işləri yerinə yetirilərkən hüquqlarına və qanuni maraqlarına toxunulan şəxslərdən və ya qüvvədə olan qanunvericiliyə uyğun olaraq bu münasibətlərdə iştirak edən orqanlar və şəxslərdən ibarətdir.

Yerquruluşu sənədlərinin sifarişçisi kimi yerquruluşu işlərinin görülməsi barədə qərar qəbul etmiş və ya vəsatət qaldırmış şəxslər (hüquqi və fiziki) çıxış edə bilərlər. Bütövlükdə yerquruluşu sənədlərinin sifarişçiləri siyahısına aşağıdakıları aid etmək olar:

– icra hakimiyyəti orqanları;
– Azərbaycan Respublikası subyektlərinin icra hakimiyyəti orqanları;
– yerli özünüidarəetmə orqanları;

– torpaq sahəsinin alınmasına iddialı olan vətəndaşlar və hüquqi şəxslər;

– torpaq sahəsi ilə bağlı əqdlər bağlanarkən və ya torpağa hüququn dövlət qeydiyyatı zamanı yerquruluşu işlərinin yerinə yetirilməsi barədə qərarlar qəbul etmiş torpaq üzərində hüquqa malik vətəndaşlar və hüquqi şəxslər.

Yerquruluşu işlərinin aparılmasına başlanması barədə əsas verən hallar aşağıdakılar ola bilər:

– mərkəzi dövlət hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası subyektlərinin dövlət hakimiyyəti orqanlarının, habelə yerli özünüidarəetmə orqanlarının müvafiq qərarları;

– vətəndaşlar, hüquqi şəxslər və yerquruluşu işlərini həyata keçirəcək strukturlar arasında yerquruluşu işlərinin aparılması barədə bağlanmış müqavilələr;

– hüquqi qüvvəyə minmiş məhkəmə qərarları.

Yerquruluşu işlərinin podratçısı qismində bu işlərin aparılmasına səlahiyyəti və lisenziyası olan fiziki və hüquqi şəxslər çıxış edə bilərlər.

Hal-hazırda yerquruluşu işlərinin aparılması üzrə əsas podratçı təşkilat kimi Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi strukturuna daxil olan dövlət unitar yerquruluşu müəssisələri çıxış edirlər.

Belə təşkilat kimi Azərbaycan Dövlət Yerquruluşu Layihə İnstitutu çıxış edir. Bu İnstitutunun respublikamızın regionlarında idarələri də fəaliyyət göstərir.

Yerquruluşuna dair böyükhəcmli (aerofotogeodezik, topoqrafik və digər planaalmalar) işlər həmçinin Aerogeodeziya və Kadastr İstehsalat Birliyi tərəfindən həyata keçirilir.

Yerquruluşu sənədlərinin hazırlanmasının təkmilləşdirilməsi, görülən işlərin keyfiyyətinin yaxşılaşdırılması, görülən işlərin keyfiyyətinin standartlara uyğunlaşdırılması məqsədilə yerquruluşu işlərinin podratçısının borcudur ki:

– yerquruluşu sənədlərinin hazırlanması və həyata keçirilməsinə dair təlimatların, normativ-texniki sənədlərin tələblərini, habelə Azərbaycan Respublikasının qanunlarını və digər hüquq normalarını rəhbər tutsun;

– yerquruluşu prosesində mənafelərinə toxunula biləcək şəxslərin hüquq və qanuni maraqlarına riayət etsin;

– maraqlı tərəfləri yerquruluşuna dair işlərin aparılacağı barədə

məlumatlandırsın;

– yerquruluşuna dair işlərin aparılması ilə bağlı əldə etdiyi məlumatlara münasibətdə dövlət sirri barədə qanunçuluğun tələblərinə riayət etsin.

Yerquruluşu işlərinin podratçısı yerquruluşu sənədlərində nəzərdə tutulmuş işlərin dəqiqliyinə, keyfiyyət və ekoloji təhlükəsizliyinə görə tam məsuliyyət daşıyır.

Yerquruluşu zamanı yaranmış münasibətlərin iştirakçısı kimi, yuxarıda göstərilən sifarişçidən və podratçıdan başqa, yerquruluşu prosesi həyata keçirilərkən hüquqlarına və qanuni maraqlarına toxunula bilən üçüncü şəxs də ola bilər.

Bu kateqoriyaya yerquruluşunun sifarişçiləri olmayan, amma yerquruluşu aparılan ərazilərə bitişik və ya onların sərhədləri daxilində yerləşən torpaqların sahibləri – fiziki və hüquqi şəxslər ola bilərlər.

Yerquruluşu iştirakçılarının tərkibinə həmçinin torpaq sahələri olmayan, amma bu işlərlə əlaqədar mənafelərinə toxunulacaq vətəndaşlar, ictimai təşkilatlar və digər hüquqi şəxslər də ola bilərlər.

Yerquruluşu prosesi iştirakçılarının hüquqları aşağıdakılardır:

– yerquruluşunun aparılması vəziyyəti və nəticələri barədə ödənişsiz informasiya almaq;

– qanunçuluğa müvafiq olaraq yerquruluşu aparılarkən iştirakçının qanuni hüquqları pozulduğu halda hüquqa zidd hərəkətlər barədə şikayət etmək.

Eyni zamanda yerquruluşu prosesi iştirakçılarının vəzifələri də müəyyənləşdirilib:

– yerquruluşu prosesi iştirakçıları tərəfindən torpaq münasibətlərinə və yerquruluşuna dair Azərbaycan Respublikasının qanunvericiliyinə, normativ - hüquqi aktlarına, yerli özünüidarəetmə orqanlarının normativ - hüquqi aktlarına riayət edilməsi;

– torpaq ehtiyatlarından istifadəyə və onların mühafizəsinə nəzarət edən orqanların səlahiyyətləri çərçivəsində iştirakçıdan iddia etdikləri tələblərin yerinə yetirilməsi;

– təsdiq edilmiş yerquruluşu sənədlərinin həyata keçirilməsinə dair dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının qərarlarına riayət edilməsi;

– yerquruluşu işləri görülərkən yerquruluşunun maraq dairəsindəki

bütün torpaq sahələrinə girişə şəraitin yaradılması.

## 4.4. Yerquruluşunda dayanıqlı ekoloji landşaft quruculuğunun və planlaşdırılmasının elmi-metodiki əsasları

Planetin səthi olan yer atmosferlə qarşılıqlı təsirdə, əlaqədə insanın yaşaması üçün təbii mühiti yaradır. Yer səthinin elə xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlər insan cəmiyyətindən asılı olmayaraq mövcuddurlar və insan öz fəaliyyəti prosesində bu xüsusiyyətləri kökündən dəyişdirə bilmir. İnsanların arzu və istəklərindən asılı olmayan bu xüsusiyyətləri ‘‘təbii şərait’’ məfhumu altında birləşdirmək də olar. Yer səthinin bu xüsusiyyətlərinə (landşaftın təbii şəraitinə) iqlim (temperatur, yağıntı, külək, atmosfer təzyiqi, insolyasiya və s.) və biosfera (yerin üz qabığı ) aiddirlər. Landşaftın bu təbii şəraitlərinin ərazinin təşkilində, landşaft quruculuğunda, bütövlükdə yerquruluşunda nəzərə alınmaları vacibdir. Məhz bu baxımdan gələcək yerquruluşçuları tədqiq olunan ərazilərin təbii şəraitlərinin landşaft quruculuğunda, istehsalatın ərazicə təşkilində rolunu bilməlidirlər.

Məlumdur ki, havanın temperaturu yer üzərindəki temperatur fərqlərinə görə yaranır. Bu göstərici planetin səthində zonal yayıma malikdir ki, onlar da öz növbəsində bir sıra ekoloji-landşaft şəraitləri, o cümlədən bitki örtüyünün xüsusiyyətlərini müəyyənləşdirir.

Yerquruluşu tədbirlər sistemində temperatur rejimini xarakterizə edən göstəricilər sırasında aşağıdakıları bilmək tələb olunur:

– isti və soyuq dövrlər üçün orta illik, orta aylıq maksimal və minimal temperaturlar;

– şaxtalı günlərin müddəti;

– müsbət temperaturlu, $10^0$S-dən artıq temperaturlu günlərin sayı;

– müsbət temperaturun cəmi;

– torpağın, havanın, suyun və s. temperaturu və müxtəlif dövrlərdə onların nisbəti;

– torpağın donma dərinliyi.

Yağıntılar torpağın tipini, bitki örtüyünün tərkibini, eroziya proseslərini və s. müəyyənləşdirir və aşağıdakı göstəricilərlə xarakterizə olunurlar:

– illik, orta aylıq, orta illik, orta dekadalıq yağıntıların cəmi

(miqdarı);

– qar örtüyünün qalınlığı;

– yağıntıların kimyəvi tərkibi;

– yağıntısız günlərin sayı.

Külək rejimi eroziyanın səviyyəsini, qar örtüyünün paylanmasını, qazşəkilli tullantıların yayılma istiqamətini müəyyənləşdirir. Külək rejimi aşağıdakı göstəricilərlə xarakterizə olunurlar:

– illərin dövrləri üzrə hava kütləsinin dəyişməsinin istiqaməti və müddəti;

– küləyin sürəti;

– qara yelli küləklərin əsmə günlərinin sayı;

– ilin ayrı-ayrı dövrləri üçün küləksiz (1-2m/s) günlərin sayı.

İnsolyasiya kəmiyyəti bitkilərin inkişafını və insanların rekreasiya fəaliyyətlərinin şəraitinə təsir göstərən amillərdəndir.

İnsolyasiya-vahid zamanda bir kvadrat santimetr yer səthinə günəşdən düşən işıq enerjisinin miqdarıdır.

İnsolyasiyanı xarakterizə edən aşağıdakı göstəricilərin ərazinin təşkilində nəzərə alınması vacibdir:

– ilin dövrləri üzrə işıqlı günlərin sayı;

– insolyasiyanın intensivliyi;

– atmosferin tozluluğu;

– buludsuz (günəşli) günlərin sayı.

İqlimin qlobal təzahürü ilə bərabər yerli şəraitlər (relyef, bitki və s.) hesabına iqlimin yerli xüsusiyyətləri mikroiqlim yaradır. Mikroiqlim yerli torpaq tipinin, bitki və heyvanat aləminin formalaşmasına səbəb olur.

Mikroiqlimin təzahürünə dair göstəricilərə kiçik ərazilərin temperatur rejimi, rütubətlik, külək rejimi aiddirlər. Makroiqlimdən fərqli olaraq mikroiqlim həm də insan fəaliyyəti nəticəsində yaranır. Məsələn, insan fəaliyyəti nəticəsində salınmış meşə zolaqları, su hövzələri, mühafizə qurğuları və s. kiçik ərazilərdə mikroiqlim yaradır.

Torpaq örtüyü-yerin bərk qatının üst münbit səthidir. Yerin torpaq örtüyü bitki yetişdirmək qabiliyyətinə malikdir.

Torpaq-iqlim kompleksinin bioloji inkişafının məhsuludur. Torpaq aşağıdakı göstəricilərlə xarakterizə olunur:

– genetik tipi;

– ağır metallarla, pestisidlərlə çirklənmə dərəcəsi;

– şoranlığı, şorakətliliyi;
– eroziyaya uğrama dərəcəsi;
– kənd təsərrüfatı bitkilərinin, çoxillik əkmələrin yetişdirilməsi üçün yararlılığı;
– eynicinsliliyi (texnoloji, ekoloji cəhətdən).

Torpağın tipi əsasən ərazinin iqlimi, relyefi, hidroqrafik və hidroloji xüsusiyyətləri ilə müəyyənləşir. Məhz torpaq tipi digər ekoloji-landşaft xüsusiyyətləri ilə istehsalatın ixtisaslaşma istiqamətini, istehsalın həcmini, xərcləri və s. müəyyənləşdirir.

**Ərazinin təbii bitki aləmi** təbii sahələrin məzmununu formalaşdırır. Təbii xüsusiyyətlərinə görə ərazinin bitki aləmi ağac (meşə) və ot örtüyünə bölünür. Ərazinin təbii bitki aləmi aşağıdakı göstəricilərlə xarakterizə olunurlar:
– ərazinin meşə ilə örtülmə dərəcəsi;
– meşə örtüyünün tipi və sahəsi;
– kənd təsərrüfatı torpaqlarının şumlanma dərəcəsi;
– təbii ot örtüyünün tipi və sahəsi;
– bitkilərin ərazini eroziyadan mühafizə qabiliyyəti;
– ot örtüyünün qidalılığı;
– meşələrin bonitet balları;
– meşələrin məhsuldarlığı;
– ərazinin rekreasiya xüsusiyyətləri.

Ərazinin bitki örtüyü, bitki aləmi iqlimdən, relyefdən, torpaq tipindən asılı olaraq formalaşır. Bu örtük, heyvanlar üçün yem, istehsalat üçün xammal rolunu oynayır, rekreasiya fəaliyyəti üçün şərait yaradır, torpağı eroziyadan qoruyur, insan üçün əlverişli və yaraşıqlı landşaftlar formalaşdırır.

Ərazinin hidroqrafiya və hidrogeologiya şəraitləri yerin xüsusiyyət göstəricilərindən olub yerüstü və yeraltı suların mövcudluğunu xarakterizə edirlər. Onların mövcudluğu relyeflə sıx əlaqəlidir. Su ehtiyatları insanların məişət və fizioloji tələblərini ödəmək üçün vacib olmaqla bərabər, həm də istehsalat və rekreasiya fəaliyyətinin rəsmi şərtləridir. Onlar aşağıdakı göstəricilərlə xarakterizə olunurlar.
– yerüstü su mənbələrinin sahələri;
– ilin müxtəlif müddətlərində suyun həcmi və ehtiyatı;
– suyun kimyəvi və bakterioloji tərkibi;

– su mənbələrinin dərinliyi;
– qrunt sularının yerləşmə dərinliyi;
– süni su mənbələrinin debiti;
– suyun məişət, istehsalat və rekreasiya məqsədləri üçün yararlılığı.

Su ehtiyatları istehsalatın növünə və həcminə təsir edən vacib faktorlardandır.

Yerin yuxarıda göstərilən xüsusiyyətləri ayrı-ayrı sahələrdə eyni zamanda təzahür edirlər. Onların müxtəlif birləşmələri təbii kompleksdə rəngarənglik yaradır, planetin istənilən sahəsini unikal edir. Bütün bunlar isə öz növbəsində ərazinin bu xüsusiyyətlərinin tədqiqini, yerquruluşu tədbirlərinin hazırlanmasında nəzərə alınmasını zəruri edir.

Elmin və texnikanın inkişaf etdiyi müasir dövrdə insanın təsərrüfat fəaliyyətində elə bir sahə yoxdur ki, burada relyefin nəzərə alınmasına ehtiyac olmasın. Zaman keçdikcə relyefin təsərrüfatda əhəmiyyət dairəsi genişlənir.

Ölkəmizin sərvətlərlə zəngin ərazilərinin mənimsənilməsi, mövcud təbii ehtiyatlardan daha səmərəli istifadə olunması, yeni ehtiyat mənbələrinin aşkar edilməsi məqsədilə suvarılan torpaq və otlaqların genişləndirilməsi zərurəti ortaya çıxır. Bütün bunlarla əlaqədar olaraq yeni dəmir və şose yollarının, su kanallarının, neft və qaz kəmərlərinin, yüksəkgərginlikli elektrik xətlərinin çəkilməsi, böyük çayların üstündə bəndlərin qurulması, su anbarlarının yaradılması və elektrik stansiyalarının tikilməsi, yeni şəhərlərin salınması və s. tələb olunur. Belə nəhəng və genişmiqyaslı tədbirlərin layihələndirilməsi və həyata keçirilməsi işində ərazinin relyef xüsusiyyətlərinin öyrənilməsi və nəzərə alınması zəruridir.

Ərazinin relyef xüsusiyyətlərinin yerquruluşunda və digər layihələndirmə işlərində nəzərə alınmasının elmi-metodiki əsaslarına dair E.Ş.Şirinovun işləmələri böyük əhəmiyyət kəsb edir. Alimin landşaft quruculuğunda və ərazinin infrastrukturlarının layihələndirilməsində, digər yerquruluşuna dair layihə variantlarının hazırlanmasında yerin relyef xüsusiyyətlərinin nəzərə alınmasına dair bəzi tövsiyələri ilə tanış olaq.

Relyefin quruluşunun, yamacların meylliyinin öyrənilməsi hidrotexniki qurğuların konstruksiyasının seçilməsinə, ətrafda nə qədər ərazinin sualtında qalacağını müəyyənləşdirməyə imkan verir. Relyef

haqqında məlumatlar filtrasiya və lillənmənin həcminin hesablanması üçün də çox vacibdir. Çay yataqlarının uzununa meylliyi və dərənin köndələn profilinin öyrənilməsi bəndin harada tikilməsini müəyyən etməyə, gələcəkdə su anbarına necə və nə qədər qırıntı materiallarının gətiriləcəyini müəyyən etməyə kömək edir.

Relyef və relyefəmələgətirici prosesləri bilmək hidrotexniki qurğuların istismar edilməsində də zəruri şərtlərdəndir. Belə ki, relyef və hidrotexniki qurğuların təsiri qarşılıqlıdır. Hidrotexniki qurğular relyefdə və relyefəmələgətirici proseslərdə əsaslı keyfiyyət və kəmiyyət dəyişikliklərinin törəməsinə səbəb olur. Buna münasib olaraq relyefin hidrotexniki qurğulara təsiri də dinamik və dəyişkən olur.

Hidrotexniki qurğuların layihələndirilməsi və tikilməsində relyefə aid aşağıdakıları bilmək lazımdır: relyefin mənşəyi, morfoloji və morfometrik xüsusiyyətləri, relyefin yaşı və əsas inkişaf mərhələləri; müasir ekzogen relyefəmələgətirici proseslərin təzahür formaları, su anbarları yamaclarının quruluş xüsusiyyətləri və burada gedən proseslərin (eroziya, uçqun, sürüşmə, və s.) dinamikası; hidrotexniki qurğuların tikilməsindən və istismara verilməsindən sonra çay hövzələrində və sahillərində gedən proseslərin (eroziya, uçqun, sürüşmə və s.) və su anbarlarının lillənməsinin əvvəlcədən müəyyən edilməsi və s.

Suvarma kanallarının və şor arxların çəkilməsində və istismarında da relyef haqqında məlumatlardan geniş istifadə etmək lazım gəlir. Kanalları elə yerlərdən aparmaq lazımdır ki, mümkün qədər az məsafə qət etsin, ərazi az parçalanmış olsun, torpaq işi az və tikinti materialları yaxın olsun. Kanallar keçən zonada yerin səthini və relyef formalarını təşkil edən çöküntülər hərtərəfli öyrənilməlidir ki, lazım gələn yerlərdə filtrasiya əleyhinə tədbirlər görülsün.

Azərbaycanda mənbəyini Mingəçevir su anbarından götürən Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarında filtrasiya nəticəsində xeyli su itir. Filtrasiya ilə əlaqədar ərazi xeyli şoranlaşmış, torpaqlar məhsuldarlığını azaltmışdır.

Dəmir yol və avtomobil yollarının layihələndirilməsində, çəkilməsində və istismarında da relyefi bilmək və onun xüsusiyyətlərini nəzərə almaq çox vacibdir. Bu məqsədlə relyefin xarici görkəmini, formasını, geoloji əsasını, hansı süxurlardan təşkil olunmasını, mənşəyini, yamacların meylliyini, formasını və səmtini, səthin şaquli və üfüqi

parçalanmasını dəqiq öyrənmək lazımdır.

Yolun uzunluğu, əyriliyi, onun tikilməsi üçün lazım olan materialın və istismar zamanı sərf olunan yanacağın miqdarı yolun planından asılıdır. Bunlar isə relyeflə-yamacların meylliyi ilə, relyef formalarının konturlarının böyüklüyü və forması ilə əlaqədardır.

Dağlarda yolların çəkilməsində və istismarında yamacların səmti böyük rol oynayır. Enli yol çəkmək üçün cənub səmtli yamaclar daha əlverişlidir. Bu yamaclar intensiv qızır, qar tez əriyir və qrunt quruyur. Bu yamaclarda sürüşmələr çox zəif inkişaf edir. Lakin yağıntısı az və quru iqlimə malik olan ölkələrdə yol çəkmək üçün şimal səmtli yamaclar daha əlverişlidir. Bu yamaclarda aşınma prosesləri nisbətən zəif gedir və uçqunlar az inkişaf edir, onlar tezliklə bitki ilə örtülür.

Dağlarda yol üçün qravitasiya və sel hadisələri, qar yığınları və qar uçqunları da çox təhlükəlidir. Ona görə də yol bu proseslərin inkişaf etdiyi sahələrdən aralı keçməli, ya da bu proseslərdən qorunmaq üçün qurğular tikilməlidir. Qar çovğunu olan yerlərdə yol hakim küləklər istiqamətində və qar yığınları üçün əlverişli mənfi relyef formalarından yuxarıda tikilməlidir.

Bəşəriyyətin müasir inkişaf mərhələsində əsas enerji mənbəyi hesab edilən neft və qazın mühüm, bəzən həlledici əhəmiyyəti vardır. Məlumdur ki, neft və qaz ehtiyatları yer kürəsində və ayrı-ayrı ölkələrdə bərabər paylanmamışdır. Ona görə də çox hallarda nefti və qazı uzaq məsafələrə nəql etmək lazım gəlir. Lakin qatar və xüsusi gəmilərdə (tankerlərdə) onları daşımaq həm baha başa gəlir, həm də çox vaxt aparır.

Hazırda mövcud olan neft və qaz kəmərlərinin istismarı ilə yanaşı, gələcəkdə yeni kəmərlərin çəkilməsi də istisna edilmir. Bununla əlaqədar olaraq neft və qaz kəmərlərinin keçdiyi trassanın relyefini, müasir ekzogen proseslərin xarakterini və dinamikasını dəqiq öyrənmək lazım gəlir.

Su ehtiyatları az olan ölkələrdə, xüsusilə iri sənaye mərkəzlərində su kəmərlərinin çəkilişi də son vaxtlar geniş miqyas almışdır. Su kəmərlərinin çəkilişi və istismarı da relyefi bilməyi tələb edir.

Ümumiyyətlə, kəmərlər üçün elə yerlər seçilməlidir ki, onlar abraziya, eroziya, sürüşmə və deflyasiya proseslərinin intensiv inkişaf etdiyi sahələrə düşməsin. Əks təqdirdə, bu proseslər qısa bir müddətdə kəmərlərin səthə çıxmasına səbəb ola bilər.

Relyefi bilmək şəhərləri layihələndirmək və şəhərsalma işində də çox vacibdir. Başqa təbii faktorlarla yanaşı, relyef haqqında məlumatlar şəhərin müxtəlif təsərrüfat obyektlərinin yerini, torpaq işlərinin həcmini, əsaslı binaların bünövrəsinin konstruksiyasını, sahənin möhkəmliyini müəyyən etməyə kömək edir. Bu məqsədlə şəhərlər və onların ayrı-ayrı sahələri tikilməzdən əvvəl relyefin ümumi xüsusiyyəti, relyef formaları, səthin meylliyi, ərazinin parçalanması və s. öyrənilir, layihələndirmə işlərində nəzərə alınır.

Relyef kənd təsərrüfatına, onun ərazi üzrə ixtisaslaşmasına və yerləşdirilməsinə, məhsuldarlığa bilavasitə və dolayı yollarla təsir edir. Sahələrin şumlanması, kənd təsərrüfatı maşınlarının istifadə edilməsi, sahəyə su çıxarılması, irriqasiya və meliorasiya işləri relyefin xüsusiyyətlərindən bilavasitə asılıdır. Bütün bu tədbirlərin həyata keçirilməsi üçün relyefin meyllik xüsusiyyətləri, şaquli və üfüqi parçalanma dərəcəsi, yamacların səmti və uzunluğu, mikrorelyef və onu doğuran səbəblər mükəmməl öyrənilməlidir. Relyefin göstərilən xüsusiyyətləri iqlim və hava ilə birlikdə bitki və heyvanların ekoloji şəraitinin formalaşmasında fəal iştirak etdikləri kimi, kənd təsərrüfatı bitkilərinin becərilməsinə və mal-qaranın saxlanılmasına bütün istehsalat siklində də əhəmiyyətli dərəcədə təsir göstərir və qoyulan vəsait və xərclərin kəmiyyətini müəyyən edir.

Relyefin kənd təsərrüfatına dolayı təsiri ondan ibarətdir ki, relyefə münasib olaraq iqlim, radiasiya və istilik balansı, rütubətlənmə və işıqlanma şəraiti formalaşır. Relyefin iqlim göstəricilərinə təsiri xüsusilə səhralarda özünü daha qabarıq büruzə verir. Ümumiyyətlə, kənd təsərrüfatı üçün azəlverişli olan bu sahələrdə relyefin ümumi xüsusiyyətlərinə münasib olaraq ayrı-ayrı sahələrdə nisbətən əlverişli şərait yarana bilər. Lakin relyefin bu cəhətdən kənd təsərrüfatındakı rolu ayrı-ayrı coğrafi enliklərdə müxtəlif olur.

Torpaq fondunun qiymətləndirilməsini və kənd təsərrüfatının ayrı-ayrı sahələrinin düzgün və daha səmərəli yerləşdirilməsini təmin etmək üçün fiziki-coğrafi rayonlaşma sxemləri ilə yanaşı, geomorfoloji rayonlaşma sxemi də zəruridir. Bu sxemlər müvafiq xəritələrlə təmin edilir. Geomorfoloji xəritələrdə relyefin yüksəkliyə görə ərazi üzrə diferensiasiyası, onun üfüqi və şaquli parçalanma dərəcəsi, meylliyi, çay şəbəkəsinin planı, eroziyaya, deflyasiyaya, bataqlılaşmaya və

şoranlaşmaya uğramış sahələr, qayalıqlar, meşə sahələri və s. əks etdirilir.

Kənd təsərrüfatı məqsədləri üçün respublikamızda irimiqyaslı geomorfoloji xəritələr, ayrı-ayrı relyefəmələgətirici proseslərin xüsusi xəritələri tərtib edilir. Relyef və ayrı-ayrı proseslər həm keyfiyyət, həm də kəmiyyət cəhətdən qiymətləndirilir. Bu məqsədlə relyef istilik və rütubəti tənzimləyən, eroziyanın xarakter və intensivliyini müəyyən edən bir amil kimi öyrənilir.

Növbəli əkin sisteminin daha səmərəli variantlarını seçmək üçün relyefin quruluş xüsusiyyətlərini bilmək və onu nəzərə almaq lazım gəlir. Ayrı-ayrı bitkilərin yerləşdirilməsi və onların məhsuldarlığını təmin etmək üçün mikrorelyef formalarının öyrənilməsi və onların ekoloji obyekt kimi qiymətləndirilməsi vacibdir.

Kənd təsərrüfatında zəruri məsələlərdən biri torpaqların təsərrüfatçılığa yararlığı baxımdan qiymətləndirilməsidir. Bu sahədə aparılan işlərdə məqsəd kənd təsərrüfatı istehsalı üçün yararlılığına görə eyni tipli torpaqların ayrılması və xəritələşdirilməsidir. Bu torpaq tiplərinin yayıldığı areallarda relyeflə yanaşı hansı torpaqların yayıldığı, su ilə təminat dərəcəsi, iqlim və hava xüsusiyyətləri, təbii bitki və heyvanat aləmi öyrənilir. Ona görə də aparılan tədqiqat işləri kompleks xarakter daşımalıdır.

Torpaqların relyef cəhətcə qiymətləndirilməsi işində ilk növbədə yüksəkliyin və səthin parçalanmasının ərazi üzrə necə paylanmasını öyrənmək lazımdır. Yüksəklik kənd təsərrüfatının ayrı-ayrı sahələrinin yerləşdirilməsində əsas rol oynayır. Yüksəkliyə görə rütubət və istilik paylanır, səth və qrunt sularının rejimi formalaşır, torpaq və bitki örtüyü yaranır.

Səthin parçalanması (xüsusilə şaquli parçalanma) torpaqların aqroistehsalat xüsusiyyətlərini müəyyən edir. Kənd təsərrüfatı və təbii otlaq bitkilərinin sıxlığı və məhsuldarlığı da çox vaxt bununla müəyyən edilir. Kənd təsərrüfatı bitkilərini yerləşdirərkən bunu nəzərə almaq lazımdır ki, məsələn, Şamaxı rayonunun bütün ərazisi (900 m-ə qədər) dəmyə üzümçülüyü üçün çox əlverişli olduğu halda, qışı soyuq keçən illərdə dərə və çökəkliklərdə salınmış üzümlüklərin şaxta vurması halları müşahidə edilir. Üfüqi parçalanma kənd təsərrüfatı bitkilərinin yerləşdirilməsinə və maşınların istismarına əhəmiyyətli dərəcədə təsir edir. Parçalanma nə qədər sıx olarsa sahələrin becərilməsi daha çox vəsait

tələb edir, məhsulun maya dəyərini artırır.

Yamacların quruluş xüsusiyyətləri bitkilərin vegetasiyasına, inkişafına, məhsulun keyfiyyət və kəmiyyətinə təsir göstərir. Ona görə də yamacların hərtərəfli öyrənilməsi lazım gəlir. Yamacların uzunluğu, formaların səthə açılıb-açılmaması, aşınma materiallarının əmələ gətirdiyi örtüyün olması, onun qalınlığı, xarakteri və tərkibi, qrunt və yeraltı suların miqdarı, hansı dərinlikdə yerləşməsi və rejimi, meyllik, parçalanma dərəcəsi və s. kimi məlumatları bilmək kənd təsərrüfatı istehsalatının ərazicə təşkili üçün çox vacibdir.

Kənd təsərrüfatı maşınlarının istismarı və torpaqların rütubət rejimi yamacların meyllik və parçalanma dərəcəsindən asılıdır. Meylliyin öyrənilməsi və xəritələşdirilməsi torpaqların yuyulmadan mühafizəsi və eroziya əleyhinə mübarizə tədbirlərinin görülməsi üçün də lazımdır.

Torpağın yuyulması meylliyin 2-3$^0$ olduğu yerdən başlayır. Meyllik artdıqca torpağın yuyulması və ümumiyyətlə, yamaclarda eroziya prosesi güclənir, torpağın və torpaqəmələgətirən süxurların rütubətliliyi azalır, kənd təsərrüfatı bitkilərinin və otlaqların inkişafı zəifləyir, məhsuldarlıq aşağı düşür. Meyllik 3-4$^0$ –yə çatanda torpaqların yuyulması daha da sürətlə gedir. Yamacların meylliyi 8-10$^0$ və daha da çox olanda əkin sahələrinin şumlanması məsləhət görülmür.

Yamacların uzunluğu da torpaqların yuyulmasında mühüm rol oynayır. Yamaclar uzunlaşdıqca eroziya da artır, xüsusilə bitki örtüyü seyrək olanda və yağışlar leysan xarakteri daşıyanda.

Morfoloji xüsusiyyətinə görə yamaclar özlərinin köndələn kəsimində qabarıq, batıq, düz və mürəkkəb quruluşlu olur. Qabarıq yamaclarda aşağıya doğru istiqamətdə meyllik artdığına görə torpaqların yuyulması və eroziyası da artır. Bu cür yamacların aşağı hissəsində səthin yuyulma sürəti suayırıcına yaxın sahələrə nisbətən 1,5 dəfə çoxdur.

Batıq kəsimli yamaclar tarazlaşma profilini xatırladır. Ona görə də bu yamaclar çox zəif yuyulur. Meyllik bu yamaclarda suayırıcından başlayaraq yamacın orta və aşağılarına doğru tədricən azalır. Ona görə də burada ya zəif eroziya, ya da akkumulyasiya prosesləri gedir. Yamacın yuxarısında eroziya prosesi (torpağın yuyulması) nisbətən güclüdür.

Düz yamaclarda suayırıcından başlayaraq aşağıya doğru səth axımı tədricən artır. Buna müvafiq olaraq eroziya prosesinin intensivliyi və torpağın yuyulma həcmi də bu istiqamətdə böyüyür. Belə yamacların ayrı-

ayrı qurşaqlarında eroziya kəmiyyətinin fərqi qabarıq yamaclara nisbətən çox azdır.

Mürəkkəb yamaclar yuxarıda adlarını çəkdiyimiz yamacların müxtəlif kombinasiyasından təşkil olunur. Ona görə də bu yamacların ayrı-ayrı qabarıq, batıq və düz hissələrində torpaq eroziyası özünə xas tərzdə inkişaf edir.

Eroziya və torpağın yuyulmasına yamacların səmti də çox təsir göstərir. Səmtdən asılı olaraq yamacların istilik və işıqlanma rejimi dəyişir. Bu da öz növbəsində torpağın temperaturunu, rütubətliyini, küləklərin istiqamət və rejimini tənzimləyir. Bütün bunlar da yamacların quraqlıq dərəcəsinə, qışda qar toplanmasına və torpağın donması və donunun açılması proseslərinə təsir göstərir.

Kənd təsərrüfatı istehsalatı üçün mikrorelyef formalarının öyrənilməsi də zəruridir. Mikrorelyef formaları tutduqları sahədə rütubət və istiliyi tənzimləyir, torpaqəmələgətirmə proseslərinə təsir göstərir. Bununla belə, mikrorelyef kənd təsərrüfatı bitkiləri üçün əlverişli və ya qeyri-əlverişli şərait yaradır.

Mikrorelyefin kənd təsərrüfatı bitkilərinə təsiri günəş radiasiyasının və rütubətin çatışmadığı düzənliklərdə daha qabarıq gözə çarpır. Səthin quruluşunda az da olsa qeyri-bərabərlik mülayim və rütubətli ekvatorial qurşaqlarda bataqlıqlaşmaya, səhra, yarım səhra və quru çöllərdə şoranlaşmaya səbəb olur. Təsadüfi deyildir ki, düzənlik ərazidə kənd təsərrüfatı ilə əlaqədar olaraq bütün planlaşdırma, meliorasiya və irriqasiya tədbirləri əvvəlcədən aparılmış mühəndis-geoloji, geomorfoloji, landşaft tədqiqatları və tərtib olunmuş irimiqyaslı müvafiq xəritələrin əsasında aparılır.

Relyef, yerli iqlim şəraiti, torpaq-bitki örtüyü və insanın kənd təsərrüfatı fəaliyyəti qarşılıqlı əlaqədə olaraq ekzogen proseslərin xarakterini, dinamikasını və intensivliyini müəyyən edir. Həmin proseslərin bir qismi (eol, eroziya) özünü fəal büruzə verir ki, bu da relyefin, torpaq və bitki örtüyünün, tarla, bağ və pplantasiyaların normal inkişafına mənfi təsir göstərir. Relyefəmələgətirici proseslərin başqa bir qismi (bataqlıqlaşma, şoranlaşma, və s.) passiv inkişaf etsə də torpaq ehtiyatlarının sıradan çıxmasına, torpaqların keyfiyyətinin dəyişməsinə və məhsuldarlığın aşağı düşməsinə səbəb olur.

Bu göstərilən proseslərin kənd təsərrüfatına vurduğu ziyanın qarşısını

almaq üçün eroziya və eol proseslərinin inkişaf etdiyi sahələrdə relyefin dinamikasını stabil vəziyyətdə saxlayan tədbirlər görülməli, təbii bitki örtüyünü zənginləşdirməli, eroziyanın inkişaf etdiyi sahələrdə yarğan və qobuların kənarlarında, yamaclarda ağac və kol bitkiləri əkilməli, yamaclar terraslaşdırılmalı və hərəkətdə olan qum tirələrini və təpələri bərkitmək üçün tədbirlər görülməlidir.

Bataqlıqlaşma və şoranlaşma proseslərinin qarşısını almaq və ya onların inkişafını məhdudlaşdırmaq üçün ən səmərəli tədbir drenaj şəbəkəsinin çəkilməsidir.

Yuxarıda qeyd edildiyi kimi, ərazinin kənd təsərrüfatına yararlığı cəhətdən qiymətləndirilməsində və ayrı-ayrı kənd təsərrüfatı sahələrinin yerləşdirilməsində relyef mühüm rol oynayır. Məsələn, dəmyə dənli bitkilərinin yerləşdirilməsi üçün relyefin parçalanma xüsusiyyətini və parçalanma dərəcəsini, meylliyi nəzərə almaq lazım gəlir. Bu, taxıl zəmilərinin böyüklüyünü müəyyənləşdirir, kənd təsərrüfatı maşınlarından səmərəli istifadə edilməsini təmin edir. Suvarılan taxılçılıq təsərrüfatlarında relyefin meylliyinin və səthin hamarlıq dərəcəsinin nəzərə alınması zəruri şərtlərdəndir. Tarlalar üçün elə sahələr seçilməlidir ki, orada relyef eroziya və şoranlaşma proseslərinin inkişaf etməsinə imkan verməsin. Meylliyin çox olduğu və səthin hamar olmadığı sahələr biçənəklər və otlaqlar kimi istifadə edilməlidir. Bu cür sahələr bağçılıq və üzümçülükdə də istifadə edilə bilər. Belə yanaşmalarla eroziyanın qarşısını xeyli almaq olar.

Qoyunçuluğun intensiv inkişaf etdiyi ərazilərdə təsərrüfatların yerləşdirilməsində də başlıca olaraq relyefin xüsusiyyəti nəzərə alınır. Bu, ilk növbədə otlaqların keyfiyyətini, təbii bitki örtüyünün zənginliyini müəyyən edir. İqlimi quru keçən vilayətlərdə isə relyef sürüləri suvarmaq üçün istifadə edilən su mənbələrinin kəmiyyət və keyfiyyətini, günün qızmar saatlarında qoyunların dincəlmə yerlərini və suvarma mənbələri ətrafında örüşlərin böyüklüyünü müəyyənləşdirir.

Azərbaycan şəraitində dəmyə əkinçilik relyef və rütubətlənmə şəraiti ilə əlaqədar olaraq, əsasən 350-500 m-dən 1000-1200 m-ə qədər yüksəklik qurşağında yerləşmişdir. Lakin relyefin oroqrafik xüsusiyyətləri, onun parçalanma dərəcəsi və yamacların səmti ilə əlaqədar olaraq dəmyə əkinçilik qurşağı bəzən 1500-1600 m. yüksəkliklərə qədər qalxır. Bəzi kənd təsərrüfatı bitkiləri (kartof, çovdar və s.) daha

yüksəkliklərdə, bu bitkilər üçün əlverişli istilik rejimi (başlıca olaraq vegetasiya dövründə) mövcud olan cənub səmtli yamaclarda, geniş dərə və çökəkliklərdə də əkilə bilər.

Yüksəkliyə və yamacların səmtinə görə temperatur və rütubətlənmə rejiminin, ekzogen proseslərin xarakter və dinamikasının dəyişməsi əkin sahələrinin yerləşdirilməsində nəzərə alınmalıdır. Tarlaların formalaşdırılması zamanı çalışmaq lazımdır ki, onların əkin sahəsi eynisəmtli yamacda, müəyyən yüksəklik hüdudlarında yerləşdirilsin ki, bitkinin vegetasiyası və yetişməsi bərabər şəraitdə getsin.

Sahələrin şumlanması yamacların meylliyinə köndələn istiqamətdə elə aparılmalıdır ki, torpağın yuyulması özünün minimum həddinə ensin və vaxt keçdikcə yamaclar terraslaşdırılsın. Terraslaşdırılmış səviyyələr arasında dar zolaqlar saxlanmalı və orada ağac və kol bitkiləri əkilməlidir. Bu, yamacların uzunluğunu azaldır və səthi eroziyanı zəiflədir. Azərbaycanın Kiçik Qafqaz hissəsində əkinçiliyin ən qədim dövrlərindən yadigar qalmış terraslaşmış yamaclara tez-tez rast gəlmək olur.

Aparılan müşahidələr göstərmişdir ki, yamacların bu cür əkilməsi torpağın yuyulmasını 4-6 və hətta 12 dəfə azaldır.

Göründüyü kimi, kənd təsərrüfatı sahələrini planlaşdırmaq və yerləşdirmək üçün relyefi bilmək çox vacibdir. Lakin onu da nəzərə almaq lazımdır ki, relyefin bu və ya digər xüsusiyyətləri, onun kənd təsərrüfatına təsiri ərazinin yerləşdiyi iqlim qurşaqlarından, dağlıq ölkələrdə isə yüksəklikdən və relyefin xarakterindən asılı olaraq müəyyən edilir.

Kənd təsərrüfatı üçün tərtib edilən geomorfoloji xəritələrdə relyefin kənd təsərrüfatı sahələrinin yerləşdirilməsi üçün vacib xüsusiyyətlərinin əks etdirilməsi ilə yanaşı, relyefin iqlim, səth suları, torpaq və bitki örtüyü ilə əlaqəsi də göstərilməlidir. Xəritələrdə relyefin o elementləri əks etdirilməlidir ki, onların öyrənilməsi və təhlili əsasında torpaqların yerləşməsi qanunauyğunluqları, qar örtüyü, torpaqların rütubət rejimi, səthi axım, torpaqların yuyulması, mikroiqlim və s. haqqında fikir yürütmək mümkün olsun.

Suyun çatışmadığı arid iqlimli vilayətlərdə kənd təsərrüfatında birinci dərəcəli məsələ irriqasiya və meliorasiya tədbirləridir. Su anbarlarının tikilməsi, suvarma kanalları şəbəkəsinin, yerüstü və yeraltı kollektorların çəkilməsi, tarlaların suvarılması, şoran torpaqarın yuyulması relyefin və

onun bütün xüsusiyyətlərini yaxşı bilməyi tələb edir. Arid iqlimli vilayətlərin pambıq və s. kimi qiymətli texniki bitkilərin yetişdirildiyi yeganə ərazi olduğunu nəzərə alsaq, bütün bu tədbirlərin görülməsinin nə qədər mühüm əhəmiyyətə malik olduğunu görərik.

İrriqasiya və meliorasiya tədbirlərinin vacibliyi təbii-coğrafi şəraitdən asılıdır. Ona görə də meliorasiya tədbirlərinin görülməsində seçilən mühəndis üsulları, suvarma şəbəkəsinin tipi, bu şəbəkənin normal işləməsi və ya onun mümkün mənfi nəticəsi (şoranlaşma, bataqlıqlaşma) təbii şərait və xüsusi relyeflə müəyyən edilir.

Rütubətlənmə indeksi (illik yağıntının illik mümkün buxarlanmaya nisbəti) 0,12-dən az olan quraq regionlarda relyefi və təbii fiziki-coğrafi şəraiti nəzərə alıb, suvarma şəbəkəsinin elə quruluşunu seçmək lazımdır ki, su itkisi minimal həddə endirilsin.

Bu cür iqlim şəraitinə malik ərazidə mikroiqlim, qruntun sukeçirmə qabiliyyəti və şoranlaşma dərəcəsi, torpaq və bitki örtüyünün xarakteri relyeflə müəyyən edilir, onun "nəzarəti" altında olur. Bundan əlavə, relyef torpaq işinin həcmini, suvarma şəbəkəsinin tipini, suvarma üsulunu və texnikasını müəyyən edir. Relyefi təşkil edən çöküntülər relyefin quruluş xüsusiyyəti ilə birlikdə torpağın yuyulmasını, qruntun yatmasını, kanallarda suyun süzülmə yolu ilə itməsini və s. müəyyənləşdirməyə kömək edir.

Suvarma şəbəkəsinin layihələndirilməsində, relyefin parçalanması xüsusiyyətləri, meylliyi, onun ümumi kəsimində qabarıqlığı, batıqlığı və düzlüyü, təbii drenaj sisteminin olub-olmamağı və onun xarakteri nəzərə alınır.

Suvarma əkinçiliyi şəraitində mikrorelyef formalarını bilmək və nəzərə almaq çox vacib məsələlərdən biridir. Adətən nisbi yüksəklik 0,05-0,20 m. arasında tərəddüd edərsə düzənliklərin relyefində mikrorelyef formaları böyük sahə tutur və səthi xeyli mürəkkəbləşdirir. Bu cür sahələrdə ərazi kənd təsərrüfatı bitkiləri altında istifadə edilməzdən əvvəl irimiqyaslı geomorfoloji xəritələr tərtib edilir və bu xəritələrdə bütün mikrorelyef formaları, onların ayrı-ayrı ölçüləri əks etdirilir. Ondan sonra planlaşdırma işləri aparılır ki, bu da həmin sahədə aparılan bütün meliorasiya və irriqasiya işlərinə sərf olunan vəsaitin 30-35%-ə qədərini təşkil edir.

Təcrübə göstərir ki, nisbi hündürlük 0,20 m, meyllik isə 0,2 olarsa

kifayət qədər mürəkkəb relyef yaranar. Ona görə də əvvəlcədən müvafiq tədbirlər görülməsə və planlaşdırma işləri aparılmasa suvarma şırımları su ilə dolub yuyular və suyun itməsi halları baş verər. Suvarmaya normadan artıq su gedər, suvarma işləri xeyli vaxt aparar, torpaqlar bir yerdə bataqlıqlaşmaya, başqa bir yerdə isə şoranlaşmaya məruz qalar, bitkinin vegetasiya dövründə inkişafı və məhsuldarlığı qeyri-bərabər olar və s.

Suvarma üsulları və suvarma norması mikrorelyefə və səthin meylliyinə görə müəyyən edilir. Ona görə də suvarma şəbəkəsi çəkilərkən mikrorelyef və meyllik əsaslı olaraq nəzərə alınmalıdır. Mikrorelyefin suvarma şəbəkəsinin layihələndirilməsində və çəkilməsində nəzərə alınması və müvafiq kənd təsərrüfatı bitkisinin yerləşdirilməsi torpaq işlərinin kəmiyyətinə və ona sərf edilən vəsaitin azaldılmasına xeyli təsir edə bilər. Aparılan tədqiqatlar göstərir ki, suvarılan sahələrdə səthin meylliyinin optimal kəmiyyəti 0,1-0,5%-ə bərabərdir. Meyllik 0,05%-dən aşağıdırsa təbii axımla suvarma mümkün olmur. Meyllik 1-2 % olanda isə torpaqlar hökmən yuyulmağa məruz qalır.

Suvarma əkinçilik sahələri üçün geomorfoloji xəritədən əlavə, suvarma şəraitini də nəzərə alaraq geomorfoloji rayonlaşma sxemi tərtib etmək lazım gəlir. Bu sxemin əsasını morfogenetik və yaş etibarilə relyef tiplərinin (qədim və müasir deltalar və gətirmə konusları, çay terrasları, dağətəyi şleyflər və s.) göstərilməsi təşkil etməlidir. Belə sxemlər su mənbələrinin axtarışını asanlaşdırır, torpağın coğrafi yayılmasını və duzların qrunt suları vasitəsi ilə miqrasiya istiqamətini müəyyən etməyə imkan verir.

Meliorasiya işləri təbii sərvətlərdən daha səmərəli və geniş istifadə etmək məqsədilə ətraf mühitin xüsusiyyətlərinin məqsədəuyğun yaxşılaşdırılması üçün aparılan tədbirlərdən ibarətdir. Relyeflə əlaqədar olaraq meliorasiya tədbirləri kənd təsərrüfatında, nəqliyyatda, dağ-mədən sənayesində, tikinti işlərində və iqtisadiyyatımızın başqa sahələrində həyata keçirilir.

Suvarma işləri düzgün təşkil edilməzsə qrunt sularının səviyyəsi qalxar və bataqlıqların, yeni şoranlıqların əmələ gəlməsinə səbəb olar. Kənd təsərrüfatı üçün əvvəlcədən relyefi bilməli və suvarma işlərinin layihələndirilməsində nəzərə alınmalıdır. Bu məqsədlə tərtib edilən geomorfoloji xəritələrdə relyefin parçalanma xüsusiyyəti, intensivliyi və sıxlığı, mənimsənilən sahələrin səth meylliyi və mikrorelyef

xüsusiyyətləri, suayırıcıların morfoloji xüsusiyyətləri əks etdirilir. Bu xəritələrdə suvarma üçün əlverişli sahələr seçilir və relyef bütün dəqiqliyi ilə göstərilir.

Torpaqların meliorasiyası deflyasiya, eroziya, suffoziya əleyhinə və dəniz, göl sahillərinin bərkidilməsi üçün görülən tədbirlərdən və s. ibarətdir. Təbiidir ki, bu tədbirlərin həyata keçirilməsi üçün relyef haqqında hərtərəfli məlumata malik olmaq lazımdır.

Rekultivasiya tipli meliorasiya tədbirləri insanın təsərrüfat fəaliyyəti ilə əlaqədar olaraq sıradan çıxmış və məhv edilmiş landşaftın və onun ayrı-ayrı komponentlərinin bərpası ilə əlaqədar olaraq planlaşdırılır və həyata keçirilir. Bu məqsədlə relyef coğrafi mühitin başqa komponentləri (iqlim, mikroiqlim, səth suları, torpaq, bitki örtüyü, qrunt sularının rejimi s.) ilə yanaşı kompleks yolla öyrənilir. Bu komponentlərin istər landşaftın dəyişilməsində və sıradan çıxması prosesində, istərsə də onun bərpası dövründə qarşılıqlı əlaqələri araşdırılmalıdır.

Rekultivasiya ilə əlaqədar olaraq təbiətdə bir sıra antropogen mənşəli relyef formaları əmələ gəlir ki, onların da həm özü dəyişkən olur, həm də təbii relyefəmələgətirici proseslərin xarakterinə və dinamikasına təsir edir. Bütün bunların əvvəlcədən istismarı nəzarət altında olmalı və tənzimlənməlidir.

Beləliklə insanın yaşayış tərzi və əmək fəaliyyəti həmişə relyeflə əlaqədar olmuşdur. İnsan ətraf mühitə fəal təsir etsə də relyefdən və relyefə müvafiq olaraq yaranmış yerli iqlim, torpaq və bitki şəraitindən, su təminatından asılı olmuşdur. Onun məşğuliyyəti və təsərrüfatının istiqaməti relyef və ümumiyyətlə, təbii şəraitlə müəyyən edilmişdir.

Bu, gələcək yerquruluşçularından relyefi daha mükəmməl öyrənməyi, onun haqqında əldə edilən məlumatlardan geniş və düzgün istifadə etməyi tələb edir.

Torpaq, digər ekoloji sistemlər kimi, zaman keçdikcə öz xüsusiyyətlərini dəyişir. Bu dəyişiklik (genezis) xarici (abiotik) və daxili (biotik) qüvvələrin təsirilə baş verir. Təbii kompleksə insan təsiri bütövlükdə abiotik proseslərə (istehsalat), qismən də biotik proseslərə (rekreasiya) aiddir.

Landşaftın antropogen genezisi aşağıdakı prosesləri nəzərdə tutur: təbii mühitdən maddələrin ayrılması; landşaft elementlərində maddələrin toplanması; landşaftın quruluşunun pozulması, dağılması. Landşaft

komponentlərindən maddələrin ayrılması heç də o demək deyildir ki, ümumiyyətlə planetdən maddə yoxa çıxır. Burada söhbət yalnız konkret landşaftda maddə itkisindən söhbət gedir. Maddələrin çıxarılması burada bir sıra səbəblərdən baş verir. Maddənin müəyyən miqdarı vegetasiya dövründə meyvələrdə, toxumlarda, yaşıl kütlədə toplanır. Meyvələrin, giləmeyvələrin, toxumların yığımı yem tədarükündə, oduncaq tədarükündə, ov, balıqtutma zamanı maddə istehlak yerinə daşındığından, bu landşaftdan yoxa çıxır. Və yaxud da digər bir misal: torpaq eroziyasının inkişaf etdiyi yerlərdə torpağın münbit qatındakı maddələrin bir qismi yerini dəyişir və landşaft maddələr itkisi ilə üzləşir.

Landşaft elementlərində maddələrin toplanması süni və ya təbii yollarla digər sahələrdən maddələrin gətirilməsi ilə baş verir. Maddələrin toplanması aşağıdakı səbəblərdən ola bilər: mineral və üzvü gübrələrin verilməsi ilə; pestisidlərin tətbiqi ilə; qrunt sularının qalxması ilə; torpaqların suvarılması ilə;, küləklə, yeraltı və yerüstü sularla maddələrin gətirilməsi ilə və s. Landşaftın destruksiyası (pozulması, quruluşunun dağılması) genezisin mürəkkəb nəticələrindən hesab edilir. Landşaftın quruluşunun pozulması ətraf mühitin kökündən dəyişməsi və ya intensiv texnogen təsir nəticəsində baş verir. Belə şəraitlərdə adətən landşaftın azdayanıqlı elementləri şəraitə uyğunlaşır, dayanıqlı elementləri isə sadəcə dağılır. Bunlar isə son nəticədə yeni strukturun formalaşmasına səbəb olur. Landşaftın destruksiyasında eyni zamanda həm maddə itkisi, həm də maddələrin toplanması baş verir.

Baş verən proseslər landşaftın ayrı-ayrı xüsusiyyətlərini sistemin tolerantlıq çərçivəsindən kənara çıxarır. Bu zaman biosenozun və bütün digər faktorların strukturunu müəyyənləşdirən minimal şəraitlərin kəmiyyətləri dəyişir. Landşaftın yenidən təşkili zamanı zonallıq müddəasının tələblərinin pozulması baş verir.

Landşaftın davamlığı, başqa sözlə onun yetkinliyi torpaqlardan təsərrüfat məqsədləri üçün istifadədə əlverişli mərhələ sayılır. Landşaftın yaranması və dağıntısı-gözlənilməz nəticələr (torpaq eroziyası, subasma və s.) meydana çıxarır. Ona görə də, torpaqların istehsalat məqsədləri üçün istifadəsi baxımından, yetkin və dağılan landşaftların stabilləşdirilməsi üçün şəraitlərin yaradılması zəruridir. Yaranmaqda olan landşaftlar üçün onların yetkinliyi və stabilləşməsini sürətləndirən tədbirlər nəzərdə tutmaq lazımdır.

Torpaqların rekreasiya məqsədləri üçün istifadəsi nöqteyi-nəzərdən landşaftların destruksiyası mərhələsi daha əlverişlidir.

Belə ki, yetkin landşaft insanların istirahəti və digər məşğuliyyətləri üçün lazım olan görüntüləri yarada bilmir. Destruksiya mərhələsində landşaftlarda dəyişikliklər baş verir, onların müxtəliflikləri güclənir, landşaft kiçik ekosistemlərə bölünür ki, bütün bunlar da öz növbəsində insanın müxtəlif tələbatlarını ödəyir. Belə ki, istehsalat nöqteyi-nəzərdən əlverişli olmayan dəyişiklik (layların, karxanaların əmələ gəlməsi) düzən, aran yerlərdə cəlbedici rekreasiya sahələrinin yaranmasına səbəb olur. Landşaftın destruksiyası-obyektiv hadisə olub, planetin ekosistemlərinin ümumi genezisi ilə, habelə daxili səbəblərdən əmələ gəlir. Beləliklə, landşaftların destruksiyası insanın landşaftlara təsiri və onların təbii inkişaf prosesində yaranan təbii hadisələrdir.

Yerin xüsusiyyətlərinin öyrənilməsi torpaqlardan səmərəli istifadənin vacib şərtlərindəndir. Bu bilik torpaqlardan, habelə digər təbii resurslardan tam, dolğun istifadə edilməsi, təbiətin mühafizəsi, istehsalatın və rekreasiyanın səmərəliliyinin artırılması üçün elmi zəmin yaradır.

# FƏSİL V.
# AZƏRBAYCANDA YERQURULUŞU SİSTEMİ

## 5.1. Azərbaycanda torpaqlardan istifadəyə və onların mühafizəsinə nəzarət edən dövlət orqanları

Torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi-dövlətin torpaq siyasətinin həyata keçirilməsində müxtəlif subyektlərin fəaliyyətini istiqamətləndirən, torpaq münasibətlərinin tarixi inkişafı prosesində nail olunmuş dəyərlərin, norma və ənənələrin qorunub saxlanılmasına yönəldilmiş ictimai həyatı tənzimləyən özünəməxsus və kifayət qədər mürəkkəb mexanizmdir.

Dövlətin torpaq siyasətini və torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsini bir medalın iki üzü kimi təsvir etmək olar. Burada "siyasət" anlayışı altında qərarların qəbul edilməsi ilə bağlı fəaliyyət, "idarəetmə" ifadəsi altında isə onların həyata keçirilməsi başa düşülür.

Nəinki müxtəlif inzibati sistemlər, hətta müxtəlif siyasi mədəniyyətlər belə müxtəlif idarəetmə qərarlarının qəbul edilməsini tələb edir. Şübhəsizdir ki, Azərbaycan Respublikasında torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi kursu müəyyən edilən zaman digər ölkələrdə həyata keçirilən bütün yeni ideya və eksperimentlər haqqında məlumata malik olmaq zəruridir. Bu bilik təqlidçilik üçün deyil, uğurlu praktikanın konkret şəraitə uyğunlaşdırılması üçün əsas olmalıdır.

Sivil mülki cəmiyyətdə torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi cinsindən, yaşından, milli mənsubiyyətindən asılı olmayaraq insanlara ləyaqətli həyat şəraiti yaratmağa, meydana çıxan ziddiyyətləri sosial qrupların xeyrinə həll etməyə və sosial həyatın bütün sahələrində mütərəqqi dəyişiklikləri təmin etməyə yönəldilir.

Torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi nəzəriyyəsi dinamik inkişaf edən sahələrdən biri olmaqla elmi biliklərin beynəlmiləlləşdirilməsi və uğurlu idarəetmə təcrübəsinin ümumiləşdirilməsi hesabına daima zənginləşir. Xarici təcrübənin ümumiləşdirilməsi, torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi nəzəriyyəsinin mənimsənilməsi, ən yeni konsepsiyaların və idarəçilik paradiqmalarının öyrənilməsi və dərk edilməsi müəyyən şəraitdə praktikada səmərəli həyata keçirilə biləcək idarəçilik potensialının

yaranmasına imkan verir.

İctimai münasibətlərin müasir inkişaf mərhələsində torpaq ehtiyatlarının idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi məsələsi daha çox aktuallıq kəsb edir.

Torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi inzibatçılıq, büdcə, işlərin təhlili və qiymətləndirilməsi, başqa sözlə konstitusiyaya müvafiq hüquqi-legitim sahənin yaradılması kimi idarəçilik fəaliyyəti növləri ilə sıxı bağlıdır. Torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi vətəndaşların könüllü fəaliyyəti ilə uyğunlaşdırılır, qarşılıqlı fəaliyyət göstərir və müəyyən dərəcədə onunla genişləndirilir.

Belə qarşılıqlı fəaliyyət sosial idarəetmə sferasını təşkil edir. Buna görə də torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi cəmiyyətin sosial idarə edilməsinin tərkib hissəsidir.

Torpaq ehtiyatlarının dövlət tərəfindən səmərəli idarə edilməsi elmi cəhətdən əsaslandırılmış nəzəriyyəyə istinad edilməklə praktiki fəaliyyətdən ibarətdir.

Torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsinin predmetini dövlətlə həm idarəetmə subyektləri və həmçinin idarəetmə obyektləri kimi çıxış edən ərazi vahidləri (respublika səviyyəsindən konkret təsərrüfat sahəsinə qədər) arasındakı qarşılıqlı əlaqə, təsir və münasibətlər təşkil edir.

Yerquruluşu sistemi torpaq ehtiyatlarının dövlət tərəfindən vahid idarəetmə sisteminin tərkib hissəsi kimi torpaq münasibətlərinin dövlət tərəfindən idarə edilməsinin əsas həlqəsini təşkil edir.

Azərbaycanda torpaq ehtiyatlarını idarəetmə quruluşu obyektiv şərtlər əsasında meydana gəlmiş və formalaşmışdır. Azərbaycan SSR-də yerquruluşu xidməti torpaq üzərində vahid dövlət mülkiyyətinə müvafiq təşkil olunmuşdu. Məhz torpaq münasibətlərinin belə forması yerquruluşu xidmətinin əsaslarına uyğun idi. XX əsrin əvvəllərində Azərbaycan SSR-də torpaq resurslarını idarə edən xüsusi dövlət orqanı – Torpaq Komitəsi mövcud olmuşdur ki, bu da sosialist torpaq münasibətlərinin bərqərar olması üçün çox işlər görmüşdür.

Sovet hakimiyyətinin sonrakı illərində torpaq ehtiyatlarının idarə edilməsində Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdanistifadə və Yerquruluşu Baş İdarəsi, digər idarələrin torpaq bölmələrinə söykənərək, aparıcı rol oynamışdır. Kənd təsərrüfatı

sahəsinin vacibliyi mövqeyindən sovet hakimiyyəti dövründə Kənd Təsərrüfatı Nazirliyinin torpaq ehtiyatlarının dövlət tərəfindən idarə edilməsi prosesində kifayət qədər hüquqlara malik olmasını məntiqə uyğun saymaq olar.

İctimai münasibətlərin müxtəlif inkişaf mərhələsində yerquruluşu işləri növlərinin müxtəlif nisbətləri mövcud olmuşdur.

Azərbaycanda Sovet hakimiyyətinin bərqərar olduğu dövrə qədər burada kəndlərarası və kənddaxili yerquruluşu işləri üstünlük təşkil etmişdir. Sovet Azərbaycanının "Torpaq haqqında" 5 may 1920–ci il tarixli dekretinin reallaşması zamanı və kənd təsərrüfatının kollektivləşdirilməsi prosesində əsas diqqət təsərrüfatlararası yerquruluşuna yönəldilmişdir.

XX əsrin 90-cı illərinə qədər kolxoz və sovxozların təsərrüfatdaxili yerquruluşu böyük yer tutmuşdur. Bu illərdə planaalma və tədqiqat, kolxoz və sovxozların böyüdülməsi və kiçildilməsi, yararlı torpaqların bonitirovkası və iqtisadi cəhətdən qiymətləndirilməsi, torpaqların istifadəsinə nəzarət və onların qorunması bir-birinə bağlı şəkildə aparılmışdır.

Yeni torpaq münasibətləri şəraitində Azərbaycan Respublikasında torpaq ehtiyatlarının idarə edilməsi bütün səviyyələrdə torpaq qanunçuluğuna riayət edilməsini təmin etməlidir. Respublikada torpaq ehtiyatlarının idarəedilməsi funksiyaları hakimiyyətin müxtəlif səviyyələri və qolları arasında bölüşdürülmüşdür. İdarəetmə funksiyalarının bir hissəsi qanunverici hakimiyyətin səlahiyyətinə, bir hissəsi isə icra və məhkəmə hakimiyyətlərinin səlahiyyətlərinə aid edilmişdir.

Respublikanın qanunverici hakimiyyət orqanlarının səlahiyyətlərinə Azərbaycan Respublikası Konstitusiyasına, torpaq qanunvericiliyinə və Azərbaycan Respublikasının digər qanunlarına müvafiq qanunverici və hüquqi normativ aktların qəbul edilməsi daxildir .

Mülki Məcəllənin və həmçinin torpaq qanunçuluğunun öyrənilməsi göstərir ki, respublikada məhkəmə hakimiyyətinə əsasən aşağıdakı iddia kateqoriyaları aiddir:

– torpaq sahələrinin verilməsindən yerli inzibati orqanların boyun qaçırmasının qanunçuluğunun etiraf edilməsinin tələbi;

– torpaq üzərində mülkiyyət və ömürlük vərəsəlik hüququnu təsdiq edən dövlət aktlarının qeydiyyata alınması və verilməsinə inkara və

həmçinin torpağın icarəsi üzrə bağlanmış sazişin qeydiyyata alınmasından boyun qaçırmağa görə şikayətlər;

– torpaq üzərində mülkiyyət hüququnun, torpaq sahələrinin ömürlük vərəsəliliyinin və istifadəsinin, onların icarəsinin yerli inzibati orqanlar tərəfindən dayandırılmasının qeyri-qanuniliyinin etiraf edilməsi tələbi;

– torpaq mülkiyyətçilərinin, torpaq sahiblərinin və torpaq istifadəçilərinin dövləti və ictimai ehtiyacların ödənilməsi üçün tikilməsi zəruri olan obyektlərin yerləşdirilməsi üçün torpaq sahələrinin geri alınması barədə yerli inzibati orqanların qabaqcadan razılaşdırma barədə qərarlarından şikayət;

– kəndli (fermer) təsərrüfatının başçısı vəfat etdikdən sonra torpaq sahəsi üzrə vərəsəlik hüququnun üstünlüyünün etiraf edilməsi tələbi;

– xidməti torpaq payının verilməsinə, həmçinin qanunçuluqda göstərilmiş şəxslərə xidməti torpaq paylarından istifadə hüququnun saxlanmasına inzibati orqanlar tərəfindən etiraz edilməsinin qeyri-qanuniliyinin etiraf edilməsi tələbi;

– torpaq sahələrinin dövləti və ictimai ehtiyacların ödənilməsi üçün geri alınması, satın alınması, yaxud müvəqqəti götürülməsi zamanı vurulmuş ziyanların ödənilməsi tələbi;

– torpaq sahələrinin qeyri-qanuni tutulması, onun çirkləndirilməsi, xarab edilməsi və torpaq mülkiyyətçiləri və torpaq istifadəçilərinin digər hüquqlarının pozulması nəticəsində dəymiş zərərin ödənilməsi tələbi;

– torpaq sahələrinə sahibolma, onlardan istifadə və icarə haqqında ömürlük vərəsəlik hüquqları könüllü dayandırıldıqda yerli inzibati orqanlardan torpaqların yaxşılaşdırılmasına çəkilmiş xərclərin ödənilməsi haqqında, həmçinin yerli inzibati orqanların torpaq sahiblərindən və istifadəçilərindən qaytarılan torpaqların keyfiyyət vəziyyətinin pisləşməsinə və xarab edilməsinə görə dəyən ziyanın ödənilməsinə görə tələbi;

– torpaq sahəsinin digər şəxslərə verilməsinə dair yerli inzibati orqanların qərarlarından şikayət;

– yanaşı yerləşmiş torpaq sahələrində fərdi yaşayış binalarının mülkiyyətçiləri arasındakı mübahisələr, sərhəd və ölçüləri mübahisəli olan torpaq sahələrinin istifadəsindəki maneələrin aradan qaldırılması barədə iddialar;

– bağçılıq, yoldaşlıq müəssisəsi ilə onun üzvləri arasında olan

mübahisələr, yoldaşlıq müəssisəsinin öz üzvləri arasında olan mübahisələr, həmçinin ərlə arvad (o cümlədən keçmiş ərlə arvad) arasında torpaq sahələrinin bölüşdürülməsi, yaxud bu sahədən istifadə qaydaları üzrə mübahisələr;

– bağ-tikinti kooperativinin üzvləri ilə kooperativ arasında olan mübahisələr, həmçinin bağ-tikinti kooperativinin öz üzvləri arasında torpaq sahələrindən istifadə, yaxud onun bölüşdürülməsinə görə mübahisələr.

**Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərinə Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 6-cı maddəsinə görə aşağıdakılar aid edilir:**

– Azərbaycan Respublikasının torpaq qanunvericiliyinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması;

– torpaq qanunvericiliyinin icrasını təmin edən normativ hüquqi aktların qəbulu və onlara dəyişikliklərin edilməsi;

– dövlət torpaq kadastrının, torpaqların monitorinqinin və yerquruluşunun aparılması qaydalarının müəyyən edilməsi;

– bu məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi, onların dövlət və ictimai ehtiyacların təmin edilməsi məqsədilə geri alınması;

– xüsusi mülkiyyətdə olan torpaq sahələrinin bu məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada satın və ya məcburi satın alınması;

– dövlət qeydiyyatına alına bilən torpaq sahələrinin minimum hədlərinin müəyyən edilməsi qaydalarının müəyyənləşdirilməsi;

– torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi;

– yay və qış otlaq sahələrinin inzibati-ərazi vahidlərinə istifadəyə verilməsi;

– torpaq vergisinin dərəcələrinin, onların ödənilməsi qaydalarının və torpaq vergisinin tutulması sahəsinə güzəştlərin müəyyən edilməsi;

– torpaqlardan səmərəli istifadəyə, torpaqların münbitliyinin artırılmasına, torpaq ehtiyatlarının qorunmasına dair və digər təbiəti mühafizə tədbirlərinin dövlət proqramlarının hazırlanması və yerinə yetirilməsi;

– dövlət mülkiyyətində olan torpaqların istifadəsi ilə bağlı fəaliyyətin dövlət ekoloji ekspertizasının keçirilməsi və dövlət ekoloji ekspertizasının müsbət rəy vermədiyi obyektlərin tikintisinin və ya onların yenidən qurulmasının dayandırılması haqqında qərar qəbul edilməsi;

– torpaqlardan qanunvericiliyə uyğun istifadə olunmasına və onların mühafizəsinə dövlət nəzarətinin təşkil edilməsi və həyata keçirilməsi;

– dövlət torpaq kadastrının, torpaqların monitorinqinin və yerquruluşunun aparılmasının təşkil edilməsi;

– bu məcəllədə göstərilən və məhkəmədən kənar qaydada həll olunmalı torpaq mübahisələrinin həll edilməsi;

– qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

Torpaq ehtiyatlarının idarə edilməsi üzrə dövlətin funksiyaları müxtəlif təbiətlidir. Dövlət torpaq fondunun mülkiyyətçisi olduğu hallarda torpaq ehtiyatlarının idarə edilməsi bir başa dövlət tərəfindən həyata keçirilir. Belə hallarda dövlət hakim sərəncamverici səlahiyyətlərindən istifadə edir və öz göstərişlərini dövlət torpaqlarının istifadəçilərinə və icarədarlarına ünvanlayır. Bununla bərabər dövlət torpaqlarının istifadəçilərinə təsərrüfatçılıq sərbəstliyi verilməlidir. O hallarda ki, torpaqlar xüsusi mülkiyyətdə yerləşir, dövlət siyasi hakimiyyət orqanı kimi çıxış edərək dövlətin torpaq siyasətini müəyyən edir, mülkiyyətçilər üçün daşınmaz əmlak olan torpağın istifadəsi zamanı imkan verilən hədləri müəyyənləşdirir. Lakin bütün bu münasibətlər Azərbaycan Respublikasının torpaq qanunçuluğunun göstərişlərinə zidd olmamalıdır.

Yerli idarəetmə orqanlarının torpaq münasibətlərinin idarə edilməsi sahəsində səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, torpaq qanunvericiliyi və yerli özünüidarəetmə üzrə qanunverici aktlarla müəyyən olunur. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 8-ci maddəsinə görə torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin öz inzibati əraziləri daxilində səlahiyyətləri aşağıdakılardır:

– qanunvericiliklə müəyyən olunmuş qaydada bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, onlardan istifadə və həmin torpaqlar barədə sərəncam verilməsi;

– qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi;

– yaşayış məntəqələrinin baş planının, planlaşdırma və tikinti layihələrinin, yerquruluşu və təsərrüfat planlarının hazırlanması və həyata keçirilməsinin təşkil edilməsi;

– bələdiyyə torpaqlarının istifadəçilərindən torpaq sahələrinin icarəsinə görə haqq alınması;

– bələdiyyə ehtiyacları üçün torpaq sahəsinin bu məcəllədə və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada hüquqi və fiziki şəxslərdən geri alınması;

– öz səlahiyyəti daxilində torpaq mülkiyyətçilərinin istifadəçilərinin və icarəçilərinin hüquqlarının müdafiə edilməsi;

– bələdiyyə torpaqlarının mühafizəsinə və yaxşılaşdırılmasına dair proqramların hazırlanması və həyata keçirilməsi;

– hüquqi və fiziki şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilən (satılan) torpaq sahələrinin minimum həddinin müəyyən edilməsi;

– öz səlahiyyəti daxilində bələdiyyə torpaqlarından istifadə olunmasına və onların mühafizəsinə nəzarət edilməsi;

– öz səlahiyyəti daxilində bələdiyyə torpaqlarına dair məhkəmədən kənar qaydada həll olunmalı mübahisələrin həll edilməsi;

– qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

Azərbaycanda yeni torpaq münasibətlərinin yaranması yerquruluşu vasitəsi ilə həyata keçirilir. O dövlətin əlində torpaq islahatının həyata keçirilməsi və gələcək inkişafına yönəldilmiş torpaq qanunçuluğunun həyata keçirilməsində, torpaq-hüquq münasibətlərinin daima tənzimlənməsində, torpaq üzərində təsərrüfat formalarının çoxnövlüyünün yaradılmasında, respublikanın bütün torpaq ehtiyatlarının səmərəli istifadəsi və qorunmasında əsas vasitə kimi çıxış edir.

Ölkədə yerquruluşu xidmətinin, elmi və layihə-axtarış təşkilatları və idarələrinin vahid sistemi yaradılmışdır.

Bu sistem elmi cəhətdən əsaslandırılmış proqramların, sxemlərin və müxtəlif növ layihələrin yaradılması vasitəsi ilə hər bir torpaq sahəsinin səmərəli istifadəsi üçün metodlar və üsullar hazırlayır.

Yeni torpaq münasibətləri şəraitində yerquruluşu işlərinin müxtəlif növlərinə tələb müxtəlifdir. Azərbaycanda torpaq islahatının ilk mərhələsi kolxoz və sovxozların kökündən ləğvi, onların ərazilərində fermer (kəndli) təsərrüfatlarının, digər özəl (xüsusi) təsərrüfatların yaranması ilə

xarakterizə olunmuşdur. Bu məqsədlə ötən illər ərzində əsasən təsərrüfatlararası yerquruluşu işləri görülmüşdür. Onun əsas funksiyası torpaqların müxtəlif kateqoriyalı torpaq sahibləri və istifadəçiləri arasında yenidən bölüşdürülməsi olmuşdur. Yaxın perspektivdə təsərrüfatdaxili yerquruluşu işlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsini, torpağın qorunması, torpağa sahibolma və torpaqdan istifadənin səmərəliliyinin artırılması sahəsində digər tədbirlərin həyata keçirilməsini gözləmək olar. Bu gün Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi torpaq resurslarını idarə edən xüsusi sahələrarası orqan funksiyasını yerinə yetirir. O, həmçinin torpaqdan istifadə və torpaq münasibətləri sahəsində digər nazirlik və idarələrin idarəedicilik fəaliyyətini əlaqələndirir.

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2001-ci il tarixli 460 №-li fərmanı ilə yaradılmışdır.

İcraedici hakimiyyətin torpaq ehtiyatlarının idarə edilməsi üzrə mərkəzi orqanı olan komitə yerquruluşu, dövlət torpaq kadastrı, torpaqların monitorinqi, geodeziya və kartoqrafiya sahəsində dövlət siyasətini formalaşdırır və həyata keçirir.

Komitə öz fəaliyyətlərini bilavasitə özünün yerli orqanları-Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, rayon və şəhər torpaq şöbələri, həmçinin Azərbaycan Dövlət Yerquruluşu Layihə İnstitutu, Dövlət Torpaq Kadastrı, Torpaqların Monitorinqi və Məlumatlar Elm-İstehsalat Birliyi, Aerogeodeziya və Kadastr Istehsalat Birliyi, Bakı Kartoqrafiya Fabriki kimi idarəetmə strukturları vasitəsi ilə həyata keçirir.

**Komitənin əsas vəzifələri aşağıdakılardır:**

– dövlət torpaq kadastrı, torpaqların monitorinqi, yerquruluşu, geodeziya, topoqrafiya, xəritəçəkmə, qravimetriya, torpaq islahatı, torpaqların münbitliyinin bərpası və artırılması, torpaq bazarının təşkili, torpaq-hüquq münasibətlərinin tənzimlənməsi, ərazi vahidlərinin müəyyən edilməsi və torpaqla bağlı digər işləri təşkil etmək və həyata keçirmək;

– öz səlahiyyətləri hüdudlarında torpaqlardan istifadəyə və onların mühafizəsinə, geodeziya və kartoqrafiya fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;

– dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılması, ümumcoğrafı, torpaq, geobotaniki, siyasi-inzibati, elmi məlumat və digər

sahələrarası mövzu xəritələrinin, atlaslarının, ortoqrafık tədris vasitələrinin layihələşdirilməsini, tətbiqini və nəşrini təmin etmək;

– dövlət topoqrafik xəritələrin və planların hazırlanmasını, ümumdövlət, müdafiə, elmi-tədqiqat və digər məsələlərin həllini təmin edən dövlət plan və yüksəklik, o cümlədən qravimetrik şəbəkələrin yaradılmasını və işçi vəziyyətində saxlanmasını təmin etmək;

– Azərbaycan Respublikasının dövlət sərhədlərinin, o cümlədən sərhəd sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin delimitasiyası və demarkasiyası işlərini həyata keçirmək;

– Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Torpaq münasibətləri və yerquruluşunun müasir inkişaf mərhələsində Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin vəzifələrini aşağıdakı elmi tutumlu işlərlə daha da zənginləşdirmək olar:

– torpaq islahatının inkişaf problemlərinin ümumnəzəri və metodiki əsaslarının işlənib hazırlanması;

– torpaq islahatının həyata keçirilməsinin yekunlarının qiymətləndirilməsi, problem vəziyyətlərin müəyyənləşdirilməsi;

– respublikada torpaq islahatının antiböhran düzəlişləri konsepsiyasının işlənilməsi və onun perspektiv reallaşma proqramının əsaslandırılmasının metodik bazasının inkişafı;

– struktur elementlərin təsnifatının müəyyənləşdirilməsi və regional (ərazi) torpaq-təsərrüfat komplekslərinin torpaq münasibətlərinin struktur dəyişiklik şəraitinə görə zonalaşdırılması;

– respublikada torpaq islahatının struktur dəyişiklikləri və böhransız inkişaf proqramı variantlarının formalaşdırılması, onların qiymətləndirilməsi göstəricilərinin və meyarlarının əsaslandırılması;

– struktur dəyişikliklərinin və antiböhran torpaq islahatı variantının həyata keçirilməsində mərhələli ardıcıllığın əsaslandırılması.

**Komitə ona həvalə olunmuş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:**

– torpaq ehtiyatlarından səmərəli istifadə olunması və onların mühafizəsi, torpaqların münbitliyinin bərpası və artırılması, yerquruluşu, geodeziya, topoqrafiya və kartoqrafiya sahəsində dövlət proqramlarını hazırlayır və aidiyyəti orqanlarla birlikdə onları həyata keçirir;

– torpaqlarin eroziyadan, şorlaşma, şorakətləşmə və müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, torpaqların münbitliyinin qorunması layihələrini aidiyyəti təşkilatlarla birlikdə tərtib edir, həmin layihələrin yerinə yetirilməsinə nəzarət edir;

– dövlət torpaq kadastrının, torpaqların monitorinqinin aparılması, habelə yerquruluşunun həyata keçirilməsi üzrə işləri və tədbirləri təşkil edir və həyata keçirir;

– torpaq islahatının həyata keçirilməsi, torpaqdan səmərəli istifadə olunması və onun mühafizəsi, geodeziya, topoqrafiya, qravimetriya və kartoqrafiya sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq təşkilatlarla, xarici ölkələrlə elmi-texniki əməkdaşlıq edir, onların təcrübəsini öyrənir və tətbiq edir, qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrin ərazisində geodeziya və kartoqrafiya işlərini həyata keçirir;

– torpaq haqqında məlumat bankı yaradır, torpaq, geodeziya və kartoqrafiya haqqında qanunvericiliyin tələblərinə hüquqi və fiziki şəxslər tərəfindən riayət olunmasına nəzarəti həyata keçirir;

– yay və qış otlaq sahələrinin inzibati-ərazi vahidləri arasında uzunmüddətli istifadə üçün bölüşdürülməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;

– öz səlahiyyətləri daxilində torpaqların kənd təsərrüfatı və meşə təsərrüfatı dövriyyəsindən çıxarılması ilə əlaqədar olaraq kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin miqdarının müəyyən edilməsi barədə təkliflər verir;

– müəyyən olunmuş qaydada torpaq münasibətlərinin, geodeziya və kartoqrafiya fəaliyyətinin dövlət tənzimlənməsi ilə bağlı məsələlərə dair təlimatlar və göstərişlər qəbul edir, onların yerinə yetirilməsini təmin edir və icrasına nəzarət edir, zəruri hallarda müvafiq nazirlik, dövlət təşkilatları və bələdiyyələr ilə həmin məsələlərə dair normativ hüquqi aktların layihələrini razılaşdıraraq qəbul edir;

– təsərrüfat fəaliyyətinin torpağa olan zərərli nəticələrini təhlil edir, torpaqda baş verən hər hansı mənfi proseslərin əmələ gəlməsini öncədən müəyyənləşdirir və onlara qarşı mübarizə tədbirlərinin hazırlanmasında, habelə ekoloji şəraitin, eləcə də sanitar və fitosanitar normaların pozulmasının qarşısının alınmasında müvafiq dövlət orqanları ilə qarşılıqlı fəaliyyət göstərir;

– dövlət torpaq kadastrının və torpaqların monitorinqinin aparılması, yerquruluşunun həyata keçirilməsi, torpaqların mənimsənilməsi və mühafizəsi, habelə torpaqların rekultivasiyası ilə bağlı layihə-axtarış, elmi-tədqiqat və təcrübi-eksperimental işlərin aparılmasını təşkil edir;

– torpaq sahələrinin yerquruluşu planından və dövlət kadastrı məlumatlarından çıxarışlar verir;

– hər il 1 yanvar vəziyyətinə əvvəlki il üçün torpaq fondunun növlərinə, torpaqların rekultivasiyasına, mülkiyyətçilər və istifadəçilər üzrə torpaq bölgüsünə, hər 5 ildən bir isə torpaqların keyfiyyətinə (bonitirovka, iqtisadi qiymətləndirmə) dair ilkin hesabatları tərtib edir;

– torpaq vergisi dərəcələrinin müəyyənləşdirilməsi üçün kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balları müəyyənləşdirir, habelə torpağın normativ qiymətinin müəyyənləşdirilməsinə və torpaqlardan səmərəli istifadə olunması və onların mühafizəsini təmin edən iqtisadi həvəsləndirmə tədbirlərinə dair təkliflər hazırlayır;

– münbitlik xassələrini itirmiş torpaqların müvəqqəti əkin dövriyyəsindən çıxarılmasına (konservasiyasına) dair təkliflər verir, torpaqların münbitliyinin bərpası, artırılması və onların mühafizəsi üzrə investisiya proqramlarının ekspertizasını həyata keçirir, gələcəkdə həmin sahələrin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi barədə təkliflər verir;

– torpaq ehtiyatlarından istifadə olunmasında proqramların, sxemlərin və yerquruluşu layihələrinin dövlət ekspertizasını aparır, o cümlədən şəhər və qəsəbələrin baş planlarının, rayonların perspektiv planlaşdırılması sxemlərinin və digər layihələrin torpaqla əlaqədar hissələrini araşdırır və müvafiq rəylər verir;

– müvafiq dövlət və bələdiyyə orqanları ilə birlikdə torpaq, aqrokimya, geobotanika və digər axtarış işlərinin aparılmasını təşkil edir;

– çirklənmiş, öz keyfiyyətini itirmiş və yararsız hala düşmüş (tənəzzülə uğramış) torpaqların konservasiya edilməsinə dair təkliflərin hazırlanmasında iştirak edir;

– torpaq bazarı subyektlərinin hüquq və vəzifələrini əhali arasında təbliğ edir, torpaq bazarını tənzimləyən rəsmi məlumatların müntəzəm toplanmasını, xüsusi bülletenlər və kütləvi informasiya vasitələri ilə açıqlanmasını, habelə torpaq bazarının fəaliyyəti ilə bağlı öz səlahiyyətləri

daxilində digər tədbirləri görür;

– müvafiq inzibati rayon vahidlərində torpaq kadastrının aparılması məqsədilə lazımi kadastr-planaalma işlərini həyata keçirir;

– Azərbaycan Respublikası ərazisində baş verən dəyişikliklərə uyğun olaraq topoqrafik, inzibati, coğrafi və məlumat xəritələrində olan bütün dəyişiklikləri yeni nəşr olunan xəritələrdə əks etdirilməsini təmin edir;

– Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə uyğun olaraq rayon, şəhər, şəhər tipli qəsəbələr və digər yaşayış məntəqələrinin və bələdiyyələrin sərhədlərini naturada müəyyən edir və xəritələşdirilməsini həyata keçirir;

– vahid koordinat və hündürlük sistemində obyekt və sənaye komplekslərinin, şəhər və başqa yaşayış məntəqələrinin ərazisinin 1:2000 və daha böyük, tikilməmiş (açıq) ərazilərdə isə 1:5000 və daha kiçikmiqyaslı topoqrafik xəritələrinin təzələnməsini və çoxməqsədli topoqrafik planaalmasını həyata keçirir;

– Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırmaqla aerofotoplanaalma işlərini həyata keçirir və digər təşkilatları həmin məlumatlarla müəyyən olunmuş qaydada təmin edir;

– Azərbaycan Respublikasının müdafiəsini və təhlükəsizliyini təmin edən geodeziya, topoqrafiya, kartoqrafiya, hidroqrafiya və digər işləri həyata keçirir.

– torpaq, su, meşə, şəhər və digər kadastr işlərinin aparılması üçün geodeziya istinadının yaradılması, topogeodeziya, kartoqrafiya və kadastr plan və xəritələrinin tərtibatı, yeniləşdirilməsi və təminatı işlərini həyata keçirir;

– geodeziya və kartoqrafiyanın inkişafı üçün aerokosmik məlumatları əsasında yer səthinin torpaq və bitki örtüyünü tədqiq edir;

– qanunvericiliyə uyğun olaraq geodeziya və kartoqrafiya üzrə xüsusi təminatlı cihaz və avadanlıqların idxalına və ixracına nəzarət məqsədilə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyini və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini müvafiq metodik sənədlərlə, mütəmadi olaraq həmin cihaz və avadanlıqların siyahıları ilə təmin edir;

– ölkə ərazisində aparılan dövlət torpaq kadastrı, monitorinqi, yerquruluşu, geodeziya və kartoqrafiya işlərinin nəticələri və kartoqrafiya

təminatı haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinə mütəmadi olaraq məlumatlar verir;

– bütün növ kadastrları (torpaq, meşə, su və s.) əlaqələndirmək məqsədilə qanunvericiliyə uyğun olaraq mülkiyyət formasından asılı olmayaraq, ölkə ərazisi üzrə bütün təşkilatların icra etdikləri torpaq kadastrı, yerquruluşu, geodeziya-kartoqrafiya məlumatlarının saxlanılmasını və istifadəsini təmin edən tədbirlər hazırlayır və həyata keçirir;

– geodeziya tədqiqatları əsasında geodinamik (zəlzələ, sürüşmə və s.) və digər fövqəladə təbii hadisələrin proqnozlaşdırılması məqsədilə tədbirlər görür, bu barədə digər icra hakimiyyəti orqanlarına və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verir;

– torpaq kadastrı, torpaqların monitorinqi, yerquruluşu, torpaq islahatı, ərazi vahidlərinin sərhədlərinin müəyyənləşdirilməsi, torpaqların rekultivasiyası və münbitliyinin artırılması, geodeziya, topoqrafiya və kartoqrafiya fəaliyyətinin, habelə torpaqlardan istifadə və onların mühafizəsinə, dövlət nəzarətinin həyata keçirilməsinə dair işlərin maliyyələşdirilməsi üzrə təkliflər hazırlayır, büdcədən ayrılan vəsait əsasında dövlət sifarişlərini həyata keçirir və onun məqsədyönlü istifadəsinə öz səlahiyyəti daxilində nəzarət edir;

– Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin xəritəsini, o cümlədən topoqrafik və dəniz xəritələrini hazırlayır;

– xüsusi təyinatlı geodeziya və kartoqrafiya avadanlıqlarının və cihazlarının uçotunu aparır;

– coğrafi adların dəyişdirilməsində qeydiyyatın aparılmasını təmin edir;

– müasir geodeziya, topoqrafiya və kartoqrafiya alətlərinin və cihazlarının tətbiqi üçün şərait yaradır və lazımi tədbirlər görür;

– qanunvericiliklə müəyyən olunmuş xüsusi təyinatlı (sahəvi) topoqrafiya, geodeziya, kartoqrafiya və qravimetriya işlərinin yerinə yetirilməsinə xüsusi razılıq (lisenziya) verir;

– dövlət torpaq kadastrı, torpaqların monitorinqi, yerquruluşu, geodeziya, topoqrafiya və kartoqrafiya sahəsində normativ texniki sənədlərin hazırlanması və tətbiqinin vahid rejim və normativ texniki sənədlər əsasında həyata keçirilməsini təmin edir;

– qanunvericiliklə müəyyən edilmiş qaydada komitə işçilərinin

attestasiyasını keçirir, kadrların hazırlanması və ixtisaslarının artırılması üzrə tədbirlər görür;

– qanunvericiliklə müəyyən olunmuş qaydada kargüzarlıq işini təşkil edir, torpaq, yerquruluşu, geodeziya, topoqrafiya, kartoqrafiya və torpaqla bağlı digər məsələlərin həllinə dair şikayət və təkliflərə baxır, öz səlahiyyəti daxilində həmin məsələləri həll edir, lazımi hallarda bu barədə müvafiq qərarlar qəbul edir və təkliflər hazırlayır;

– qanunvericiliklə müəyyən olunmuş qaydada geodeziya və kartoqrafiya ilə bağlı müvafiq məlumatları dövlət sirrinə aid edir;

– öz vəzifələrinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

**Komitə öz vəzifə və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:**

– müəyyən edilmiş qaydada öz səlahiyyətlərinə aid olan məsələlərə dair mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər üçün icrası məcburi olan normativ hüquqi aktlar qəbul etmək;

– torpaqlardan istifadəyə və onların mühafizəsinə, geodeziya və kartoqrafiya fəaliyyətinə dövlət nəzarətini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirmək;

– qanunvericiliklə müəyyən olunmuş qaydada torpaqlardan istifadə və onların mühafizəsi, geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində dövlət nəzarətinin həyata keçirilməsi zamanı aşkar edilən qanun pozuntularının müəyyən olunmuş müddətdə aradan qaldırılması üçün müvafiq tədbirlər görmək;

– öz səlahiyyətləri daxilində və qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq, geodeziya və kartoqrafiya qanunvericiliyinin müvafiq tələblərini pozan şəxsləri inzibati məsuliyyətə cəlb etmək, inzibati işlərə baxmaq və həmin şəxslər barəsində inzibati tənbeh tədbirləri görmək;

– torpaq ehtiyatlarından səmərəli istifadə və onların mühafizəsi məsələləri, yerquruluşu, geodeziya və kartoqrafiya işləri üzrə yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin müvafiq qanunvericiliyin tələblərinə uyğun gəlməyən qərarların dayandırılması və ya ləğv edilməsi barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

– torpaq istifadəçiləri tərəfindən torpaq qanunvericiliyinin tələbləri

müntəzəm olaraq pozulduqda, ayrılmış torpaq sahəsindən təyinatı üzrə istifadə edilmədikdə və (və ya) qanunvericiliklə müəyyən edilmiş digər hallarda, həmin sahənin torpaq istifadəçisindən geri alınması barədə müvafiq rayon, şəhər icra hakimiyyəti orqanı və ya bələdiyyə qarşısında vəsatət qaldırmaq, məhkəmədə iddiaçı sifətində çıxış etmək;

– qanunvericiliklə müəyyən edilmiş hallarda və öz səlahiyyəti hüdudlarında torpaq sahələrinin istifadəyə verilməsi barədə müvafiq orqanlar qarşısında vəsatət qaldırmaq;

– müəyyən olunmuş qaydada torpaqlardan səmərəli istifadənin və onların mühafizəsinin vəziyyətinə dair, habelə dövlət torpaq kadastrı, torpaqların monitorinqi üzrə işlərin həyata keçirilməsi üçün zəruri məlumatları bütün torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən almaq;

– öz səlahiyyətləri hüdudlarında torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə həyata keçirilən faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşə-meliorasiya, geoloji-kəşfiyyat, axtarış işlərində aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması sahəsində müvafiq tədbirlər görmək;

– geodeziya, topoqrafiya, kartoqrafiya və qravimetriya fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə bu işlərin həyata keçirilməsinə xüsusi razılıq (lisenziya) vermək;

– qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (patent) alınmamış, yaxud sertifikatlaşdırılmamış geodeziya və kartoqrafiya işlərini müvəqqəti dayandırmaq, qanunvericiliyin tələblərinə uyğun gəlməyən işlərin dayandırılması barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

– geodeziya və kartoqrafiya işlərinin və onların nəticəsi, olan materialların və məlumatların hazırlanmasının və istifadəsinin vahid rejim və normativ-texniki sənədlər əsasında həyata keçirilməsinə nəzarət etmək;

– öz səlahiyyətləri daxilində komitəyə həvalə edilmiş vəzifələrə aid məsələlər üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada xarici və beynəlxalq təşkilatlarla danışıqlar aparmaq;

– qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Torpaq münasibətlərinin əsaslı dəyişdirilməsi, onların reallaşdırılması üçün yeni qanunverici aktların və normativlərin qəbul edilməsi, torpaq islahatının aparılması, yerquruluşu xidmətinin təşkilat

quruluşunun, onun funksional fəaliyyətinin məzmun və prinsiplərinin dəyişdirilməsini və yenidən qurulmasına zəruri edir.

Azərbaycanın bugünkü şəraitində yerquruluşu sisteminin dövlət strukturlarının idarəçilik fəaliyyətini, geniş amillər dairəsini nəzərə almaqla optimallaşdırmaq tələbi təkidlə hiss olunur.

Müasir dövrdə yerquruluşu işlərinin quruluşu dəyişmişdir. Layihə və axtarış işlərinin həcmi azalmış və təsərrüfatlararası yerquruluşu, torpaq kadastrı, təsərrüfatdaxili layihələşdirmə, torpaq və geobotanik tədqiqat işlərinin həcmi isə kəskin artmışdır.

Bütün bunlar bazar şəraitində planlaşdırılması mümkün olmayan işlərin həcminin artmasına gətirib çıxarır. Bu işlər tələb və təklifin öyrənilməsi ilə proqnozlaşdırma metodu, yerinə yetirilmiş işlərin reklam edilməsi, həmçinin bazar iqtisadiyyatının atributları olan marketinq və menecmentin tələblərinə uyğun işlərin aparılması ilə müəyyən olunur.

Bu məqsədlə sifarişli və pullu xidmətlərin həcminin artmasını təmin etməyə, həmçinin müəssisənin müsbət imicini formalaşdırmağa qadir olan şöbə və qrupların yaradılması zəruridir. Bu investisiya sifarişlərinə düşmək üçün zəruri olan imkanı yaradır. Öz növbəsində investisiya sifarişləri olan yerquruluşu kadrlarının saxlanmasına, elm-istehsalat bölmələrinin iqtisadi vəziyyətini yaxşılaşdırmağa imkan verir.

## 5.2. Daşınmaz əmlaka (torpağa) hüququn dövlət qeydiyyatı

Azərbaycan Respublikasının Konstitusiyası torpaq üzərində mülkiyyət formalarını (dövlət, bələdiyyə, xüsusi) müəyyənləşdirdikdən sonra ölkəmizin vətəndaşları və hüquqi şəxsləri torpaq sahələrini mülkiyyət, istifadə və icarə hüququnda əldə edirlər.

Ölkəmizdə əcnəbilər və Azərbaycan vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər.

Torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etməkdir. Əvvəlcədən müddəti müəyyən edilmədən həyata keçirilən istifadə torpaqdan daimi istifadə hesab olunur. Torpaqdan müvəqqəti istifadə qısamüddətli (on beş ilədək) və uzunmüddətli (on beş ildən doxsan doqquz ilədək) müəyyən

oluna bilər.

Torpaq sahəsi üzərində icarə hüququ müqavilə əsasında əvəzi ödənilməklə torpaqdan müddətli istifadə etməkdir.

Torpaq sahəsi üzərində birgə hüquqlar iki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahəsi olduqda, habelə mülkiyyətçi, istifadəçi və icarəçi arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında onlara məxsus olan torpaq sahələrinin birləşdirilməsi zamanı yaranır.

Respublikamızda mövcud olan qanunvericiliyə görə daşınmaz əmlaka, o cümlədən torpağa hüquqların dövlət qeydiyyatı zəruridir.

Yalnız müddəti on bir aydan az olan icarə və istifadə hüquqları daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınmadan tanınır.

Ölkəmizdə 2004-cü ildən daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatının vahid sistemi fəaliyyət göstərir. Daşınmaz əmlaka hüququn dövlət qeydiyyatını dövlət orqanı olaraq Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti həyata keçirir.

Daşınmaz əmlakın, o cümlədən torpağın dövlət qeydiyyatı qeydiyyata alınmış hüququn mövcudluğunu təsdiqləyən yeganə aktdır.

Torpağa və digər mülkiyyətə hüquq qanunla nəzərdə tutulmuş dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının aktları əsasında yaranır.

Daşınmaz əmlaka, o cümlədən torpağa hüququn qeydiyyatı 29 iyun 2004-cü il tarixdən qüvvədə olan "Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu" ilə tənzimlənir.

Qanuna görə, daşınmaz əmlaka, o cümlədən torpağa mülkiyyət hüququ və digər əşya hüquqlarının əmələ gəlməsi, məhdudlaşdırılması (yüklülüyü), başqasına keçməsi və bu hüquqlara xitam verilməsi daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatdan keçməlidir. Daşınmaz əmlaka, o cümlədən torpağa hüququn dövlət qeydiyyatı bu hüququn dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır.

Qeyd etmək lazımdır ki, daşınmaz əmlakın, o cümlədən torpaq sahələri üzərində qeydiyyatdan keçməmiş hüquqların müdafiəsinə və toxunulmazlığına dövlət təminat vermir. Yalnız daşınmaz əmlaka (torpağa) hüququn dövlət qeydiyyatından sonra mülk satınalan, mülk dəyişən, mülk hədiyyə alan mülkiyyət hüququ qazanır və mülkiyyətçinin hüququ qüvvədə olan qanunvericiliklə müdafiə olunur.

**Azərbaycanda daşınmaz əmlakın dövlət reyestri (qeydiyyatı) sistemi bir neçə funksiyanı yerinə yetirir:**

– daşınmaz əmlaka (torpağa) hüququ müəyyənləşdirən sənədlərə qanuni qüvvə verir;

– daşınmaz əmlaka (torpağa) hüququn uçotunu aparır;

– daşınmaz əmlakla (torpaqla) bağlı sənədlərin (servitut, uzufrukt, ipoteka, etibarlı idarəetmə, icarə və s.) uçotunu aparır.

**Daşınmaz əmlak (torpaq) üzərində hüquqların dövlət qeydiyyatının aparılmasına əsas kimi respublikamızda aşağıdakılar hesab olunur:**

– qanunvericiliklə müəyyən edilmiş qaydada icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən müvafiq olaraq dövlətə və ya bələdiyyələrə məxsus olan daşınmaz əmlakın özgəninkiləşdirilməsinə, icarəsinə, istifadəsinə, ipoteka qoyulmasına dair qəbul olunmuş aktlar;

– daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr, vərəsəlik hüququ haqqında şəhadətnamələr və qanunvericiliklə müəyyən edilmiş digər sənədlər;

– qanuni qüvvəyə minmiş məhkəmə qərarları;

– "Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu" qüvvəyə minənədək müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş daşınmaz əmlak üzərində, o cümlədən torpaq sahələri, fərdi yaşayış və bağ evləri, yertəkin sahələri, sututarları, meşələr və çoxillik əkmələr üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri;

– qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslar.

Dövlət qeydiyyatına sənədlərin qəbulu üçün əsas-hüquq əldəedənin və ya hüquq əldəedənin adından başqa şəxsin ərizəsidir. Hüquq əldəedənin adından başqa şəxs ərizəni verdiyi halda, müvafiq etibarnamə notarial qaydasında təsdiqlənməlidir. Hüquqi şəxsin (müəssisənin, təşkilatın) ərizəsi və onu təsdiq edən nümayəndəsinə verilmiş etibarnamə həmin hüquqi şəxsin möhürü ilə təsdiqlənməlidir. Ərizəni verən şəxslər öz şəxsiyyətini təsdiq edən sənəd təqdim etməlidir .

**Əmlaka hüququn qeydiyyatı üçün ərizə digər sənədlərlə müşayiət olunur ki, onları aşağıdakı kimi qruplaşdırmaq olar:**

– əmlaka hüququ müəyyən edən sənədlər;

– əmlaka hüququn qeydiyyatına görə dövlət rüsumunun

ödənilməsinə dair sənəd;

– qeydiyyata vəsatət qaldıranın şəxsiyyətini təsdiq edən sənəd.

**Torpaq sahələri üzərində hüquqları təsdiq edən sənədlərə mülkiyyət formalarından asılı olaraq aşağıdakılar aiddir:**

– dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin hər hansı hüquqda hüquqi və fiziki şəxslərə verilməsinə dair müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı və tərəflər arasında bağlanmış müqavilə;

– xüsusi mülkiyyətdə olan torpaqlar üzərində bütün hüquqların başqasına keçməsi ilə əlaqədar tərəflər arasında bağlanmış və notarial qaydada təsdiq edilmiş müqavilə.

Müqavilədə tərəflərin hüquqları və vəzifələri, torpaq sahəsinin hüquqi statusu, öhdəliklər, məhdudiyyətlər və servitutlar, müqaviləyə xitam verilməsinin əsasları və torpaqların istifadəsi və mühafizəsi üzrə digər şərtlər nəzərdə tutulur.

Alqı-satqı, ipoteka, istifadə və icarə müqavilələrinin nümunəvi formaları qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq olunur.

Torpaq sahəsinə hüququ müəyyən edən sənəd kimi həmçinin məhkəmənin torpaq sahəsi üzərində hüququn müəyyən edilməsinə dair qərarı və ya hökmü, vərəsəlik hüququnu təsdiqləyən və qanunvericiliklə müəyyən edilmiş digər sənədlər təqdim oluna bilər.

Dövlət qeydiyyatının aparılması üçün torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan cizgisi kimi sənədlər mütləq ərizəyə əlavə edilməlidir.

Daşınmaz obyektin mövcudluğunu təsdiq edən sənədlər dedikdə aşağıdakılar başa düşülür: Torpaq sahəsinin Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən tərtib edilmiş və təsdiqlənmiş planı; Binanın, qurğunun, tikilinin texniki göstəricilərini özündə əks etdirən və Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən təsdiqlənmiş texniki pasport.

Torpağa hüququn dövlət qeydiyyatı üçün torpağa hüququ olan fiziki və ya hüquqi şəxslərə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən torpaq sahəsinin planı və ölçülərini təsvir edən sənəd verilir.

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə

Komitəsi tərəfindən verilən “torpaq sahəsinin planı və ölçüsü”nün təsviri Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 fevral tarixli fərmanı ilə təsdiq edilmişdir

Bu sənəddə qanunvericiliyə uyğun olaraq torpaq üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması məqsədi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən verilən “Torpaq sahəsinin planı və ölçüsü” (bundan sonra – plan və ölçü) təsvir edilir.

Bu sənədə görə plan və ölçü Azərbaycan Respublikasının dövlət dilində A3 formatlı xüsusi kağızda tərtib edilir. Plan və ölçü ciddi hesabat sənədidir və seriya nömrəsinə malikdir.

Plan və ölçü yaşayış məntəqələri hüdudlarında yerləşən torpaq sahələri və digər torpaq sahələri ( o cümlədən kənd təsərrüfatı təyinatlı torpaqlar) üzrə ayrıca tərtib edilir.

**Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən verilən plan və ölçüdə aşağıdakılar göstərilir:**

– plan və ölçünü verən dövlət orqanının – Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin adı;

– torpaq sahəsinin planı və ölçüsü tərtib olunan ərazinin sahibi olan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı (hüquqi şəxsin tam adı, hüquqi ünvanı);

– torpaq sahəsinin yerləşdiyi inzibati ərazi, sahəsi və təyinatı, plan və ölçünün tərtib edilməsinə əsas verən sənədlərin rekvizitləri;

– plan və ölçünün Dövlət Torpaq Kadastrı kitabında uçota alındığı nömrə və tarix;

– torpaq sahəsi planının kadastr göstəriciləri, o cümlədən torpaq sahəsinin qayiməsi (sertifikatı), əsas döngə nöqtələrinin koordinatları və onlar arasındakı məsafələr;

– yaşayış məntəqələrinin hüdudlarında yerləşən torpaq sahələri ilə bağlı tərtib edilmiş plan və ölçüdə baş plandan çıxarış, digər torpaq sahələri (o cümlədən kənd təsərrüfatı təyinatlı torpaqları) ilə bağlı tərtib edilmiş plan və ölçüdə isə rəqəmli (elektron) kadastr xəritəsindən çıxarış;

– şərti işarələr (baş plandan çıxarışda və ya rəqəmli (elektron) kadastr xəritəsindən çıxarışda göstərilən işarələrin təsviri);

– torpaq sahəsinin ölçüsünə müvafiq miqyasda tərtib olunmuş torpaq sahəsinin planı;

– torpaq sahəsinin qonşu sərhədləri;

– Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin müvafiq rayon (şəhər) şöbəsinin möhür yeri, şöbə müdirinin soyadı, adı, atasının adı, plan və ölçünü tərtib edən icraçının soyadı, adı, atasının adı.

Plan və ölçü Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin müvafiq rayon (şəhər) şöbəsinin müdiri və həmin plan və ölçünü tərtib etmiş icraçı tərəfindən imzalanır, möhürlə təsdiq olunur.

Plan və ölçü itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə qanunvericiliklə müəyyən edilmiş qaydada dublikat verilir. Bu halda plan və ölçünün yuxarı sağ tərəfindən iri hərflərlə ‘‘DUBLİKAT’’ ştampı vurulur və plan və ölçünü verən Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin müvafiq rayon (şəhər) şöbəsinin müdiri tərəfindən imzalanır və möhürlə təsdiq olunur.

**Daşınmaz obyekt, o cümlədən torpaq üzərində hüququ tənzimləyən sənədlərə aşağıdakılar aid edilir:**

– torpaq sahəsinin verilməsi haqqında müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı;

– torpaq sahəsinin ayrılması haqqında akt;

– torpaq sahəsinə və digər daşınmaz obyektə hüququn müəyyənləşdirilməsi barədə məhkəmənin qərarı və ya hökmü (qərarın qanunla qüvvəyə mindiyi barədə qeyd göstərilməlidir);

– torpaq sahəsinin və digər daşımaz obyektin alqı-satqısı barədə müqavilə;

– torpaq sahəsinə və ya digər daşınmaz obyektə mülkiyyət hüququ verən torpaq sahəsinin dəyişdirilməsi müqaviləsi;

– torpaq sahəsinə və ya digər daşınmaz obyektə mülkiyyət hüququ verən torpaq sahəsinin bağışlanmasına dair müqavilə;

– torpaq sahəsinə və ya digər daşınmaz obyektə mülkiyyət hüququ verən torpaq sahəsinin vərəsəlik qaydasında başqasına keçməsi barədə müvafiq sənəd;

– torpaq sahəsinə və ya digər daşınmaz obyektə servitut və ya digər yükləmə müəyyənləşdirməyə dair müqavilə;

– səlahiyyətli dövlət orqanının və ya yerli özünüidarəetmə orqanının torpaq sahəsinə və ya digər daşımaz əmlaka servitutun

müəyyənləşdirilməsi barədə qərarı;

– torpağın və ya digər daşımaz obyektin icarəyə verilməsi müqaviləsi;

– torpağın və ya digər daşınmaz obyektin girov müqaviləsi;

– torpaq sahəsinin və ya digər daşınmaz obyektin nizamnamə (pay) fonduna verilməsi barədə müqavilə;

– torpaq sahəsi və ya digər daşımaz obyektlə bağlı etibarlı idarəetmə və ya qəyyumluqla əlaqədar müqavilələr və ya məhkəmə qərarları;

– torpaq sahəsi və ya digər daşınmaz obyektlə bağlı qanunçuluqla müəyyən edilmiş qaydada digər torpaq bazarı əqdlərini rəsmiləşdirən sənədlər.

Dövlət qeydiyyatına dair haqqın ödənilməsi sənədi-dövlət rüsumunun ödənilməsi barədə qəbzdir.

Fiziki şəxslər, onların şəxsiyyətini təsdiq edən sənəd təqdim edirlər. Bu sənəd kimi şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən digər sənəd ola bilər. Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Daxili İşlər Nazirliyinin və digər hərbi, hüquq-mühafizə orqanlarının qulluqçularının şəxsiyyətlərini təsdiqləyən sənəd kimi onların vəsiqələri və yaşayış yerinə qeydiyyata düşməsi barədə arayış əvəz edir. Xarici vətəndaşlar və ya vətəndaşlığı olmayan şəxslər qanunçuluqla müəyyən edilmiş qaydada onların şəxsiyyətlərini təsdiqləyən sənəd təqdim edirlər.

Dövlət reyestrinin ayrılmaz tərkib hissəsi ərizə jurnalı (ərizələrin qeydiyyatı kitabı) və hüquqların dövlət qeydiyyatı üçün əsas olan sənədlər daxil edilən qovluqlardır.

Sənədlərin qəbulu yekunlaşdıqdan sonra daşınmaz əmlak üzərində hüququn və daşınmaz əmlaklarla əqdlərin dövlət qeydiyyatına dair qeydiyyat hərəkətləri başlayır.

Sənədlərin hüquqi ekspertizası iki istiqamətdə aparılır: qeydiyyat üçün təqdim edilmiş hüquq müəyyənləşdirən sənədlərin dürüstlüyünün (orijinallığının) müəyyənləşdirilməsi; təqdim edilmiş sənədlərin qüvvədə olan qanunçuluğa uyğunluğunun yoxlanılması.

Hüquqların mövcudluğunu, əldə edilməsini, başqasına keçməsini, məhdudlaşdırılmasını (yüklənməsini), onlara xitam verilməsini təsdiq edən sənədlər hüquqların dövlət qeydiyyatı üçün müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Res-

publikasının Qanununda göstərilir ki, təqdim olunmuş sənədlərdə mətnlər aydın yazılmalı, hüquqi və fiziki şəxslərin adları tam şəkildə göstərilməlidir. Pozulmuş, sonradan əlavə edilmiş, silinmiş sözlər və hüquqiliyi təsdiqlənməmiş digər düzəlişlər olan, habelə məzmununu birmənalı başa düşmək imkanı verməyən dərəcədə zədələnmiş sənədlər hüquqların dövlət qeydiyyatı üçün qəbul edilmir.

Qeydiyyat orqanının sənədlərin hüquqiliyinə ciddi şübhəsi varsa, qeydiyyat bir ay müddətinə dayandırıla bilər.

Qeydiyyatın dayandırılması əsaslandırılmalı və 48 saat ərzində ərizəçiyə yazılı şəkildə bildirilməlidir. Bu halda vəzifəli şəxs şübhə doğuran sənədlərə dair müvafiq dövlət orqanlarına sorğular göndərməli və həmin sorğulara cavab 10 gün müddətində verilməlidir. Qanuna görə bu cür sorğulara vaxtında cavab verməyən vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb edilirlər.

**Hüquqların dövlət qeydiyyatı habelə aşağıdakı hallarda da dayandırıla bilər:**

– hüquq əldə edənin, əqdin tərəfinin və ya onların vəkil etdikləri şəxsin ərizəsi əsasında;

– qeydiyyata təqdim olunmuş sənədlərin saxta olması təsdiqlənərsə;

– daşınmaz əmlakın həbs edilməsi barədə əqdlərin bağlanmasına qadağan qoyulması və ya qeydiyyata alınmalı olan hüquq barəsində mübahisə edən digər maraqlı şəxsdən şikayətin verilməsi haqqında məhkəmədən məlumat daxil olduqda.

**“Qanun” un 15-ci maddəsinə əsasən daşınmaz əmlakın dövlət qeydiyyatından aşağıdakı hallarda imtina edilə bilər:**

– dövlət qeydiyyatı barədə müraciət olunan hüquq dövlət qeydiyyatına alınmalı deyildirsə;

– hüquqların dövlət qeydiyyatı üçün notarial qaydasında təsdiqlənməsi tələb olunmayan sənədlərin forması və məzmunu qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun deyildirsə;

– hüquqların dövlət qeydiyyatı barədə ərizəni verməyə ixtiyarı olmayan şəxs müraciət etdikdə;

– daşınmaz əmlaka hüququn yaranması barədə icra hakimiyyəti və ya bələdiyyə orqanının aktı qanunvericiliklə müəyyən edilmiş qaydada etibarsız hesab olunduqda;

– daşınmaz əmlak barəsində təsdiqləyici sənəd vermiş şəxs həmin

əmlak üzərində hüquqa dair sərəncam vermək səlahiyyətinə malik olmadıqda;

– hüquqların dövlət qeydiyyatının dayandırılmasına səbəb olan hallar aradan qaldırılmadıqda.

Qanunçuluğa müvafiq olaraq hüquqların dövlət qeydiyyatından imtina edilməsi barədə bildiriş ərizəçiyə 5 gün müddətində göndərilir.

Yuxarıda qeyd edildiyi kimi daşınmaz əmlaka hüququn ləğvi ilə bağlı olaraq qeydiyyat orqanı mülkiyyət hüququnun qeydiyyatını ləğv edir.

Torpağa hüququn ləğvi torpaq sahələri üzərində hüquqi və fiziki şəxslərin hüquqlarına xitam verilməsi ilə də baş verə bilər.

**Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 73-cü maddəsinə müvafiq olaraq, torpaq sahəsi və ya onun bir hissəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququna aşağıdakı hallarda xitam verilir:**

– torpaq sahəsindən könüllü imtina edildikdə və ya torpaq mülkiyyətçisi onu özgəninkiləşdirdikdə;

– torpaq sahəsinin istifadəyə və ya icarəyə verildiyi müddət qurtardıqda;

– hüquqi şəxslərin fəaliyyətinə xitam verildikdə;

– torpaqdan təyinatına görə istifadə edilmədikdə;

– əmək münasibətləri əsasında müvəqqəti istifadə edilən torpaq sahələri ilə əlaqədar işçilərin fərdi əmək müqavilələrinə xitam verildikdə;

– istifadə və ya icarə müqaviləsi şərtlərinə əməl edilmədikdə;

– torpaq vergisi və icarə haqqı üzrlü səbəb olmadan 2 il dalbadal ödənilmədikdə;

– kənd təsərrüfatı istehsalı üçün verilmiş torpaq sahəsindən dalbadal 2 il ərzində və qeyri-kənd təsərrüfatı ehtiyacları üçün verilmiş torpaq sahəsindən 1 il ərzində üzrlü səbəb olmadan istifadə edilmədikdə;

– istifadə zamanı torpağın keyfiyyətinin pisləşməsinə və eroziyasına, kimyəvi və radioaktiv maddələrlə çirklənməsinə, bataqlaşmasına, təkrar şoranlaşmasına, torpaq sahəsində olan meliorasiya və irriqasiya sistemlərinin istismar qaydalarının pozulmasına, ətraf təbii mühitin çirklənməsinə yol verildikdə;

– dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün torpaq sahələrinin geri alınması zəruriliyi müəyyən edildikdə;

– tikili və qurğu üzərində mülkiyyət hüququ və ya əməli idarəçilik

hüququ başqasına keçdikdə;

– torpaq mülkiyyətçisi, istifadəçisi (icarəçisi) öldükdə və vərəsələr olmadıqda;

– torpaq sahəsinin girov qoyulması (ipotekası) zamanı girovla təmin edilmiş öhdəlik icra edilmədikdə.

Məcəllədə göstərilir ki, yuxarıda göstərilən maddənin 5-ci, 8-ci, 9-cu və 10-cu abzaslarında nəzərdə tutulan müddəalar xüsusi mülkiyyətdə olan torpaqlara şamil edilmir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə görə, məhv olunmuş daşınmaz əmlakın qeydiyyatının ləğvi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 150-ci maddəsinə uyğun olaraq aparılır.

Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi və başqasına keçməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanan sənədlər əsasında qeydiyyat orqanı tərəfindən verilən dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir. Çıxarışda daşınmaz əmlakın reyestr nömrəsi göstərilir.

Sonda torpağa hüququ qeydiyyata alınmış fiziki və hüquqi şəxslərə Azərbaycan Respublikasının daşınmaz əmlakın dövlət reyestri xidməti tərəfindən verilən "torpaq sahəsinin planı və ölçüsü"nü əks etdirən sənəd verilir

Bu sənəddə qanunvericiliklə müəyyən edilmiş hallarda Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilən "Torpaq sahəsinin planı və ölçüsü" (bundan sonra – plan və ölçü) təsvir edilir.

Plan və ölçü Azərbaycan Respublikasının dövlət dilində A4 formatlı kağızda tərtib edilir. Plan və ölçü ciddi hesabat sənədidir və seriya nömrəsinə malikdir.

**Reyestr Xidməti tərəfindən verilən plan və ölçüdə aşağıdakılar göstərilir:**

– Reyestr Xidmətinin tam adı və torpaq sahəsinin yerləşdiyi müvafiq rayon (şəhər) ərazi idarəsinin adı;

– torpaq sahəsinin ünvanı və ya yerləşdiyi ərazi;

– qanunvericiliyə uyğun olaraq torpaq sahəsinə daşınmaz əmlak obyekti kimi verilən reyestr nömrəsi;

– torpaq sahəsi üzərində hüquq sahibinin soyadı, adı, atasının adı,

(hüquqi şəxs olduqda- tam adı, hüquqi ünvanı);

– Reyestr Xidmətinin müvafiq ərazi idarəsinin möhür yeri, rəisinin adı, soyadı, atasının adı, plan və ölçünü tərtib etmiş icraçının adı, atasının adı və soyadı;

– plan və ölçünün tərtib edilmə tarixi;

– torpaq sahəsinin təyinatı (kateqoriyası) və məqsədli istifadə növü (uqodiyası);

– torpaq sahəsinin mülkiyyət növü (dövlət, bələdiyyə və xüsusi);

– torpaq sahəsi üzərində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınan hüququn növü;

– torpaq sahəsinin müvafiq hüquqmüəyyənedici sənədlərdə öz əksini tapmış sahəsi (ha);

– torpaq sahəsinin inventarlaşdırma (çölölçmə) işləri nəticəsində müəyyən edilmiş faktiki sahəsi (ha);

– plan və ölçünün tərtib edilməsi üçün əsas olan qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin rekvizitləri;

– torpaq sahəsində mövcud olan servitutlar barədə məlumat;

– ilkin torpaqayırma sənədlərində müəyyənləşdirilən torpaq sahəsinin əsas göstəriciləri (o cümlədən, torpaq sahəsinin normativ qiyməti);

– torpaq sahəsinin döngə nöqtələrinin koordinatları və onlar arasındakı məsafələr;

– torpaq sahəsinin ölçüsünə müvafiq miqyasda tərtib olunmuş torpaq sahəsinin planı (cizgisi);

– torpaq sahəsinin yerləşdiyi ərazini əhatə edən “Daşınmaz əmlakın rəqəmli kadastr xəritəsi”ndən çıxarış;

– şərti işarələr (“Daşınmaz əmlakın rəqəmli kadastr xəritəsi”ndən çıxarışda göstərilən işarələrin təsviri).

Plan və ölçü Reyestr Xidmətinin müvafiq rayon (şəhər) ərazi idarəsinin rəisi və həmin plan və ölçünü tərtib etmiş icraçı tərəfindən imzalanır, möhürlə təsdiq olunur.

Plan və ölçü itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə qanunvericiliklə müəyyən edilmiş qaydada dublikat verilir. Bu halda plan və ölçünün yuxarı sağ tərəfində iri hərflərlə ‘‘DUBLİKAT’’ ştampı vurulur və plan və ölçünü verən Reyestr Xidmətinin müvafiq rayon (şəhər) ərazi idarəsinin rəisi tərəfindən imzalanır və möhürlə təsdiq

olunur.

Dövlət reyestrindən çıxarışın forması və tərtibi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Daşınmaz əmlak üzərində qeydiyyata alınmış hüquq yalnız məhkəmə qaydasında etibarsız hesab edilə bilər.

Qanunçuluğa görə dövlət qeydiyyatı ilə bağlı mübahisələr yalnız məhkəmə qaydasında həll edilir.

## 5.3. Xarici ölkələrdə yerquruluşu sistemi

Xarici ölkələrdə yerquruluşu sisteminin müasir vəziyyətinə ekskurs, bu dövlətlərdə yerquruluşu təhsilinin təşkilinin xüsusiyyətləri ilə tanışlıq respublikamızın iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası şəraitində böyük maraq doğurur. Bu tanışlığa isə keçmiş Sovetlər İttifaqına daxil olmuş ölkələrdən başlamaq daha məqsədəuyğundur. Uzaq xaricdə yerquruluşu sisteminin və təhsilinin təşkili ilə əlaqədar məlumatların hazırlanmasında akademik S.N.Volkovun araşdırmalarından istifadə edilmişdir.

Bizim anlamımızda yerquruluşu torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinin təşkilinə dair kompleks tədbirlər sistemidir. Təbii ehtiyatlardan, o cümlədən torpaqlardan tam, dolğun və səmərəli istifadə edilməsi, təbiətin mühafizəsi, ekoloji landşaft quruculuğu tədbirləri xarici ölkələrin hər bir vətəndaşının, bütövlükdə dövlətin bir saylı vəzifəsi və borcu olsa da, bəzi ölkələrdə "yerquruluşu" anlamına analoq sözü yoxdur. Onu müxtəlif dillərə müxtəlif cür tərcümə edirlər. İngilis dilində "Land Use Planning" – torpaqdan istifadənin planlaşdırılması; "Land Management" – torpaq idarəetməsi; "Land Survey" – sərhədlərin müəyyənləşdirilməsi, ərazi planaalması və s. Mütəxəssislər bu anlayışlar altında konkret yerquruluşu əməliyyatlarını başa düşürlər. Yerquruluşu məfhumuna bərabər tutulmayan, amma ona yaxın olan ifadə fransız dilində "Amenagement Foncir", alman dilində – "die Flurbereinigung" ifadələridir.

XVIII əsrin ikinci yarısının ortalarından başlayaraq Rusiyada mərzçəkmə işlərinə böyük əhəmiyyət verilirdi. Burada məqsəd torpaq hüququna riayətin yoxlanmasından, zəbt edilmiş dövlət torpaqlarının müəyyənləşdirilməsindən, sahibkar torpaqlarının və torpaqdanistifadələrin

sərhədlərinin dəqiqləşdirilməsindən, torpaq münasibətlərindəki anlaşılmazlıqların, xaosun ləğvindən, torpaqdanistifadələrdəki məkan yerləşməsindəki satışmazlıqların aradan qaldırılmasından ibarət olub.

Yerölçən kadrların çatışmazlığı, mərzçəkmənin dövlət əhəmiyyəti Rusiyada belə mütəxəssislərin hazırlanması üçün xüsusi məktəbin təşkilini tələb edirdi.

Məhz buna görə də, hələ 200 ildən artıq müddət bundan əvvəl, 25 may 1779-cu ildə Moskvada yerölçmə məktəbinin açılması barədə sərəncam verilmişdir. Bu məktəb həmin ildə II Yekaterinanın dünyaya gəlmiş nəvəsi, Knyaz Konstantin Pavloviçin şərəfinə Konstantinovka məktəbi adlandırılırdı. Çar dövləti bu təhsil ocağına həmişə himayədarlıq edir, yerölçmə təhsilinə xüsusi əhəmiyyət verirdi. 1835-ci ildən bu məktəb bazasında Konstantinovsk Mərzçəkmə İnstitutu təşkil edildi və bu sahədə ali təhsilli mütəxəssis hazırlığına başlanıldı.

Rusiyada bolşeviklərin hakimiyyətə gəlişindən sonra-1917-ci ildən bu İnstitut Moskva Mərzçəkmə İnstitutu, 1945-ci ildən isə Moskva Yerquruluşu Mühəndisləri İnstitutu adlandırılmışdır. 1992-ci ildən MYMİ-nin bazasında torpaq hüququ, yerquruluşu, torpaqşünaslıq, geobotanika, geodeziya, memarlıq və kənd yaşayış məntəqələrinin planlaşdırılması ixtisasları üzrə mütəxəssis hazırlayan Dövlət Yerquruluşu Universiteti yaradılmışdır. Hal-hazırda Dövlət Yerquruluşu Universitetinə akademik, Rusiyanın Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Volkov Sergey Nikolayeviç rəhbərlik edir. Universitet Rusiyada yerquruluşu, torpaq və şəhər kadastrı sahəsində mütəxəssislər hazırlayan ixtisaslaşmış və ən böyük ali təhsil müəssisəsidir. Burada torpaq ehtiyatlarının və torpaq bazarının idarə edilməsi, torpaqların və daşınmaz əmlakların qiymətləndirilməsi sahəsində çalışacaq mühəndis-yerquruluşçuları ilə yanaşı, həm də geodeziyaçılar, memarlar, hüquqşünaslar, iqtisadçı menecerlər hazırlanır. Dövlət Yerquruluşu Universiteti MDB ölkələrində yerquruluşu təhsilinə koordinasiya edən Tədris-Metodiki Birlik kimi də fəaliyyət göstərir.

Yerquruluşunun təşkili bir çox xarici ölkələrdə özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur.

**Birincisi**, yerquruluşuna dair sifarişçilərin böyük hissəsi, əsasən də dövlət sifarişlərinin dövlət və özəl şirkətlər arasında bölgüsü müsabiqə əsasında aparılır. Bunun üçün tenderlər, sövdələşmələr, müsabiqələr və s.

həyata keçirilir.

**İkincisi**, yerquruluşunun istehsalat prosesinə böyük ərazilər və çoxsaylı torpaqistifadəçiləri, sahibkar torpaqları cəlb edildiyi hallarda yerquruluşu işləri təsisçilərin, sahibkarların-başqa sözlə torpaq bazarı iştirakçılarının cəlb edilməsi ilə aparılır.

**Üçüncüsü**, yerquruluşu layihələri daha çox dövlət və yerli hakimiyyət orqanlarının iştirakı və nəzarəti altında həyata keçirilir. Bu zaman əsas şüar “ilk növbədə ictimai maraqlara qulluq edilməlidir” olur. Bunun nəticəsində ilk öncə torpaq mülkiyyətçilərinin həyata keçirilməsi zəruri olan maraqları öyrənilir, torpaqlardan istifadənin dövlət, regional və yerli planlaşdırılması, ərazinin zonalaşdırılması aparılır, iqtisadi, hüquqi və təşkilati tədbirlər vasitəsi ilə torpaq münasibətlərinin dövlət nizamlanması həyata keçirilir.

**Dördüncüsü**, yerquruluşuna dair bütün proseslərdə öndəmə gələn prioritet məsələnin təbiəti mühafizə məsələsinin olmasıdır. Məhz buna görə də, bu ölkələrdə bütün yerquruluşu layihələrinin müstəqil ekspertizası aparılır.

Rusiya Federasiyasında yerquruluşunun və torpaq ehtiyatlarının idarə edilməsi ilə bağlı funksiyaların yerinə yetirilməsini həyata keçirən xüsusi yerquruluşu orqanları mövcuddur.

Yerquruluşu xidməti-yerquruluşunun inzibati-idarəetmə strukturudur. Bu xidmətə torpaq ehtiyatlarının dövlət idarəedilməsi üzrə icra hakimiyyətinin federal orqanı rəhbərlik edir. 2001-ci il tarixdən RF-də icra hakimiyyətinin federal orqanı kimi **Rusiya Torpaq Kadastrı Federal Xidməti** bu funksiyanı yerinə yetirir. Bu orqan ona verilmiş səlahiyyətlər çərçivəsində dövlət torpaq kadastrının və torpaq sahələrində yerləşən və torpaqla bilavasitə bağlı olan daşınmaz əmlak obyektlərinin dövlət uçotunu, yerquruluşunu, torpaqların dövlət kadastr qiymətləndirilməsini, torpaqlardan istifadə və onların mühafizəsi üzərində dövlət nəzarətini həyata keçirir.

Yerquruluşuna dair layihə-axtarış işlərinin aparılması Rusiya Torpaq Kadastrı Federal Xidmətinin tabeçiliyində olan **Rusiya Elmi-Tədqiqat və Layihə-Axtarış Torpaq Ehtiyatları İnstitutuna** həvalə edilmişdir. Yerquruluşuna dair bu baş layihə-axtarış institutu RF-nin paytaxtı Moskva şəhərində yerləşir. RF-nin iqtisadi regionlarında Rusiya Elmi-Tədqiqat və Layihə-Axtarış Torpaq Ehtiyatları İnstitutunun 10-dan artıq zonal filialları

vardır.

Yerquruluşuna dair irihəcmli işlərin bir qismi (aerofotogeodezik, topoqrafik və s. bu səpgidən olan işlər) **Rusiya Elmi-Tədqiqat Torpaq-Kadastr Planaalmaları İnstitutu** tərəfindən yerinə yetirilir.

Bunlardan əlavə Rusiya Torpaq Kadastr Federal Xidmətinin tabeçiliyində **Rusiya Torpaq Monitorinqi və Ekosistem İnstitutu** fəaliyyət göstərir. Federal Xidmətin tərkibində həmçinin torpaq kadastrı, torpaq monitorinqi və yerquruluşu məqsədləri üçün cihaz və texnologiyanın hazırlanması və istehsalı ilə məşğul olan dövlət müəssisələri – "Hesablama mərkəzi" və "Yerölçən" mərkəzləri fəaliyyət göstərirlər.

Rusiyada yerquruluşu istehsalatı üçün, habelə elmi-pedaqoji fəaliyyət göstərmək üçün kadrların hazırlanması ilə 70-dən artıq ali və orta ixtisas təhsil müəssisəsi məşğul olur.

Hal-hazırda Rusiyada yerquruluşu üzrə ali təhsilli mütəxəssis hazırlığı ilə məşğul olan təhsil müəssisələri arasında Dövlət Yerquruluşu Universitetini (Moskva ş.), Voronej Dövlət Aqrar Universitetini, Omsk Dövlət Aqrar Universitetini, Sankt-Peterburq Dövlət Aqrar Universitetini, Novoçervask Dövlət Meliorasiya Akademiyasını, Kuban Dövlət Aqrar Universitetini, Krasnoyarsk Dövlət Aqrar Universitetini, Perm Dövlət Kənd Təsərrüfatı Akademiyasını göstərmək olar.

Qazaxıstanda yerquruluşu təhsili və elmi Astana Aqrar Universitetində təşkil edilmişdir.

Ukrayna Respublikasında yerquruluşu təhsilinin və elminin mərkəzi Kiyev şəhərində yerləşən Ukrayna Milli Aqrar Universitetidir. Xarkov Dövlət Aqrar Universitetində, Lvov Dövlət Aqrar Universitetində də yerquruluşçuları hazırlanır.

Belarusiyada yerquruluşu kadrları Qorki şəhərində yerləşən Belarusiya Dövlət Kənd Təsərrüfatı Akademiyasında hazırlanırlar.

Baltikyanı dövlətlərdə yerquruluşu təhsili Latviya Aqrar Universitetində (Yelqava ş), Estoniya Kənd Təsərrüfatı Universitetində (Tartu ş), Litva Aqrar Universitetində (Kaunas ş) həyata keçirilir.

Özbəkistanda yerquruluşçuları Daşkənd Kənd Təsərrüfatının Irriqasiyası və Meliorasiyası İnstitutunda hazırlanır.

**Qərbi Avropada, ABŞ-da, Kanadada yerquruluşu əməliyyatları tarixən torpaq kadastrı ilə əlaqədə olub. Bu aşağıdakı səbəblərlə izah**

**olunur:**

– torpaq kadastrı məlumatları torpaq sahələrinin bölgüsünə, yenidən bölgüsünə, birləşdirilməsinə dair torpaq əqdləri prosesində bilavasitə istifadə edilir, bunların əsasında da torpaq üzərində mülkiyyət (istifadə) hüququnu təsdiqləyən sənədlər verilir;

– torpaqdan müxtəlif səviyyəli hakimiyyət orqanları tərəfindən istifadənin planlaşdırılması, torpaq quruculuğuna nəzarət edilməsi və s. məsələlərlə bağlı idarəetmə qərarlarının qəbul edilməsi üçün torpaq kadastrı məlumatları istifadə edilir ;

– torpaq kadastrı məlumatları əsasında torpaqların və digər torpaqla bağlı olan daşınmaz əmlakların uçotu və qiymətləndirilməsi aparılır ki, bunlar da vergitutma üçün informasiya mənbəyi kimi istifadə olunur;

– torpaq kadastrı materialları torpaq sahibkarları üçün alət rolu oynamış, müxtəlif obyektlərin tikintisini koordinasiya etməyə, torpaq əqdlərini həyata keçirməyə imkan vermişdir.

Beləliklə, xaricdə torpaq kadastrı özündə təkcə texniki əməliyyatlar deyil, həm də torpaq sahələrinin və digər daşınmaz əmlakların qeydiyyata alınması və onlarla bağlı əqdlərin həyata keçirilməsi ilə əlaqədar torpaq-kadastr prosesini özündə birləşdirmiş, yerquruluşu işlərinin böyük bir hissəsini tarixən akkumulyasiya etmişdir.

Bir çox ölkələrdə ərazinin planaalınması xəritələrinin tərtibi, ölçmə istehsalatı ilə bağlı yerquruluşu əməliyyatları torpaq kadastrı, geodeziya, kartoqrafiya işləri ilə məşğul olan xidmətlərdə mərkəzləşdirilmişdir. Bu zaman yerquruluşu öz kompetensiyaları (səlahiyyətləri) çərçivəsində müxtəlif səviyyəli icra hakimiyyəti orqanları (dövlət, regional, yerli) tərəfindən təşkil edilir. Akademik S.N.Volkov xarici ölkələrdə yerinə yetirilən yerquruluşu işlərinə aşağıdakı tədbirləri aid edir.

**Müxtəlif inzibati-ərazi vahidlərində torpaqdanistifadənin planlaşdırılması (land Use Planing).** Bu işlər vaxtı ilə sovet ölkələrində müxtəlif ərazi vahidləri üçün hazırlanan yerquruluşu sxemlərinin tərtibinə dair işlər ilə analoji mahiyyət daşıyır. Belə planlar Fransada, İsveçdə, İsveçrədə müxtəlif ərazi vahidləri və müxtəlif müddətlər üçün tərtib olunur: regionlar üçün 20-25 ilə nəzərdə tutulan baş planlar, yerli (bələdiyyə) inzibati ərazi vahidləri üçün isə qısa müddətə – 5-15 ilə torpaq ehtiyatlarından istifadəyə dair proqnoz təkliflər verilir. İctimaiyyətin müzakirəsinə verilən belə planlar yalnız camaat tərəfindən bəyənildikdən

sonra onlar müvafiq qurumlar tərəfindən təsdiq olunur və icra üçün hüquqi qüvvə qazanır.

**Dövlət, regional, yerli proqramlar və torpaq ehtiyatlarının dövlət idarəetməsi üsulları əsasında** torpaqlardan istifadənin və onların mühafizəsinin təşkili (Land Management). Bir sıra ölkələrdə torpaq ehtiyatlarından istifadənin və onların mühafizəsinin təşkilinə dair əsas tədbirlərin həyata keçirilməsini dövlət ətraf mühitin mühafizəsi, fermer torpaqlarının konservasiyası, mühafizəsi və s. xüsusi proqramlarla həyata keçirir. Dünya ölkələrinə bu sahədə ABŞ nümunə ola bilər. Bu ölkə Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ətraf Mühitin Mühafizəsi Agentliyi kimi qurumları vasitəsi ilə bu proqramları maliyyələşdirir. ABŞ-da Kənd Təsərrüfatı Nazirliyi sistemində xüsusi Torpaq Mühafizəsi Xidməti (Soil Survey) fəaliyyət göstərir ki, onların da fəaliyyəti bizim yerquruluşu xidmətinin fəaliyyəti ilə üst-üstə düşür.

**Proqramlar əsasən aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:**

– yerquruluşu layihələrinin (torpaqların meliorasiyası, mənimsənilməsi, konservasiyası, su təchizatı) birbaşa maliyyələşdirilməsi;

– fermerlərə təbiəti mühafizə texnologiyalarının tətbiqinə görə, həmçinin torpaq sahiblərinə torpaqların istehsal prosesindən çıxması ilə əlaqədar olaraq dəymiş zərərin ödənilməsi üçün subsidiyaların ödənilməsi;

– elmi-texniki informasiya və məsləhət işlərinin aparılması.

Bu proqramlardan əlavə ABŞ-da ştat büdcələrindən də yuxarıdakılara oxşar proqramların həyata keçirilməsi üçün maliyyə vəsaitləri ayrılır.

**ABŞ-da ştat və yerli səviyyələrdə torpaq-resurs siyasətində mərkəzi yeri torpaqlardan istifadəyə nəzarət tutur. Torpaqdan istifadənin nizamlanması üçün hakimiyyət aşağıdakı üsullardan istifadə edir:**

– regionların inkişaf planı çərçivəsində ətraf mühitin çirklənmə səviyyəsinin maksimal həddinin müəyyənləşdirilməsi;

– qanunvericilik qaydasında torpaqlardan istifadənin xarakterini müəyyənləşdirmək məqsədilə ərazinin zonalaşdırılması; təcili konservasiyası tələb olunan torpaqların ştatların mülkiyyətinə alınması və onların yerli rekreasiya resursları kimi istifadəsi; istehsalat və nəqliyyat obyektlərinin yerləşdirilməsinin nizamlanması.

**Torpaqların mərzləşdirilməsinə dair işlərin aparılması (Land**

**Survey).** Xarici ölkələrdə bu işlərin həyata keçirilməsinin kökündə torpaq kadastr planaalmaları (sərhədlərin planaalması) durur. Bu işlər iki halda yerinə yetirilir: birinci halda, ərazi üçün torpaq-kadastr planları, ümumiyyətlə mövcud deyildir və ya yeni qanunçuluqla müəyyənləşdirilmiş texniki şərtlərə görə mövcud planların təzələnməsi tələb olunur; ikinci hal-sahələrin dəyişməsi, yerquruluşu işləri aparılan ərazilərdə torpaq münasibətlərində hüquqi rejimin dəyişməsi ilə əlaqədar olaraq mövcud torpaq kadastr planlarının dəyişdirilməsi zərurətinin ortaya çıxması.

Torpaq-kadastr planaalmalarının yeniləşməsi bizim anlamımızda yeni torpaqdanistifadələrin yaranması və ya mövcudlarının təkmilləşdirilməsi, habelə müxtəlif məqsədlər üçün torpaqayırmaları, torpaqların mərzləşdirilməsi məqsədilə aparılan təsərrüfatlararası yerquruluşuna dair kompleks işlərin məcmusudur.

**Uzaq xarici ölkələrdə həmçinin yerquruluşuna dair aşağıdakı işlər aparılır:**

– sahibkar torpaqlarının və torpaqdanistifadələrin təkmilləşdirilməsi;
– torpaqların birləşdirilməsi (Land Jonsolidation);
– əmlakın bölgüsü (Subdivision);
– əmlakın yenidən formalaşdırılması (Transformation);
– torpaq sahələrinin yenidən təşkili (Reallotment).
– torpaq mülkiyyətinin formalaşdırılması (Real Property Formation);
– sərhədlərin müəyyənləşdirilməsi (delimitation);
– sərhədlərin naturaya (yerə) köçürülməsi (demarjation);
– torpaq sahələrinin alınması ilə əlaqədar yerquruluşu (land Acquisition) və s..

Yuxarıda göstərilən yerquruluşu işləri torpaq sahələri ilə bağlı əqdlərin həyata keçirilməsi zamanı (mülkiyyətin alqı-satqısı, torpaqların bağışlanması, irsən keçməsi, sahənin bir qisminin girov qoyulması və s.) öndəmə gəlir. Bu işlər, əgər dövlət bu sahədə torpaq münasibətlərinin nizamlanmasına müdaxilə etmirsə, torpaq mülkiyyətçilərinin hesabına yerinə yetirilir.

**Kənd təsərrüfatı təyinatlı torpaqlarda yerquruluşu (təsərrüfatdaxili yerquruluşu).** Hal-hazırda uzaq xarici ölkələrdə bu işlər ayrıca bir sahibkar torpağı üçün görülmür. Yerquruluşu sənədləri bu halda özündə bir neçə fermer təsərrüfatının arealını birləşdirən müəyyən

ekoloji-landşaft strukturu üçün hazırlanır. Almaniyada, Avstriyada, Macarıstanda, Çexiyada, Slovakiyada və digər Qərb ölkələrində hazırlanan yerquruluşu layihələrinin əsas məqsədi-təbiəti mühafizə, ərazinin təşkilinin mühəndis-təsərrüfat elementlərinin yerləşdirilməsinə qoyulan aqroekoloji tələblər əsasında torpaqdan istifadənin optimal və səmərəli növbəli əkin sistemlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Yerquruluşu layihələrinin ikinci hissəsi kəndli (fermer) təsərrüfatlarında eroziyaya qarşı tədbirlər sisteminin, mühəndis hesablamaları əsasında terraslaşma işlərinin, torpaqların konservasiyasına dair tövsiyələrin hazırlanmasına həsr olunur. Türkiyə, ABŞ, Fransa kimi ölkələrdə bu işlərin yerinə yetirilməsilə təkcə yerquruluşçuları deyil, eyni zamanda kənd təsərrüfatının müxtəlif sahələrinin bilicilərini özündə cəmləşdirən xüsusi birləşmələr məşğul olurlar.

Uzaq xarici ölkələrdə yerquruluşu təhsilinin təşkili də maraq doğurur.

Yerquruluşu kadrları Çexiya və Slovakiyada Politexnik İnstitutlarında, Bolqarıstanda-Ali Memarlıq və Landşaft Universitetində, Macarıstanda-Meşə Təsərrüfatı və Ağac Emalı Sənayesi Universitetində hazırlanırlar.

Çin Xalq Respublikasında yerquruluşu təhsili Pekin, Uxan, Nankin şəhərlərində yerləşən Aqrar Universitetlərdə, Monqolustanda – ali aqrar təhsil ocaqlarında, Vyetnamda isə-Hanoy Kənd Təsərrüfatı İnstitutunda təşkil edilmişdir.

ABŞ və Kanadada torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinin təşkilinə dair mütəxəssislər torpaqlardan istifadənin planlaşdırılması, landşaft memarlığı, daşınmaz əmlakın iqtisadiyyatı, kənd torpaqlarının təşkili bölmələrində hazırlanırlar.

**Ramiz Mirmahmud oğlu Quliyev.** Yerquruluşu. Yerquruluşunun elmi əsasları. I cild. –Bakı, "MBM", 2007. – 224 səh. (ali təhsil müəssisələrinin tələbələri üçün dərslik və dərs vəsaitləri)

Yığılmağa verilmişdir: 15.06.2007
Çapa imzalanmışdır: 09.07.2007
Tiraj 300; şərti çap vərəqi 14
«MBM» mətbəəsində çap olunmuşdur